آغاکریم نافذ شیروانی

# دیوان

باکی - ۲۰۱۷

9789952810844

DİVAN

Ağakərim Nafiz Şirvani

Ağakərim Nafiz Şirvani

# DİVAN



**Ağakərim Nafiz Şirvani**

**Ağakərim Nafiz Şirvani**

# Divan

**BAKI – 2017**

**Tərtib edib çapa hazırlyan:** **Turan İbrahimov**

**Redaktorları:** **Hafiz Qaralar,**
**Kəmalə Cəfərzadə**
*əməkdar mədəniyyət işçisi*

**Ağakərim Nafiz Şirvani. Divan.** Bakı, "Elm və təhsil", 2017, 630 səh.

Muğam ustadı, bir çox öz mahnı və təsniflərinin ifaçısı kimi gözəl tanıdığımız Ağakərim Nafizin hələ bu vaxta kimi çap edilməmiş mükəmməl Divanı təqdim edilir. Kitaba ustadın həyat və yaradıclığı haqqında məlumat, əsərləri haqqında qısa tədqiqat, 500-dən çox şeiri – qəzəlləri, təxmisləri, nəzirələri, rübailəri, bəzi tərcümələri daxil edilmişdir. Bu təxmis və nəzirələri o, Hafiz Şirazı, Cahanşah Həqiqi, Mövlana Lütfi, İmadəddin Nəsimi, Əlişir Nəvai, Ne'mətullah Kişvəri, Sultan Süleyman Qanuni – Mühibbi, Məhəmməd Füzuli, Baqi, Nabi, Nişat Şirvani, Naşid, Seyid Əbülqasim Nəbati, Seyid Əzim Şirvani – Seyyid, Məhəmməd Hadi, Mirzə Ələkbər Sabir kimi dünya şöhrətli qəzəl ustadlarının əsərlərinə yazmışdır.

ISBN – 978-9952-8108-44

Ş 4603000000 / N-098-2017 Qrifli nəşr

© Turan İbrahimov, 2017

# MÜNDƏRICAT


**ŞAİR, XANƏNDƏ VƏ MUSİQİ TƏDQİQATÇISI** .......... 6

***ÖN SÖZ:* KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATININ MÜASİR NÜMAYƏNDƏSİ** .......... 7

**AĞAKƏRIM NAFİZİN HƏYAT VƏ YARADICILIĞINA QISA BIR NƏZƏR** .......... 8

**HƏYATI** .......... 8

**BƏDİİ FƏALİYYƏTİ** .......... 10

***Xarici ölkələrə səfərləri və qastrolları*** .......... 11

**MUSİQİ YARADICILIĞINDA FƏALİYYƏTİ** .......... 12

**ƏDƏBİ FƏALİYYƏTİ** .......... 12

***Saqinamələri*** .......... 13

***Qəzəlləri*** .......... 14

***Nəzirələri*** .......... 15

***Təxmisləri*** .......... 18

**DİVANDA İŞLƏNƏN ƏRUZ VƏZNLƏRİ** .......... 21

***Statistikası*** .......... 25

**DİVANIN DİLİ** .......... 29

**DİBAÇƏ** .......... 32

**DİVAN (Mətni)** .......... 33

**MÜNACAT** .......... 33

**Əsma'-ül-hüsna** .......... 34

**Rəsuli-Əkrəm (s.ə.v.) mə** .......... 35

**I SAQINAMƏ** .......... 36

**II SAQINAMƏ** .......... 37

**III SAQINAMƏ - Şirvan xanəndələrinin vəsfi** .......... 38

**QƏSİDƏLƏR** .......... 42

**MÜRƏBBELƏR (DÖRDLÜKLƏR)** .......... 46

**MÜXƏMMƏSLƏR (BEŞLIKLƏR)** .......... 48

**MÜSƏDDƏS (ALTILIQ)** ........ 52
**MƏSNƏVİLƏR** ........ 54
**MÜSTƏZAD** ........ 59
**İBRƏTNAMƏ** ........ 60
**BAHARİYYƏ** ........ 62
**QƏZƏLLƏR** ........ 64
**1 - HƏRFÜ'L - "ƏLİF" "ا"** ........ 64
**2 - HARFÜ'L - "BE" "ب"** ........ 75
**3 - HƏRFU'T - "TE" "ت"** ........ 88
**4 - HƏRFU'S - "ŠE" "ث"** ........ 97
**5 - HƏRFU'L - "CİM" "ج"** ........ 98
**6 - HƏRFU'L - "HA" "ح"** ........ 101
**7 - HƏRFU'L - "XE" "خ"** ........ 102
**8 - HƏRFU'D - "DAL" "د"** ........ 109
**9 - HƏRFU'Z - "ŽAL" "ذ"** ........ 112
**10 - HƏRFU'R - "RE" "ر"** ........ 114
**11 - HƏRFU'Z - "ZE" "ز"** ........ 170
**12 - HƏRFU'S - "SİN" "س"** ........ 193
**13 - HƏRFU'Ş - "ŞİN" "ش"** ........ 198
**14 - HƏRFU'S - "SAD" "ص"** ........ 212
**15 - HƏRFU'D - "ZAD" "ض"** ........ 213
**16 - HƏRFU'T - "TA" "ط"** ........ 218
**17 - HƏRFU'T - "ŽA" "ظ"** ........ 219
**18 - HƏRFU'L - "ƏYN" "ع"** ........ 221
**19 - HƏRFU'L - "ĞEYN" "غ"** ........ 225
**20 - HƏRFU'L - "FE" "ف"** ........ 229
**21 - HƏRFU'L- "QAF" "ق"** ........ 233
**22 - HƏRFU'L - "KAF" "ك"** ........ 239
**23 - HƏRFU'L - "LAM" "ل"** ........ 266
**24 - HƏRFU'L - "MİM" "م"** ........ 281

25 - HƏRFU’N - “NUN” “ن” ... 309
26 - HƏRFU’L - “VAV” “و” ... 348
27 - HƏRFU’L - “HE” “ه” ... 356
28 - HƏRFU’L - “YE” “ي” ... 422
RÜBAİLƏR ... 494
TƏXMİSLƏR (BEŞLƏMƏLƏR) ... 497
TƏRCÜMƏLƏR ... 560
Xaqanidən tərcümə ... 560
Xacə Hafizdən tərcümə ... 562
Nəvaidən tərcümələr ... 563
Baqi əfəndidən tərcümə ... 574
Fərruxi Yəzdidən tərcümə ... 574
ƏLAVƏLƏR ... 575
AĞAKƏRİM NAFİZƏ HƏSR EDİLMİŞ MƏQALƏLƏR ... 575
İstəsən könlüm kimi gülzarə dönsün kainat ... 575
"Mən muğami 150 il əvvəlki tək oxuyuram" ... 581
Ustadımıza bərəkallah! ... 585
AĞAKƏRİM NAFİZƏ HƏSR EDİLMİŞ ŞEİRLƏR ... 587
ƏHMƏD CƏFƏRZADƏNİN MƏKTUBLARINDAN ... 587
AĞAKƏRİM NAFİZ ŞEİRLƏRİ ƏSASINDA ƏRUZ VƏZNİNİN İZAHI ... 603
Əruzla əlaqəli əsas anlayışlar və qaydalar ... 603
Əruz vəzninin Azərbaycan şeirində işlənən bəhrlərinin qəliblərinin siyahısı ... 615
Divanda istifadə olunmuş əruz qəlibləri nümunələri ... 618
TƏRTİBATÇIDAN SON SÖZ: Ağakərim Nafiz kimdir? ... 625
ƏDƏBİYYAT ... 627

## ŞAİR, XANƏNDƏ VƏ MUSİQİ TƏDQİQATÇISI

Ağakərim Nafiz Azərbaycan muğam sənəti tarixində özünəməxsus yeri olan görkəmli xanəndədir. Onun səsində məlahət və şirinliklə yanaşı, dinləyicini sehirləyən, onu müasir dövrümüzdən alıb əsrlərin dərinliklərinə aparan qeyri-adi avaz vardır. Biz onun ifa etdiyi dəstgahlarda işlətdiyi qəzəlləri çox zaman ilk dəfə eşidirik. Bu ondan irəli gəlir ki, Ağakərim daim axtarışdadır. O, nəinki başqa xanəndələri, hətta özünü belə təkrar etmir. Klassik ədəbiyyatımızın Nəsimi, Füzuli, Seyid Əzim kimi böyük nümayəndəlirinin yaradıcılığına dərindən bələd olan ustad sənətkar, həm də yaradıcı xanəndədir. Bəstələdiyi təsniflərin mətnləri də heyranlıqla dinlənilir. Nə sirdirsə onun yaratdığı təsnifləri oxumaq da çətindir. Çünki təsnif xanəndədən xüsusi bacarıq tələb edir. Təsnifi hər hansı mahnı ilə müqayisə etmək olmaz.

Ağakərim Nafiz oxuyacağı mətnlərin mənasını tam mənimsəməmiş onu səsləndirmir. Klassik ədəbiyyatımızı daim mütaliə edən ustad özü də gözəl qəsidələr, qəzəllər və təxmislər yaradır. Onun musiqi tədqiqatı sahəsində yaxşı təcrübəsi var. Bir neçə il bundan əvvəl ərsəyə gətirdiyi "Ustadi-ə'zəm" adlı kitab sənət biliciləri arasında rəğbətlə qarşılanmışdır. Bu əsər 19-cu əsrin sonunda yaşamış böyük xanəndə və şair Məhəmməd Həsən Fələkzadə Şirvaninin həyat və yaradıcılığına həsr olunmuşdur. Vaxtilə bu barədə akademik Rəfael Hüseynov və professor Seyfəddin Qəniyev də tədqiqat xarakterli məqalələr yazmışdılar. Adını çəkdiyimiz müəlliflərlə bərabər, Ağakərim də bu kitabı yazmasaydı, yəqin ki, biz Azərbaycanın musiqi tarixinin parlaq bir səhifəsindən xəbərsiz qalacaqdıq. Lakin o, bununla da kifayətlənmədi, on yeddi yaşından başlayaraq yazdığı şeir nümunələrini dostlarının təkidi ilə bir yerə toplayıb əlinizdəki "Divan"ı nəşr etdirdi. İndi söz oxucularındır. Düzdür, yeni əsəri heç də hamı eyni cür qəbul etmir. Ola bilsin ki, bu "Divan" haqqında yaxşı söz söyləyənlərlə bərabər, onun dilinin çətin olduğundan da danışsınlar. Hər iki halda müəllif bu əsərə diqqət yetirən hər bir oxucuya əvvəlcədən öz təşəkkürünü bildirir.

***Hafiz Qaralar***

## *ÖN SÖZ:* KLASSİK AZƏRBAYCAN ƏDƏBİYYATININ MÜASİR NÜMAYƏNDƏSİ

Azərbaycan və ondan kənarda muğam ustadı və öz mahnı-təsniflərinin gözəl ifaçısı kimi tanınan Ağakərim Nafiz həm də XVIII-XIX əsr klassik tərzində yazan bir şairdir. O, bizim müasirimiz olsa da, XX-XXI əsrdə yaşasa da, əsərlərini oxuduqda hiss edirsən ki, o, orta əsrlər şairidir və muğam oxumaq tərzi də o əsrlərə aiddir.

Uzun illər əruz vəznində şeirlər yazmasına və onları muğamlarda ifa etməsinə, az-az da olsa, dövri mətbuatda çap edilməsinə baxmayaraq, şeirləri kiçik bir kitab halında belə indiyədək oxuculara təqdim edilməmişdir. Sizə kitabda Ağakərim Nafiz Şirvaninin bu vaxta kimi çap edilməmiş mükəmməl Divanı təqdim edilir. Kitab ədəbiyyatımızdaqəbul olunmuş klassik Divan formasında tərtib edilmişdir. Burada şairin həyat və yaradıcılığı haqqında qısa məlumat verilmiş, şeirlərin vəznləri, bəhrləri müəyyənləşdirilmiş və onların dili təhlil olunmuşdur. Təhlil göstərmişdir ki, Ağakərim Nafiz əruzun 10 bəhrində 28 müxtəlif qəlibdə şeir yazmışdır. Bu bir şair tərəfindən müxtəlif bəhr və qəlib istifadəsinə görə klassik ədəbiyyatımızda nadir hadisədir. Şeirlərində istifadə olunan qəliblərdən dördü ədəbiyyatımızda ilk dəfə tətbiq edilmişdir. Divana ustadın qəzəlləri, mürəbbe, müxəmməs, müsəddəs, müstəzad və rübailəri, XIV əsrdən günümüzə kimi yaşamış bir çox məşhur Azərbaycan və eləcə də Yaxın Şərq şairlərinin qəzəllərinə yazdığı təxmis və nəzirələri daxil edilmişdir. Kitabda həmçinin şairin Xaqani Şirvani, Hafiz Şirazi, Əlişir Nəvai, Fərruxi Yəzidi və Baqidən tərcümələri yer alır. Ağakərim Nafiz Şirvani şeirləri əsasında əruz vəzninin izahı və Divanda işlədilmiş vəznlərin nümunələri gətirilmişdir. Kitabın əlavələr bölməsində Ağakərim Nafiz haqqında yazılmış bəzi məqalələr, ona həsr edilmiş şeirlər və yazılmış məktublar verilmişdir.

**Əminik ki, müasirimiz Ağakərim Nafiz Şirvaninin əlinizdəki bu divanı Azərbaycan ədəbiyyatı tarixində bir yeni hadisə olacaq və klassik ədəbiyyat nümunələrimizin yanında layiqli yerini tutacaqdır.**

# AĞAKƏRIM NAFİZİN HƏYAT VƏ YARADICILIĞINA QISA BIR NƏZƏR

## HƏYATI

Ağakərim Nafiz Şirvani (Ağakərim Ağa İsrafil oğlu İsrafilbəyli) 4 dekabr 1948-ci ildə Qaf dağının ətəklərində Bayqurd qalasının dibində, Şamaxı rayonunun kiçik Qaladərəsi kəndində anadan olmuşdur. Ağakərim bu tarixi aşağıdakı şəkildə bir qəzəlinin son beytində qeyd etmişdir:

Nafiza, fəsli-xəzani, miladi tarix ilə,
Təvəllüdümdi mənim min doqquzüz qırx səkkiz.

Ağakərim Nafizin atası Ağa İsrafil bəy Əli bəy oğlu və anası Nəsibə xanım Bəybala bəy qızıdır.

Atası Ağa İsrafil meşə mühəndisi olmuşdur və onun işi ilə əlaqədar olaraq Ağakərim dörd yaşında olanda ailəsi Şamaxıdan Salyana köçüb. Orada bir il yarım yaşadıqdan sonra Şamaxı şəhərinə qayıtmışlar.

Natamam orta məktəbi Şamaxıda oxuyub. Ağakərim belə danışır: “Məktəbdə texniki fən müəllimləri dərsi bilməyəndə mənə mahnı oxutdurub qiymət verirdilər. Məktəbdə nə tədbir olsa idi, məni oxutdururdular. Amma natamam təhsil şəhadətnaməmə baxsanız, nəğmədən mənə üç yazıblar”.

Öz təhsili haqqında danışanda Ağakərim zarafatla deyir: “Orta məktəbi Şamaxıda Seyid Əzim Şirvaninin dərs dediyi və Mirzə Ələkbər Sabirin təhsil aldığı 5 saylı məktəbin axşam sinfində oxumuşam”.

Ağakərim Nafizin formal ali təhsili olmasa da yaradıcılığına nəzər saldıqda və onunla söhbətlərdə yüksək, mükəmməl, dərin musiqi və filoloji biliklərinin olduğunu başa düşürsən. Onun ardıcıl mütaliə yolu ilə kamil biliklərə yiyələndiyi aşkardır. O, bizim klassik ədəbiyyatımızı və eləcə də Osmanlı-Türk ədəbiyyatını daima mütaliə edir və onu dərindən bilir.

Din tarixini, tarixi, əfsanə, rəvayət və dastanları, klassik və xalq ədəbiyyatını, folkloru dərindən bilmədən bunların heç birini yazmaq olmaz! Talant və böyük talant heç bir institut və unversitet təhsili ilə

verilə və yaradıla bilməz! Ağakərim Nafiz xalqın universtetini bitirib, dünya muğam akademiyasının akademikidir!

Ağakərim 1978-ci ildə Fəridə Sadalı qızı İsrafilbəyova ilə evlənmiş və bu nikahdan qızı Ümmahani (1979), oğlanları Əli bəy (1984) və Bəyazid (Gürbiz) (1989) dünyaya gəlmişdir. Beş nəvəsi var: Arifşah Hüseyn oğlu, Xanmurad Hüseyn oğlu, Fatimə Hüseyn qızı, Ağa İsrafil Əli bəy oğlu, Ağa Yusif Bəyazid oğlu.

"Nəvəm Xanmurada", "Nənəm Arifşaha", "Nəvəm Ağa İsrafilə", "Nəvəm Ağa Yusifə" qəzəllərini nəvələrinə həsr etmişdir:

Nuri-çeşmim, zivərim, ey təndəki canım Murad,
Ey şəhim, ey tacidarım, şanlı xaqanım Murad.

Gözüm nuri, xəyalim, fikrü zikrim, ey cavan Arif
Ki, olsun daim əhvalun cahanda şadman Arif.

Ey canımın arami, gözüm canım İsrafil,
Sən ruhi-təravətdə, ruhim, qanım İsrafil.

Surətin gəldi genə didəmə ey can Yusif,
Oldum eşqündə necə hali pərişan Yusif.

Ağakərim həyatının bir neçə ilini Azərbaycandan kənarda yaşamışdır.

Daha sonra yolu Tacikstanın Düşənbə şəhərinə düşmüş və ora köçüb yaşamaq fikrində olmuşdur. Düşənbə İncəsənət institutunda səsinə qulaq asdıqdan sonra onu instituta qəbul etmişlər. Bundan sonra Ağakərim yaşayış yerindən pasport qeydiyyatından çıxmaq üçün Şamaxıya qayıdıb, lakin ana və atasının basqısı ilə Tacikstana köçməkdən vaz keçib. Başqa dövrdəsə o, Özbəkistana köçmək istəmiş və bunu öz qəzəllərində belə qələmə almışdır:

Gedibdir mülki-Şirvandan Ağa İsrafili-Nafiz,
Vətən tutmuş Səmərqəndü Buxarani ağam cani.

İncidi dəhrdə Nafiz Şəmaxi şəhrindən,
Əzm ilə tapdi görün şəhri Buxarada fərəh.

1984-cü ildə bədii və ədəbi fəaliyyətinin qaynar çağında bir xəyanətkarlıq üzündən iki illik həbsə düşmüşdür. Bu hadisə Ağakərimin iki qəzəlində öz əksini aşağıdakı kimi tapmışdır:

Gedim yəni yatım heç bir şeyin üstündə zindanda,
Nə lazımdır ki, Nafiz mülki-Şirvandan kənar olsun.

Xaqanitək mən indi zindanlara düçarəm,
Çünki mənim varımdi, "Şərvan" kimi diyarım.

Bu hadisə onu bərk sarsıtmış və ədəbi-bədii fəaliyyətdən uzaqlaşmağa sövq etmişdir. Əhməd Cəfərzadənin kitabın əlavələr bölməsində verilən məktublarından göründüyü kimi Ağakərim bədbinliyə uğramış, sənətdən və vətəndən uzaqlaşmaq istəmiş və geriyə Şamaxıya belə qayıtmaq istəməmişdir. Əhməd müəllimin ağsaqqal məktublarının təsiri ilə vətənə dönmüş, həyatı və yaradıcılığını burada davam etdirmişdir. Əhməd müəllim yazırdı: ***"Əlbəttə ki, qəsdim sənin ilham pərini cuşa gətirməkdir. Mən inanıram ki, cənabınızın qələmimdən hələ çox zərif qəzəllər çıxacaq və ömür olsa, mən də onları oxuyub feyziyab olacağam."***

## BƏDİİ FƏALİYYƏTİ

Bədii fəaliyyətə uşaq yaşından başlayan Ağakərim Nafiz hələ məktəbdəykən müxtəlif tədbirlərdə mahnı, təsnif və muğamlar oxumuşdur. Muğamın sirlərini Şamaxı şəhərindəki Xaqani adına mədəniyyət evində, Ağalar Əhmədşah oğlundan öyrənmişdir. Ağaları özünün muğam ustadı bilir və onu şeirlərində rəhmətlə yad edir. O, Ağaları üçüncü saqinaməsində Şirvan muğam ifacıları sırasında xüsusi qeyd etmişdir. O, qəzəlində bunu belə ifadə etmişdir:

**Nafiz, Ağalardur sənin ustadun əzəldən,**
Ömrün boyu cəhd et o şəkərxani unutma.

Ağakərim bundan başqa müğam ustadına "Ağalar" rədifli qəzəl də həsr etmişdir:

Ey nəğəmata zaminində nümayan Ağalar,
Ey olan ərseyi-eşq içrə dirəxşan Ağalar.

Hər ziyafətdə ikən təntənəli "Şur" oxuyan,
Oldu "Şur"un necə də xak ilə yeksan Ağalar.

Ağakərim 1965-ci illərdən müxtəlif şənlik və toylarda xanəndəlik edərək xalqın məhəbbət və rəğbətini qazanmışdır.

Ağakərim Nafiz müxtəlif müsiqi festivallarının diplomlarını almışdır. O, 1989-cu ildə Ağdamda keçirilən **"Xarı bülbül"** muğam müsabiqəsinin qalibi olmuşdur. "Azərbaycantelefilm" 1997-ci ildə Ağakərim haqqında **"Naməlum səs"** adlı geniş film çəkmişdir (Quruluşçu rejissor – Nazim Abbas, ssenari müəllifləri – Kamil Şahverdi, Vüqar Tapdıqlı, redaktor – Əhməd Oğuz).

**HAŞİYƏ:** Ağakərim Nafiz müsahibələrində qeyd edir ki, dilimizdə "**muğam**" sözü yanlış istifadə edilir. Belə söz yoxdur, əslində "muğam" sözü əvəzinə "**məqam**" işlədilməlidir. Klassik şeirimizdə şairlər də "məqam" (**مقام**) deyirlər və İranlılar da indi də belə deyir. Söz ərəbcədə "məqam"dır və dilimizə də ordan keçib, lakin yanlş tələfüz almışdır. Eləcədə "**muğamat**" ərəbcədə "**مقامات**" – "**məqamat**"dır və dilimizdə də belə işlədilməlidir. Ağakərim Nafizin bu qeydləri ilə razılaşsaq da, bizim mətnlərədə orfoqrafiyamızın bu günkü tələbinə əsasən "muğam" və "muğamat" şəklində istifadə etmək məcburiyyətindəyik.

### *Xarici ölkələrə səfərləri və qastrolları*

Ağakərim Nafiz bir çox Şərq və Avropa ölkələrində konsertlərlə çıxış edərək Azərbaycan muğamını bu ölkələrdə də təbliğ etmişdir.

O, 1980-ci ildə Rusiyanın Arxangelsk vilayətində qastrolda olmuş 4 konsert vermişdir. Bundan başqa Sovet dövründə o, Orta Asiya respublikalarında toy və el şənliklərində iştirak etmişdir.

1994-cü ildə Məhəmməd Füzulinin 500 illik yubileyi ilə əlaqədar Ağakərim İraqda səfərdə olmuş, Bağdad, Nəcəf və Kərbəlanı gəzmişdir. Onun şeirlərindən biri də orada, Bağdadda yazılmışdır. Həmin səfər zamanı o bir konsert də vermişdir.

2001-ci ildə Ağakərim Nafiz Fransaya səfər etmiş və Paris daxil olmaqla Fransanın müxtəlif şəhərlərində 8 konsert vermişdir. Bu qastrolu zamanı Fransada **"Azerbaïdjan: Chants du Caucase"** ("Azərbaycan: Qafqazın mahnıları") adlı muğam diski buraxılmış və halhazıra kimi Avropada satışdadır. Diskin buraxılmasında Fransalı udçalan, Ağakərim bəy Nafizin vurğunu olan Mark Lopuytun müstəsna xidməti olmuşdur.

2002-ci ildə də Ağakərim 6 konsertlə Fransa-İtaliyada qastrolda olmuşdur. 2003-cü ildə isə o, Fransa-İsveçrə və Kənar adalarında 5 konsert vermişdir.

2006-cı ildə Ağakərim Nafiz İran İslam Respublikasına səfər etmiş, Tehranda biri məşhur "Sarayi-Bəhmən" Mədəniyyət sarayında olmaqla 2 konsert vermişdir. Bundan əlavə o, Zəncanda 3 konsert də vermişdir. Bu konsertlərdən biri açıq havada, 4 minlik stadionda aparılmışdır. Həmən il, Ağakərim Şəhriyarın 100 illik yubileyi münasibətilə keçirilən tədbirlərdə iştirak etmək üçün yenidən İran İslam Respublikasına səfər etmişdir.

2009-cu ildə Ağakərim Nafiz Amerika Birləşmiş Ştatlarına səfər etmiş və 4 gün dalbadal GünAz TV-də konsertlər vermişdir.

## MUSİQİ YARADICILIĞINDA FƏALİYYƏTİ

Ağakərim Nafiz təkcə muğam ifaçısı deyildir. O, həm də 200-ə qədər təsnifin, 60-dan çox mahnının müəllifidir. Bu bəstələri Ağakərim öz ifasında və eləcə də başqa muğam ifaçılarının ifasında xalqa çatdırmışdır. Təəssüf ki, hələ də bir çox təsnif və mahnıları sistemləşdirilib professional şəkildə lentə alınmayıb. Bu ayrıca bir tədqiqat mövzusudur.

## ƏDƏBİ FƏALİYYƏTİ

Ağakərim gənc yaşlarından şeir yazmağa başlamış və əsasən əruz vəznində qəzəllər, təxmislər, rubailər yazmışdır. Gənc yaşlarında ustad şair Məhəmməd Biriyadan klassik şeir üslubunu mənimsəmişdir. Şeirlərini Nafiz təxəllüsü ilə qələmə almışdır.

Ağakərim Nafiz klassik Azərbaycan-Turk və Şərq divan ədəbiyyatı ənənələrinə XXI əsrdə də sədaqətlə şeirlər yazır. O, XV-XIX əsrin dil üslubunu öz şeirlərində qoruyub saxlayır.

Klassik divanlarımızın tərtib qaydasına uyğun olaraq Ağakərim Nafizin divanına aşağıdakılar daxil edilmişdir: Münacat, Əsma'-ül-hüsna (Allahın gözəl adları), Rəsuli-Əkrəmə (s.v.s.) (Peyğəmbərə), Həzrət Əliyə, Saqinamə (3), ustadı Ağalara, Mürəbbe (2), Müxəmməs (4), Müsəddəs, Məsnəvi (4), Müstəzad, İbrətnamə, Bahariyyə, Təxmis (55), Qəzəl (427), Rübai (11) və tərcümələr (15). Beləliklə onun ümümilikdə bu divana müxtəlif növlü 500-dən çox şeiri daxil olmuşdur.

***Saqinamələri***

Ağakərimin üç saqinaməsi divana daxil edilmişdir. "Gətir" rədifi ilə yazılmış birinci saqinaməsində tarixə sanki bir ekskurs edir və Cami-Cəmşidi, Şahi-Mərdanı, Məryəm, Məsih (İsa), Süleyman, Nuh, Yusif, Züleyxa, İskəndər, Dara, həzrəti-Loğman, Mürtəza kimi tarixi şəxsiyyətləri yada salır.

"Olsun" rədifli ikinci saqinaməsində xanəndə və xanəndəlik sənətinin vacib olan əlamətlərini sadalayır. Daha sonra "Rast", "Şur", "Nəva", "Çahargah","Firuzi-Həsaf", "Hümayun", "Şüştər", "Mahur", "Dadi-Bidad", "Əraq", "Segah", "Sarəng" kimi müğam və müğam şöbələrini sadalayır, onların oxunması ilə bağlı öz fikirlərini bildirir.

Üçüncü saqinamə **Şirvan xanəndələrinin vəsfinə** həsr edilib. XIX əsrdən günümüzə kimi yaşayıb yaradan Şirvan xanəndələrinə sanki öz şeiri ilə bir heykəl düzəldir ("Bu qəzəllə sənə heykəl yonuram xocəstə") və onları yada salıb, onların yaradıcılığının təbliğinə çalışır. Mirzə Məhəmməd Həsən, Mirzə Güllərdən başlayaraq özü daxil olmaqla 34 Şirvan muğam sənətkarlarının adını çəkir və onlara öz münasibətini bildirir.

***HAŞİYƏ:*** Ağakərim Mirzə Məhəmməd Həsəni bir sənətkar kimi yüksək qiymətləndirir. Onun bəzi mahnılarını bərpa edib, şeirlərinə nəzirə yazıb. Mirzə *Məhəmməd* Həsən haqqında "Ustadi-ə'zəm Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani" kitabı yazıb və çap etdirib (Nafiz, 2010).

*Qəzəlləri*

Bu divana onun 428 qəzəli daxil edilmişdir. Gənclik illərində yazdığı bir sıra qəzəlləri hafizəsindən bərpa etmiş, lakin 50-dən çox qəzəli itirilmişdir.

Qəzəllərin ruhu və dili klassik Azərbaycan qəzəl janrındadır. Ağakərim müasirimiz olsa belə, yazdığı əsərlər XV-XİX əsr qəzəlləri sırasında layiqli yer tuta bilər.

*"Su" rədifli qəzəl*

Məlumdur ki, Məhəmməd Füzuli hz. Məhəmmədə (s.v.s) həsr etdiyi 32 beytlik "Su" qəsidəsi Yaxın Şərqdə geniş yayılmış və ona çoxlu sayda nəzirələr yazılmışdır (Füzuli, 2005) (Üzgör, 2000).

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

Saçma, ey göz, əşkdən könlümdəki odlarə su,
Kim, bu dəklü tutuşan odlara qılmaz çarə su.

Türk tədqiqatçısı Tahir Üzgor "su" rədifindən 50 şairin 62 qəzəlində və 3 şairin 3 qəsidəsində istifadə edildiyini qeyd etmişdir.

Ağakərim Nafiz də "su" rədifli çox uğurlu bir qəzəl yaratmışdır:

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

Göz yaşilə verdi yarım arizi-gülnarə su,
Əşki-çeşmi seyl edib saldi məni culərə su.

Bu qəzəl "su" rədifli olsa da, Füzuliyə nəzirə kimi yazılmamış və əruz qəliblərinin müqayisəsi göstərir ki, onlar müxtəlif bəhrlərdə yazılmışdır. Füzulinin istifadə etdiyi Rəməl bəhri Ağakərimin ən çox istifadə etdiyi və 154 qəzəl yazdığı qəlib olmasına baxmayaraq, o bu qəzəli Rəcəz bəhrində yazmışdır.

*"Gül" rədifli 2 qəzəl:*

Füzulinin "su" rədifli qəsidəsi ilə yanaşı çox məşhur olan "gül" rədifli qəsidəsi də şairlərin marağına səbəb olmuş və 84 şairin 1526 beytlik 140 şeirində bu rədif istifadə olunmuşdur (Üzgör, 1995):

**Həzəc-9: Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün**

Çıxdı yaşıl pərdədən, ərz eylədi rüxsar gül,
Sildi mir'ati-zəmiri-pakdən jəngar gül.

Ağakərim Nafiz də "gül" rədifli iki qəzəl yazmışdır. Bu qəzəllər də Füzuliyə nəzirə formasında yazılmayıb və əruz vəznləri fərqlənir:

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

Bülbül oldi genə gülşəndə bir əmanəti-gül,
Görmədi rif'ət ilə onda bir ədaləti-gül,

Digər bir qəzəlində isə:

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

Nobahar oldi həzimətdən çıxıb zibayi-gül,
Tutdi gülzari məram ilə fərəhəfzayi-gül.

***Nəzirələri***

Klassik ədəbiyyatda şeir janrı olaraq nəzirələr də geniş yer tutur. Məlumdur ki, nəzirə başqa bir şairdən nümunə götürərək (bu parça "zəmin şeir" adlanır) həmin şeirin vəzn, qafiyə və rədifini saxlayaraq, yaxın məzmunda yazılmış bir şeir növüdür.

Nəzirə və təxmis yazılmasının ədəbiyyatımızda tarixi ənənələri vardır. Hələ XVI əsrdə Füzuli Həbibi, Rəsmi və b. şeirlərinə nəzirə yazmışdır. Füzulidən əvvəl də ədəbiyyatımızda nəzirə və təxmislər yazıldığı məlumdur. Füzuli əsərlərinə də çoxlu təxmis və nəzirələr yazılmışdır. F.Seyidov öz məqaləsində bunu geniş şəkildə tədqiq etmişdir (Seyidov, 2012).

Turk ədəbiyyatında da nəzirə janrından geniş istifadə olunub. XVI əsrdə Ədirnəli Nəzmi tərəfindən tərtib edilmiş "Məcma'u'n-nəzâ'ir" kitabında (Edirneli, 2012) 67 şairin 369 zəmin şeirinə 357 şairin 5527 nəzirəsi toplu şəkildə çap edilmişdir. Buradakı şeirlər 19 əruz bəhrindən istifadə edilərək yazılmışdır. Kitabda Əhməd Paşanın 51 şeirinə 1035 nəzirə verimişdir. Necatinin 42 şeirinə 437, Nəsiminin

9 şeirinə 226 nəzirə təqdim edilmişdir. Ən çox nəzirələri olan şairlərsə Nəzmi (705 nəzirə), Zati (230), Muhibbi (203) – dir. Təkcə bu kitab Türkiyədə XIV-XVI əsrlərdə nəzirəçiliyin nə qədər böyük səviyyədə olduğuna sübutdur.

F.Seyidov və Ə.Cəfərin (Cəfər, 1977) qeyd etdikləri kimi nəzirə və təxmislərin yazılması XVIII-XIX əsrlərdə geniş yayılmış və XIX əsrin ikinci yarısında yüksək səviyyəyə çatmışdır. Bu dövrdə Azərbaycanda geniş yayılmış poetik məclislərin ("Beytüs-səfa", "Gülista-ni-İrəm", "Məcmə'uş-şu'əra", "Məclisi-üns", "Məclisi-fəramuşan" və b.) bu sahədə rolu çox yüksək olmuşdur. Bu poetik məclislərdə müxtəlif şairlərin eyni bir qəzələ nəzirə yazmaqları bir yarışa cevrilmişdir. Bu məclislərdə nəzirələrin oxunub təhlil edilməsi çox yüksək səviyyəli nəzirələrin ortaya çixmasına və eləcə də gənc şairlər nəslinin inkişafına bir təkan olmuşdur. Bununla da nazirəçilik ümumiyyətlə poeziyanın inkişafına da təkan verir, çünki nəzirə yazarkən şairlər nəzirə yazılan şeirdən daha yaxşısını yazmağa çalışırlar. Məlumdur ki, poetik məclislər ənənəsi Bakı kəndlərində dövrümüzdə də davam etdirilməkdədir. Düzdür ki, XX əsrdə nəzirə və təxmislərin yazılması sayına görə xeyli azalmışdır. Amma Həkim Qəni (Hüseynov Qəni Hüseynqulu oğlu), Hacıbaba Hüseynov, Ələmdar Mahir, Ağakərim Nafiz, Teymur Kərimli, Rüstəm Tofiq və başqa şairlər bu ənənəni dövrümüzdə də davam etdirmişlər.

Ağakərim Nafizin bu divanda Füzuli (2 nəzirə), Nişat Şirvani, Ne'mətullah Kişvəri, Məlikli Molla Əli Şirvani, Seyid Əzim Şirvani - Seyyid (3), Əmir Əlişir Nəvai, Molla Ağa Bixud, Mirzə Məhəmməd Həsən, Cahanşah Həqiqi, Baqi əfəndi (2), Namiq Kəmal, Molla Qədir Naci (2), Nabi əfəndi (2), Kamil Sərbəndi, Nicati Rumi, Sultan Həmid, Vəsli Rumi, Mir Naşidi Rumi, Qaramanlı Nizami Rumi, Mirzə Qulamhüseyn Yurdçulu, İzzət Rumi, Səfi təxəllüslü Sultan Şeyx Səfiəddin Ərdəbili, Fəqir Ordubadi, Yəhyəvi Ərdəbili, Məhəmməd Biriya, Əhməd Cəfərzadə (3) və laədri[1] qəzəllərinə ümumilikdə 35 nəzirə yazmışdır.

Ağakərim Nişat Şirvaninin aşağıdakı qəzəlinə nəzirə yazmışdır:

---

1 Laədri – müəllifi bilinməyən, naməlum müəllif

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

"Yeri tərsa balası, mən də sənə sayə gəlim,
Aç kəlisa qapusun, mən də kəlisayə gəlim".

Şəhriyar Seyid Əzim Şirvani qəzəli deyə bu qəzələ nəzirə yazmışdır. Amma Seyyidin qəzəllərinin tam külliyyatı bir neçə dəfə çap edilib, onun qəzəlləri içərisində bu qəzəl yoxdur. Ustad Şəhriyarın dediyinə görə o bu beyti anasından eşidib və Seyyidə aid olduğunu ondan bilib. Əlbəttə ki, Şəhriyarın anası Seyyidlə Nişatın qəzəllərini səhv sala bilərdi.

Ağakərim Nafiz Əhməd Cəfərzadə ilə görüşlərinin birində bu qəzəlin Nişat Şirvaniyə aid olduğunu və onda qəzəlin tam bir mətninin olduğunu deyib. Məlumdur ki, Əhməd Cəfərzadə Şirvan şairlərinin əsərləri üzərində uzun dövr tədqiqat aparmış, çoxlu məqalələr və bir neçə kitab çap etdirmişdi. Onun bacısı Əzizə Cəfərzadə Nişat haqqında "Vətənə qayıt" romanını yazmış, "Şirvanın üç şairi" adlı topluya Nişatın şeirlərini daxil etmişdir. Salman Mümtazın çap etdirdiyi topluda və daha sonra çap olunan məcmüələrdə bu beyti tapa bilmədik. Nə yazıq ki, Əhməd Cəfərzadənin arxivi mənə verildiyində onun yağmalandığını, kataloqunun isə qeyb olduğunu aşkar etdim. Nişat Şirvani qovluğu da boş idi, təkcə Salman Mümtazın 1926-cı ildə çap etdirdiyi məcmüə var idi. Ağakərim Nafiz Əhməd Cəfərzadəyə əsaslanaraq bu beytin Nişat Şirvaniyə aidliyni qeyd edir, mətlədə Nişata nəzirələr yazmış Bixud, Şəhriyar, Hacıbaba Hüseynovun adlarını çəkir:

**Nafiz**a, mövzunu vermişdi, **Nişat Şirvani,**
Bixuda, Şəhriyara, Haciyə imzayə gəlim.

Seyyidin üççildliyndə "tərsa", "tərsaları", "tərsa-beçə", "yari-tərsa", "büti-tərsa" (4), "dilbəri-tərsa" kimi sözlər on dəfədən artiq işlədilib. Nişat Şirvaninin də qəzəl və müxəmməslərində "tərsa qızı", "tərsa balası" kimi sözlər işlədilib:

Eylədi yar dilü dinimi viran axır,
Qoymadı məndə o **tərsa qızı** iman axır,
Yoxmudur şəhrdə bir mərdi-müsəlman axır

Ki, edə dərdimə bir vəz' ilə dərman axır,
Nə deyüm, eyləsin Allah özü divan axır!

Nəzirələr içərisində müəllifini bilmədiyimiz (Laədri), yalnız bir şah beyti ilə ürəklərdə və yaddaşlarda yer alan aşağıdakı beytə Ağakərim gözəl bir nəzirə yazmışdır:

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

Xab gəlməz genə ol çeşmi-xumarın gözünə,
Salıb eşqində məni qəhr ilə narın gözünə.

"Yanalım, yaxılalım, sürmə kimi həll olalım,
Girəlim bəlkə bu tədbir ilə yarın gözünə".

***Təxmisləri***

Məlümdur ki, klassik divan ədəbiyyatında işlədilən lirik janrlardan biri də təxmisdir. Təxmis müxəmməsdə olduğu kimi beş misralı və bir neçə bəndli əruz vəznli şeir növüdür. Təxmis bir şairin məlum qəzəli əsasında yazılır. Hər bənddə bir, iki və üçüncü misralar təxmis müəllifinin olur, dörd və beşinci misralar isə məlum qəzəldən götürülür. Əlavə edilən üç misra həmin qəzəlin rədifində, qəlibində olmalı və məzmunca qəzəli tamamlamalıdır.

Bu şeir növü öz mürəkkəbliyi ilə seçilir. Nəzirədən fərqli olaraq sairdən yüksək bacarıq tələb edir. Təxmisin çətinliyi ondan ibarətdir ki, Hafiz, Nəsimi, Füzuli, Seyyid, Sabir kimi dühaların yazdığı iki misra önünə (Bəli, bəli, önünə!) üç əlavə misra yaza biləsən. Bu misralar həm əruz vəznində, həm rədifdə, həm mənada ona uyuşan olsun və əvvəlki, şairin fikrini tamamlasin və ya gücləndirsin. Hafiz, Nəsimi, Füzuli, Seyyid, Sabir sözünün qarşısında söz demək? Qəzəllərinə təxmis, nəzirə yazılan müəlliflərdən altı yüz ilə qədər bir zaman ayrılığı olduğu üçün dilin dəyişiklikləri, inkişafi və ya başqa dil olduğu nəzərə alındığında çətinliyin miqyası daha aydın görünür. Nə qədər ağır və məsuliyyətli bir işdir. Xüsusən də Ağakərim Nafiz kimi öz yaradıcılığına ciddi və çox tənqidi yanaşan bir insan üçün!

Təxmislərin yazilişi demək olar ki, XX əsrdə azalmış və son 40-50 ildə təxmis yazılması demək olar ki, müstəsna hal olmuşdur. Ağakərim Nafiz öz əsərlərində bu janrı yenidən canlandırmağa nail olmuşdur.

F.Seyidovun dediyi kimi **“Bir şeiri təxmis etmək, ona nəzirə yazmaqdan daha çətindir. Füzulinin bir qəzəlini təxmis etmək üçün isə məharət gərəkdir.”** Əlbəttə ki, bu məharət, istedad və ürək Nafizdə olub və var! Ona görə o çoxlu sayda təxmis yaza bilib! Və bunlar uğurlu da alınıb. Uğurlu alınmanın da sübutu ona yazılmış yüksək rəylərdə açıq-aydın göstərilib.

Ağakərim Nafizin bu divana daxil edilmiş 53 təxmisi vardır. Bu təxmislər Hafiz Şirazi (2 - təxmis), Mövlana Lutfi, İmadəddin Nəsimi (2), Cahanşah Həqiqi, Əmir Əlişir Nəvai (2), Ne’mətullah Kişvəri (6), Məhəmməd Füzuli (2), Abdullah Üsuli, Mühibbi təxəllüslü Sultan Süleyman Qanuni (4), Baqi (8), Bəsiri, Nabi (5), Vəsli Rumi, Nişat Şirvani (2), Molla Qədir Naci (5), Ünsi, Mir Naşidi Rumi, Seyid Əbülqasim Nəbati, Seyid Əzim Şirvani – Seyyid (3), Mirzə Məhəmməd Həsən Fələkzadə, Mirzə Ələkbər Sabir (2), Məhəmməd Hadi kimi dünya şöhrətli ustadlarının qəzəllərinə yazılmışdır.

Bunların içərisində XIV əsrdə yaşamış və fars şeirinin ustadlarından sayılan Xacə Şəmsəddin Məhəmməd Hafiz Şirazinin (1325-1390) divanında birinci sırada dayanan qəzələ yazılmış təxmis xüsusi maraq kəsb edir. “Öz şeiri və şairlik fəaliyyəti ilə fars şeirində göstərdiyi xidmətləri nəticəsində «Xatəməş-şüəra» («Şairlərin sonuncusu») ləqəbini qazanmış Əbdurrəhman Cami Hafiz Şirazinin ilk qəzəlinə bir deyil, beş nəzirə yazmışdır” (Xəlilova, 2011). Məlumdur ki, Hafiz bu qəzəlın birinci və sonuncu misralarını ərəbcə, qalan hissələrini farsca yazmışdır. Bu qəzəl klassik Türk-Osmanlı şeirində çox sevilmiş və geniş öyrənilmişdır. Təkcə bir müəllif Hafizin bir səhifəlik qəzəlinə 132 səhifəlik elmi-tədqiqat işi həsr etmişdir (Verçin, 2006).

Ağakərim Nafiz də ustalıqla bu ikidilli qəzələ üçüncü dildə, yəni Azərbaycan dilində təxmis yazaraq unikal üçdilli şeir nümunəsi yaratmışdır. O, ustalıq göstərərək ərəb və fars dilli qəzəlin qafiələrinə ana dilimizdə müvafiq qafiələr tapmiş və təxmis yarada bilmişdir:

Tükəndi cümlə sərmayəm vəli gəlməz mədaxilha,
Məni-əfkəndeyi-zəri kənar etdi mənazilha,

Dəmadəm **Nafiz**i sındırdi eşq içrə əzazilha,
“Əla ya əyyushəs saqi ədri kə’sən və navilha,
Ke eşq asan nemud əvvəl vəli oftad moşkelha.”

Hafizin farca başqa bir qəzəlinə də Nafiz ustalıqla təxmis yazmışdır:

Gərçi insanlığa aləmdə bu qədr oldusa rəşk,
Cümlə küffarə cihad eylədi Bağdadü Dəməşq,
Hey zəmirində bu **Nafiz** qıla gör eşqini məşq,
“Pak kon çehreye – Hafez be səre-zolf’ze əşk,
Vərnə in seyle – dəmadəm bebərəd bonyadəm”.

Ağakərim Nafizin Seyyid qəzəllərinə 3 təxmisi vardır. Bu təxmislərdən biri belə başlayır:

Eyləməm, ey məh, cüda bir məclisi-şəndən səni,
Etməsin axır xuda gülzari-gülşəndən səni,
İstəməzdim ta rəqib seyr eyliyə gendən səni,
“Gizlər idim bir zaman bu çeşmi-rövşəndən səni,
Gizlədir indi nigarım, qeyrilər məndən səni.”

və belə bitir:

Eşqdən Xızra xəbər gəldi bəlayi-bəhrdən,
Şövqdən Fərhadü Məcnun içdilər ol zəhrdən,
Çəkmə göz, sevdali **Nafiz**, sən də ruyi-şəhrdən,
“**Seyyid**a, hər kimsənə bir mətləb istər dəhrdən,
Mətləbim yox qeyrdən, mən istərəm səndən səni”.

Hələ 1973-cü ildə Ağakərim 24-25 yaşındaykən Seyyid Əzim Şirvaniyə yazdığı təxmisə f.e.d Əhməd Cəfərzadə öz məktubunda çox yüksək qiymət verərək yazırdı: **“Şeirləriniz xoşuma gəldi – desəm, azdır. Mənə elə gəldi ki, Seyyid rəhmətüllüh ölməyib, elə özü-özünü təxmis edib... Təxmisə söz yoxdur...**

**...Təəssüf ki, yazdıqlarınız mətbuat üçün deyil, sevən ürəklər üçündür, yoxsa Sizdən yeni bir Seyyid olardı.”**

Orta əsrin dahi şairlərinin qəzəllərinə təxmislərin yazılmasında ən böyük cətinlik o dövrün ruhunu, dilini, məzmununu, vəznini qoyu-

yub saxlamaq və tamamlamaqdır. Ağakərim Nafiz bu sahədə yüksək baçarıq nümayiş etdirib, birdilli, ikidili və hətta üçdilli təxmislərə qələm atmışdır.

## DİVANDA İŞLƏNƏN ƏRUZ VƏZNLƏRİ

Ağakərim Nafizin kitabını tərtib edib çapa hazırlayarkən qarşıya qoyulmuş məqsəd onu klassik divan tərtibi qaydalarına uyğun olan bir şəkildə təqdim etmək idi. Buna görə müxtəlif şeir növləri xüsusi sıralama ilə verilmişdir. Ən ümdə işlərdən biri isə hər bir şeirin əruz vəzni qəliblərini və bəhrlərini tapıb, ola biləcək qüsurları müəyyən etmək idi.

Aydındır ki, əruz vəzni qəlibləri müasir Azərbaycan və Türk gəncliyi üçün kifayət qədər tədris edilmədiyi və öyrənilmədiyi üçün çətinlik törədir. Həyatını əruza həsr etmiş Əkrəm Cəfər bu çətinliyi başa düşərək ərəb kəlmələrinə əsaslanan əruz vəzninin Azərbaycan oxucusu üçün sadə variantını təklif edərək, onun cəmi 6 ünsür **"dil"**, **"qələm"**, **"pərdə"**, **"nü"**, **"nüvə"** və **"can"** vasitəsi ilə ifadəsini vermişdir (Cəfər, 1977). Son dövrlərdə Ədilli Şirvani bu işi davam etdirmiş və əruz vəzninin Azərbaycan şeirində işlənən bəhrlərinin də sadələşdirilmiş qəliblərini iki sadə heca **"Da"** və **"Dah"** ilə əvəz edərək qurmağı təklif etmişdir (Şirvani, Ədilli, 2011). Əməkdar mühəndis Əli Əmirov son dövrlərdə bunu ikilik say sistemi əsasında ancaq **"0"** və **"1"** əsasında qurmaq ideyasını təklif etmişdir (Əmirov, 2012). Ümüdvarıq ki, bu üsul klassik şeirlərimizin, təhlilinin avtomatlaşdırılması və kompüterləşdirilməsi üçün bir yeni yol açmağa imkan verəcəkdir.

Yuxarıda qeyd etdiyimiz kimi Ağakərim Nafizin Divanı orta əsr şairləri tərzində yazılıb və dili də həmin dövrə aiddir. Buna görə də Divanın tərtibində əruzun da klassik formasıdan istifadə edilmişdir.

### İşlənmə üsulu

Qəzəllərin əruz vəzni Türkiyə Fatih Üniversiteti Çağdaş Türk Ləhçələri və Ədəbiyyatları və Bilgisayar Mühəndisliyi bölümlərinin ortaq çalışması nəticəsində yaradılmış olan Aruz proqramı[1] əsasında tədqiq edilib.

---

1 Aruz programı - Mehmet Kara, Prof., Atakan Kurt, Yrd.Doç., Cihan Okuyucu, Prof. və proqramcı Ahmet Volkan Gürel, 2007.

Divana daxil olan bütün şeirlərin əruz qaydalarına əsasən qəlibləri müəyyənləşdirilmiş, hər bir şeirdən əvvəl bəhr və qəliblər verilmişdir.

Mərhum əruzşünas alimimiz Əkrəm Cəfər qeyd etmişdir ki, "Səkkiz əsr müddətində türkdilli Azərbaycan poeziyasında əruzun on iki bəhrinin yetmiş iki növü və bunların 260-dan artıq variant ölçüsü işlənmişdir" (Cəfər, 1977). Ədilli Şirvaninin (Şirvani, Ədilli, 2011) son tədqiqatları on iki bəhr və 76 qəlibin şeirimizdə istifadə olunduğunu qeyd edir: "Ə.Cəfərin müəyyən etdiyi 266 variantda 92 növdən 74 qəlibi ona görə əsas qəlib kimi seçmişik ki, qalan bütün növ və variant qəliblərinin demək olar ki, hər biri, bu 74 qəlibdən yalnız birinci və ya sonuncu hecaya görə fərqlənən "törəmə" qəliblərdir". Müəllif daha sonra yazır: "Göründüyü kimi, "törəmə" qəlibləri əsas qəliblərdən fərqləndirən elementlərin Azərbaycan əruzunda o qədər də əhəmiyyəti yoxdur və həmin fərqlərin eyni şeirdə mövcud olması bir qayda olaraq xəta sayılmır. Ona görə də, Azərbaycan əruzunda aşağıda sadələşdirilmiş variantda verdiyimiz 76 qəlibdən başqa qalan qəliblər əslində müstəqil qəlib kimi yox, əsas qəliblərlə qarışıq (eyni şeirdə) işlədilir". Biz Divanda qəlib növlərinin nömrələrini Ədilli Şirvaninin son sistematikası əsasında aparmışıq və növlərin siyahısı əlavələrdə verilmişdir. Qəlibləri tapmaq işini asanlaşdırmaq üçün qəliblərdən əvvəl bəhrlərin adı, qəliblərin nömrələri də verilmişdir (məsələn, **Rəməl-5:** ).

**Ədəbiyyatımızda ilk dəfə istifadə edilən qörd qəlib**:

Aparılmış təhlil göstərir ki, Ağakərim Nafiz Divanında Azərbaycan poeziyasında bu yuxarıda adı qeyd olunan siyahıda olmayan **4 qəlib** vardır. Bunlar Ədilli Şirvani kitabından götürülmüş, cədvələ əlavə edilmiş və bəhr nömrələrində "A" hərfi ilə işarə edilmişdir. Bu qəlib növlərinin Azərbaycan şeirinə Ağakərim Nafiz Şirvani tərəfindən gətirilib desək, yanılmarıq, çünki bu qəliblər nə Əkrəm Cəfər, nə də Ədilli Şirvani siyahısinda yoxdur. Beləliklə, Ağakərim Nafiz Şirvani Azərbaycan ədəbiyyatında işlənən qəliblərə dörd yenisini əlavə edərək, qəlib növlərini 76-dan 80-ə çatdırmışdır.

Bunlar aşağıdakılardır:

**1. Həzəc-5A: MəfA’ilün / fə’Ulün / məfA’ilün / fə’Ulün**

Bu qəlibdə Ağakərim Nafizin 5 qəzəli var. Aşağıda buna bir nümunə verilmişdir:

Rəqibi div özün qoydu həmqərin yerinə,
Səngi-xara necə kim girdi gövhərin yerinə.

Türk şairi Əbdülhaq Hamid Tərxandan[1] (1872-1937) bir nümunə:

Xarab olmuş nə varsa tüab olmuş o bir köy,
Başında səng-i məkbər iki viran minarə.

Uyurdu hep çocuklar, fakat kuşlar uyanmış,
Sönüp yıldızlar, emvac edər savlət kənarə.

**2. Rəcəz-1A: Müstəf’ilAtün / müstəf’ilAtün / müstəf’ilAtün / müstəf’ilAtün**

Ağakərim Nafizin bu qəliblə yazılmış bir qəzəli var və o bu beytlə bitir:

Mərhəba, şerin düşüb əldən-ələ, dildən-dilə çün söylənir,
Mərhəba, ey **Nafiz**i- şirinsüxən şe’ri şəkərxan mərhəba!

Bu qəlib qəzəl istifadəsində Rəcəz bəhridir və bunu Ağakərim Nafiz Azərbaycan ədəbiyyatında ilk dəfə istifadə edib. Türk ədəbiyyatında da belə bu qəlibdə yazılmış qəzəl nümunəsi hələ ki, tapa bilməmişik. Məlumdur ki, bu qəlibdən istifadə edərək mürəbbe formasında xüsusi şeir qaydası ilə yazıldıqda Ahər vəzni olur. Buna Türk ədəbiyyatında bir sıra nümunə tapmaq mümkündür.

Mühibbi təxəllüslü şair Sultan Süleyman Qanuninin atası **Yavuz Sultan Səlim**dən (1470 –1520) Ahər vəzninə[2] bir nümunə:

Sanma, Şahım, hərkəsi sən sadikanə yar olur,
Hərkəsi sən dostmu sandın, bəlki ol əğyar olur,

---

1http://www.atelim.com/i-bolum-temel-kavramlar-dil-kultur-ve-iletisim.html?part=24
2 Halil Çelik. Selimî'den Bir Vezn-î Âhâr. 29 Oktyabr 2006. http://divandan.blogspot.com/2006/10/selimden-bir-vezn-hr.html

Sadikanə bəlki ol aləmdə didar olur,
Yar olur, əğyar olur, didar olur, sərdar olur.

Göründüyü kimi burada birinci misradakı sözlər ardıcıl olaraq iki (hərkəsi sən), üç (sadikanə) və dördüncü (yar olur) misraların bağlanğıcında istifadə edilir.

Professor Hüseyin Güfta öz məqaləsində[1] Antakyalı Şair **Asaf Yahyazadə**nin (1880-1971) Ahər vəznində bir şeirinin olduğunu qeyd edir:

Ərbab-ı izzət, yaran-ı söhbət, bəzm-i məhəbbət, bir dildar istər,
Yaran-ı söhbət, əhsən-i ülfət şövq ilə əlbət bir sağər istər,
Bəzm-i məhəbbət şövq ilə əlbət bir dar-ı adət ramişgər istər,
Bir dildar istər, bir sağər istər, ramişgər istər, tənha yer istər.

### 3. Mütəqarib-1A: Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ul

Bu qəlibdə Ağakərim Nafizin Türk ədəbiyyatının görkəmli nümayəndəsi Baqi əfəndiyə yazdığı aşağıdakı bir təxmisi var:

Hüsnün təravətin soruşur qönçədən çəmən,
Saçun sorağı gəldi, məlul oldi yasəmən,
**Nafiz**, kim idi bəzmdə rə'na şəkər dəhən,
"**Baqi** müsəxxər oldi mana Kişvəri süxən,
Keçdim səriri-nəzmə bu gün xosrovanə mən".

### 4. Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün

Ağakərim Nafizin bu qəlibdə 16 şeiri var. Bu bəhr və qəlibin istifadəsi Rəsuli-Əkrəmə (s.ə.v.) yazdığı qəzəllə başlayır:

Nəsib eylə mənə bir dəm səadət, ya Rəsulallah,
Edim dərgahi-xakun həm ziyarət, ya Rəsulallah.

Bu qəlibdə Ağakərimin Cahanşah Həqiqi və Baqi əfəndiyə təxmisləri və nəzirəsi vardır.

---

1 Hüseyin Güftâ. Yahyâzâde Âsaf. 2. Baskı, Color Ofset Yayıncılık, İskenderun 2015, s.173

*HAŞIYƏ:* Müsahibələrində Ağakərim Nafiz təvazükarlıqla əruzun qəliblərini dərindən bilmədiyini söyləyir. Amma bu qəliblərin müəyyənləşdirilməsi zamanı heç bir şeirdə qəlib qüsuru aşkar edilməmişdir. Bu da onun muğam – musiqi təqti (ritmi) gözəl bilməsi və duyması ilə əlaqələndirilə bilər. Yəni o şeir yazarkən sankı onu musiqi üstündə oxuyaraq yazır və beləliklə də o təqt üzərində şeir yazır, bu da vəznlərin qüsursuz olmasına kömək edir. Burda bütün həyatını əruzşünaslığa həsr etmiş mərhum Əkrəm Cəfərin şeir və müsiqi əlaqəsi haqqında bir fikrini yada salmaq yerinə düşər: **“Bu fikri qəbul etmək lazımdır ki, əsl şeir dil ilə musiqi arasında xüsusi bir sənətdir. Şeir dilin musiqisi və musiqinin dilidir. Şeirdəki bəşəri hisslər və fikirlər bu dilin musiqisi və bu musiqinin dili ilə ifadə olunur. Şeir dilinin musiqisi də onun müxtəlif vəzn növləri ilə, ahəng ölçüləri ilə büruz edir.”** (Cəfər, 2010).

Ağakərimin yaradıcılığında əruzun istedadla işlədilməsi xüsusən də nəzirə və təxmislərdə bir daha maraqlıdır. Çünki, poeziya tarixində ən yüksək ad qazanmış Hafiz, Füzuli, Sultan Süleyman Qanuni, Nişat, Seyyid, Nabi, Sabirə təxmis yazıb və qəzəl – əruz çərçivələrində bu şairlərə layiqli və qüsursuz təxmis yazmağa hər şairin, hər qəzəlxanın gücü çatmaz!

### Statistikası

Divanda verimiş **bütün şeirlərin bəhrləri və əruz vəzninin qəlibləri** cədvəldə verilmişdir. Bəhr və əruz vəzninin qəlib nömrələri divanın axırında Ədilli Şirvaniyə (Şirvani, Ədilli, 2011) əsaslanan cədvəl uyğun verilmişdir. Ədilli Şirvani kitabında olmayan 4 qəlib müvafiq nömrəyə “A” əlavə edilməklə verilmişdir.

Aşağıdakı Cədvəl 1-də Ağakərim Nafizin divanında istifadə edilmiş vəznlər bəhrlərə bölünmüş və heca tipi (yəni səs düzümü) göstərilməklə verilmişdir. Burada qısa hecalar nöqtə (•) və uzun hecalar defislə (—) göstərilib.

Cədvəldən göründüyü kimi əsas istifadə olunmuş qəliblər aşağıdakılardır:

*Cədvəl 1.*

***Ağakərim Nafizin divanında istifadə edilmiş bəhrlər və qəliblər.***

| Bəhr N | Bəhr adı | Qəlib N | Qəlib | Şeirlərin sayı | Bəhrdə şeir-lərin sayı |
|---|---|---|---|---|---|
| 1 | Həzəc (Nəşəylə mahnı oxumaq) | 1 | **MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün** | 70 | 153 |
| | | | • — — — / • — — — / • — — — / •— — — | | |
| | | 2 | **MəfA'İlün / məfA'İlün / fə'Ulün** | 1 | |
| | | | • — — — / • — — — / • — — | | |
| | | 4 | **MəfA'İlün / fə'Ulün / məfA'İlün / fə'Ulün** | 2 | |
| | | | •— — — / • — — / • — — — / • — — | | |
| | | 5A | **MəfA'ilün / fə'Ulün / məfA'ilün / fə'Ulün** | 5 | |
| | | | • — • — / • — — / • — • — / • — — | | |
| | | 6 | **MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün** | 10 | |
| | | | • — • — / • — • — / • — • — / • — • — | | |
| | | 8 | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün** | 61 | |
| | | | — — • / • — — • / •— — • / •— — | | |
| | | 9 | **Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün** | 3 | |
| | | | — — • / • — • — / — — • / • — • — | | |
| | | 11 | **Məf'Ulü / məfA'ilün / fə'Ulün** | 1 | |
| | | | — — • / • — • — / •— — | | |
| 2 | Rəməl (Qaçan) | 1 | **FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilAtün** | 2 | 194 |
| | | | — •— — / — •— — / — •— — / — •— — | | |
| | | 2 | **FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün** | 66 | |
| | | | — •— — / — • — — / — • — — / — •— | | |
| | | 3 | **FA'ilAtün / fA'ilAtün / fA'ilün** | 3 | |
| | | | — •— — / — • — — / — •— | | |
| | | 5 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün** | 12 | |
| | | | • • — — / • • — — / • • — — / • • — — | | |
| | | 6 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün** | 108 | |
| | | | • • — — / • • — — / • • — — / • • — | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | 8 | **Fə'ilAtün / fə'ilAtün / fə'ilün** | **3** | |
| | | | • • — — / • • — — / • • — | | |
| 4 | **Rəcəz (Titrək)** | **1** | **Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün** | **4** | **24** |
| | | | — — • — / — — • — / — — • — / — — • — | | |
| | | **1A** | **Müstəf'ilAtün / müstəf'ilAtün / müstəf'ilAtün / müstəf'ilAtün** | **1** | |
| | | | — — • — — / — — • — — / — — • — — / — — • — — | | |
| | | **3** | **Müftəilün / məfA'ilün / müftəilün / məfA'ilün** | **3** | |
| | | | — • • — / • — • — / — • • — / • — • — | | |
| | | **8** | **Müftəilün / müftəilün / müftəilün / müftəilün** | **16** | |
| | | | — • • — / — • • — / — • • — / — • • — | | |
| 5 | **Müzare (Bənzəyən)** | **1** | **Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün** | **69** | **80** |
| | | | — — • / — • — • / • — — • / — • — | | |
| | | **2** | **Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün** | **11** | |
| | | | — — • / — • — — / — — • / — • — — | | |
| 6 | **Münsərih (Axıcı)** | **1** | **Müftəilün / fA'ilün / müftəilün / fA'ilün** | **18** | **18** |
| | | | — • • — / — • — / — • • — / — • — | | |
| 7 | **Müctəs (Qopmuş)** | **1** | **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilAtün** | **6** | **38** |
| | | | • — • — / • • — — / • — • — / • • — — | | |
| | | **2** | **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün** | **32** | |
| | | | • — • — / • • — — / • — • — / • • — | | |
| 8 | **Mütəqarib (Yaxın)** | **1** | **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün** | **2** | **3** |
| | | | • — — / • — — / • — — / • — — | | |
| | | **1A** | **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ul** | **1** | |
| | | | • — — / • — — / • — — / • — — / • — | | |
| 9 | **Xəfif** | **1** | **Fə'ilAtün / məfA'ilün / fə'ilün** | **2** | **2** |
| | | | • • — — / • — • — / • • — | | |
| 10 | **Səri (Cəld)** | **1** | **Müftəilün / müftəilün / fA'ilün** | **1** | **1** |
| | | | — • • — / — • • — / — • — | | |
| 11 | **Kamil** | **2A** | **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün** | **16** | **16** |
| | | | • • — • — / • — — / • • — • — / • — — | | |
| **Cəmi** | **Bəhr 10** | | **Qəlib 28** | | **Şeir 529** |

Cədvəldən göründüyü kimi **divanda əruz vəzninin Azərbaycan şeirində işlənən on bəhrinin 28 müxtəlif qəlibindən istifadə edilmişdir**. Yuxarıda qeyd etdiyimiz kimi bunlardan **dörd qəlib ədəbiyyatımızda ilk dəfə Ağakərim Nafiz Şirvani tərəfindən işlədilmişdir.**

Divanda istifadə sayına görə birinci yerdə **Rəməl bəhri** ilə yazılmış seirlər gəlir. Bu şeirlərin ümümi sayı 194-dür. Burada ən çox, 108 dəfə istifadə olunan **"Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün"** qəlibdir. İstifadə sayına görə 2-ci yerdə **Həzəc bəhri** ilə yazılmış şeirlər gəlir. Bunların ümümi sayi 153-dür. Bu bəhrdə ən çox 70 dəfə istifadə olunmuş **"MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün"** qəlibidir. **Müzare bəhri** ilə yazılmış 80 şeir sayca üçüncü yerdədir və burada 69 dəfə istifadə edilmiş **"Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün"** qəlibdir.

Əkrəm Cəfərin tədqiqatlarına əsasən (Cəfər, 2010) Ne'mətullah Kişvəri 5 bəhrin 12 qəlibində, İmadəddin Nəsimi 9 bəhrin 19 qəlibində, Şah İsmayıl Xətai 4 bəhrin 7 qəlibində, Məhəmməd Füzuli isə 10 bəhrin 24 qəlibində (rübailəri daxil edilməklə 30 qəlib) şeirlər yazmışdır. Müqayisə bir daha göstərir ki, Ağakərim Nafiz əruzun 10 bəhrində 28 müxtəlif qəlibdə şeir yazaraq bir şair tərəfindən müxtəlif bəhr və qəlib istifadəsinə görə klassik ədəbiyyatımızdan günümüzə kimi yüksək zirvəyə çatmışdır. **Bu qəliblərdən dördü Azərbaycan ədəbiyyatında ilk dəfə istifadə edilmişdir.**

Məlumdur ki, divanların müqayisəsində bəhr və qəlib sayıyla yanaşı ona daxil olan qəzəllərin qafiyələrində ərəb əlifbasının neçə hərfi ilə bitməsi də mühüm rol oynayır. Mehmet Akkayanın tədqiqatında (Akkaya, 1996) 14 divanı müqayisəli tədqiq edilmiş, onların qəzəllərinin qafiyələrində Ərəb əlifbasının 28 hərfindən aşağıdakı sayda hərf işlədildiyi göstərilmişdir: Yunis İmrə – 17, Şeyhi – 21, Nəsimi – 18, Necati – 27, Hayali – 23, Cevri – 21, Hayrəti – 25, Üsuli – 21, Naili – 21. Əhməd Paşa, Zati, Mühibbi, Taşlıcalı Yahya Bəy, Şəmsi Paşa, Şeyxülislam Yəhya – bütün hərflərdən qəzəlləri mövcud olan şairlərdir. **Ağakərim Nafiz Şirvaninin divanındakı qəzəllərdə də ərəb əlifbasının bütün hərflər işlədilmişdir.**

## DİVANIN DİLİ

Divanin dili əlbəttə ki, XVII-XIX əsr Azərbaycan dilidir, burada çoxlu sayda ərəb və fars sözləri işlədilib. Xüsusən də təxmis və nəzirələrdə bunun belə işlədilməsi vacib idi, cünki XIII-XIX əsr şairlərinin dilinə uyğun yazılmalı idi.

Divanda bəzi yerlərdə sözlər **dialekt** və ya klassik ədəbiyyatımızda işlənildiyi kimi: Dutdi (16 dəfə ) – tutdu, qalıbdur (2) – qalıbdır, nədür (51) – nədir, degil (18) – deyil, öyin (8) – evin, göylüm (8) – könlüm, yürəgim (5) – ürəyim – istifadə edilib. Məsələn, bu aşağıdakı 2 misrada olduğu kimi:

Ağzım sulani, qırmızı şafdalu deməkdən.
...
Şərm etmədilər kəsdigi ol nanü nəməkdən.

Göründüyü kimi sulani – sulanır, şafdalu – şaftalı, kəsdigi – kəsdiyi yuxarıdakı misralarda dialektdə işlənmişdir.

**Dini terminlər** baxımından aşağıdakılar ən çox işlədilənlərdəndir: Allah (22 dəfə), yarəb (12), Xuda (9), Adəm (8), Nuh (6), Davud (9), Yusif (24), Musa (8), Məryəm (5), İsa (11), Məsih (9), Mühəmməd (7), Rəsuli-Əkrəm (3), Rəsulallah (8), Əli (20), Heydəri-Kərrar (4), Xızr(11), Tövrat, İncil, Quran (4), namaz (12), şeytan (9).

**Tarixi və rəvayətlərdən götürülmə adlar**dan bunlar daha çox işlədilib: Züleyxa (24), Məcnun (58), Qeys (8), Leyli-Leyla (46), Şirin (27), Fərhad (36), Xosrov (10), İskəndər (10) , Zülqərneyn (3), Vamiq (10), Əzra (7), Dara (20), Loğman(9), Rüstəm (15).

Əlbəttə ki, **qəzəl ədəbiyyatına xas kəlmələr** bu divandakı şeirlərdə də öz yerini almışdır: eşq (353), aşiq (98), vəfa (100), saqi (59), şərab (21), meyxanə (53), mey (21), bülbül (91), könül (23), qəlb (118), dilbər (28), nigar (25), gözəl (59), səfa (76), ləb (42), olmaz (92), əziz (33), xəyal (118), canan (53), rə'na (19), insan (42), əğyar (22), bəxt (32), canım (63), sevda (55), pərvanə (58), zülf (230), rəqib (23), zahid (16), peykan (11), hicran (74), hicr (50), divanə (51), hikmət (18), fələk (33), həqiqət (25), fərağ (89), cəfa (76), yarə (43), şə-

kər (şəkərxan, şəkərxab, şəkərbarı və s.) (51). Göründüyü kimi şeirlərdə "eşq" 353 dəfə və "zülf" 230 dəfə işlədilmişdir.

Ağakərim bahar şairidir və xəzan, zimistandan (35) çox divanında baharın adı çəkilir (58): Bahar (40), nobahar (9), novruz (9), xəzan (32), zimistan (3), gül (gülzar, gülşən və s.) (400 dən çox), lalə (51), qönçə (24). Gül, lalə, qönçə sözləri də Ağakərimin sevdiyi və şeirlərində istifadə etdiyi sözlərdir.

Ağakərimin **coğrafi adlar**dan istifadəsi də aşağıdakı şəkildədir: Cahan (95), Dünya (83), Şirvan (56), Buxara (6), Səmərqənd (5), Bədəxşan (11), Düşənbə (2), Bağdad (14), Çin (11), Təbriz (5), İran (3), Muğan (20), Qaf (15), Dəclə (2), Fərat (4), Ceyhun (4), Nil (2), Ərzrum.

**Muğam və musiqi üzrə işlənən sözlər:** Ağakərim Nafiz saqinamələrində və eləcə də bir sıra başqa qəzəllərində müğam və müğam şöbələrinin adını çəkmişdir: "Rast" (7), "Sarəng" (10), "Nəva" (20), "Şur" (16), "Dəşti", "Qətar" (6), "Segah" (4), "Şüştər" (3), "Dilkəş" (3) "Mahur" (3), "Zəminxara" (2) "Pəncgah"(2), "Əraq" və s.

Aşağıdakı qəzəl nümunəsində onun necə bir istedadla müğam və müğam şöbələrinin adını bir qəzələ gətirdiyinin şahidi oluruq:

Neyim "**Nəva**"lər eylədi, "**Suzi-güdaz**"ə çəkdi qəm,
Çalıb yoruldu "**Dilkəş**"i rübabü çəngü tardə.

Bu qəmdən istərəm könül, çəkəm "**Həsar**" "**Müxalif**"ə
Ya qəmi rəf' edib keçəm duram "**Ərazbari**"də.

Çəkibdi mülki-könlümə "**Qətar**"ilən sipahlər,
"**Hümayun**" eylə bəxtimi bu cəbr edən "**Qətar**"də.

Müğənnilər kimi dolan bu "**Pəncigah**"ə "**Rast**" elə,
"**Qəməngiz**" eyləsən fəqət, qalarsan ahu zardə.

"**Hicaz**" pərdəsin tutub, təğənni eylə növhələr,
Alıb "**Səmayi-şəms**"i qəm, zühəldi əşkbardə.

***HAŞİYƏ***: Ağakərim Nafiz öz sevimlisi **tənbəki**ni (19) də yaddan çıxarmayib və "**tənbəki**" rədifli bir qəzəl də yaradıb:

**Nafizi**n qəlyaninə şayəstə «Gülgəz» tənbəki,
Canımın canani, ey can tənbəki, can tənbəki.

Divandakı əruz vəzninin təhlili bir daha göstərir ki, şeirlərin tərtibində "qaba" redaktədən qaçmaq lazımdır. Şairin yazı tərzinə diqqətlə yanaşmalı, seirin öz üslub və dialektinə, şeirin yazıldığı dövrün sintaksisini – orfoqrafiya qaydalarını saxlamaq lazımdır. Bu bir daha özünü apostrofun dilimizdən qaldırılması və orfoqrafiyamızın yenilənməsi ilə büruzə verir. Məsələn, "şeir" sözü kecmiş orfoqrafiyada "şe'r", və indi isə "şeir" şəklində yazılır. Bu iki yazılışda söz birhecalı olmaqdan ikihecalı olmağa keçir və hər iki şeir növündə – həm heca həm də əruz vəznində, də problem yaradır.

Bu kitabın tərtibində şairin dilinə heç bir müdaxilə edilməmiş, şairin öz dialekti, öz şivə və deyim tərzi, şeirlərdə apostroflar qorunub saxlanılmışdır.

# DİBAÇƏ

Həqiqətən pəsəndidə kəlamlarının mənasından qəlbə şadlıq və ruhə ləzzət yetişən şeirlərilə sehirlər yaradan şairlərdir. Şairlərin ruhə cila və qəlbə səfa gətirən şeirləri zövq ərbabları məqamında aşikar olmaqdadır. Necə ki, hədisi-şərifdə مينش شعرى لهيكمتون ("minəş-şe'ri Ləhikmətun") bu mətləbin isbatına bir dəlil nişani möcuddur. Mülkün sahibi Allahü Təalaya eşq olsun ki, tükənməz söz xəzinəsindən bu bəndeyi-həqirə də bir pay göndərmişdir. Və həzrəti Rəsulə (həzrəti Mühəmməd s.ə.s.) sənalər olsun ki, alçalmış və təhqir olunmuş nəzm onun lütfü ilə yüksək dərəcəyə yetmişdir.

**Nəzm**
**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

Vücudum odlara yanmış, mənim bu buteyi-zərdən,
Həqiqət əhliyəm, nüsrət gəlibdir, şiri-madərdən.

Mən, Ağakərim Ağa İsrafil oğlu Nafiz təxəllüs, Mir Cəfər ağa Bağırzadə ölkəyə hökmran olan zamanlarda təvəllüd etdim. Erkən yaşlarımdan məndə musiqəyə və şeirə həvəs yarandığından şeir yazıb və şərqilər qoşardım. Lakin atamın şairliyə rəğbəti olmadığından mən bir neçə yaxın rəfiqlərdən özgə heç kəsə şeir oxumazdım. Kəmalə yetdikcə, təbimin səməndi cövlana gəlib mənə şeirlər yazdırmağa başladı. Bu münval ilə bir divan bağlamalı oldum. Əhli-zövqdən rica edirəm ki, qüsurumu əhv etsin.

**Nəzm**
**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

Dindirsən əgər şövq ilə bu xanəxərabi,
Min nəğmə çalar könlümüzün çəngü rübabi,
Aç fatiheyi-naz ilə bu nazlı kitabi,
Fəhm etməmiş əsrarın, əlindən yerə qoyma.

# DİVAN (Mətni)

## MÜNACAT

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Qalmışam hicr ilə, yarəb, qəmi-fərağətdə,
Bulmadım zövqü səfa xaneyi-səadətdə.

2 Can təlaşində ikən hicr güni biçarə,
Göstərib lütfünü, qoyma məni bu möhnətdə.

3 Təriqi-lütf ilə sinəmdəki əmanəti al,
Bir ayri zövqü səfa var deyillə rehlətdə.

4 Mənə düşvar gəlir xəlq tənəsin çəkmək,
Zəmani-ərsədə qoyma məni kinayətdə.

5 Riyayi-dəhri-fənadə nə qədr cövr eləsən,
Rusiyah eyləmə yarəb məni qiyamətdə.

6 Şəriət əhliyəm aləmdə bir həqiqətbin,
Rümuzi-mə'rifətim bəllidi təriqətdə.

7 Axiri-ömrdə mən olmuşam nəmaz əhli,
Təriqəti-hənəfi tutmuşam ibadətdə.

8 Ayağinin tozu aləmdə səcdəgahimdür,
Lütf qıl eylə vəfa **Nafiz**ə inayətdə.

9 İsmi-pakun dilimin əzbəri Rəhmani-Rəhim,
Görmüşəm adını sərloheyi-ədalətdə.

10 İnayət eylə ki, yarəb, qapında möhtacəm,
Gələndə həşr güni qalmayım xəcalətdə.

11 Nə çarə onda qılar, neyləyər bu miskini-zar,
Mühəmmədi-ərəbi olmasa şəfaətdə.

## Əsma’-ül-hüsna[1]

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Cismidə bir nəsnə vardırmı ola candan əziz,
Canım içrə, ruhim içrə kimdi canandan əziz?

2 Canım içrə vardurur bir əl-Məcidü əs-Səməd,
Kim adın zikr eylərəm daim əzizandan əziz.

3 Əl-Müsəvviru Əzizu əl-Əzimu ər-Rəhim,
Əl-Lətifu əl-Həkimü kim bu Rəhmandan əziz.

4 Ər-Raufu Malikül-Mülki, Qəniyu əs-Səbur,
Əl-Cəlilu ər Rəşidu əl-Axir andan əziz.

5 Əl-Kərimu əl Kəbiru əl-Mətinu əs-Səlam,
Ən-Nafiu Qəniyu Hafizdi Xaqandan əziz.

6 Əs-Səmiu əl-Bəsiru əl Əvəlu əl-Axir,
Müntəqimu əl-Vəli, mülki-Süleymandan əziz.

7 Əl-Vəkilu əl-Vəsu əl-Vəhidu ən-Nuru
Ər-Rəzaqu əl-Müqəddim, Baqi sübhandan əziz.

---

1 Allahın gözəl adları

## Rəsuli-Əkrəm (s.ə.v.) mə

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Nəsib eylə mənə bir dəm səadət, ya Rəsulallah,
Edim dərgahi-xakun həm ziyarət, ya Rəsulallah.

2 Fənadən rehlət etməzdən əzəl bu xakə yetsəydim,
Tapardım daği-hicrandan fərağət, ya Rəsulallah.

3 Günahkarəm ki, xaki-payinə üz qoymadım bir dəm
Ki, əfv et cürmimi ruzi-qiyamət, ya Rəsulallah.

4 Mənə sonsuz səadət bəxş edərdi həm əlin öpmək,
Ayağın öpməyim eylər kifayət, ya Rəsulallah.

5 Çəkirsən hər nəfəsdə bəllidür kim ümmətin qeydin,
Yatır amalı-safunda inayət, ya Rəsulallah.

6 Xəlayiq feyzi-hikmət anladi şə'ri-fəsahətdən,
Səninlə gəldi irfanə bəlağət, ya Rəsulallah.

7 Rəva bilsən ətəbatın, kərəm qıl ya Həbibullah,
Bu **Nafiz** də umar səndən şəfaət, ya Rəsulallah.

## I SAQİNAMƏ

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Saqiya, lütf elə əbkəm meyi-minani gətir,
Ayağın qoy gözümün üstünə canani gətir.

2 Nobəhar oldu, dur işrət dəmidür məstənə,
Cami-Cəmşidi götür, badeyi-həmrani gətir.

3 Bəzm ara cuşə gəlib çəngü dəfü bərbəti-ud,
İxtilat eyləməyə söhbəti-irfani gətir.

4 Aç bəsirət gözüvi, seyr elə ruh aləmini,
Tükənib səbrü qərarim Şəhi-Mərdani gətir.

5 Nəfəsi-badi-səba həzrəti İsa dəmidir,
Ruhi-canpərvəri-Məryəmlə Məsihani gətir.

6 Turi-Sinadə nədəndür ki, göstərib cilvə,
Gör nədir turi-təcəllə, yədi-beyzani gətir.

7 Gətirən Qüdsə Səbadən nə idi Bilqeysi,
Bilməyirsənsə əgər, onda Süleymani gətir.

8 Ya dutub Nuh ətəyindən çıxsan dəryadən,
Tutmasan onda təlatümləri, tufani gətir.

9 Yusifin dərdi Züleyxani pərişan etdi,
Dərdi-zindani açıb Yusifi-Kənani gətir.

10 Bircə cami-Cəmə dəyməz biləsən mülki-Kəyan,
Yeri isbatına İskəndərü Darani gətir.

11 Bil gözün fikri məni, saqi, hünərdən saldi,
Xeyrxahimsən əgər həzrəti-Loğmani gətir.

12 Meyi-eşqi süzübən həzrəti-Mövla dayanıb,
Əmr edir: fəqrdi ol **Nafizi**-nalani gətir.

## II SAQİNAMƏ

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Xanəndə gərək sən'ətinə baxəbər olsun,
İnsanlara ruh verməyə onda hünər olsun.

2 Əxz eyləsin hər sirrini tar ilə kəmanın,
Zəngli dəfinin yanlari dürri-gühər olsun.

3 Düz qaməti, cazib geyimi, bərli-bəzəkli,
Hər yanə ətir çiləsin, tazə-tər olsun.

4 Sərf eyləsin öz ömrünü ahəngü nəvayə,
Sövtündə "zirəfkənd"i-çərəkpərdə pər olsun.

5 Söz mülkünə vaqif ola xanəndə olanlar,
Dəstgahə bəzək vurmağa şux bəstələr olsun.

6 "Rast"ından onun aləmə hikmətlər açılsın,
Xaqani-kəbirdən xələt olsun, nəmər olsun.

7 Gər "Şur" oxumaq şur ilən, əlbəttə, hünərdir,
Ta nəğmeyi-"Nəva"də təğəzzül nələr olsun.

8 Gər gəlsə yenə əzm ilə meydanə "Çahargah"
"Firuzi-Həsaf"dan sora gəlsin səhər olsun.

9 Həngami-"Hümayun"dur otur təxtgahdə,
Əsrarinə hikmətlər açan "Şüştər" olsun.

10 Var mahiranə "Mahur"a çox ehtiyacımız,
"Dadi-Bidad" "Əraq"inə qabilhünər olsun.

11 Davudnəfəs olsun dəxi "Segah"ə yetəndə,
Ya bülbüli-şeyda, ya da "Sarəng" ötər olsun.

12 Bu bəzmə yığılsın nə qədr arif olan var,
Məclisdə dəmadəm meyi-gülrəngi-tər olsun.

13 Saqi, kərəm et **Nafizə** də bircə qədəh ver,
Nuş eyləsin eşq ilən onu bəxtəvər olsun.

## III SAQİNAMƏ - Şirvan xanəndələrinin vəsfi

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Kərəm et, məclisə, saqi, meyi-səhbanı gətir,
Mürdəyə ruh verən, ol fərəhfəzanı gətir.

2 Qəm büsatından ayır, şurə gətir Məcnuni,
Ondan qəm dəf´inə ol həzrəti Leylanı gətir.

3 O mahruləri Çindən gətirin Şirvanə,
Düxtəri-Nəxşəb ilə külli Buxaranı gətir.

4 Gətir ol şəxsi təmaşasına aləm yığıla,
Yusifin qoyma gözün yolda Züleyxanı gətir.

5 Zövq ilə şövqə gətir Mirzə Məhəmməd Həsəni[1],
Şahi-İrani çağır, Xosrovü Xaqanı gətir.

6 Mirzə avazi – "Hicaz" ilə əgər cuşə gələ,
Cəng meydaninə İskədərü Daranı gətir.

7 "Çarzəm"ində nə sirr olduğunu bilmək üçün,
Səhabi[2]-Həncərəsaz ilə Nəkisanı gətir.

8 Mirzə Güllər[3] verəcək ayeyi-rəhmətdən əsər,
Sübutinə kitab aç, ayeyi-nisvanı gətir.

9 Şövq ilə zövq ilə Zeynal[4] oxusun "Sarəngi",
Can öyindən bac alır, can quşi, cananı gətir.

---

1 Mirzə Məhəmməd Həsən Fələkzadə (1850-1917)
2 Səhab Xankəndli (?-1948)
3 Mirzə Güllər (XIX əsrin sonu- XX əsrin əvvəli)
4 Sarəng Zeynal (1869-1941)

10 Durgilən məclisi-irfanə gətir Davudu,
Səfiyar[1] olsun ona, böylə xoşəlhanı gətir.

11 Bəsani-Mirzə[2] kimi, Mirzə Zülfüqar[3] oxusun,
Tiği-avaz ilə ol xəncəri-bürranı gətir.

12 Bəzmi-üşşaqi necə zilü bəm istərsən əgər,
Çağır Əlyusifi[4] gəlsin, sora İrzanı[5] gətir.

13 Biri "Dilkəş" oxusun, digəri "Zəminxara",
Bu bəzmi-təntənəyə Soltanı[6], Mərdanı[7] gətir.

14 Gəlsə Nailpaşa[8] bu məclisimiz şurə gələr,
Durgilən bəzmə şəkərdani, nəməkdanı gətir.

15 Bəllidür kim Muradın şakəri "Segah" ilədür,
Büsati-eyşə Sənəm oğlu[9] tək oğlanı gətir.

16 Hanı ol nəğməsəra dinləyin Eynullahi[10],
Seyri-gülzarimizə bülbüli-nalanı gətir.

17 Kuri-kuranə gedib gəşt eləmə səhrani,
Gedibən Kür qırağından Atamoğlanı[11] gətir.

18 Neynəva səmtinə bir tutizəbandur Tofiq[12],
Kərbəla mülkünə ahəngi-"aşuran"i gətir.

---

1 Davud Səfiyarov
2 Bəsani Mirzə
3 Mirzə Zülfüqar
4 Əlyusif Qənizadə (1911-1971)
5 İrza Qənizadə
6 SoltanMahmud Məmmədzadə
7 Mərdan Ələkbərov
8 Nailpaşa - Nail Məhərrəmov (1927-2008)
9 Murad Sənəm oğlu - Ağamurad Kazım oğlu Əliyev (1930-2015)
10 Eynullah Cəbrayılov (1935 - 1992)
11 Atamoğlan Fətəliyev
12 Tofiq Babayev

19 Ağalar[1] handadı bu məclisə bir "Şur" oxusun,
Lə´li-gövhər saçan ol sövti-şəkərxanı gətir.

20 Məqamı-"Rast" ilə gəlsin görəlim İbrahim[2],
"Çargah" etməgə əlbəttə Zəkixanı[3] gətir.

21 Ey Mütəllim[4] həvəsi-silsileyi-təb´in ilə,
Bir "Şikəstə" oxuyub səslə Əvəzxanı[5] gətir.

22 Musiqi əhli gərəkdür ki, xoşcəmal olsun,
Soruşun sanihələrdən ki, Camal[6] hanı, gətir.

23 Çağırın Alimi[7] bu mərəkəni saz eləsin,
Dəmlər e´cazına xanəndyi-dövranı gətir.

24 Mələkxanım[8] da bəzənsin ərusi musiqitək,
Qogilən zülməti bəzm içrə çırağbanı gətir.

25 Kürdəmir əhli gərəkdür yığıla Çarhanə,
Onların bəzminə Yaqub[9] ilə Qurbani[10] gətir.

26 Gətirin Zabiti[11] "Zabul" oxusun ahəstə,
Sövtünə məmləkəti-külli-Qobustani gətir.

27 Büsati-həngidə bir nalə çəkər Elnarə[12],
Şəbi-xürsəndimizə Leyliyi-nalani gətir.

---

1 Ustadım Ağalar Əhmədşah oğlu
2 İbrahim Zabitov
3 Zəkixan Kürdəmirli
4 Mütəllim Dəmirov
5 Əvəzxan Xankişiyev
6 Camal Dadaşov
7 Alim Qasımov
8 Mələkxanım Əyyubova
9 Yaqub Çarhanlı
10 Qurban Kürdəmirli
11 Zabit Nəbizadə
12 Elnarə Abdullayeva

28 Səməndi-tə´binə cövlən verə İsmail[1] xan,
Nəreyi-təntəneyi-nəhri-Girdimani gətir.

29 Hani Ne´mət[2] bu arada oxusun "Şəhnaz"i,
Sora dəstərxan açıb ne´məti-əlvani gətir.

30 Bala Zeynal[3] duruban onda sərəfraz eləsin,
Səmini-xəl´ət üçün gövhəri-qəltanı gətir.

31 Xəyalə[4] nəğmələr içrə xəyalə daldıqca,
Deyir nəğamətə davər ədəbərkani gətir.

30 Səhneyi-nəğmədə güllər açıb hanı Abigül[5],
Güli-xoşrayihələrlə o gülüstani gətir.

31 O güli-laləni gülşəndə vəsf edər Vasif[6],
Gedib Qaladərəsindən gülü-rə´nanı gətir.

32 Mirələm[7] nəğmeyi-uşşaqdə qaldırsın ələm,
Məxluqati-fərəhi-ərsəyə Şirvani gətir.

33 Gətirin şə´ninə bir nəğmə qoşa dildarın,
Hanı xanəndəmiz ol **Nafiz**i[8]-şeydani gətir.

---

1 İsmail Girdimançaylı
2 Ne´mət Ərəboğlu
3 Zeynal Əhmədov
4 Xəyalə Abdullayeva
5 Abigül Mirzəyev
6 Vasif Nuruyev
7 Mirələm Mirələmov
8 Ağakərim Nafiz

## QƏSİDƏLƏR

### Əmirəl mö'minin Əli ibn Əbutalibə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Olmusan nuri-təbiətdən nümayan, ya Əli,
Ey olan aləm ara lə´li-dirəxşan, ya Əli.

2 İsmi-ə´zəmdən təzahür eyləyibdir surətin,
Qədri-qüdrətdən yaranmış miknəti-can, ya Əli.

3 Əvvəl idin bu müəmmanın vəfali aşiqi,
Sülhi-rizvandan yarandın xəlqi-xaqan, ya Əli.

4 Məğribi-Məşriqdə gəldi ismi-şanın cövhəri,
Çoxlar olmuşdur sana ondan sənaxan, ya Əli.

5 Vadiyi-vəhdətdə ikən fe´lüvə sübhanəkə,
Fe´li-irfan olduğundandi bu sübhan, ya Əli.

6 Əşrəfi-nuri-Mühəmmədi təbibi-şəfqətin,
Hər səvabi-səbr ilə ayati-Qur´an, ya Əli.

7 Ey məni miskin könüldə sirri-halim Sərhədi,
Səndən istər bir şəfa bu cism, bu can, ya Əli.

8 Gərçi sən şiri-Xudasən, indi tədbirin nədi,
Göz tikibdir rahinə əhli-müsəlman, ya Əli.

9 Sən kimi qüdrətli qüvvətdə yaranmış yox hələ,
Ol səbəb heyran olubdur əhli-iman, ya Əli.

10 Almısan tədrisi-eşqi Müstəfadən böylə kim,
Bir günəşsən, nur alır səndən bu ümman, ya Əli.

11 Daima gözlər yolun qəlbində eşqün, hörmətün,
Olgilən əhli-müsəlmanə nigəhban, ya Əli.

12 Ya Əli, minlərlə təriflər yazıldı aduva,
Tapmıram bir söz yazam kim ola şayan, ya Əli.

13 Babi-Xeybərdə görübdür cümlə aləm qüvvətin,
Zərbinə təslim olub yüz kafəristan, ya Əli.

14 **Nafiz**a, izhar qıl öz dərdüvi, istə dəva,
Bir odur, təkcə olan, hər dərdə dərman, ya Əli.

## Ustadım Ağalara

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Ey nəğəmata zaminində nümayan Ağalar,
Ey olan ərseyi-eşq içrə dirəxşan Ağalar.

2 Hər ziyafətdə ikən təntənəli "Şur" oxuyan,
Oldu "Şur"un necə də xak ilə yeksan Ağalar.

3 "Bayatı-qacar"uvun misli yox idi hərgiz,
Təxtidən saldı "Çahargah"i "əşiran" Ağalar.

4 Oxuyardın ki, "Zəminxara"ni məhzun-məhzun,
Həncərənlə "Hicaz" övsafinə tavan Ağalar.

5 Bülbülün bağrıni qan etmiş idi "Sarəng"in,
Qəm büsatında "qəməngiz" sənə meydan Ağalar.

6 Başlayardın ağa, səbr ilə nəğmeyi "Rast"i,
"Pəncgah" ilə "Ərəq"də dəxi tüğyan Ağalar.

7 Məşqi-eşq ilə gəlib cuşə titrədən Qafi,
Ey avaziylə çapan lə´li-Bədəxşan Ağalar.

8 Sağluğunda necə də qiymətüvi bilmədilər,
Bu xəyanətlə dağılsın Baki-Şirvan Ağalar.

9 Bu əziz xatirənə bir qəzəl ithaf etdim,
Hünər içrə hani bir Xosrovü xuban Ağalar.

10 Heyf o avazə ki, bir yerdə onu yazmadılar,
Məqami-ərsədə göstərmək üçün xan Ağalar.

11 Qanə batsın fələkin çərxi, ey böyük ustad,
Qalmışam qəmlər əlində gözü giryan Ağalar.

12 Özün öldünsə səsin ölməmişdi aləmdə,
Dolub avazın ilə külli-asiman Ağalar.

13 Mələklər aldi apardi səni bu aləmdən,
Cənnətin bağına bir bülbüli-xoşxan Ağalar.

14 Mülki-Şirvanda o bir həncəreyi-xocəstə,
Vəsfinə aciz olub, **Nafiz**i-nalan Ağalar.

# MÜRƏBBELƏR (DÖRDLÜKLƏR)

## ~ 1 ~

### Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün

- I -

1 Dəmadəm könlümün bürci təbiətdən düşüb getdi,
2 Abü atəş xakü badi hər cəhətdən düşüb getdi.
3 Çünki aşiqlərin qəlbi e´tiqaddan düşüb getdi.
4 Müstəcab olmaz dualər şərafətdən düşüb getdi.

- II -

1 Sınıq ney tək nəvaləndim dadü fəryad arasında,
2 Fələkdən qəlpələr dəydi bizə, imdad arasında.
3 Neçə ordenli şagirdlər gəzir ustad arasında,
4 Neçə ustadlar şərmü xəcalətdən düşüb getdi.

- III -

1 Bəni-Adəmdə şakərdi, ümid eylər bu dünyayə,
2 Riyazətdən keçər meylin salar zülfü səmənsəyə,
3 Varanda Məkkəyə Haci xiyalın verdi sevdayə,
4 Kə'bə qılmaq fikri bunca ziyarətdən düşüb getdi.

- IV -

1 Xətakarlıq bazarında meydan açıbdı oğraş,
2 Kimsədə öylə cür'ət yox, ata namərdə bir daş,
3 Görün kim mərdin övladi olub namərdə yoldaş,
4 Ər oğli ərligindən, həm şücaətdən düşüb getdi.

- V -

1 Şikəstə **Nafiz** eylər ömrdən hər dəm nədamətlər,
2 Zəif oldum, qocaldım, yox cavanlıqdan əlamətlər,
3 Təbiblər dutdi nəbzimdən, dedi qəmli hekayətlər,
4 Mənim nasaz olan könlüm səlamətdən düşüb getdi.

## ~ 2 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

- I -

1 Sayeyi-zülfündə, cana, bunca artar dövlətim,
2 Aləmi-hürriyyətə varmış bu gün cəm’iyyətim,
3 Nəzmi-nazik ilə dutmuşdur cahanı şöhrətim,
4 Aləmi-mə΄nadə dastani-səzadur himmətim.

- II -

1 Hər nəfəsdə gərçi icad eylərəm mən bir nəva,
2 Gərçi zöhd əhli mana bu payəni qılmaz rəva,
3 Söylərəm eyham ilə ey parsa, ey binəva,
4 Ehtişami-nəğmədə Davudnümadur sən΄ətim.

- III -

1 Mə΄rifət təxtində nurdan geymişəm gülgün qəba,
2 Bir müsəlmanəm ki, dildə əzbərim ali-əba,
3 Xudpəsəndlər zümrəsinə söylərəm ey binəva,
4 Mən fəqirəm, almışam ol Mustafadan xəl΄ətim.

- IV -

1 Aləmi-xilqətdə mən rahi-vəfa abdalıyam,
2 Bil ki, ilhami-lətafət, rahi-eşqin Zalıyam,
3 Kəsrəti-meyxanədə məhbubi-meydən halıyam,
4 Zindəgani-eşq ilə təxmir olubdur tinətim.

- V -

1 Olmadım həmrahi mən Məcnun kimi divanənün,
2 Nari-eşqindən tutmuşdum yandım ol pərvanənün,
3 Gərçi dərdindən ölürsəm ol büti-məhparənün,
4 Ehtiraqi-buteyi-qəmdən yapulsun turbətim.

- VI -

1 İmdi məşhurəm dəxi Məcnun duşub ovraqdən,
2 Zər misali keçmişəm mən buteyi-bərraqdən,
3 Surəti-əfsanətək Fərhadi saldım dağdən,
4 İmdi bir əfsanətək, **Nafiz**, yetibdir növbətim

## MÜXƏMMƏSLƏR (BEŞLİKLƏR)

**~ 1 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

\- I -

Tutuşdu şəm´ tək yandı bu cani-cövhərim sənsiz,
Bu qədri qəmlər içrə əqldən düşdü sərim sənsiz,
Gətirdi yek dəmadəm rahi-eşq içrə zərim sənsiz,
Pərişandır fərağində, tökər qan gözlərim sənsiz,
Könül şəhrim olub qarət, inan, ey sərvərim, sənsiz.

\- II -

Günüm sənsiz olub tirə fəğani-ahu zar ilə,
Xəzan oldi, gülüm soldi, işim yox novbahar ilə,
Qalıbdır əndəlib könlüm dəmadəm intizar ilə,
Qılıb zülfün qəra bəxtim, bu qarə ruzigar ilə,
Sitarəm qarə, neylim, ey mahi-münəvvərim sənsiz.

\- III -

Bu hüsn ilə ayağinə düşübdür zülfi sünbüllər,
Vəfa əhli olanlarda gərək olsun şirin dillər,
Fəqət eşqində Fərhadəm, dutub dövrüm tənəzzüllər.
Pərişan oldi eşqimdəki, nərgislər, qərənfillər,
Düşüb getdi lətafətdən güli-nilufərim sənsiz.

\- IV -

Olar valeh sənə üşşaq, görər səndən kərəm kəmdir,
Fəğan eylər yenə üşşaq, məgər mahi-məhərrəmdir?
Ələmdən, iztirablardan fəqət kim didəpürnəmdir,
Və odlar sinəmi hicran, yerim sənsiz cəhənnəmdir
Ki, qiymətdən düşüb getdi bəhayi-gövhərim sənsiz.

\- V -

Bu qəmlər kim çəkirdim mən o məhruyə əyan idi,
Fəğan eylərdi bülbüllər ki, lalə köksü qan idi,
Qəmi-eşqi-fərağ ilə zəmanım ol zəman idi,
Mənim təb´i-rəvanimdə bütün şe´rim rəvan idi.
Kənar oldu rəvanlığdan dilimdə əzbərim sənsiz.

- VI -

Pərirulərdə adətdir, bu eşqi bilüzum eylər,
Yıxallar Bisütuni, qülleyi-Qafə hücum eylər,
Əridər bağrımın yağın, əlində misli mum eylər,
Bu dərdin rahi-tədbirin nə məntiq, nə nücum eylər,
Cəfayə tab edər **Nafiz**, deyər Allah Kərim sənsiz.

**~ 2 ~**

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

- I -

Gəldi xəyalə ol güli-rə´na səhər-səhər,
Doldi məşamə ənbəri-sara səhər-səhər,
Gör laləlһndi ol rüxi-ziba səhər-səhər,
Saqi gətirdi bir meyi-mina səhər-səhər,
Düşdi xumarə nərgisi-şəhla səhər-səhər.

- II -

Sanma bu rəvayətləri bir mətni-məcazi,
Gəl dinləyəlim ərşdən avazi-hicazi,
Bülbül balabani götürüb, qumri də  sazi,
Sübhün dəmidir başlagilən razü niyazi,
Bu zikr ilə başlandı əzana səhər-səhər.

- III -

İnsani məzəllətdə qoyandi qoca dünya,
Sirrin biləməz rəmz ilə bir aqilü dana,
Bilsəydim əgər gəlməz idim mən bu cahana,
Aşiqləri salmış bu qədər ahü fəğana,
Fırlandi genə başıma dünya səhər-səhər.

- IV -

Aləmləri saldı yola dünya özi durdi,
Üsyan edənin dutdi qulağın necə burdi,
Pəhluyi-nizamın neçə divanəyə vurdu,
Cəng eyləyibən ərzdə bir mə´rəkə qurdi,
Gümrah olub İskəndərü Dara səhər-səhər.

- V -

Zülfi-sənəmi-yardə heyranlıq olursa,
Canım nigəhi-qəmzədə qurbanlıq olursa,
Ovqatımız eşq ilə fəravanlıq olursa,
Yar ilə aramızda bir insanlıq olursa,
İlhamə gələr Nafizi-şeyda səhər-səhər.

**~ 3 ~**

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

- I -

Ey saqiyi-peymaneyi-səhba belə getdim,
Tapdım dəxi mən bəzmdə həmta belə getdim,
Qoymam səni qəmxanədə tənha belə getdim,
Meyxanədə mən bir meyi-mina belə getdim,
Bir gəlmiş idim, ey büti-ziba belə getdim.

- II -

Gəldim genə didarüvü görmək mənə müşkül,
Nilufər içində dəxi əfsürdədi ol gül,
Həm eyləmədi sübhə kimi hövsələ bülbül,
Vardi bu rümuzatıda mə´na belə getdim,
Bir gəlmiş idim, ey büti-ziba, belə getdim.

- III -

Rüsxət verilibdir mənə meyxanələr içrə,
Müğlər görünür çeşmimə peymanələr içrə,
Təkmil elədim dərsimi fərzanələr içrə,
Peymanəni yıxdım dəxi aya belə getdim,
Bir gəlmiş idim, ey büti-ziba, belə getdim.

- IV -

Fərhad kimi tişəni al çıx genə dağə,
Bilməm necə təmkin edə Şirin bu fərağə,
Eşq içrə hərə qoydi məni bir cürə lağə,
Tən eyliyəli Vamiqə, Əzra belə getdim,
Bir gəlmiş idim, ey büti-ziba, belə getdim.

- V -

1 Bir də görüsən bəzmdə şonqar ilə **Nafiz**,
2 Dəf aldi ələ sazü neyi-tar ilə Nafiz,
3 Lə´lün həvəsiylə düri-şəhvar ilə Nafiz,
4 Bir dürri-yetim ilə vaveyla belə getdim,
5 Bir gəlmiş idim, ey büti-ziba, belə getdim.

## ~ 4 ~

### Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün

- I -

1 Qəlbimin sultani sanmışdım cahanda mən səni,
2 Noldi birdən canımın oldun zəhərli düşməni,
3 Ey mənim əski rəfiqim, ey hərifim, ey dəni,
4 İstəyirsən çək biçağın, qətl elə, öldür məni,
5 Söyləsinlər bir fəqiri öldürüb bir ərməni.

- II -

1 Gəl büsati-eşqdə nadani göftar eyləmə,
2 Olmusan atəşpərəst Nəmrudi təkrar eyləmə,
3 Gərçi azadəm, məni dərdə giriftar eyləmə,
4 Bülbüli-biçarəni gülşən ara xar eyləmə,
5 Çünki layiqdir cahanda bülbülə gül xirməni.

- III -

1 Canimi al, qanımi tök, yıxma könlüm xanəsin,
2 Vermə taracə həsədlə səbrimin kaşanəsin,
3 Tutma kim, töhmətlərə meyxanənin məstanəsin,
4 Bir cəfayi-səng ilə həm sındırıb peymanəsin,
5 Çalma ol peymanənin başinə gürzi-ahəni.

- IV -

1 Mən büsati-eşqdə qət´ etmişəm ülviyyəti,
2 Saflıq mənzilətində bağlaram ünsiyyəti,
3 Bil ki, ögrətməm sənə, tədrisi-dərsi-hikməti,
4 Söyliyərsən **Nafiz**in yoxdur səzayi-miknəti,
5 Bu rəzil aləmdə aya mən fəqirəm sən qəni.

## MÜSƏDDƏS (ALTILIQ)

### ~ 1~

### Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

- I -

Gülzari-məlahətdə mərarət belə olmaz,
Bir dəm sitəmi-yarə nədamət belə olmaz,
Gərçi ədəb-ərkanə riayət belə olmaz,
Aşiqliyin ovsafinə halət belə olmaz,
Pünhan eləmə eşqi, əmanət belə olmaz,
Gülsən, gözəlim, güldə lətafət belə olmaz.

- II -

Saxla bəlali eşqimi qəlbində xatirə,
Bənzət onu boynundan asılmış cəvahirə,
Hər cilvəgahi-tövrdə aldanma zahirə,
Dünya sığındi şeş cəhət ilə ənasirə,
Gərduni-fəlakətdə bəsarət belə olmaz,
Ey piri-cahandidə, kəramət belə olmaz.

- III -

Bir kəs ki, verə faidə rəftari-əməldə,
Anın səvabi səbt olunub ruzi-əzəldə,
Daim atalar söylər ani zərbi-məsəldə,
Bir muy əgər görsənə zənburi-əsəldə,
Nə dadi pozulmaz, nə də nəkhət belə olmaz,
Nə qədr şirin olsa da şərbət belə olmaz.

- IV -

Ey qafil, əgər şeyx olusan bir ərazidə,
Dutdun şəhəri mərtəbeyi-imtiyazidə,
Xəlqi-fəqiri töhmət edirsən məcazidə,
Ey zahidi-dana, nə oxursan nəmazidə?
Ey şeyx, gözüm nuri, ibədət belə olmaz,
Mənfur günəhkarə də lə´nət belə olmaz.

- V -

Ol kəs ki, şüğlün eylədi vərdiş gədalığa,
Girməz cahanda bir kəs ilə aşinalığa,
Dünya durunca nifrət ola bivəfalığa,
Nafiz ki, adət etmiş idi biriyalığa,
Qövmi-nücəba içrə dəyanət belə olmaz,
Hər nafizi-xudbində ləyaqət belə olmaz.

# MƏSNƏVİLƏR

## ~ 1 ~

## Mədhi-Ənbiya[1]

### Müctəs-1: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilAtün

1 Cahanın sirrini aşkar edəndə Xaliqi-Cabbar,
Yaratdi Adəmi, dünyayə göndərdi, ola sərdar
2 Ki, sonra Nuhi göndərdi ki, gəlsin məxluq imanə,
İnad etdikdə onlar, aqibət qərq oldu tufanə.
3 Xəlilə yetdigində növbə, Allah bir nida qıldi,
Girib bütxanədə ol dəm təmamən bütləri qırdi.
4 Atanın sözlərinə həm olurkən sidq ilə qail
Ki, qurban etməg istərdi dəmadəm canın İsmail.
5 Cahanə Tanrının hökmiylə bir Yusifliqa gəldi,
Satıldi qul kimi, axir Misir təxtində yüksəldi.
6 Həqiqət ilə idrak et fəqət Fir'oni-Musani,
Onun da dəstinə verdi Xuda mö'cüzi-əsani.
7 Ki, Davudə yetişdi həm gözəl həncər, həmi avaz,
Zəburi nəğmələrlə gör edərdi aləmi e'caz.
8 Cahanın padişahi qıldi ol həzrət Süleymani,
Yetişdi cümlə afaqə ədalət ilə fərmani.
9 Ki, İsa göndərildi aləmə, həm də Məsih oldi,
Nə sirr idi əzamətlə vücudi ruh ilən doldi.
10 Dolandi altı yüz il həm cahanə gəldi bir Əhməd,
Mühəmməd Mustafa naminə zivər oldi bir məsnəd.
11 Rəsuli-Əkrəm olduğni xəyal eylər peyəmbərlər,
Gözün fikrin çəkər nərgis, saçın oxşar sənubərlər.
12 Cahani sərbəsər dutdi onun mə'nali ənzari,
Bu mə'nadən güni-gündən çoxaldi yarü ənsari.

---

1 Peyğəmbərlərin mədhi (tərifi,vəsfi)

13 Əbubəkr ilə dust idi, çağırdi adıni Siddiq,
Onun fəzlü kəlaminə olub cümlə cahan aşiq.
14 Ayıldi, durdi qəflətdən, əyağinə Ömər gəldi,
Olub axirdə Faruğ, dini-islamə səmər gəldi.
15 Onun fəzlindən idi həzrəti Zünnur olub xəndan,
Nə qədri baqidür dünya, pozulmaz  müshəfi-Osman.
16 Onun hikmətsəraində yetişdi Heydəri-Kərrar,
Olub təxti-xilafətdə mətanət ilə istiqrar.
17 Mühəmməd dini izzətlə cahanda bərqərar olsun,
Ölüb kafər xəcalətdən, dolansun şərmsar olsun.

**~ 2 ~**

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 "Fəqiri möhtərəməm, laübaliəm, məstəm,
Cahan kiminsə qoy olsun, mən onda sərbəstəm."[1]
2 Bir aşiqəm nə zəmanim, nə məkanim var,
Nə şöhrətim, nə adım var, nə bir nişanım var,
3 Nə talibi-fərəhəm, ya nə mübtəlayi-qələm,
Nə vəsli-yar ilə mə'sud, nə sinəsində ələm,
4 Nə dövlətim, nə lalim, nə mülkü malim var,
Bu çırpınan ürəyim birlə bir xəyalim var.
5 Nə Tahirəm, nə də Fərhad, nə şəkli Məcnunəm,
Mənimlə həmdəm olan kainatə məftunəm.
6 Nədən yarandı günəş, xəlq olundi bu aləm,
Səbəb nə oldi ki, oldum həyatə mən həmdəm.
7 Nədir işıq saçan ay, göydə min-min ildızlar?
Bu xilqətin mənə məxsus hansı hikməti var.
8 Nədir bu baği-çəmənzar, nədi bu hüsnu bahar?
Nədir bu çay, bu dənizlər, nədir bu ümmanlar?
9 Nədir bu fırtınalar, hökmlər, bu dəhşətlər?
Nədir başımdaki təşviş, nədir bu illətlər?

---

1 Fəqir Ordubadin şeiri.

10 Təriqi-eşqdə ehkami bilməmiş deyiləm,
Mübərizəm, mənə biganədir küdurəti-qəm.
11 Mənim nihayəti yox bir səadətim vardır.
Fəzayi-eşqdə sabit bir halətim vardır.
12 Qoy olmasın qara zülmət zəmani insanın,
Rifahi-ülfət ola imtəhani insanın.
13 Gətir piyaləni saqi dəmi-səadətdür.
Dəmi-səadətimiz də xəyali cənnətdür.
14 Vuraq bu hüsnü fəzayi-cəhani seyr eliyək,
Xumarlanıb bu gözəl xanimani seyr eliyək,
15 Cahan bizə əbədidür, kəmalə yet **Nafiz**,
Kəmalə yetmək üçün, vəsli yarə yet **Nafiz**.
16 Sənin yolunda düşündüm, kəmalə yetdim mən,
Sənin yolunda düşündüm, zəvalə yetdim mən.
17 Düşündüm, anladım indi nədir bu sirri-cəhan,
Sağımda canlı şəhər, sol yanımda "Şaxəndan"[1].

**~ 3 ~**

## Xatirat (məsnəvi)

### Səri-1: Müftəilün / müftəilün / fA'ilün

1 Dilimin əzbəridür bismillah,
Əşhədü la iləhə illəllah.
2 Fikrü zikrim tapıbdı bunda səbat,
Ya Mühəmməd, sənə min-min səlavat.
3 Qurulur imdi həyatım təməli,
Saxla qəmdən təməl ustadı Əli!
4 Açılıb cövrü cəfa mənganəsi,
Dinlə qəlbimdən ötən canlı səsi,
5 Dinlə qəlbimdən uçan canpərvər,
Dəmi-sevdali bir ilhami-səhər.

---

1 "Şaxəndan" – Şamaxıda qəbristan

6 Ki bu, göylərdə gəzən nəğmələri,
Bir sevən qız kimi şən nəğmələri.
7 Mən çalım nəğmələrim, sən dinlə,
Meyi-sevdani içərkən dinlə.
8 Mən yazım, sən də səadətlə oxi,
Sərnəviştimi fəlakətlə, oxi.
9 Qoy bu şe´rim sənə ithaf olsun,
Keçən əşkim kimi şəffaf olsun.

**~ 4 ~**

**Rəməl-8: Fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Bir hərarətli uşağdım o zaman,
Mənə məchul idi vüslət, hicran.
2 Eşq nə olduğuni bilməz idim,
Aşiqin göz yaşıni silməz idim.
3 Bilməz idim ki, sevilmək, sevmək,
Bilməz idim ki, məhəbbət nə demək.
4 Bütün aləm mənə bir cənnət idi,
Xubrulər necə kəmfürsət idi,
5 Dust idik biz o zaman hər ikimiz,
Dadlı bir sevgiyə malikdik biz.
6 Səni gördükdə sən ey munisi-cən,
Ey həyatımda qalan nazlı nişan.
7 Səni gördüm meyə bənd oldi könül,
Bilmirəm hiç niyə bənd oldi könül.
8 Demirəm mən mey üçün getməmişəm,
Demirəm mən meyə meyl etməmişəm.
9 Düşmüşəm mən də çox ol badə ilə,
O xətakar həramzadə ilə,
10 Sevmişəm, amma könül verməmişəm,
E´tibarın mən onun görməmişəm.
11 Çünki bir başqa zəmandi bu zaman,
Badə qan, yerdə də qan, göydə də qan.

## ~ 5 ~

**Rəməl-3: FA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Çoxların hüsnünə heyran oldum,
Çoxların eşqinə mehman oldum.
2 Çoxlar ağuşi-vəfa açdı mənə,
Basdı çoxlar məni öz sinəsinə.
3 Hər keçən eşqdə möhnət buldum,
Hər keçən eşqə, peşiman oldum.
4 Səni gördükdə sən, ey kani-vəfa,
Aradım dərdimə dərmani-şəfa.
5 Sevişib əhd ilə peyman etdik,
Əbədi sevgiyə iman etdik

## MÜSTƏZAD

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

Ey dil, bahari-rövzədə bir ətr saçan ol,
Xəlq içrə əyan ol,
Əfsürdələrin halini görsən nigəran ol,
Bir fəsli-xəzan ol,
Didari əgər hurivəşin olmasa qismət,
Şirinə nə hacət,
Bir sadədilə maili-Leylayi-zəman ol,
Bir afəti-can ol.
Xəlvətdə həlavətlə edəm yar ilə ülfət,
Tari verə fürsət,
Bir güşə tapıb pərdeyi-ismətdə nihan ol,
Bir muyi-miyan ol.
Ol dəm səriri-səltənətə etdi mudara,
Cəmşid ilə Dara,
Fot etməgilən fürsəti bir namü nişan ol,
Məsnəddə Kəyan ol.
Fəryad eləsən dəhrdə hicranın əlindən,
Cananın əlindən,
Ey dil, tərəbi-yardə qəmdən xəfəqan ol,
Bir ruhi-rəvan ol.
Gülzari-çəməndə oxu bu nəğməni **Nafiz**,
“Şur”i-tərəbəngiz,
Aşiqliyi izhar elə, məşhuri-cəhan ol.
Bir gövhəri-kan ol.

## İBRƏTNAMƏ

### Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Ey zülmü şərarət oduna odlanan insan.
Ey dövləti-şöhrət həvəsilə yanan insan.
2 Ey bəd əmələ meyl eləyib qatil olanlar,
Axırda da insan adı qatil olan insan.
3 Allahi danıb dövləti Allah bilənlər,
Bil aqibətin pisdi sənin, bir oyan insan.
4 Axır günü yaddan çıxarıb zalim olanlar,
Ey beşcə gün ömrün əbədiyyət sanan insan.
5 Bir gün gələcək üstünü torpaq alacaqdır.
Bir torba sümüktək qalacaqdır bu can insan,
6 Nə mey, nə gözəllər, nə də şənlik tapacaqsan,
İnsafı atıb zövqü səfayə dalan insan.
7 Sü içməyəcəksən əbədi ac yatacaqsan,
Xım-xım yeyəcək beynini əqrəb, ilan insan,
8 Bil endirəcəklər başuva odlu əmudi,
Əxlaqsız olub şəhvətə, zövqə uyan insan.
9 Ey ailəyə, dosta xəyanət eliyənlər,
Mən-mən deyərək axırı bir heç olan insan.
10 Ey rütbədə, mənsəbdə özün ali tutanlar,
Sən də verəcəksən, onu bil, imtahan insan.
11 Zülm etməgilən, qəlbini sındırma zəifin,
İnsanlığı bayraq elə, heyvan olan insan.
12 Əcdadını, ətfalını bir ləhzə unutma,
Öz bəd əməlindən bir utan, bir utan insan.
13 Fərz eyləyəlim yoxdu nə cənnət, nə cəhənnəm,
Var başqa bir aləm, ya da başqa cahan insan.
14 Bir gəlmiş idi dövrü zəmanə özü getdi,
İsmi-şərəfi ali müqəddər olan insan.
15 Aldatmagilən özgələri, eyləmə fitva,
Bir ləhzə məni gözləgilən, bir dayan, insan.

16 Milyonları salmışdı yola bu qoca dünya,
Axır gedəcək, qalmayacaqdır bu can, insan.
17 Teymurla Bəyazid idi İskəndərü Dara,
Səddamı necə saldı yola bu cahan, insan.
18 Sərsəm demə sən **Nafizə**, var bircə sualım,
Əqlə gələcək sən de görüm bəs haçan, insan?

## BAHARİYYƏ

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Qədin fədası olum, dərdü qüssə həddin aşıb,
Genə könlümdə mənim qəhr ilə aləm qarışıb.
2 Nə bir vəfalı tapılmaz, mənə verə təskin,
Mənə əzkarı-xəyalatım eyləyər təhsin,
3 Dərin düşüncələrilə belə xəyal etdim,
Açıldi qumri zəbanim belə sual etdim:
4 Bahar fəsli yetişdi, nədən nigaransan?
Neçün həvadisi-qəmdən belə pərişansan?
5 Durum ayağə bir az seyri-baği-mənzil edim,
Qəmi-ənduhi könüldən ziyadə tənzil edim.
6 Hali pəjmürdə əgərçi girəm gülüstanə,
Güli-gülzar genə bənzəyər zimistanə.
7 Bu xəyali qəmi-suz ilə yetişdim bağə,
Həm də qəmgin nəzər ilə baxıb sola-sağə,
8 Almışam cani-məşamə gülün təravətini,
Artırıb badə kimi qəlbimin hərarətini.
9 O yanda surət ilə naz edir gülü sünbül,
Bu yanda cuşə gəlibdir, fəğan edir bülbül.
10 O yanda nərgisi-qəmpişə didəgiryandur,
Nədəndi nari-fərağ ilə bağrı büryandur.
11 Bu dəmdə hali-qərənfillər olmada xürrəm,
O yanda bülbüli-şeyda nəvasi bir sülləm.
12 Bu yanda cuşə gəlib nəğməsin oxur şarək,
O yanda güllərə tə´zim edir hər an kələbək.
13 Səlimi-sövtü həzar ilə edib gül xəndə,
Behişt səhnəsi vardur fəqət bu gülşəndə.
14 Rəvadi hörmətə zənbağ, özün qoyub nazə,
Gərəkdi fərq edə dana, o güli-mümtazə.
15 Ehtiyat ilə əsib badi-səbalər çəmənə,
Çəkdi seyğəl həsənat ilə güli-yasəmənə,

16 Nəstərənlər fərəh ilə açıb ayinəsini,
İstinadən güli-gülzarə gərib sinəsini.
17 Söyləyir kim, məni məsrur ilə əttar dutar,
Bağı-gülşəndə bitən cümlə gülləri unudar.
18 Nə xəyal eyləmisən, möhnəti-şəbbu qəminə,
Düşə gərmiyyət ilə dəsti-qəzanın dəminə.
19 **Nafiz**a, sən bu cəhanın mərarətin çəkdin,
Böylə kim səhni-çəməndə güli-ilqa əkdin.
20 Qəm yemə, imdi məzarında bitən laleyi-al,
Söyləyər qəbrimin üstə gələnə hal-əhval.
21 Güli-bənəfşə məzarimdə daim ətr saçar,
Türbətimdə ziyarət eyləyənə sirri açar.

# QƏZƏLLƏR

## 1 - HƏRFÜ’L - “ƏLİF” “ا”

### ~ 1 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Qəmimdən əndəlib öldi ki, xəndan oldimi gülha,
Mənim dərdim füzun oldi, cahanda xeyli müşkilha.

2 Mənə cövrün fəravan et ki, mə´yus olmayım səndən
Ki, dövlətmənd olanlardur rəhi-eşqündə sailha.

3 Cahani dutdi göz yaşim, fəqət qərq oldum ümmanə,
Yetən yoxmu bir imdadə, görünməz oldi sahilha.

4 Yürəgim dəf´ə-dəf´ə qəşy edər şami-fərağində,
Qəmündən qalmayıbdur məndə təmkinü təhəmmülha.

5 Saçından mübtəla könlüm əl üzdi qaldı səhradə,
Dəruni-hali-əhvalim nə bilsün zülfi sünbülha.

6 Bu qanlu köynəyim əldə, görünsün sinəmin daği,
Desünlər yarədürmi, lalədürmi, ya qərənfilha.

7 Əgərçi Kə´beyi-könlüm uçurmaq istəsən, zira,
Dəruni-ahim ilə ondan peydadur əbəbilha.

8 Mənim də bir pənahim vardur ismi Heydəri-Kərrar,
Əlində Zülfüqar oynar, gəlib cövlanə Düldülha.

9 Əgərçi tapmadi **Nafiz**, bu miskin dəhrdə çarə,
Əla ya əyyühəs saqi ədri-kasən və naiülha.

## ~ 2 ~

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Düşübdür daminə könlüm o zülfü piçü tabasa,
Bu qarə günlərə qaldi, həmən ol mişki-nabasa.

2 Məni bir danəyə döndərdi üzdə gəndümi-xalın,
Əzildi unə döndi üstüxanim asiyabasa.

3 Əməl sərdəftərin məndən soruşma, ey məlayikxu
Ki, hicranın əlindən nüsxələnmiş bir kitabasa.

4 Nəğəm girdabinə düşdüm həmən suzi-güdaz ilə,
Yaxam qalmış əlində mütrübi-eşqin rübabasa.

5 Vəfasız yarü ənsarın yolunda paymal oldum,
Nəzərdən ol qədər düşdüm, ayaqlandım türabasa.

6 Qəhərləndim zəmanə möhməlində surətən **Nafiz**,
Süzüldi kasə-kasə qanlı göz yaşim şərabasa.

## ~ 3 ~

**Rəcəz-1A: Müstəf'ilAtün / müstəf'ilAtün / müstəf'ilAtün / müstəf'ilAtün**

1 Mərhəba, çeşmi-siyahim, mərhəba, ey cani-canan, mərhəba,
Mərhəba, gülşən bağında gəz-dolan şadi-firavan, mərhəba.

2 Mərhəba, ey nərgisi-məstim, bəhar oldi yayıldi rayihən,
Mərhəba, qıl bülbüli-şirinnəfəs hər ləhzə nalan, mərhəba!

3 Mərhəba, saət-bə-saət xəstə könlüm, ey müalic eyliyən,
Mərhəba, sübhanəkə, hicr axşami, qıl dərdə dərman mərhəba!

4 Mərhəba! Geydin rəşadətdən müdam qəm köynəyin bu kibr ilə,
Mərhəba olsun sənə, ey Zülfüqari-Şahi-Mərdan, mərhəba!

5 Mərhəba, şe'rin düşüb əldən-ələ, dildən-dilə çün söylənir,
Mərhəba, ey **Nafiz**i-şirinsüxən, şe'ri şəkərxan, mərhəb!

## ~ 4 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Aşiqi biganə qıldın naz ilə, ey dilrüba,
Bu zərafət məzhərində nazinə min mərhəba!

2 Zülfüni çin-çin qılıb gülçini-dəhri-ruzigar,
Çin diyarindən əsən naziktər ol badi-səba.

3 Ey o qəddin sədqəsi, zib etməgə xəyyati-çərx,
Əgninə biçmiş necə pirahəni-gülgun qəba.

4 Dərddən divanə buldum, halimi bir sormadın,
Bu yaman gündə məgər böylə olurmi əqrəba?

5 Xəmsə hicrin çəkməgimdə bir müradım var mənim,
Sayə salsın üstümə e´zaz ilə Ali Əba.

6 **Nafiz**a, əhvalini hər nakəsə şərh eyləmə,
Dərdinə eylər dəva ol Müstəfa, ol Müctəba.

## ~ 5 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Qalmadi tədbirimiz tək yarə minnətdən səva,
Varmi bu dərdin əlaci, dərdi-möhnətdən səva.

2 Can verib cananə yalvardıq, tərəhhüm eyləsin,
Hər nə var lütf eylədi, mehri-məhəbbətdən səva.

3 Bilmədik ki, dəhrdə hər aşiqin öz payi var,
Dərdi-qəm, kəmbəxtlik, zövqü səadətdən səva.

4 Çox başi sevdalilər eşq içrə sərgərdan olub,
Çox binalər yapdılar, mülki-həqiqətdən səva.

5 Gündə ətlasü həririi zərxəralərdən geyən,
Geymədi axirdə ol, bir dürli xəl´ətdən səva.

6 Bəs nə tez qurtardi, **Nafiz**, məclisi-meyxanəmiz,
Qalmadi həmdəm bizə səbri-mətanətdən səva.

## ~ 6 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Dilbəra, bir etmədin yari-dilaralıq, mana
Daima qıldın cahanda ruyi-tərsalıq mana

2 Vamiqasa dəhrdə dəryalərə qərq olmuşam,
Etmədin möhnətlər içrə mehri-Əzralıq mana.

3 Ey nigari nazəninim, ol Məsihənfas ilə,
Qılmadın bir ləhzə aləmdə Məsihalıq mana.

4 Bilgilən ol nərgisi-bimarinin müştaqiyəm,
Bir nəzər qılsan yetər bu çeşmi-şəhlalıq mana.

5 Gərci eşq içrə Xəliləm, sən vəfadə Hacər ol,
Hikkeyi-əxlaq ilə göstərmə Saralıq mana.

6 **Nafiz**a, eşq içrə bir dəm əmnü rahət tapmadım,
Töhməti-cananədən üz tutdi rüsvalıq mana.

## ~ 7 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Şami-visaldə kim ola yarə aşina,
Yar olmayınca nüsxeyi-əğyarə aşina.

2 Zülfinlə aşina olali yasə batmışam,
Bu vəch ilə qılıb günümi qarə aşina.

3 Bülbül nə qədri cəhd elədi kamə yetmədi,
Xəndan olan kimi gül olub xarə aşina.

4 Yandırsalar əgər məni nari-cəhimdə,
Ollam xəyali-zülfün ilə narə aşina.

5 Ahuyi-çeşmi-məstin ilə meypərəst olub,
Oldum bu günə xaneyi-xəmmarə aşina.

6 **Nafiz** səfayi-kuyini bica dolanmadi,
Oldi dəhani-nükteyi-əsrarə aşina.

## ~ 8 ~

## Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün

1 Verdi cəmali-şəm’rüxün qəlbə bir səfa,
Eşqin məqami rahi-həqiqətdədür hüda.

2 Bülbül təhəmmül eylədi qəmdən usanmadi,
Gördi cəfayi-xari genə oldi mübtəla.

3 Ağlatdi aşiqi qəmi-eşqin təranəsi,
Bu intizari-möhnət ilə bitdi macəra

4 Seyğəl verəndə zülfünə bu abü tab ilə,
Çini-Cəbinə mülki-Xütəndən gəlir xəta.

5 Şami-qəmində halimə neylər nəva qılar,
Üşşaq nəvasiyilə dolub çünki Neynəva.

6 Tərk etdi nədən bəzmimizi, **Nafiz,** ol sənəm,
Durmaz büsati-fəqrdə-adəttə əğniya.

## ~ 9 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Canımi eyləmişəm sidq ilə dildarə fəda,
Bundan artıq nə qılam dəhrdə ol yarə fəda.

2 Çıx çəmən seyrinə, gəz, gülşəni-gülzari dolan,
Sən məlahətdə səfa qıl, mən o gülzarə fəda.

3 Görəlim gəştü güzar içrə nədür əfkarın,
Olam əşğali-xəyalündəki ol karə fəda.

4 Nitqə gəl bülbüli-şeyda kimi gülzar içrə
Xürdədanlar ola ol nitq ilə göftarə fəda

5 Əyağinə bata gər bir dikən səqim olma.
Xunbəha eyləyərəm canimi ol xarə fəda,

6 Fəda olum sənə, gəl özgələr ilə gəzmə,
**Nafiz**i eyləmə bu babdə əğyarə fəda.

## ~ 10 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Qəsdi-can etdi dünən ol güli-rə’na-rə’na,
Gəlmədi bəzmimizə bir dəxi fərda-fərda.

2 Can təlaşində mənim cövri-cəfami gördi,
Dedi kim dur yıxıl öl, qəhrinə, həmra-həmra.

3 Dedim: eşqündə, gülüm, mən dəxi bir Məcnunəm,
Dedi: peyğam elə-gəlsin dəxi Leyla-Leyla.

4 Dedim: eyibdi mənim sirrimi aləm bilsun,
Dedi: kim, olmalısan dəhrdə rüsva-rüsva.

5 Dedim: ənduhi-qəmindən qısalıbdır ömrüm,
Dedi: əfsanə uzandi belə, xülya-xülya.

6 Böylə hicranın əlindən tükənibdir səbrim,
Məndə kim qalmadi bir hövsələ dərya-dərya.

7 **Nafiz**, aləmdə vəfa əhlinə çox bağlama bel,
Bilisən döndi, dəyişdi, necə dünya-dünya.

## ~ 11 ~

## Müğənni Sara Qədimovaya

**Rəcəz-3: Müftəilün / məfA'ilün / müftəilün / məfA'ilün**

1 Yetişdi Çinü Maçinə, bir ahuyi-xütən Sara,
Vəcahətdə, lətafətdə, ləyaqətdə həmən Sara.

2 Məlahət mülkünün sən bir əziz övladısan hər dəm,
Vətən mülkündə bülbül tək, məlahətli ötən Sara.

3 Necə əttarsan güllər gülabın çəkmisən hər an,
Odur Abdalgülab olmuş sənə əvvəl vətən Sara,

4 Nə sirr idi kim, olmuşsan babam İbrahimin yari,
Bu "Manəndi-müxalif"dən gəlib həm tənbətən Sara.

5 Fəqət "Segah" ilən Seyyid şirinlik kəşf edib səndə,
Belə "Şur" i və "Mahur"i oxurmi hər yetən Sara.

6 Bu gün şövqə gəlibdir bu şikəstə **Nafiz**in təb'i,
Odur təbxalə vurdi, bu dodaği dəf'ətən Sara.

## 2 - HARFÜ’L - “BE” “ب”

### ~ 12 ~

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

1 Qalmadi təndə fəqət möhnəti-hicraninə tab,
Xəm-bə-xəm zülfünü tökmə üzünə, etmə hicab.

2 Yoxsa möhnətfəzayi-eşqidə sevda sitəmi,
Onda etməzdi Züleyxani yaxıb narə kəbab.

3 Aləmi-eşqdə gəncineyi-dürpaşəm mən,
Gövhərəm bəhrdə kim sinəsi məmluvi-hübab.

4 Ürəgim şişəsini dilbərə versəm nə qəmim,
Sıxıban məngənədə eyliyə gər xanəxərab.

5 Ey diyən yar fərağindən uzağəm, niyə bəs,
Çəkməyirsənmi məgər dəhrdə vicdani-əzab.

6 Ağlamaqdan gecələr yatmayıram sübhə kimi,
Göz ki, nurun itirə onda nə lazım ona xab.

7 **Nafiz**a, bu qəzəli yaz və rəvan et Bakıya,
Göndərər onda sənə həm dəxi Əhməd[1] də cəvab.

---

1 Əhməd Cəfərzadə

## ~ 13 ~

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

1 Ahi-eşqimlə vücudim yanıb şərarələnib,
Rub’i-məskuni tutub aləmə nisarələnib.

2 Azar çəkib necə qaldım bəlayi-möhnətdə,
Bəlayi-bəhrdə cismim necə mənarələnib.

3 Taleyi-bəxtim  üçün bir qaraçi fal açdi,
Baxıb görür ki, fəqət çoxdan istixarələnib.

4 Zalim, əbruyi-xəmin sinəmi səd parə qılıb,
Sanki qəssab dükanında dil qənarələnib.

5 Aləmi yandırı bu ahimin şərarələri,
Sipəhr-ahim odunda genə sitarələnib.

6 Təbli-pünhan nə çalım, **Nafiz**in bənamında,
Onun xətasi neçə bəzmdə nəğarələnib.

## ~ 14 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Gördüm çəməndə bir güli-rə'na, əcəb-əcəb,
Düşdi nə gunə başıma sevda, əcəb-əcəb.

2 Bülbüllərin təranəsi həm tutdi gülşəni,
Güllər sərasər etdi təmaşa, əcəb-əcəb.

3 Durdi çəməndə səbr ilə Məcnuni gözlədi,
Ol sərvqəddü həzrəti Leyla, əcəb-əcəb.

4 Çəməndə yari görüb çəkmədi nəfəs güllər,
Səhni-çəməndə çəkdi piyala, əcəb-əcəb.

5 Bülbül çəməndə həncərəsilə büsat açıb,
Güllər götürdi sağəri-mina, əcəb-əcəb.

6 **Nafiz** dualər eyləyir Allahə ruzi-şəb,
Ruzi verəndi həzrəti-Mövla, əcəb-əcəb.

## ~ 15 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Dedilər şəhrdən ol dilbəri-məhparə gedib,
Vurubdi sinəmə yüz möhnət ilə yarə gedib.

2 Bu şəhrdən hansı diyarə gedib bilməm ki,
Belə sorağ çıxıb kim minib qətarə gedib.

3 Sorağі gəldi ki, axşam keçib Buxaradən,
Var ehtimali yəqin qəl'eyi-Hisarə gedib.

4 Gedibdi yar gözümdən, təhəmmülüm yoxdur,
Qəmində həftələri eylədim şümarə, gedib.

5 O mahi-parə bizim şəhrə tazə gəlmişdi,
Nə sərəncam eləyib kim, çıxıb dübarə gedib.

6 Keçib iradət ilə Şəhrisəbzə mülkündən,
Sorağі gəldi ki, Nəxşəbdə bir tatarə gedib.

7 Əzəldə xiffətini gizli çəkərdi **Nafiz**,
Qəmində səbrü qərar indi aşikarə gedib.

## ~ 16 ~

### Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Nəqqaş nəqşidə səni şirinsüxən yazıb,
Ayati-nitqə kəlmələri bidəhən yazıb.

2 Ayati-hüsnünə yazılıb sərgüzəşti-eşq,
Bu xətti tifl ikən el bil Kuhkən yazıb.

3 Səhni-çəməndə güllər açılmışdı şəng-şəng,
Bustani-məlahətdə səni gülbədən yazıb.

4 Xətti-cəmali-yardə ayati-eşq kim,
Asari-hüsni-xətt ilə bərgi-çəmən yazıb.

5 Atəşkədeyi-dəhrdə həblülmətinlərik,
Dəsturi-sərnəviştimi gəbri-kühən yazıb.

6 **Nafiz,** yazıbla dərdi-dilim ruznamədə,
Dastani-rəvayətlərimi bilmədən yazıb.

## ~ 17 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Səni bəzm içrə, gülüm, kim ki biniqab görüb,
Onu xəlq içrə görən xanimanxərab görüb.

2 Məni görən qəmi-eşqində xəyal eylər kim,
Fərağın atəşinə bağrımi kəbab görüb.

3 O qədr hüsnünə heyran olub cahan əhli,
Təsəvvür eylə ki, bir hindu afitab görüb.

4 Kəməndi-zülfünə dil mehriban olan gündən,
Yanıb fərağ oduna, qəlbi piçü tab görüb.

5 Qəmində gözlərinin yaşi lə’l olan **Nafiz**,
Nə təndə rahəti-dil, gözləri nə xab görüb.

## ~ 18 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Lütf elə bir saqiya, zöhd ilə pəhriz gəlib,
Aç o xumar gözlərin, bəzmə dilaviz gəlib.

2 **Nafiz**i-xoş nəğməxan, bülbüli-şirinzəban,
Həştü hezar həngine, ney tərənbəngiz gəlib.

3 Bülbüli-qəmpirəhən “Dilkəş” əyağindədi,
“Rast” ilə “Sarəng” oxur, dildə “Qəməngiz” gəlib.

4 Şövq ilə qaynar genə qəlbdə bu nəğmələr,
Bal şirinligdədi, bir şəkəraviz gəlib.

5 Lə’li-zəbərcəd nədi, yaquti-dürri-sədəf,
“Bəstənigar” ilə həm hoqqeyi-**Nafiz** gəlib.

## ~ 19 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Dün gecə gördüm büsati-qəmdə bir rö'ya qərib,
Başimə düşdi məqami-qürbdə sevda qərib.

2 Əlli il ömrümdə xilqətdən qəriblik çəkmişəm,
İstəməm biçarə könlümni fəqət fərda qərib.

3 Ey Xuda, hər dəm məlul etdi bu tənhalıq məni,
Sızlaram əhvalinə kafər ola, tənha, qərib.

4 Cami-Cəmşidin hekayət pərdəsi əfzun olur,
Cami-mey fərxəndəfal imiş, meyi-mina qərib.

5 Dilbəra, ənbər çəkib əslindən etmə zülfüni,
Olmasın zülfün pərişan, ənbəri-sara qərib.

6 Leyliyi-Əzravü Şirin halını fəhm eylədim,
Ovqati-Şirin şəkərdi, Leyliyi-Əzra qərib.

7 Duymasa dünyavü aləm mən qəribin halıni,
Dövr cövründən məlul olmuş yəqin dünya qərib.

8 Aləmin məmurəsindən əmnü rahət tapmadı,
Ol səbəbdəndür pərişan, **Nafiz**i-şeyda qərib.

## ~ 20 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gülşəni-hüsnün əzəldən bir güli-xəndan dutub,
Ol səbəbdən bülbüli-şuridəni əfğan dutub.

2 Əbləhani-mərdümi sübhi-visali məst edib,
Arifani-bəndəni yeksər şəbi-hicran dutub.

3 Gah bir Rüstəm durub İsfəndiyari kur edib,
Gah bir Firdövsi qalxıb Rüstəmə dastan dutub.

4 Gah bir Xaqan çəkib ləşkər gedər Çin üstünə,
Gah bir Hindi sərasər ləşkəri-İran dutub.

5 Türki-türkanə şücaətlər Malazgirddən keçər,
Şahi-Mərdan eşqinə meydani Alparslan dutub.

6 **Nafiz**a, Şirvanda ariflər dolanmış bəzm ara,
Çərxin əyyami dönüb, arif yerin nadan tutub.

## ~ 21 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Hüsn bağində gözüm bir gözü ceyranə düşüb
Sanki bülbül həvəs ilə gül-xəndanə düşüb.

2 Mahrulər belə seyğəllə çıxıb eyvanə
Qüssədən ahim odi pərdəli eyvanə düşüb.

3 Şəm' yandıqca fəqət başına çoxlar dolanır,
Hərə bir yanə qaçıb, yanmağa pərvanə düşüb.

4 Bir nigah ilə cigərdən keçirib peykanın
Şükr kim qəmzən oxi cismdə samanə düşüb.

5 Qarə zülfündə ki bənd oldi pərişan ürəyim,
Sandılar zülfi-pərişanına bir şanə düşüb.

6 Ey Züleyxayi-vətən, zülfi-iştiyaqin ilə
Bəxtimin Yusifi bilməm niyə zindanə düşüb.

7 Görəsən eşq büsatında bəlalər nə imiş,
Düşəsən zillətə kim **Nafiz**i-divanə düşüb.

## ~ 22 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Ehkami-qəza buldi genə canə təqarüb,
Can riştəsi xub etmədi cananə təqarüb.

2 İnsanlıq olan mərhələdə zövqü səfa var,
Gər olmasa adəm rəhi-şeytanə təqarüb.

3 Getdikcə bu eşq aləmi payani bulunmaz,
Bir bəhri-hümayun ilə imanə təqarüb.

4 Tale məni bir suz ilə Şirvandan ayırdi,
Bağlandı əməl rahi-Xorasanə təqarüb.

5 **Nafiz,** səri-muyin genə əndazəsin aşdi,
Onda olalım bərəbər Əmirxanə[1] təqarüb.

1 Əmirxan – bərbər ustam.

## ~ 23 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Arizində, ey sənəm, sanki güli-əhmər yatıb,
Fatehi-zülfün tərəfdən qətlimə ləşkər yatıb.

2 Göz yaşım axdi xərab etdi Ərazın bəndini,
Kür kənarində qəzəbli Girdiman, Tərtər yatıb.

3 Sərvi-qəddin sayəsində bulmadım arami-dil,
Bir qədi-bala dəmində binəva ər'ər yatıb.

4 Gənci-hüsnün təl'ətindən almadan çeşmim ziya,
Əf'i zülfün gəncin üstündə həman əjdər yatıb.

5 **Nafiz**i israr ilə təhdid edir əbrulərin,
Çeşmin üstündə nədi qanlı iki xəncər yatıb.

## ~ 24 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Həsrəti-hübbi-vətənçün ah edərsə bir qərib,
Rəsmdür gül fəsli olcaq nalə eylər əndəlib.

2 Mən də nalə eylərəm hicründə, ey gülgülsifət,
Vəslinə ümmid ilə əfğanım artır, ya nəsib.

3 Şövqi-eşqin naləsi, ya lə’li-nabın surəsi,
Məndən aldi qəsd ilə imanımi, ey dilfirib.

4 Mən bunu təhrir edərdim əzm ilə Xaqanivəş,
Çünki hicranın əlindən dad edib şahi-ədib.

5 **Nafiz**a, ahim şərari yandırıbdur aləmi,
Halimə möhnətsəradə yanmadi heç bir həbib.

## 3 - HƏRFU'T - "TE" "ت"

**~ 25 ~**

**Həzəc-2: MəfA'İlün / məfA'İlün / fə'Ulün**

1 Xudaya, dürli surətlər əyan et,
Hidayətdən biraz məna bəyan et.

2 O məna kim, görüm yari-qərini,
Xəyali-könlümi xatirnişan et.

3 Məni pəjmürdə qıldi daği-hicran,
Həqiqət mənzilində kamran et.

4 Xəyali-cənnəti-zövqündə zarəm,
Xəyalim mənzilin qüdsaşiyan et.

5 Dolur hər dəm gözüm həsrətlə ya rəbb,
Yetiş bu **Nafiz**i ruhirəvan et.

## ~ 26 ~

## Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün

1 Olmaz günahi-ərsədə payani-məğfirət,
Daim açıqdi ədl ilə eyvani-məğfirət.

2 Səhrayə düşdi Qeys necə şövqü zövqdən,
Ahulər ilə buldi biyabani-məğfirət.

3 Xani-vəfayə talib olan sadiqanələr,
Xəllaq süfrəsindən alar xani-məğfirət.

4 Ruzi-cəzadə bəlkə bağışlar günahimi,
Əfv eyləyər ədaləti-divani-məğfirət.

5 Bu cürm ilə **Nafiz** də yanar nari-duzəxə,
Rəhm eyləməzsə həşrdə Sultani-məğfirət.

## ~ 27 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Sevdayi-səri-zülfün ilə getdi ləyaqət,
Hicranına bir zərrə qədər qalmadi taqət.

2 Sevdalərə düşdüm necə kim, zülfün ucundan,
Bu mərhələ xəlq içrə mənə oldi qəbahət.

3 Dastan olub axir necə dildən-dilə düşdüm,
Rüsvayi-cahan olmaq ilən bitdi hekayət.

4 Pərsəng vurub dəhrdə ülviyyəti-eşqim,
Ülviyyətinə qalmadi iqbalü mətanət.

5 Sevdadə kədərlənmə, könül, candan usanma,
Bundan sora düşmək qəmi-hicranə nə hacət.

6 İbrət götürüb dəhrdə şərməndə dolandım,
**Nafiz,** sənin amalun elə bundan ibarət?

## ~ 28 ~

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Atatürkə bənzəyir bu saçi müşki-tər Əlövsət[1],
Özi mehriban oğuldi, sözi gülşəkər Əlövsət.

2 Belə nəql edir görənlər, toy edibmiş övladiçün,
Nə səbəbdən etməmişdir bizə bir xəbər Əlövsət.

3 Nə oleydi Kəlbəcərdən yetişeydi bu sorağlar,
Bu işə qədim Qobustan verəcək səmər Əlövsət.

4 Murovun qarın əritdi, ürəyindəki hərarət,
Çoşub indi nəhri-Tərtər, güli-Kəlbəcər Əlövsət.

5 O Əlövsətə bu şe'ri deyirəm bədahətən mən,
Nədi **Nafiz**in təb'ində belə bir təpər Əlövsət.

---

1 Şair Əlövsət Saldaş (1957)

## ~ 29 ~

## Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün

1 Mən unutdum o keçən dəmləri, gəl sən də unut,
Gəldi hicran dəmi dur nəğməli bir matəm tut.

2 Tarmar oldi səadət dəmi vəchi belədir,
Batdi vəslin günəşi, aldi üzün qarə bulut.

3 Eşqdən nəğmə dedik dağlari yaxdi səsimiz,
Soldi gül, ağladi bülbül, araya düşdi sükut.

4 Güldi ellər baxıban hali-pərişanımıza,
Çıxdı göylərdə təmaşamıza cümlə mələkut.

5 Bu məlal ilə çatıb ağlamağım əyyami,
Sil yanağındaki göz yaşlarıni, bari qurut.

6 Ey gözüm nuri, bu dünyani xəyanətlər alıb,
Mahi-ömrüm bu xəyanətlə edib böylə süqut.

7 **Nafiz**a, dutma məlamətli Züleyxa ətəyin,
Mahi-Kənanda həya pərdəsidi əldə sübut.

## ~ 30 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 İstərəm könlüm kimi gülzarə dönsün kainat,
Öylə bir gülzar kim, ondan səfa tapsın həyat.

2 Məhv olub, viranə qalsın qəsrlər, kaşanələr,
Eşqə sərhəd olmasın, vicdanə yar olsun nicat.

3 Görməsin qəm al yanağlar, gül dodaqlar solmasın,
Oynasın şən çöhrələrdə min təbəssüm, min nişat.

4 Rəqsə gəlsin ədl camın nuş edən məstanələr,
Saçsın öz ətrin cahanə, bu cəmiyyət, bu büsat.

5 Rahi-eşqində əgər min dəfə can versəm xoşam,
Eşq qanununda yoxdur əhli-eşq üçün məmat.

6 Lalələr rəngində qan qorxutmasın, **Nafiz,** səni,
Dildə eşq amali, amalında var əzmi-səbat.

## ~ 31 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ey könül, eşq içrə olma aşiqi-xülyapərəst,
Olgilən kaşanələrdə bir büti-simapərəst.

2 Dinü imani atıb Sən’an kimi axir nədən,
Tiflisi-mə’vadə oldum nərgisi-şəhlapərəst.

3 Lə’li-şirinin necə aşüftə etmiş könlümi,
Tutiyi-şirinməqaləm, olmuşam həlvapərəst.

4 Görmüşəm rö’yadə Həssanü Hüseynin vəchini,
Olmuşam ol vəchdən mən surəti-zibapərəst.

5 **Nafiz**a, mə’nayi-şe’rün dürri-yaqutdan gözəl,
Gün gələr hər beytinə mə’na verər mə’napərəst.

## ~ 32 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Şərhi-hicranım mənim əfzundi dutmaz kainat,
Gözümün yaşın görən, fərz eyləyir Dəclə-Fərat.

2 Xızri-könlüm bulmadi lə’li-ləbindən bir əsər,
Qaldi zülmati-təhəyyürdə ləbi-abi-həyat.

3 Zülfü xali-ənbərin pünhandi xəlqi-aləmə,
Bari insaf eylə göstər rüyini, ver bir zəkat.

4 Çıxmısan, ey cani-mən, bunca səbahət təxtinə,
Bəllidür mənzil edir azad könüllərdə səbat.

5 Yazma, **Nafiz**, eşq dərdindən, yazanlar xar olub.
Eşq dərdindən yazanlar tapmadi dəftər-dəvat.

## ~ 33 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Başa düşdüm necə kim, söhbəti-canani dürüst,
İxtilatilə vüsul etdi dili-cani dürüst.

2 Güli mədh eylədi gülşəndə genə bülbüllər,
Güli-xoşrayihənin çaki-giribani dürüst.

3 O sərv boylu genə seyri-bağü gülşəndə,
Daradi şanə ilə zülfi-pərişani dürüst.

4 Hər pəriçöhrə gərək gözləsin istiqbalın,
Hər kəsin olmalıdur əhd ilə peymani dürüst.

5 Xaneyi-sinəmi yapdım gözəllər eşqində,
Nə onun səqfi dürüst oldi, nə eyvani dürüst.

6 Oda yaxdın bu yazıq **Nafiz**i canından iraq,
Dedilər bariqeyi-sineyi-suzani dürüst.

## 4 -  HƏRFU’S - “ŠE” “ث”

**~ 34 ~**

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Edəndə sünbüli-sərgəştə zülfü yar ilə bəhs,
Salar məlalə özün eyləsə dildar ilə bəhs.

2 Nəyə lazımdı könül bəhs eləmək zülfündə,
O nədür kim edə bir hikkəli şahmar ilə bəhs.

3 Görməyirsənmi məgər zülfü qəra geymişdür,
Nəhydür şə’ridə etmək o əzadar ilə bəhs.

4 O dəmdə cilvə edən nərgisi-şəhlasını gör,
Fərasət eylə ki, olmaz o xətəkar ilə bəhs.

5 Bəhs qılma yetən ilə, bu xəcalətdən utan,
**Nafiz,** hər məsələni eyləmə xudkar ilə bəhs.

## 5 - HƏRFU’L - “CİM” “ج”

### ~ 35 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Könül, bənd olma hər zadə, bu dünyayi-fənadən keç,
Əgər bağlansa dünyayə, o yari-aşinadən keç.

2 Bəla sərmənzilində çəkmisən zövqü səfa bəsdir,
Oyan qəflətdən, ey qafil, həmən zövqü səfadən keç.

3 Vəfa əhli olanlarda pərişanlıq olur peyda,
Həzər qıl bu əlamətdən, səlamət bu əradən keç.

4 Yetir kuyi-nigarə dərdimi, ey ahi-cansuzim,
Yetişsən kuyi-dildarə, əsən badi-səbadən keç.

5 Qəzali çeşminə baxdım, adım qaldi xətadidə,
Görərsən çini-əbruni, Xütəndən keç, Xətadən keç.

6 Ki, tutmaq istəsən, **Nafiz,** riyazətlə səfa mülkün,
Qənaət mənzilin tut aşiyan, cövrü cəfadən keç.

## ~ 36 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Eşq mülkündə məni zindanə saldi ehtiyac,
Bu məzəllətlə mənə bir yar yox qılsın əlac.

2 Bu vücudim dəhrdə xak ilə yeksan olsa gər,
Tinətimdə bəllidür xasiyyəti-eşqi-mizac.

3 Gər min il qalsam da xak içrə pozulmaz rövnəqim,
Qalsa xak içrə nə qəm, xasiyyətin saxlar zücac.

4 Çeşmi-məstin rəmz ilə bildirdi hər əsrarimi,
Kə'bəyə zəvvarlıq tə'lim edər ol miri-hac.

5 Sinəmə çəkmə sipahi-çeşmi-xunrizin, saqın,
Şahə şayəstə deyil viranədən alsın xərac.

6 Şah olub xəlq içrə, ey miskin gədalıq eyləyən,
İstərəm girsin məzarə, ey gəda, başunda tac.

7 Lə'li-nabundan keçib, dutdum qəzavü ruzəmi,
Agah ol aləmdə bu **Nafiz** deyil ac oğlu ac.

## ~ 37 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Əgər Yusifliqasən gəl qəbayi-pirəhəndən keç,
Şəhid olmaq dilərsən dəhrdə gülgül kəfəndən keç.

2 Gözün yaşilə hər sərvin önündə böylə diz çökmə,
Vüqarun naminə əzm et, fəqət sərvü çəməndən keç.

3 Xeyirxahindürür bir kəs onunla əqdi möhkəm qıl,
Fəqət bir afəti-dövran ola, ol Əhrimənndən keç.

4 Qolunda şahini-Şonqar, könlündə mehri-istiqbal,
O dəm kəpküxüram eylə, fəqət zağü zəğəndən keç.

5 Rümuzat pərdəsindən boylanıbdursa səməngüllər,
Xütur etmə vəfadəndür, güli-tər yasəməndən keç.

6 Əgər lə’li-ləbin, **Nafiz**, səfasın bulmaq istərsən,
Rəvan ol rahi-iqbalə, Bədəxşanü Ədəndən keç.

## 6 - HƏRFU'L - "HA" "ح"

### ~ 38 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Zənn edirdim verəcək qəlbimizə badə fərəh,
Yox imiş zərrə qədəh badeyi-həmradə fərəh.

2 Mənzilim oldi xəyalinlə kəlisa künci,
Kim görübdür, sənəma, künci-kəlisadə fərəh?

3 İstədim rəmz ilə canana deyəm əhvalim,
Bilməzəm hasil olurmi bu müəmmadə fərəh.

4 Daima suzi-dərun içrə cigər qan olmuş,
Etimali yox ola bülbüli-şeydadə fərəh.

5 Saldırıb Yusifi zillətlər ilə zindanə,
Görmədi ömrdə bir kimsə Züleyxadə fərəh.

6 İncidi dəhrdə **Nafiz** Şəmaxi şəhrindən,
Əzm ilə tapdi görün şəhri-Buxaradə fərəh.

## 7 - HƏRFU’L - “XE” “خ”

**~ 39 ~**

**Rəcəz-3: Müftəilün / məfA’ilün / müftəilün / məfA’ilün**

1 Dağılıb piri-muğanın dəxi meyxanəsi yox,
Tutmağa məclis ara əldə nə peymanəsi yox.

2 Gör necə pərdeyi-zülmətdə qalıb sərgərdan,
Künci-vəhdətdə şəvəllayidi, rindanəsi yox.

3 Şəm’i-hüsnün bu əlamətlə düşər qiymətdən,
Görsələr dövrdə bir mən kimi pərvanəsi yox.

4 Zindəgani pozulub qüssəsi artar hər an,
Hər kəsin dəhrdə bir sən kimi cananəsi yox.

5 Asitanın daşını məskən edib **Nafiz**i-zar,
Neyləsin rahi-fərağətdə onun xanəsi yox.

## ~ 40 ~

## Molla Ağa Bixudun qəzəlinə nəzirə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Dolanım başuva, ey zülfü çəlipa, bəri bax,
Nə olar bir kərə, ey yari bivəfa, bəri bax.

2 Düşdi əyyami-fəraǧində könül taqətdən,
Canımın taqəti, ey gözləri şəhla, bəri bax.

3 Sirri-eşqin yetən aşiq nə bilər mə'nasın,
Vardı bu mərhələyi-eşqdə mə'na, bəri bax.

4 Təlxkam etmə məni ləblərüvün şövqində,
Bir şəkərxəndə qıl, ey ləbləri həlva, bəri bax.

5 Ey ləbi şövqinə sərgəştə qılan dünyani,
Qoyma hicr ilə dağılsın belə dünya, bəri bax.

6 **Nafiz**in səbri tükəndi bəlayi-möhnətdə,
Olub eşqində görün dərdə mübtəla, bəri bax.

## ~ 41 ~

## Müğənni Mahrux Muradovaya

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Rəşkdən kim ruyinə mu saldi sayə, Mahrüx,
Hüsnünə ol vəchdən yazdım bir ayə, Mahrüx.

2 Şövqdən gör kim midadım hüsnüni vəsf eyləyir,
Bənd olubdur dil fəqət sən dilrübayə, Mahrüx.

3 Ey özi şahi-cahan, ey ləbləri abi-həyat,
Firqətinlə gənc ömür getdi fənayə, Mahrüx.

4 Ey müğənniyi-həzin, zənguləpərdaz, istərəm,
Kim avazatın yetə "Şur"i "Nəva"yə, Mahrüx.

5 Mehri-həngami-səradə xublər sərrafiyəm,
Verməərəm bir hüsnüni mahi-səmayə, Mahrüx.

6 Ey cəfapişə sənəm, bil cövrüni çəkməkdəyəm,
Çün əzəldən vird edib **Nafiz** cəfayə, Mahrüx.

## ~ 42 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nobahar əyyami gülzarın güli-xəndani yox,
Bu təravət mənzilində bir güli-reyhani yox.

2 Bir qucaq güllər dərib düzdüm anın eyvaninə,
Xanəsin gülzarə döndərdimsə də güldani yox.

3 Mə’nəvi məs’uliyət ziynətdir insan ömrünə,
Neyləsin biçarə ol kəs kim, onun vicdani yox.

4 Eşqin, ey qafil könül, divanəliymiş mənzili,
Eşqdən divanə oldunsa fəqət dərmani yox.

5 Rövnəqin pozmuş bu dünyanin gədalər, **Nafiz**a,
Bu xərabə mülki bir abad edən sultani yox.

**~ 43 ~**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Bəzmi-meyxanənin, ey dil, niyə payəndəsi yox?
Qapusu bağlı qalıbdır, məgər ayəndəsi yox?

2 İzzəti-təxtə çıxardıbdi fələk Haruni,
Hikməti-fəlsəfeyi-bəzmdə danəndəsi yox.

3 Nazə qoymuş özüni bəzmdə sərrafi-süxən,
Bir qədi-sərvi-səhi, dilbəri-nazəndəsi yox.

4 Tapsan ilhami-lətafətdə əgər nəşvü nüma,
Eşqi təmsil eləyən dəmdə nümayəndəsi yox.

5 Ol üzi gül səni gördükdə təbəssüm eylər,
Öylə zəntə'blərin mərd kimi xəndəsi yox.

6 Yığılıb məclisüvə cümlə cahan, ey qafil,
O necə bəzmdi **Nafiz** kimi xanəndəsi yox.

## ~ 44 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Ey badi-səba, kuyi-nigarə güzərin yox,
Peyğam gətirməkdə bilirdim hünərin yox.

2 Ey sərvi-səhi yar ilə həmraz deyilsən,
Nə bağdə sayən, nə də ki, bir səmərin yox.

3 Əhvalimi bir rəmz ilə canansə yetirdim,
Ey cani həzinim, bu xəbərdən xəbərin yox.

4 Məzlum könül, səbr elə bu nari-fəraqə,
Bundan dəxi bu mərhələdə bir təhərin yox.

5 Göz yaşini tökdünsə əyağinə nigarın,
**Nafiz,** nə qəm, ondan bahali simü zərin yox.

## ~ 45 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Sufi, dünya ne'mətindən bir şərabi-safə bax,
Zövqüni dərk eyləyib, ehkam ilə insafə bax.

2 Baxma dünya malına, ey dil, qənaət kəsb elə,
Hikməti-əbrardən Ənqa göziylə Qafə bax.

3 Bir gühərdür söz xəyal etmə ki, qiymətdən düşə,
Gövhəri-qədri-süxənsənc olgilən, sərrafə bax.

4 Dün ki, minbərdə ikən və'zini duydum zahidin,
Söyləyir badə həramdır şər'idə bir lafə bax.

5 Eşqin adabın bu **Nafiz**dən soruş, ey cani-mən,
Eşq qanunun binadən vəsf edən vəssafə bax.

## 8 - HƏRFU’D - “DAL” “د”

**~ 46 ~**

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Yıxdın evimi, dəhrdə olsun evin abad,
Bir ləhzə visalinlə məni eyləmədin şad.

2 Könlümdə qəmi-qüssə füzun oldi, fərəh yox,
Hər ləhzədə ney tək çəkirəm naləvü fəryad.

3 Seyd etdi qəza tiri məni, candan usandım,
Bilməm nə edim, kimdən umum dəhrdə imdad.

4 Hər mənzilə vardımsa könül aldi xəsarət,
Çünki bu kəmingəhdə durub nəş’əli səyyad.

5 Bu ariyətsəraye düşəndən alovlanıb,
**Nafiz** dəxi olmuşdi səməndərlərə ustad.

## ~ 47 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Qaşların etdi xətavərdə bəlalər icad,
Saldi rəxnə necə asayişi-bum içrə fəsad.

2 İşrəti-Xosrovü Şirin hekayətin bildi,
Başına tişə vurub batdi qaninə Fərhad.

3 Saqi, peymanəni ver, intizari-vüslətdə,
Bəlkə bir ləhzə fərəhləndi, bu dili-naşad.

4 İştiyaqim, sənəma, sibi-zənəxdanındır,
Güli-nəsrini-səfid içrə sinən simi-fitad.

5 Əyninə ətlasü dibavü zərxəra geydin,
Nəqşini çəkməgilən zərnigar olub Behzad.

6 **Nafiz**a, könlüm evi böylə ki, viranə qalıb
Külli-aləm yığıla eyləmək olmaz abad.

~ 48 ~

## Nəvəm Xan Murada

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Nuri-çeşmim, zivərim, ey təndəki canım Murad,
Ey şəhim, ey tacidarım, şanlı xaqanım Murad.

2 Ey bağım, baxçam, gülüstani-həyatım cövhəri,
Sünbülüm, sərvim, gülüm, ey nərgisistanım Murad.

3 Feyz alarkən daima əqlü kəmalindən sənin,
Hər zaman məmnun olur ömrü fəravanım Murad.

4 Bu cahan içrə çalış kim, hər zaman mərdanə ol,
Olgilən şirinzəban, sən ey şəkərxanım Murad.

5 Dərk elə elmi-fünuni-hkməti bir eşq ilə,
Olgilən hikmətşünasi-elmə Loğmanım Murad.

6 Arizuyi-**Nafiz**i səy eylə kim puç olmasın,
Könlümün aləmpənahi, xanü sültanım Murad.

## 9 - HƏRFU’Z - “ŽAL” “ذ”

### ~ 49 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nə qədər olsa visalında lə’li-nab ləziz,
O qədər vardi fərağində həm şərab ləziz.

2 Xəzan olanda füzun olsa da gər axşamlar,
Bahar olanda gəlir gözlərimə xab ləziz.

3 İtab edərsə əgər töhfeyi-visalində,
Ziyadə ləzzəti artar, olar itab ləziz.

4 Fərağdə məni yandırdi gör necə xalin,
Yananda məcmər içində olur kəbab ləziz.

5 Şikəstə **Nafiz**ə bir busə ərməğan etsən,
Məhəbbətinlə qılarsan necə səvab ləziz.

## ~ 50 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Şövq ilə gəldi genə canə hərarət, Nafiz,
Guşeyi-mə'rəkədə qopdi qiyamət, Nafiz.

2 Tapdım eyvani-lətafətdə bu gün hübbi-Hüma,
Başıma qondi əcəb mürği-səadət, Nafiz.

3 Hürməti-xani-vəfa mərhələsindən keçdim,
Səbrinə arif olan bağladi hürmət, Nafiz.

4 Eşqə sübhanəkə, bağrımda yatır madəri-eşq,
Şiri, madərlə gəlir beylə mürüvvət, Nafiz.

5 Ey ki, yarani-səfa səhhəti-səlamət olun,
Bəsləyər hürmət ilə sizlərə rəğbət, Nafiz.

6 Mənim əyyami-şəbabımdan əlamətdir bu,
**Nafiz**əm, qədrşünasəm, bu əlamət, Nafiz.

## 10 - HƏRFU'R - "RE" "ر"

### ~ 51 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Yüz Leylatül-əsra ola, göylüm səni istər,
Yüz Leyliyi-leyla ola, göylüm səni istər.

2 Yüz Misri-məlahətdə ləbin abi-bəqamız,
Yüz misli-Züleyxa ola, göylüm səni istər.

3 Yüz minlər ilə gəlsə nəbi kövnü məkanə,
Yüz dəmli Məsiha ola, göylüm səni istər.

4 Yüz huriyi-qılman ola firdövsi-bərinə,
Yüz şəkli-pərisa ola, göylüm səni istər.

5 Yüz məmləkəti-Reydə, Sitanbulda zəbunəm,
Yüz Məkkəvü Mina ola, göylüm səni istər.

6 Yüz dəfə rəhi-payinə qurban olam azdır,
Yüz məscidi-Əqsa ola, göylüm səni istər.

7 Yüz bülbüli-şirinnəfəs əmrazəyə düşdi,
Yüz **Nafiz**i-şeyda ola, göylüm səni istər.

## ~ 52 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 O kəs kim, aşinayə daima qəlbində kin bəslər,
Görəndə surətin mə'lum olur, əbruyi-çin bəslər.

2 Olursa hər nəfəsdə insan oğlunda şirin dillər,
Odur şəkkər dəhanində kəlami-əngəbin bəslər.

3 Diyari-möhnətə düşsə əgər bir mərd olan madər,
Dözər hər istirabi-möhnətə, oğlun mətin bəslər.

4 Əcəb nəxli-rütəbdür zirvəsində bar olur xurma,
Dirəxti-bərməladur gövdəsində darçin bəslər.

5 Fəqət **Nafiz** əlin üzdi vəfasız nazəninlərdən,
Necə öfsaf ilə qoynunda nəzmi-nazənin bəslər.

## ~ 53 ~

## Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün

1 Ey yüzi lalə, üzündən güli-xəndan utanar,
Hüsnünün vəsfinə ol bülbüli-nalan utanar.

2 Gəz dolan gülşəni-gülzari səfa zövqü ilə,
Pürvüqar olma belə sərvi-xuraman utanar.

3 Məhzəri-eyşdə tə'n etmə əsilzadələri,
Şah şərməndə olub, xiclət ilə xan utanar.

4 Məşhədi-eşq ilə aləmdə çiğərsuz oldum,
Görüb ehkami-xəta külli Xorasan utanar.

5 Nə mətlə' anlayar aləmdə utanmaz əğyar,
**Nafiz**i duysa əgər Azəribaycan utanar.

**~ 54 ~**

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Mənim nə çəkdigimi söyləsən o yarə gələr,
Rücui-naz ilə əvvəlki o göftarə gələr.

2 Bülbüli-bidil olan nalələrin tərk etməz,
Olunca vəqti-şükufə dəxi gülzarə gələr.

3 Xəbərim olmadi qəmlər başim üstün kəsdi,
Xədəngi-qəmzələr, əlbəttə, xəbərdarə gələr.

4 Sinəm olmuş bu həzimətdə qəmin ənbari,
Eşq mülkündə nə qəm varsa bu ənbarə gələr.

5 **Nafiz**in tə’bi-səlimində olan təsnifat,
Elə zənn eyləməyin bir də ruzigarə gələr.

## ~ 55 ~

## Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Dil verdim əcəb sən kimi dildarə, sənubər,
Oldur çəkilib şaxədə dil darə, sənubər.

2 Dil yarələnib, şəfqət edib, yarəmi bağla,
Həm çirk eliyər qalsa açıq yarə, sənubər.

3 İbrahimi-eşqəm sitəmi-ruzi-əzəldən,
Saldi məni Nəmrud tək odlarə sənubər.

4 Dəmbəstə dolanmaqla vəfa rahinə girdi,
Faş etdi mənim sirrimi yadlarə sənubər.

5 **Nafiz** ki, məlul idi o sərvin sitəmindən,
Çün hali degildür belə əsrarə, sənubər.

## ~ 56 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Can məşaminə o nazəndə gündə nanə çəkər,
Naneyi-səbrü qərarim odu hər yanə çəkər.

2 Yandırar qəlbimi həsrətlə bir xəyal etməz
Ki, fərağ atəşin odlandırınca canə çəkər.

3 Nə çəkim rəsmini imdi, sənəma, lohi-dilə,
Xəyali-nəqşini Behzad yanə-yanə çəkər.

4 Mənim nə çəkdigimi bilsə yarü ənsarim,
Doldurub tənbəkini hirs ilə qəlyanə çəkər.

5 Əqiqi-ləblərüvün vəsfin eyləyən dəmdə,
Xəyali-təb’i-rəvanim düri-qəltanə çəkər.

6 Gedərsə **Nafiz** əfəndi kimi Ləngərgunə,
Şamaxi əhlini hürmətlə Lənkəranə çəkər.

## ~ 57 ~

### Qaramanlı Nizami Rumi qəzəlinə nəzirə

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 "*Daği-qəmin ki, mehrü məhəbbət nişanıdır,*
*Sinəmdə saxlaram ki, səadət nişanıdır*".

2 Zülm eyləməyin səndə nə göyçək nişani var,
Məndə cəfayə dözməli adət nişanıdır.

3 Tiynətdə pak olan pozamaz əhdü ilqari,
Əhdə vəfalısansa həqiqət nişanıdır.

4 Ədlü mürüvvət ilə keçər mərdin anlari,
Hər bir işi cahanda ədalət nişanıdır.

5 Ləl'i-ləbindən istədigim busə hirsinə,
Süzgün gözündə imdi ədavət nişanıdır.

6 Suri-təğafül eyləmə eşqi-ümiddidə,
Zehni-təsəvvürümdə qiyamət nişanıdır.

7 Hər cövrünə tab eyləyib hər zülmə dözməyim,
**Nafiz**də bu əlbətdə ki, himmət nişanıdır.

## ~ 58 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Qəlbimi naşad edən kim, ol büti-naşad olur,
Qəlbimin əyləncəsi həm naleyi-fəryad olur.

2 Zülm qılma aşiqə, ahim şərarindən saqın,
Zülmilən abad olanlar qəhr ilə bərbad olur.

3 Xosrovü Şirin məzaqin xəlqə izhar eyləsən,
Onların fövqündə hər dəm lavüsal Fərhad olur.

4 Dilbərin əhvali şirin, aşiqin ovqatı təlx,
Aşiqin göz yaşi onda Dəcleyi-Bağdad olur.

5 Zövqdən nərradi-eşqəm, şeşdəri-heyrətdəyəm,
Eşq tasın dəf edən bir mən kimi nərrad olur.

6 Nəğməkarlıq sanma hər kəsdə təcəlla eyləsin,
Nəğməni bünyad edən **Nafiz** kimi ustad olur.

## ~ 59 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Dil ki, şəm'i-ruyinə, ey dilrüba, pərvanədür,
Yanmağa hər dəm pəri-pərvanəyə pərva nədür.

2 Böylə kim, sevdayi-zülfün əqlimi tarac edib,
Dərdməndəm bilməzəm başımdaki sevda nədür.

3 Bənzədim hicran ara pərvanə ilən bülbülə,
Bilmədim pərvanə nə, həm bülbüli-şeyda nədür.

4 Sağəri-səhba doli əzm ilə çəkdim başimə,
Başım üçün bilmədim kim, sağəri-səhba nədür.

5 Açmadım dünyavü mafiha üçün qəm dəftərin,
Qəm büsatın seyr edəndən bilmədim dünya nədür.

6 Mən bəla tapdağiyəm dünyalər uçmuş başimə,
Ol səbəbdən bilməzəm dünyavü mafiha nədür.

7 Çox başi sevdalilər toprağə döndi aqibət,
Bilmədi biçarələr, aləmdə istiğna nədür.

8 Bülbüli-bidil genə izhar qıldi dərdini,
Gül gülünc oldi bu gün, gülşəndəki qovğa nədür.

9 Bir nigarın qəmzəsindən bülbüli-qəmdidəsən,
Yer tutan qəlbündəki qəm, **Nafiz**i-rüsva nədür?

## ~ 60 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 İştiyaqi-ləbi-lə’lün ilə pabus nədür,
Edəsən könlümi bu əmr ilə mə’yus nədür.

2 Göz açıb ərzə, gülüm, bir gəzəsən dünyani,
Görəsən şəhri-Nəhavənd nədir, Tus nədür.

3 Bu vəhşət ilə sarıb ölkəni xəyanətlər,
Əcəm diyari ara Rum nədür, Rus nədür.

4 Guşeyi-fəqrdə aləm mənə zindan oldi,
Bir soran olmadi zindanda bu məhbus nədür.

5 Neçə bahar sovuşdi, hey ilə il keçdi,
Məsnədi-Yasərə Şəddadü Dəğyanus nədür.

6 Ümid var idi axirdə bəxtiyar olaram,
Nədir bu sanihədə tale’i-mənhus nədür.

7 Gətir piyaləni, saqi, dəmi-fərağətdə,
Cami-Cəmşid nədür, kaseyi-Kavus nədür.

8 **Nafiz**a, dün gecə gördüm yuxuda Şəddadi,
Başım üstündə durub qorxulu kabus nədür.

**~ 61 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 İşrəti-eyşü səfa qurdi şadman bəylər,
Daima sirrin edər xəlqdən nihan bəylər.

2 Taəti-xani-vəfayə olaraq şayəstə,
Dura məqsudi-məramində kamran bəylər.

3 Nəzmi-naziktəri-sevdadə arifan kimidir,
Elmü irfani-bəlağətdə xürdədan bəylər.

4 Bənzəyər cəng məqamində Rüstəmi-Zalə,
Necə İskəndərü Daravü qəhrəman bəylər.

5 Zülmi-dövrani-əyalətdə əyilməz qəddi,
Olsa bu dəhrdə həm xak ilə yeksan bəylər.

6 Təbli-pünhani çalıb axiri rəqqasi-zəman,
Oldu **Nafiz** kimi qayətdə pərişan bəylər.

**~ 62 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Təqlidi-naləmi genə şəbgir edər, gedər,
Cövri-zəmanə halimi təğyir edər, gedər.

2 Sünbülləri zülfünlə edərdim müqayisə,
Səhvi-xətadə boynuma zəncir edər, gedər.

3 Qanım tökəndə qəsd ilə şəhbaz gözlərin,
Bir həmlə ilə sinəmi kəfgir edər, gedər.

4 Qan ağlamaqdayam genə cövri-sitəmindən,
Çeşmim sirişkini necə təqtir edər, gedər.

5 Aşiqləri həsrətlə qocaldan qoca dünya,
Bir gün gələr bu **Nafiz**i də pir edər, gedər.

## ~ 63 ~

**Həzəc-4: MəfA'İlün / fə'Ulün / məfA'İlün / fə'Ulün**

1 Eşq zəncirində peyvəstə işim tə'limdür,
Bir məqami dutmuşam kim tərzi-həftiqlimdür.

2 Yazmışam salnamələrdə suzi-vəslin tarixin,
Tarixi, əyyamdə bir möhtəşəm təqvimdür.

3 Möhtərəm şəxsiyyətin miqdari yoxdur dəhrdə,
Baxgilən ədnalərə cümlə cahan tə'zimdür.

4 Gərçi pərvaz etməmiş sındırmısan balü pərim,
Üstüxani-mumiya ilən işim tərmimdür.

5 Bu fəna mülkün riyalənmiş üzündən əlaman,
Daima ariflərin mənzurəsi təfhimdür.

6 **Nafiza,** sən bu cahanın qəhrinə amadə ol,
Aləmin rəftarinə cümlə cahan təslimdür.

## ~ 64 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Dün gecə əyləncəmi cayi-xərabat etdilər,
Mey verib imanımi əslində isbat etdilər.

2 Dinü dünyadən keçib sağərpərəst oldum genə,
Nameyi-əmalimə bərhəm xürafat etdilər.

3 Mey təvafində necə vəsf eylədim saqiləri,
Məclisi-işrətdə bir sağər mükafat etdilər.

4 Saqilərlə bəzmdə mən qalmış idim qaliba,
Aləmi xəlvət görüb bəzli-münacat etdilər.

5 Gəldilər qurtardılar hicran əlindən **Nafiz**i,
Dəstə-dəstə gəldi bülbüllər mülaqat etdilər.

**~ 65 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Şadəm ki, hövsələ dili-naşadımızdadur,
Həngamələr ki, naleyi-fəryadımızdadur.

2 Dəm-dəsgahım müxalifə çatmaz nəfəs-nəfəs,
Getdi o qəmli həncərə ustadımızdadur.

3 Qəlbi zəmanə cövrü pərişan edəmmədi,
Ol dəsti yədullah ki, imdadımızdadur.

4 Könlüm nigahi-yardə hər dəm qəzal olur,
Ol tirü kəman öylə ki, səyyadımızdadur.

5 Mən bir fəqir ikən adımız **Nafiz** oldu çün,
Əsrari-feyz rif'əti-bünyadımızdadur.

**~ 66 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Atəş töküldi aləmə, od tutdi sinələr,
Allah, amandi aləmi basdi əcinələr.

2 Zülm ərşə ucaldi, necə odlandi kainat,
Əyyami-fəlakətlə dağıldi mədinələr.

3 Hökmi-qəzadə lərzə edər ərzü asiman,
Dəryalər içrə bağladi lö'vbər səfinələr.

4 Zalimlərin sülaləsi yetməz nəhayətə,
Künci-qəfəsdə payimal oldi kəminələr.

5 Sərvət yığıb fərar edənin gördük axirin,
Bir saət içrə palçığa batdi dəfinələr.

6 **Nafiz,** qəm etmə, istə Xudadən muradini,
Gövhər təb'ində vardi tükənməz xəzinələr.

## ~ 67 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Dəhr eşq əhlin dəmadəm çeşmi-giryan göstərir,
Böylə kim, ədnalərə rizqi-fəravan göstərir.

2 Qəhr ilə İsfəndiyari ərsədə məğlub edib,
Rüstəmi-Zal olmağa bir mərdi-meydan göstərir.

3 Dərhəqiqət aşinani məst edib meyxanədə,
Bizlərə saqi durub bir xali fincan göstərir.

4 Dəhr bimürvət görün Məcnunə bir üz verlmədi,
İstirabi-cəhd ilə Leylayi-dövran göstərir.

5 Böylə kim duni-rəqibi şadman etmiş fələk,
**Nafiz**i hər ləhzədə hali pərişan göstərir.

## ~ 68 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Əfkari-xəyali-dəhənin məzhərimdədür,
Nasazlığım vəchi cəfagüstərimdədür.

2 Daş-qaş ilə tə'min olamaz zinəti-aləm,
Rövnəq verən əşyayi-dəlil cövhərimdədür.

3 Dəryadə dağa çırpına gər zövrəqi-eşqim,
Tərsanədə səfineyi-dil ləngərimdədür.

4 Meyxanə fərağində xumar oldi saqilər,
Təmkini-rümuzat əsəri sağərimdədür.

5 Sarəngü qumri təngnəfəs nəğməsaz olur,
Mürği-səhər təranələri əzbərimdədür.

6 **Nafiz**, səlimi-təb'i-rəvanun lətifəsi,
Rövşənrəvaci-məzhəri-naziktərimdədür.

## ~ 69 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nobahar oldu genə bir güli-rə’na tapılar,
Gözlərin nisbətinə nərgisi-şəhla tapılar.

2 Gir gülüstanə tərəb bağla, könül, vüsətdə,
Eyşi-nuş eyləməyə badeyi-həmra tapılar.

3 Nitqə gəl bülbüli-şeyda kimi gülşəndə genə,
İxtilat etməgə bir yari-şəkərxa tapılar.

4 Zülfü şəbrəng xəyaliylə səfaləndi məşam,
Güli-rə’na dəminə ənbəri-sara tapılar.

5 Qafi-könlüm, bu xəyal ilə məlul olmagilən,
Qülleyi-qafə baxarsan genə ənqa tapılar.

6 Paymal oldi cahan cümlə xəyanətlərdən,
Bir qədər qüvvəti İskəndəri Dara tapılar.

7 **Nafiz**a, gündə tərənnüm elə bu nəğmələri,
Kimsə təhqiq edə bu sözləri mə’na tapılar.

## ~ 70 ~

**Həzəc-5A: MəfA’ilün / fə’Ulün / məfA’ilün / fə’Ulün**

1 Meyin ki, bəzmdə, saqi, nə dilgüşalığı var
Ki, yarsiz nəzər etsən rəhi-fənalığı var.

2 Qubari-məqdəminə canımi fəda qılsam,
Mərdümi-didələrim içrə tutiyalığı var.

3 Müşahidə elədim dəhrdə gözəlləri mən,
Görürsən əksərinin yari-bivəfalığı var.

4 Cəfayə dözmədi Fərhad, özün həlak etdi,
Diyari-eşqin əzəldən belə xətalığı var.

5 Rahi-eşqində nədamətlə qocaldi **Nafiz**,
Əlində həzrəti Musa kimi əsalığı var.

## ~ 71 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Gözlərin məndən genə ol nərgisi-cadu çəkər,
Qətlimə hazır durub, xəncər iki əbru çəkər.

2 Sanki Hindu mülkünə Fəğfur çəkmiş ləşkərin,
Zilləti-dami-bəlani beççeyi-Hindu çəkər.

3 Çeşmi-casusun mənim əfkarımi etmiş cüda,
Arizuyi-könlümi hər dəm xəmi-gisu çəkər.

4 Bülbülün səbri tükəndi nəstərənlər şad olur,
Aşinalıq rəsmini matəm, güli-şəbbu çəkər.

5 Çəkdi isə Kuhikən hər dəmdə Şirin xiffətin,
Möhliki-övrad üçün mərdanəlik bazu çəkər.

6 Çəkmədi bir kimsənə, **Nafiz,** cahanda dərdüvi,
Səndən ötrü qatlanıb kimdir o kim qayğu çəkər.

## ~ 72 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Ləbi-lə'lin nüzul etdikdə könlümdə bəqa artır,
Əgər bir busə lütf etsən deyərdim ki, səxa artır.

2 Gözüm yaşi fərağində olubdur Dəclə mislində,
Basar Bağdad mülkün axiri, çün daima artır.

3 Əgər sevdayi-Leyli döndərsə ol Qeysi Məcnunə,
Təsəvvür eylədikcə eşq tərzin macəra artır.

4 Görün kim naleyi-ahim tutubdur Neynəva mülkün,
Mənim əhvalimə qayətdə ney sızlar, nəva artır.

5 Zəmanə gərdişindən mən pərişan olmayım neylim,
Ümidim əksilib tədric ilə, çünki bəla artır.

6 Necə təmkin edim, **Nafiz**, zəmanın mültəhibindən,
Bu zalimlər diyarində dəmadəm əşqiya artır.

**~ 73 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Baxdığca ruyinə dili-zarə səfa gəlir,
Ənhari-eşqə rəhməti-bari-xuda gəlir.

2 Lə'li-ləbün səfasını vaiz bilə əgər,
Kəsbi-kəramət eyləməyə müddəa gəlir.

3 Lə'li-qəmində könlümi mə'yus edən budur,
Əsnayi-vəsldə başıma macəra gəlir.

4 Çin-çin tökübdi gül üzünə dami-zülfüni,
Ol dəm diyari-Çinə Xütəndən xəta gəlir.

5 Bu rəhgüzari-eşqə girəndə xətalıdur,
Ey binəva, xəta sovuşanda, bəla gəlir.

6 **Nafiz**, zəmanə məngənəsində zəbun ikən,
Fəhm eyliyəndə başıma hər dəm həva gəlir.

## ~ 74 ~

## Mirzə Məhəmməd Həsənin qəzəlinə nəzirə

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Qəmdən xəfəqən olduğumi yarə desinlər,
Bəlkə eləyər dərdimizə çarə, desinlər.

2 Vəlleyldə qaldım genə, Məcnunluğum artır,
Zülfi-siyəhin tək günümi qarə desinlər.

3 Suzi-dili-əhvalimi gördükdə rəqibim,
Yandı bu fəlakatzədə odlara desinlər.

4 Dildarə desinlər rəhi-eşqində zəbunəm,
Dərdi-dilimi yalvarə-yalvarə desinlər.

5 Nəql eylə hekayətləri divanəliyimdən,
Mənzurimi əlan o cəfakarə desinlər.

6 **Nafiz** oturdi böylə əfəndi məqaminə
İndi nə rəvadır ona avarə desinlər.

## ~ 75 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Dil fikri-surətinlə dönüb kimya olur,
Hər dəm xəyali-rif'ət ilə masiva olur.

2 Səhni-çəməndə vəsfini qılmaq vəsilədür,
Ağzımda kəlmələr dönübən mumya olur.

3 Bilməm nə sirrdür, sənəma, baği-vəsldə,
Məhrulər aşiqə dolanıb bivəfa olur.

4 İstər könül ləbün həvəsiylə nəvalənə,
Bülbül kimi təranələrim dilgüşa olur.

5 Sirri-dəhanini necə pünhan edəmmədim,
Netsən nihani nüktələri bərməla olur.

6 Bir gün gələr səfinə-səfinə şəkərlərim,
Vəslin yetər bu **Nafizə**, hacətrəva olur.

## ~ 76 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Övzayi-mahi-ruyini aldıqca halələr,
Ruyin görüb çəməndə qucaqlaşdi lalələr.

2 Divanələr güruhi düşüb dami-zülfünə,
Həm şad olurdi ərşə ucalıqca nalələr.

3 Gəl bir kənardən baxıb əhvali-zarimə,
Ceyhun kimi gözümdən axanda şəlalələr.

4 Aşiqlərin üqubət ilə canın almağa
Şəmşir qaşın çeşminə etdi həvalələr.

5 Lə'li-ləbində **Nafiz**i gör meypərəst olub,
Səbri-qərarın əldən alıbdi piyalələr.

## ~ 77 ~

## Hadi əfəndinin qəzəlinə nəzirə

**Rəcəz-1: Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün**

1 Hər handa sən olsan ora aşiq vətənidür,
Əgnində qəba bulsa şəhidlər kəfənidür.

2 "*Vəhşi baxışın göstəriyor qaçmağı, əmma,*
*Bu vəhşəti tərk eylə, rəfiqin mədənidür.*

3 *Rövzati-cinanimdə açan qönçeyi-məxmur,*
*Al qoxla, məhəbbət gülüdür, yasəmənidür.*

4 *İlhami-sünuhat axıyor şe'ri-tərimdən,*
*Mən naşiri-vəhyəm, bu Məhəmməd dəhənidür.*"[1]

5 Fikrimi pərakəndə qılır Hadi məqali,
**Nafiz**, bu necə höqqeyi-dürri-ədənidür.

1 Mətlə və məqtədən başqa ortadakı üç beyt Hadi əfəndinindir.

## ~ 78 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Məzarim üstünə təşrif edərsə sərvqamətlər,
Qopar, əlbəttə, ol dəmdə cahan içrə qiyamətlər.

2 Sağaldır məlhəmi-eşqün necə gör daği-Məcnuni,
Sağalmazdur təni-zarimdə bu daği-məhəbbətlər.

3 Ləbün şovqilə oldi mənzilim meyxanələr künci,
Səlamət mənzilində başıma gəldi məlamətlər.

4 Qocaldım, paymal oldum, büküldi qamətim qəmdən,
Görün gərduni-kəcrəftar, veribdir ömrə sür'ətlər.

5 Nə dəm gülzari-hüsnün seyr edərkən **Nafiz**i-şeyda,
O dəmdə saz edər mənlə xüruc ol nazli afətlər.

## ~ 79 ~

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Ləbi-lə'lün, ey pərivəş, şüəra betər yazıblar
Ki, nəbati şəkkər içrə onu gülşəkər yazıblar.

2 Ki, xəyali-lə'lün ilə nə şirin olur dimağim,
Bu xəyali-lə'lün, ey gül, necə gülbəsər yazıblar

3 Çiçəy açdı nə stərənlər, çəmən içrə gəldi sədbər,
Məni bəzmdə səfərbər görüb əlhəzər yazıblar.

4 Bu ləbin şəkərliyində nə deyim olarmı xürma
Ki, mərizi şəkgərim var, mənə həm zərər yazıblar.

5 Ləbi-lə'lüvə müvafiq-deyil ərzdə Səmərqənd,
Bu səfa əyalətindən mən üçün səmər yazıblar.

6 Ləbi-lə'lüvün sənasi, qılıram bu xoş kəlami,
Onu məndən öncə bəlli necə muxtəsər yazıblar,

7 Hanı Xaçənin səxası iki şəhri türkə versin,
Necə Sahibiqiranə bu sözi xəbər yazıblar.

8 Nədən ol bilikli Soqrat zəhər içdi bir piyalə,
Budu sərnəvişdi nüsxə həkimə zəhər yazıblar.

9 Nola bu nəvavü həngi eşidə həkim Fərabi,
Deyə mərhəbalər olsun təb'üvə təpər yazıblar.

10 Belədir Xudayi-qüdrət yetirib cənabi-Marki
Ki, mənim səyahətimdə Parijə səfər yazıblar.

11 Yaşasın xanım Südabə belə bəzmi qurduğuçün,
Deləvildə bu nəğamətlə görün əsər yazıblar.

12 Nə şirin məqal olursan ürəfalər içrə **Nafiz**,
Ürəfalar içrə əvvəl səni mö'təbər yazıblar.

**Paris, 28 aprel 2003**.

## ~ 80 ~

## Molla Qədir Naci Şirvaninin qəzəlinə nəzirə

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 "*Dil fikri-qamətinlə xərabatdən gəlir*".
Eşqin libasi İdrisi-xəyyatdən gəlir.

2 Meyxanənin məlahətini artıran səbəb,
Piri-muğanə gizli mülaqatdən gəlir.

3 Sövti-sədani Davuda göndərdi Zülcəlal,
Gör həncəreyi-eşq səmavatdən gəlir.

4 "Şur"ü "Nəva"ni ərşə ucaldan da eşqdir,
Eşq isə nəğməkarə mükafatdən gəlir.

5 Yarın xəyali-zarinə şəklü şəmaili,
Qəlbimdəki ol nüsxeyi-miratdən gəlir.

6 Görçək şirinməqal bizi xəlq söyləyər,
**Nafiz**dəki bu həncərə ovqatdən gəlir.

## ~ 81 ~

## Cahanşah Həqiqinin qəzəlinə nəzirə

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 *"Zülfü-rüxün ki, şamü səhərdən xəbər verər,*
*Anın məşami ruhi-bəşərdən xəbər verər."*

2 Şirin ləbin piyaleyi-candur mizacimə,
Gülqənd məqamində şəkərdən xəbər verər.

3 Kim görsə bəzmdə səni bu abü tab ilə,
Ruyi-zəmində şəmsü qəmərdən xəbər verər.

4 Lə'li-ləbində niyyəti-fəthi-ümidimi,
Bir busə lütf edərsə hünərdən xəbər verər.

5 Şəm'i-visaldə əridər mum tək məni,
Pərvanələr gedər bu xəbərdən xəbər verər.

6 Kimdir müsəxxər eylədi Sasani mülküni,
Salnamələrdə həzrət Ömərdən xəbər verər.

7 Mülki-süxəndə paymal olsan da **Nafiz**a,
Təb'i-xəzinə dürri-gühərdən xəbər verər.

## ~ 82 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Demün ki, gərdişi aləm vəfa ilən doludur,
Görüb müşahidə etdim bəla ilən doludur.

2 Bəlali başımi götürüm qaçım bu aləmnən,
Neçün ki, hər dəmi min bir xəta ilən doludur.

3 Düşəli eşqə səlasil necə rəncur oldum,
Diyari-eşq neçə macəra ilən doludur.

4 Mənim əhvalimə xəlvətdə ney nəva eylər,
Odur ki, nalələrim Neynəva ilən doludur.

5 Yazıb təranələrim  xəlqə ərməğan etdim,
Əgərçi cümlə cahan bu məta' ilən doludur.

6 Şikəstə **Nafiz**ə cövr etmə dəmadəm bisyar,
O nəmaz əhlidi, ağzi dua ilən doludur.

**~ 83 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Qəmindən xəstəhaləm, yanımə hər kim gələr oynar,
Mənə munis olanlar gah ağlar, gah gülər, oynar.

2 Mənimçün rəqs edər aləmdə bundan zövq alan kəslər,
Bu rəqsi-sən'ət içrə "Ləzgihəngi" yə nələr oynar.

3 Bu eşqin kuçəsin aləmdə mən məstanə gəzməkdən,
Dolandi başıma hərgiz dalanlar, döngələr oynar.

4 Rəfaqətlə bu nəbzimdən tutan bir mehriban yoxdur,
Təbibi-mehriban xişm ilə nəbzim cəngələr oynar.

5 Saçın sünbül sorağində, pərişanəm fərağində,
Qaşın xəncər çəkib, kipriklərin bağrım dələr, oynar.

6 Məlamət çəkməyimdən, **Nafiz**a, ömrüm xəzan oldi,
Xəzani-ömrümi gör yel vurub həm, yengələr oynar.

## ~ 84 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Sevdayi-səri-zülfdə aşiq nələr çəkər,
Ol möhnəti zəncirdə divanələr çəkər.

2 Çəkmə qəmi-sevdaləri, çək başə sağəri,
Meyxanədə kim sağəri rindanələr çəkər.

3 Gəldi fərağı-zarimə zülfün hekayəti,
Zərbül-məsəli bir neçə əfsanələr çəkər.

4 Zülfün çəkib apardı məni bir qaranlığa,
Rindi-xərabi əzm ilə meyxanələr çəkər.

5 Atəşlərə yanmaq təzədən düşdi bəxtimə,
Suzi-visali rəsmdi pərvanələr çəkər.

6 Şətrənci-eşqdə özünü fərz edən bilər,
Aləm qəmin bu dəhrdə fərzanələr çəkər.

7 **Nafiz** o qədər çəkdi visalin firaqini,
Zikri qəmində səbheyi-səddanələr çəkər.

## ~ 85 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Piyaləmiz genə gülgün şərab ilən doludur,
Rəşkdən qönçənin ağzi gülab ilən doludur.

2 "Qəməngiz" aləminə böylə çəkmə "Sarəng"i,
Hezar həncərələrlə "Rəhab" ilən doludur.

3 Sütuni-səbrimə çox tişə çalma, ey Fərhad,
Tağı-dil dairəsi iztirab ilən doludur.

4 Xərabə qalsın, ilahi, bu çərxi-kəcrəftar
Ki, onun vərdişi, hər dəm xərab ilən doludur.

5 Səfineyi-əməlin Xızr çəkdi zülmatə,
Aləmin gərdişi hər dəm səhab ilən doludur.

6 Yatıbdı fil qulağında xəyal edin **Nafiz**
Ki, onun gözləri qəflətlə, xab ilən doludur.

## ~ 86 ~

**Mütəqarib-1: Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün**

1 Saqi, xiyali-badeyi-gülrəng-rəngdür,
Mütrib nəvası aləm ara həng-həngdür.

2 Qoşdum apardı qafileyi-eşqə könlümi,
Bu karivansəradə könül ləng-ləngdür.

3 Bu qəmlər əlindən yürəgim parə-parədür,
Ayineyi-İskəndəri gör jəng-jəngdür.

4 Vaiz məni meydən ötəri səngisar edib,
Pərkaleyi-bağrım necə də səng-səngdür.

5 Xəndan olub bu səhndə gül camədən çıxıb,
Bülbül çəməndə hövsələdiltəng-təngdür.

6 Ol gül qəmiylə **Nafiz** özün yaxdı odlara,
Gülşəndə gül genə açılı şəng-şəngdür.

## ~ 87 ~

## Nicati Ruminin qəzəlinə nəzirə

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 "*Etdi gözümün yaşıni ümmanə bərabər,*
*Ol lalərüxün işləri var qanə bərabər.*"

2 Göz yaşım axıb daireyi-kuyini tutdi,
Hər qətrəsi bir gövhəri-qəltanə bərabər.

3 Yad eylə çəmən güllərin, ey bülbüli-bidil,
Vəsfində güli-tərdi şəkərxanə bərabər.

4 Meydani-məhəbbətdə ki, xakistəri-zarəm,
Hər vaqiyə əfsanədi hicranə bərabər.

5 Bağrım əridi möhnəti-dərbəndi-bəladə,
Dərbənd özü də qüssədə Şirvanə bərabər.

6 Gəl mə'rəkeyi-cövrdə arifləri dindir,
Laf eyləcəkdür dəxi hədyanə bərabər.

7 Saqi, kərəm et, çox da mənim canımı sıxma,
Mey ver bizə hər qətrəsi bir canə bərabər.

8 **Nafiz** belə əhvali görüb halimə yandi,
Bir qəmkeş olarmi dəxi qəlyanə bərabər.

## ~ 88 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Görün kim həcvguluqda məni məşğul qoymuşlar
Ki, naməqbul olan ismi necə məqbul qoymuşlar.

2 Gəlibdir bimürüvvətlər üzü göyçəklər əyyami,
Yüzündə xali-filfildən əcəb məhsul qoymuşlar.

3 Fərəh sərmayədari, sərgüzəşti-xameyi-nazim,
Mizacim təxtinə əfsanələrdən tul qoymuşlar.

4 Bizi məğbun edən bir nəsnə kim, vardır bu aləmdə,
Bu rəngarəng ovrağın adın gör pul qoymuşlar.

5 Bu Şirvan təxtinə layiqdürürmi böylə bihimmət
Ki, rus üçün xəfiyə bir pədər məchul qoymuşlar.

6 Bu həftə **Nafiz**in qani qaraldi, rəngi-qətran tək,
Düşünsəm bilməzəm rəngin, qati məhlul qoymuşlar.

## ~ 89 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gözlərin aydın, səyahətdən genə canan gəlir,
Dəstinə almış qərənfillər, güli-reyhan gəlir.

2 Oldular peymaneyi-məxmur, məsti saqilər,
Çeşminə zinət verib ol gözləri məstan gəlir.

3 Dur başım üstündə, cana, getmə çeşmimdən iraq,
Bəlkə didarınla can vermək mənə asan gəlir.

4 Bağladım rahi-bəlağət kişvərin e’caz ilə,
Bəzmimə Xaqan gəlibdür, Xosrovi-İran gəlir.

5 Dilbərin qıldım təğəzzül sirəti-adabin;
Gördülər nəzmi-bərinə həzrəti-Həssan gəlir.

6 Eşq mülkün tərk edib Fərhadü Məcnun getdilər,
Onların ardınca dəhrə **Nafiz**i-nalan gəlir.

## ~ 90 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Nədəndür bəs o gül yüzlüm mənə hər dəm əda eylər,
Çağırsam gər cəvab etməz, nədəndür ol ğina eylər.

2 Nədəndür bəs yanar canim, bu halimdən xəbər tutmaz,
Nədəndür cövr zənciri mənə hər gün cəfa eylər.

3 Nədəndür dövr cövrilə belə ağır yatıb bəxtim,
Nədəndür taleim rəsmi-səfadan imtina eylər.

4 Zəmanə od dutub yandi Füzuli ahü zarindən,
Nədəndür ol böyük şair dəmadəm qəm bina eylər.

5 Sual etdim qərənfildən nədəndür kim pərişansan?
Cavabında dedi: bülbül səhərdən hey nəva eylər.

6 Dedim: ey nərgisi-xoşhal, nədir səndə fəravanlıq,
Dedi: kimsə mənə daim vəfa üstən vəfa eylər.

7 Dedim: nilufərə bəs sən açıldınsa nədən soldun,
Dedi: kim bəxti-mənhusim əcəb matəmsəra eylər.

8 Dedim: gül üzlü cananım, sənə can verməgə gəldim,
Dedi: azadə ol məndən, bu eşqin çox səda eylər.

9 Açar güllər, ziyadə şad olar bağlar geyər əlvan,
Xəzan olcaq çəməndə, gül fəna ömrün fəda eylər.

10 Əgər səhv eyləyib **Nafiz**, əlindən dutsa, yalvarsa,
Bağışla əqlim eşqində çaşıb, hər dəm xəta eylər.

## ~ 91 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Ətrini duydum, gülüm, badi-səbadən bir səhər,
Can məşamim çün müəttər qıldi ol reyhani-tər.

2 Atdi, ey məh, könlümə çeşmin xədəngi-qəmzələr,
Aşiqi-miskinə dərmandur belə nəzzarələr.

3 Könlümün tənburini çaldım cahanda şövq ilə,
Barmağımdan axdi qan, candan yarandi bir Xəzər.

4 Şövq ilə çırpınmışam ol şəmi-ruyi-bəzmdə,
Yanmışam hicraninə pərvanələrdən beşbetər.

5 Çəkmişəm hicrin dəmadəm, çünki qəm məhbusiyəm,
Olmuşam Məcnun kimi divanələrdən mö'təbər.

6 Sanma kim, **Nafiz** deyildir eşqdə sabitqədəm,
Ol sari-kudən əyağin kəssə gər başin kəsər.

**~ 92 ~**

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Ey dil, sənə düşmən olani tani, gədadur,
Ətrafinə cəm eyləmə kim ani, gədadur.

2 Xan anlamaz imiş ki, ayı mətləbi qandı,
Meyxanəyə qoyma girə ol xain gədadur.

3 Bir yerdə yüz il talib olan xani-vəfayə,
Şıllaqladi, dağıtdı nəməkdanı, gədadur.

4 İntidad ilə töxmi-nifaq səpdi ərayə,
Qazma götürüb bellədi löhrani, gədadur.

5 Mərd öldi görün məmləkəti-şərqdə Səddam,
Boşqab yaladi qərbdə Bərzani, gədadur.

## ~ 93 ~

## Mütəqarib-1: Fə’Ulün / fə’Ulün / fə’Ulün / fə’Ulün

1 Saqi, büsati-eyşdə peymanə ləngdür,
Dərdi-bəlavü hicrdə məstanə ləngdür.

2 Ləngər vuran sifal ilə məstanələr hani,
Mey cilvəsində heyyəti-meyxanə ləngdür.

3 Piri-muğanə çatdıran əhvali-zarimi,
Kəffarə verməyə genə rindanə ləngdür.

4 Şəm’i-visali yardə suzan olan könül,
Yandım, yaxıldım odlara pərvanə ləngdür.

5 Sübhi-visali-təntənəsindən doğan günəş
Düşməz bizim bu nəğməli eyvanə ləngdür.

6 Səyyahi-aləm olmaq üçün mur olan könül
Yetməz səfayi-mülki-Süleymanə ləngdür.

7 Divanəlikdə dözmədi bilmərrə möhnətə
Şami-qəmində **Nafiz**i-divanə ləngdür.

**~ 94 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ləblərin rəngidə bir danə qızılgül kimidür,
Şaxi-güldə dili-zarim dəli bülbül kimidür.

2 Nə qədər ahü fəğan eyləmişəm hicrində,
Sorsan əhvalimi hala ki, tənəzzül kimidür.

3 Təni-zarimdə neçə yarə salıb qəmzən oxu,
Sinəmin yarələri tazə qərənfül kimidür.

4 Zülfü-şəbrəngini hər kimsə xəyal eylərsə,
Müşki-ənbərlə qiyas etməli sünbül kimidür.

5 Ləbi-lə’lün necə daruyi-şəfa mənbəyidür,
Meyi-mina dəhənindən süzülən mül kimidür.

6 Vəsf elə Zülfüqari-Heydəri-Kərrari bu gün,
**Nafiz**a, təb’i-rəvanun genə Düldül kimidür.

## ~ 95 ~

**Rəməl-5: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

1 Səməndərlər kimi yandım, vücudim oldi xakəstər,
Məni yandırmağa amadədi hicrində bu əxgər.

2 Könül Zülqərneyin tək qaldi zülmati-təhəyyürdə,
Yetiş fəryadimə hicran ara, ey Xızr tək rəhbər.

3 Könüllər qan olunca baği-İlhami-lətafətdə,
Yetişdi ayeyi-rəhmət, göründi Xaliqi-məzhər.

4 Süxənsaz olsa hər kimsə, məta’in çəksə bazarə,
Fəqət sərraf zənn eylər kimi misgər, kimi zərgər.

5 Könül möhnətsəralərdə məlul İsfəndiyar isə,
Hücum etdi görüb üftadə halim Rüstəmi-ləşkər.

6 Saçın sevdasi aləmdə necə müşgülgüşa imiş,
Neçə aşiqləri avarə qıldi müşk ilə ənbər.

7 Qaşın cəngi-siyasətdə əgər sahibqiran olsa,
Bəyazid neyləsin ol dəm mübarək olmasa əxtər.

8 Gözün cilvə qılanda Əşkəbusi-vərtədən keçmiş,
Atıldi tiri-müjganın mən etdim sinəmi səngər.

9 Meyi-nabi həqiranə deyirlər tərk edib **Nafiz**,
Genə meyxanədə bir gün görərsən ki, vurub ləngər.

**~ 96 ~**

**Seyyidin qəzəlinə nəzirə**

**Rəməl-1: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilAtün**

1 "*Görcək ayinə rüxün ah eyləmək müşküldürür,*
*Dərd əlindən səni agah eyləmək müşküldürür.*

2 *Aləmi Misri-məhəbbətdə, könül təxtində,*
*Hər gədani gətirib şah eyləmək müşküldürür.*"

3 La fəta illa Əli sındırdi babi-Xeybəri,
Kimsəni dərvazəfətdah eyləmək müşküldürür.

4 Ravi Mehdi qissəsin Sahibzəman etməgdədür,
Mehri-istiqbalə ikrah eyləmək müşküldürür.

5 Bülbüli-şuridə cəh-cəh vursa bir dəsgah olur,
"Naleyi-zənburi" dəsgah eyləmək müşküldürür.

6 Seydəzim Şirvaniyə min rəhmət olsun kim bu gün,
Həm nəzirə gahü-bi-gah eyləmək müşküldürür.

7 Mədh qılmaq ən'ənə olmuşdi gər şairlərə,
**Nafiz**i bu işdə məddah eyləmək müşküldürür.

## ~ 97 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Bu gözəl hansi çəmənzarın güli-rə'nasıdır,
Bəlkə bağ içrə bitən ol güllərin həmrasıdır.

2 Qamətin bənzətmək üçün çəkdilər sərvin adın,
Söylədim mən kim behiştin möhtəşəm tubasıdır.

3 Bu məlahət, bu lətafət, bu nəzakətlə yəqin,
Bu gözəl indiki əsrin həzrəti-Leylasıdır.

4 Nola ol ürkək baxışlım hüsnünə ceyran desəm,
Sanki "Ceyrankeçməz"in bir gözləri şəhlasıdır.

5 Dilbərim bir busə verdi, digərin lütf etmədi,
Ləblərindən aldığım bir buseyi-tənhasıdır.

6 Yarsız aşiqlərin ömri-zəmani fanidir,
Yarsız cam alsa gər, cami-qəmi-əfzasıdır.

7 Firqətində sızlayıb şamü səhər qan ağlaram,
Qan tökər çeşmim müdam guya iki qan tasıdır.

8 Başımın üstün alıb şeyda bülbüllər hüzn ilə,
Guiya **Nafiz** ölüb-bir əndəlibin yasıdır.

## ~ 98 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Abi-heyvani ləbin, lə’li-gövhərpaş nədür,
Zindəgani-rəhi-eşqindəki daş-qaş nədür.

2 Tiri-müjganin ilə birləşib əbruyi-xəmin,
Qəsd edən canimə əbsəm bu silahdaş nədür.

3 Ey həbibim, məni-azürdədilə cövr yetər,
Bir xəyal eyləgilən dust ilə qardaş nədür.

4 Məni pəjmürdə qılıb eşqdə ənqayi-təb’im,
Uçuşur dövrələrimdə genə xəffaş nədür.

5 Qəmzeyi-xişmi-xətavərdə töküb qanımızi,
Belə fərmayiş ilən bir neçə fərraş nədür.

6 Nə ərasət, nə ərazi, nə bəladur, **Nafiz**,
Bürüyüb məmləkəti bir belə oğraş nədür.

## ~ 99 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ol zaman kim, atəşi-eşqünlə ahü zar olur,
Dəf’ətən qan yaş tökən ol dideyi-xunbar olur.

2 Nazəninlər adəti daim cəfa qılmaqdadur,
Bəllidür aşiq cəfalər çəkməgə pərgar olur.

3 Qönçənin nazın çəkib bülbül cəfayə səbr edər,
Açılınca gül onun xeyrin görən əttar olur.

4 Aşiqi-şeyda olan eylər təzərrö vəsldə,
Qəlbi-aşiqdə dəmadəm xatiri-pindar olur.

5 Çəkmənəm zülfündən əl, çəksəm dili-viranədən,
Aşiqi-kamil olanlarda belə iqrar olur.

6 Dərd əlindən çıxdı dağə **Nafiz** ol Fərhadvəş,
Dərdi bir dilbilməzə ərz eyləmək naçar olur.

## ~ 100 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Ey könül, qəm yemə, novruz ötüşüb yaz gələr,
Cuş edəndə pəri-bülbüllərə  pərvaz gələr.

2 O qədi-sərvi-səhi gülşən ara seyrə çıxar,
Aşiqə qəmzə satıb, eyləsə də naz gələr.

3 Ey könül, fikr eləmə dərdi bölüşdürmək üçün,
Xəyali-gəştə çıxıb bir büti-tənnaz gələr.

4 Gələr iyadətə şəst ilə ol kəmanəbru,
Sinəmi yaraləyib həm o tirəndaz gələr.

5 Yar bəzmində xətadidə, pərişanhaləm,
Nə qədər məzhəkə qılsa, mənə nasaz gələr.

6 Gələr bu dəbdəbə içrə neçə min aşiqlər,
Təb’i-nazik belə **Nafiz** kimisi az gələr.

## ~ 101 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Eşq ara könlümüzün bir belə nasazi nədür,
Rəqib şad olubаn gündə sərəfrazi nədür?

2 Yar vəslində dəmadəm ki, pərişanhaləm,
Vədeyi-vəsl pəyamində zəmansazi nədür?

3 Şahbazi-sitəmindən sınıbdi balü pərim,
Qəmzeyi-çeşmi-siyahin bu kələybazi nədür?

4 Başimə küllər əlendi, büsati-eşqində,
Məni pəjmürdə görüb indi güləndazi nədür.

5 Mənim nəvalərimə bənzədib nəvalərini,
Bülbüli-qəmzədənin böylə həmavazi nədür.

6 **Nafiz**a, başimə çox səngi-məlamət yağdi,
Kim bilir kim, fələkin sanihəyi-razi nədür.

## ~ 102 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nə zaman qəmzəli ol nərgisi-şəhla süzülür,
Qəmzə peykani ilə rişteyi-canım üzülür.

2 İxtilati-dəmi-eşqində pərişan oldum,
Şəm’ə pərvanəliyimdəndi bu canım büzülür.

3 Fəğanü nalə çəkib xəstəhal olunca ürək,
Gözümün inciləri rişteyi-canə düzülür.

4 Dərdə düşdüm qəmi-eşqində rəvayət belədir,
Qəm çəkən aşiqi-biçarə uzağdan sezilür.

5 Dözüb cəfavü qəmi-möhnətə bu **Nafiz**i-zar,
Bir qərinə ötüşüb hicrdən, əmma dözülür.

## ~ 103 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Sünbüli-zülfün nədən zülfi-düta halındadır,
Gənc üstündə yatan bir əjdaha halındadır.

2 Dün görəndən surətin əmniyyətim əldən gedib,
Dözməyib bunca ürək dərdü bəla halındadır.

3 Ənbərin zülfün yayan badi-səbadur nəkhətin,
Hali oldum dəmbədəm badi-səba halındadır.

4 Zahidin zərqü riyasın anlamaq müşkül deyil,
Görgilən əynindəki zərqü riya halındadır.

5 Handa bir gül açılırsa çöhrəsində var nişat,
Handa bir bülbül görürsən mübtəla halındadır.

6 Qəmzeyi-tiri-xədəngi könlümi məcruh edib,
Sihhəti-**Nafiz** bu gün darüş-şəfa halındadır.

## ~ 104 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Laleyi-rüxsarini gördüm çəməndə al ağır,
Sünbüli-zülfün gətirdi başimə bir hal ağır.

2 Ey laçın sevdali dilbər, almaq üçün könlümi,
Şahbazi-çeşmi-məstindən kəramət bal ağır.

3 Gənci-hüsnün minnəti-mali-məta’in çəkməyə,
Dirhəmi-dinar yüngüldür və leykin mal ağır.

4 Dövləti-didarini görmək dilərdi könlümüz,
İstixarə qılmışam, zira gəlibdür fal ağır.

5 Rüstəmi-idrakda, **Nafiz,** təxəyyül eylədim,
Sam ağırdır həmlədə, Timur ağırdır, Zal ağır?

## ~ 105 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Kakülün hüsni-cəmalın üzrə bir əjdərmidür?
Kiprigin çalmaz dəmadəm gəncini bəklərmidür?

2 Eşqə tuyğun gözlərin rahat buraxmaz könlümi,
Xişm ilə növbət çəkən bir qəmfəza əsgərmidür?

3 Ahü nаləm sənd olan qəlbinə təsir eyləməz,
Qaliba, ey səngdil qəlbün sənin mərmərmidür?

4 Buteyi-eşqündə gördünmi tutuşmuş sinəmi,
Bir xəyal etdinmi bu nüqrə və lakin zərmidür?

5 Bəlkə də kövrəlmisən bu **Nafiz**in əhvalinə,
Bilməzəm sevdali qəlbün səxtdür ya nərmüdür!?

**~ 106 ~**

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 Genə qəlbim səfaləndi, həmin cövri-cəfadəndür,
Cəfa kim, nazəninlərdən gəlir, beytüs-səfadəndür.

2 Yüzün gülzarının hər dəm səfasın görmək istərdim,
Məni-əfkəndeyi-zarə, xütur etmək Xudadəndür.

3 Mənim bu qəlbimə, ey gül, yazılmış mehriban olmaq,
Fəqət mən yoxladım, gördüm, sənin qəlbün qayadəndür.

4 Cəmalin şövqünə rəxşəndeyi-aləm təmaşagər,
Sinən ayinəsi, Ayineyi-aləmnümadəndür.

5 Qaşun təhrində kim, surət çəkibdür sane'i-qüdrət,
Yüzün gülzari-xüldi, nuri-paki-Mustafadəndür.

6 Əgər **Nafiz** fərasətlə cihad eylərsə nəzm içrə,
Əlində xaməsi həm Zülfüqari-Mürtəzadəndür.

## 11 - HƏRFU'Z - "ZE" "ز"

**~ 107 ~**

**Molla Qədir Nacinin qəzəlinə nəzirə**

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 *"Pərvanə qılıbdur məni bir şəm'i-şəbəfruz.*
*Şüğlüm gecələr dönmək olub başinə ta ruz."*

2 Yandırdi məni eşq odu hicran sitəmiylə,
Bəxtim ki, mənim üşşaq ara olmadi firuz.

3 Bir qaşi kəman, kiprigi ox yarın üzündən,
Dəydi bu sınıq könlümə min navəki-dilduz.

4 Oldi bahar fəsli mənə fəsli-zimistan,
Mahiyyət ilə süfrəmizə gəlmədi novruz.

5 Gərmiyyət olan dildə bu eşq atəşi sönməz,
Yandırdi cahani genə bu naleyi-dilsuz.

6 Ya Həyyü Əhəd, **Nafiz**i qıl bəndələründən,
Görsünlə səmalərdə necə parlaya yılduz.

## ~ 108 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gəldi lə’li fikrimə uyqudədir canan hənuz,
Zövq alar dildardən asudədir bu can hənuz.

2 Bülbülün səbri tükəndi gül fərağindən, vəli
Öz məramində dilaradi güli-xəndan hənuz.

3 Mən də hicranın sütunun qırmaq istərdim nədi,
Laxladır gündə sütuni-səbrimi hicran hənuz.

4 Mübtəlayi-eşq olandan əmnü rahət tapmadım,
Tapmayıb adabi-eşqin çarəsin Loğman hənuz.

5 Mənzilin axirdə Bağdad etdilər Xaqaninin,
Məsnədində bir fərağət tapmadi Xaqan hənuz.

6 **Nafiz**a, aləm oyandi xabi-qəflətdən görün,
Fil qulağində yatıbdır xitteyi-Şirvan hənuz.

## ~ 109 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Bilməm bu qəmli yarini yar istər, istəməz,
Bu nüktədani nazlı nigar istər, istəməz?!

2 Bu vüsət ilə zib edə Novruzi-rəvanbəxş,
Nəşvi-nümayi-fəsli-bahar istər, istəməz?!

3 Sirri-dəhani sormaq üçün bir kənarə gəl,
Bir himmət ilə busi-kənar istər, istəməz?!

4 Könlüm fəzayi-eşqdə sərgəştənümadır,
Bu təntənəni dildə qərar, istər, istəməz?!

5 **Nafiz** səzayi-eşqə giriftari-cünundur,
Divanəligi əldə şüar istər, istəməz?!

## ~ 110 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nədəndi zülfünü eşq əhli dutub əl vuramaz,
Nə də hicranın əlindən ölübən qurtaramaz.

2 Nalə eylərsə, gülüm, bülbüli məzur tutun,
Bu qədərdi onun osafi, gülə yalvaramaz.

3 Dostluğun əvvəli şirin olur, əlbəttə, yəqin,
Leyk bir parəsi axər yaramazdır-yaramaz.

4 Cavan olanda o kəslərlə həmpiyalə idim,
Yadə salmaz məni indi nə edim, bir aramaz.

5 Nəzər eylə o gülün zülfü pərişanına bax,
Xəyali-yar ilə bir həftədə zülfün daramaz.

6 Gəlmək istər yanına, leyk bağlıdır yollar,
Neyləsin, Kə’beyi-məqsudə bu **Nafiz** varamaz.

## ~ 111 ~

## Mirzə Qulamhüseyn Yurdçulu qəzəlinə nəzirə

**Rəcəz-1: Müstəf’ilün / müstəf’ilün / müstəf’ilün / müstəf’ilün**

1 “*Kipriglərə xatircəm olub ağlamaq olmaz,*
*Ceyhun qabağın çör-çöp ilən saxlamaq olmaz*”.

2 Bağlandi ümidim ləbi-lə’lində zülalə,
Ümmid elə bir nəsnədi kim, bağlamaq olmaz.

3 Dağlandi sinəm buteyi-eşqində sərasər,
Zənciri-cünuni bu qədər dağlamaq olmaz.

4 Ey yari-siyəhbəxt, eləmə eşqdə şivən,
Əfğan edibən sinəni cırmaqlamaq olmaz.

5 Əfsun ilə sahirdə başın düşsə bəlayə,
Nəzmiyyədə bu işləri səhmanlamaq olmaz.

6 **Nafiz,** düşəli eşqə səni danladi aləm,
Sevdayi-məlamətzədəni danlamaq olmaz.

## ~ 112 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ey səba, ərz elə kim, dərdimizi yarə bir az,
Gəlib insafə edə dərdimizə çarə bir az.

2 Bir təkəllüm edə sevdayi-inayət qılıban,
Bəlkə təskin edə bu aşiqi-bimarə bir az.

3 Məni rüsva eləyib lə’li-ləbin şövqündə,
Deyəsən meyl eləyib indi də əğyarə bir az.

4 Fikr qılma dəhənin lə’linə mərbut oldum,
Vaqif oldum, sənəma, ondaki əfkarə bir az.

5 Bir öyüd verdi mənə qəmzədə bir hal əhli,
Əqlin olsun dedi: ey **Nafiz**i-avarə, bir az.

## ~ 113 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Əhvalimi yazmaq dəhəni-xaməyə sığmaz,
Gər yazsa rəvayətlərimi naməyə sığmaz.

2 Səlnamənəvis eşq məramın edə təhrir,
Dastani-rəvayətləri “Şahnamə”yə sığmaz.

3 “Novruz rəvəndə” qılamaz “suzi-qəməngiz”,
Qəm-qüssə nişat ilə bu həngaməyə sığmaz.

4 Dəfn eyləyün üryan məni kuyində nigarın,
Dürdaneyi-nə’şim kəfəni-caməyə sığmaz.

5 **Nafiz,** elə bir laf eləyib zahidi-əbləh,
Öylə nərəxər kəllə bir əmmaməyə sığmaz.

## ~ 114 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Varsa fənayi-fəqrdə bircə həsirimiz,
Ruzi-cəza şəfaət edər dəstigirimiz.

2 Mö’min olurdi cümlə xəlayiq zəmanədə,
Keyfiyyətilə varsa Firəngə səfirimiz.

3 Razü niyazi-eşq ilə talib olanlarıq,
Eşq içrə vardi dildə təvəkkül məsirimiz.

4 Fikrü xəyali-zikr ilə qəm qüssə ne’mətim
Təxmir olubdu ne’məti-qəmdən xəmirimiz,

5 Sevdayi-səri-zülfdə batin sevənlərik,
Hər mehribani-şəxsə açılmaz zəmirimiz.

6 Səhni-çəməndə bülbüli-şirinsüxənlərik,
Həngi-hezar içində bulunmaz nəzirimiz.

7 **Nafiz,** cahanın əngəlinə indi səbr elə,
Bir gün gələr ki, gurlayacaqdır nəfirimiz.

## ~ 115 ~

## Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

1 Kişilər ərdəmini hövsələsindən biliriz,
Xubrulərdə xətani çənəsindən biliriz.

2 Laləzarın bahar əyyami fərəvanlığını,
Gər xəzan olsa da biz xarü xəsindən biliriz.

3 Biliriz mərəkədən rast gedən məhbubi,
Rəmzü eyhami fəqət həlhələsindən biliriz.

4 Bu səbat ilə nə təsvir edəlim dünyani,
Bivəfalıqdır işi dəbdəbəsindən biliriz.

5 Bu bina bir neçə me’marın əlindən çıxmış,
Baxıb eyvaninə həm pəncərəsindən biliriz.

6 Səccü nəzmi necə təqtə salırız bəhri ilə,
Rədifü qafiyəni təntənəsindən biliriz.

7 Dili-**Nafiz**də olan qüvvəti-iste’dadi,
Möcüzati-nəfəsi-həncərəsindən biliriz.

## ~ 116 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Eylə məstəm ki, könül dəhri fənadan seçməz,
Məstü layəqəl ikən küfri sənadən seçməz.

2 Pərdeyi-çeşmimi dutmuş məlamət asari,
Səgi-şəbgərd kimi şami zühadən seçməz.

3 Biqiyas oldi mənə aşinalərin cövrü,
Nə aşinadı kim, ol cövrü xətadan seçməz.

4 Yar öz əhdini iqrar edib inkar qılır,
Tifldür kim hələ inkari rizadən seçməz.

5 Zəmanə mərdümi münsif olamaz nikü bədə,
Xəlq əvam oldi belə aği qəradən seçməz.

6 **Nafiz**in cazibəsində bir əlamətdir bu,
Gərçi Dara ola, şahi füqəradən seçməz.

## ~ 117 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Bil “Şuri-nəva”lərlə sənə, ey qoca Təbriz,
Bir gün gələcək Nafizi-xoşləhcə dilaviz.

2 Bu “Şuri-nəva”lərlə nədir məqsədi tarın,
Əhvalini sor, şurə gələndə tərəbəngiz.

3 “Sarəng” məqamində kəman inlədi bir dəm,
Bu təntənələr bəzminə yol aldı “Qəməngiz”.

4 Şirinlik oğurlar necə ney nalələrimdən,
Gülqənd misali, nə əcəb, neyşəkəraviz.

5 Xanəndə necə bəzmdə tutilə süxənsaz,
Bülbül balabani götürüb oldu şəkərriz.

6 **Nafiz** o nəvazəndədi, ey arifü dana,
Bu nəğmələrim sizlərə bir zöhd ilə pərhiz.

## ~ 118 ~

## Vəsli Ruminin qəzəlinə nəzirə

**Rəməl-5: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

1 “*Həlqeyi-giysulərindən oldu picü tabımız,*
*Gözlərin yadiylə qaçdi didəmizdən xabımız*”.

2 Gör xəzan vurmuş qəmindən busitani-sinəmiz,
Nobahar əyyaminə yoxdur şərabi-nabımız.

3 Buteyi-məqsudimiz lə’li-Bədəxşandan gəlür,
Lə’li-nabın məzhərindən gövhəri-pürtabımız.

4 Vamiqü Məcnunü Fərhadi qiyas eylər könül,
Eşq səmtində necə mərdanədür əshabımız.

5 Möhnəti-hicrində zarəm imdi, ey şəkkərdəhən,
Ləli-nabın firqətindən təlx olub qəndabımız.

6 Tari-hicrində genə qoşmaq dilərdim nəğmələr
Zəxmə həngamində, **Nafiz,** sınmasa mizrabımız.

## ~ 119 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Qan oldi saqi, meykədələrdə şərabımız,
Gizləndi əbri-tirədə ol afitabımız.

2 Rəmmali-çərx tale'imə açmadi kitab,
Şami-qəmində örtüli qaldi kitabımız.

3 Məmluki-eşqəm, onda gərək bari-qəm çəkəm,
Saətbəsaət ərzdə artır əzabımız.

4 Ağzın ki, açdi sirrimizi yaydi aləmə,
Çoxdan suali-eşqə verildi cavabımız.

5 Meyxanələrdə badə içərsəm günah olur,
Bilməm günahımız nədi, noldi səvabımız.

6 Sud etmədikcə ol qədər içdim üzüm suyun,
Ənkuri-abrudə töküldi hicabımız.

7 **Nafiz,** vüsali-eşqdə qəm bir dəfinədir,
Təxmir olubdi ne'məti-qəmdən türabımız.

## ~ 120 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Hər kimsə mənim sərhədi-eşqim keçə bilməz,
Mən bağladığım əhdü qərari aça bilməz.

2 Şahinlər üçündür bu səmalər, bu üfüqlər,
Bayquş bu üfüqlərdə sərasər uça bilməz.

3 Hər kim baxa gülzarimə xain nəzər ilə,
Torlarə düşər, bir dəm əlimdən qaça bilməz.

4 Əl vurmasın hər nadan olan badeyi-nabə,
Ariflər üçündür onu hər kəs içə bilməz.

5 Aldanma ki, hər can-deyənə, can deməK olmaz,
**Nafiz** kimi hər kəs bunu aydın seçə bilməz.

## ~ 121 ~

## Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün

1 Ola gər o nazəninə, bu canım  sədağə, gəlməz,
Çiyinə alıb səhəngin niyə bir bulağə gəlməz.

2 İki sahili Ərazəm ki, dilər könül şitadə,
Niyə bərf Ərzirumdan əriyib aşağə gəlməz.

3 Qurulub  bu bəzmi-işrət şərəfünçün, ey məlayik,
Niyə bəs o məst çeşmim qan içər, ərağə gəlməz.

4 Laçın etdi daği məskən, oxuyub budağə qondi,
Budu əndəlibi-nalan fərəh ilə dağə gəlməz.

5 Nədi düşmən oldu xəlqə, o başi bəlali Müşfiq,
Elə sahibi-kəramət dəxi bu məzağə gəlməz.

6 Belə zülfü şahmari sarı boynuma, dolandır,
Bu çahar qulanc zülfün uzanıb darağə gəlməz,

7 **Nafiz**a, təb’i-rəvanin coşuban təlatüm eylər,
Belə bir təb’i-rəvanlıq hər uşaq-muşağə gəlməz.

## ~ 122 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Vəfa əhli olanlar atmaz, öz yarından ayrılmaz,
Çəkərsə min cəfa bülbül çəmənzarindən ayrılmaz.

2 Əgər sevdayi-Leyli Qeysini döndərsə Məcnunə,
Dözər hər bir cəfayə Qeys ətvarından ayrılmaz.

3 Düşər Leyli sorağində , yanar Leyli fərağində,
Gəzər zəncir boynunda, o ilqarından ayrılmaz.

4 Cəfayi-Şirin ilə tişəsin Fərhad çalıb başə,
Verər can qan içində, leyk dildarından ayrılmaz.

5 Xəyali-Dilbər ilə canıni tapşırsa da Müşfiq,
Sədaqətlə sevən, sadiq vəfadarından ayrılmaz.

6 Həyat üçün alır qəlbim sənin eşqündən ilhami,
Bu eşq ilə vuran qəlblər səbəbkarından ayrılmaz.

7 Əyim qoy baş hüzurində, sənin məftuninəm, cana,
Sitəm etsən də **Nafiz** öz sitəmkarından ayrılmaz.

## ~ 123 ~

## Mərhum İsmət Paşaya

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Dünyani dolansan dəxi canan ələ düşməz,
Canan özü bir can kimidir, can ələ düşməz.

2 Yüz Xosrovü Pərviz ilə İskəndərü Dara,
Yüz min cəm ola mülki-Süleyman ələ düşməz.

3 Cingiz xanı mat eylədi axir qoca dünya,
Gəldi o Hülaki dəxi Xaqan ələ düşməz.

4 Xişm ilə Bəyazidilə cəng eylədi Teymur,
Gər düşsə əsir olsa, bu sultan ələ düşməz.

5 Gər gəldi zəman içrə xəta qıldi Xətai,
İndi nə Xətai, nə Səlim xan ələ düşməz.

6 Bax gör ki, səninçün demişəm canımi qurban,
Qurban kəsilə gündə, bu qurban ələ düşməz.

7 **Nafiz**, hani Tofiq, hani Məmməd, hani İsmət,
Getdi dəxi İsmət Paşa tək can ələ düşməz.

## ~ 124 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Gəldi novruz yetişdi genə ol nami-əziz,
Gəlmədi bəzmi-qəm içrə niyə Xəyyami-əziz.

2 Saqi, insaf elə doldur genə bir peymanə,
Naz ilə bəzmə gətir, badeyi-gülfami-əziz.

3 Yürəgimdə qəmi-ənduhi-təlaşım çoxdur,
Yetişər dadimə əlbəttə bir imami-əziz.

4 Eşq həngaməsinin mən də olub müştaqi,
Nagəhan başıma gəldi belə həngami-əziz.

5 Halım eşqində necə şami-qəriban oldi,
Yandırar canımi əlbəttə ki, ol şami-əziz.

6 Yığılıb himmət edib yalvaralım mövlayə,
Qılsın islamə bu gün yaxşı sərəncami-əziz.

7 **Nafiz**a, rəşk ilə dünyani xəyanətlər alıb,
Neyləsin böylə xəyanətlərə Səddami-əziz.

## ~ 125 ~

## Füzuli qəzəlinə nəzirə

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Gözəllərdə nə adətdür mənə dünyadə ram olmaz,
Mənim bu bivəfalərçün genə vəsfim  təmam olmaz.

2 Dəmadəm qüsseyi-qəmdən saraldi, heyva tək rəngim,
Bu məhzunxanə içrə mən dili-məcruhə kam olmaz.

3 Gəl ey qan eyliyən könlüm evin, həm tarü mar eylə,
Çox aşiqlər sənin qurbanın olsa biməqam olmaz.

4 Kəsib mehri-məhəbbət sayəsin ol mah üstümdən,
Küdurətlə dedi:bil, sayəsi şəhrin müdam olmaz.

5 Deyillər  mey hərarətdən düşər dildar olan yerdə,
Bu fənn ilə ləbi-gülqəndidən sorsam həram olmaz.

6 Gözün fitva verər, kipriklərin üsyanə hazırdi
Ki, sərkərdə verərsə əmr ləşkər binizam olmaz.

7 Əgər yar istəyirsən tənəsindən qorxma əğyarın,
Elin fikrində, **Nafiz,** aşiqə bu nəngü nam olmaz.

**~ 126 ~**

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Hər məclisə irfani-ziyafət demək olmaz,
Hər söhbətə ilhami-lətafət demək olmaz.

2 Hər badəyə sağlıq demək asandır əgərçi,
Hər sağlığa dastani-sədaqət demək olmaz.

3 Mey, musiqi, ləzzətli təam, bir də ki, canan,
Bunsuz keçən əyyamə səadət demək olmaz.

4 Xoşdur olasan bir qaragöz dilbərə həmdəm,
Hər busəyə əslində məhəbbət demək olmaz.

5 Hər al yavağa, tər buxağa, qönçə dodağə,
Hər şux baxışa kani-məlahət demək olmaz.

6 Əfsanədi hər zülfü pərişanə vurulmaq,
Hər gül üzə, şəhla gözə afət demək olmaz.

7 Bənd olmagilən hər sözə, hər şivəyə, nazə,
Hər şivəyə, hər nazə nəzakət demək olmaz.

8 Hər xarici zinətli bina mö'təbər olmaz
Hər ziynətə asari-həqiqət demək olmaz.

9 Simuzərə sərvət demə əl çirkidi onlar,
Hər simu zərə, hər pula sərvət demək olmaz.

10 Zənn etmə ki, çox mərtəbələrdə ucalarsan,
Hər mərtəbə, hər rütbəyə rüf'ət demək olmaz.

11 Bir loxma çərək verməy ilə çox da öyünmə
Hər axcali ən'amə səxavət demək olmaz.

12 Söz gülşəninə seyrə çıxanlar bunu bilsin,
Hər söz bilənə arifi-hikmət demək olmaz.

13 Zənn etmə ki, **Nafiz**də sədaqət ya vəfa var,
Gər olmadı **Nafiz**də sədaqət demək olmaz.

**~ 127 ~**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Çarəmiz yoxdusa biçarə yazılsın adımız,
Bəxtimiz kəmdi, güni qarə yazılsın adımız.

2 Əridi mum kimi möhnəti-qəmdə yürəgim,
Yandi pərvanə tək odlarə yazılsın adımız.

3 Künci-meyxanəni biz mülki-Süleyman sandıq,
Fərqi yoxdur dəri-divarə yazılsın adımız.

4 Yar səmtində hara olsa bizə cənnətdür,
Ya biyabanə, ya dağlarə yazılsın adımız.

5 Neylirik gülşəni-gülzari ki, sən olmayasan,
Gülü solmuş quri bağlarə yazılsın adımız.

6 Od vurub zərli kitablari özün yandırdın,
İndi qoy köhnə varağlarə yazılsın adımız.

7 Mən kimi aşiq olan yurdi-yuvani itirər,
**Nafiz,** hər yerdə qoy avarə yazılsın adımız.

## ~ 128 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Gəldi lə’lin dili-məcruhimə ey cani-əziz,
Təlx olan dəmdə mizacim, dəhənimdir şəkəriz.

2 Nəzərindən elə düşdüm ki, mən ey canü tənim,
Olmadi canü tənim qiyməti xəlq içr pəşiz.

3 Ruhi-canpərvərimi dutdi bəla mö’cüzəsi,
Qalmadi zərrə qədər tabü təvan, ruhəngiz.

4 Eşq səmtindəki aşiqləri bir-bir gördüm,
Aradım, tapmadım, üşşaq ara bir əhli-təmiz.

5 Səmədi-nazına çox vermə viladət tərzin,
Tə’bi-qasirsə əgər vurma ana çox məhmiz.

6 **Nafiz**a, fəsli-xəzani, miladi tarix ilə,
Təvəllüdümdi mənim mindoqquzüz qırx səkkiz.

## ~ 129 ~

**Rəcəz-1: Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün**

1 Şövqi-rüxün olmazsa canımda təpər olmaz,
Başda xəyalın olmasa bir dərdi-sər olmaz.

2 Od dutdu vücudim görübən arizi-alın,
Zənnimcə cəhənnəm odi bundan betər olmaz.

3 Aləm təəccüb etdi görüb mahi-ruyini,
Aydındi fələkdə belə parlaq qəmər olmaz.

4 Başım kəməndi silsileyi-zülfə bağlanır,
Eşqi-həqiqi olsa qəzavü qədər olmaz.

5 **Nafiz** çalış ki, düşmə bu darülməlalə sən,
Bundan betər aləmdə dəxi bir təhər olmaz.

## 12 - HƏRFU’S - “SİN” “س”

### ~ 130 ~

**Həzəc-5A: MəfA’ilün / fə’Ulün / məfA’ilün / fə’Ulün**

1 Dili-sədçak verər zülfi-pərişanə nəfəs,
Çəkə bilməz o səri-muyidəki şanə nəfəs.

2 Tuta gülzardə bülbül ki, “Nəva” pərdəsini,
Girə bilməz dəxi bu pərdəyə biganə nəfəs.

3 Doldurub başə çəkər kim o meyi-minani,
Ala bilsə əgər ol bəzmdə məstanə nəfəs.

4 Ruhimə verdi cila həzrəti İsa nəfəsi,
Hikməti-əmr ilə gəldi təzədən canə nəfəs.

5 Taqətim yoxdu nəfəs almağa bir dəm, Yarəb,
Vergilən şəfqət ilə **Nafizi**-nalanə nəfəs.

**~ 131 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Gəl ey saqi, yığılsın aşina tapsın səfa məclis,
Şərabi-nabə qiymət qoy kim olsun pürbəha məclis.

2 "Zirəfkənd" ilə başlansın, bitirsin nəğmeyi-"Rast"i
Bilinsin Neynəva ilən dolub "Şur"ü "Nəva" məclis.

3 Fərəhlənsin könüllər, dərdü qəmdən bir kənar olsun,
Desinlər olmaz aləmdə belə bir dilrüba məclis.

4 Fərəh camin verən saət dağılsın qüssə aləmdən,
Xəyali-pürməlalimdən olub müşkulgüşa məclis.

5 "Nəhavənd"i sədalərlə dolubdur "Xavəran" mülki
Ki, tapsın mütribin sövtü sədasindən səma məclis.

6 Çalındı "Mahur"un şövqi-tərəblə ringü ahəngi,
Səni gözlər şitab ilə, həvəslə, **Nafiz**a, məclis.

**~ 132 ~**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Məni dildən dilə saldın genə də olmadı bəs?
Ya qal ilqardə dost ol, ya da bu dostluğu kəs!

2 Bəsdi tökdün başıma gündə xəyanət külünü,
Şən həyatım pozulub, gen otağım oldi qəfəs.

3 Dağ çəkdin sinəmin üstünə yandım oduna,
Nə ürəkdə dözümüm qaldı, nə sinəmdə nəfəs.

4 Dözdüm hər nazına, hər şıltağına, hər sözünə,
Tarümar oldi məramım, əməyim oldi əbəs.

5 Bu xəyal aləminin dadrəsində ucalıb,
Guşimə gəldi kəramətli ötən nəğməli səs.

6 Uzaq ol qəlbi qəra, surəti göyçəylərdən,
**Nafiz**, hər surəti göyçəylərə sən salma həvəs.

## ~ 133 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Oldum sənəma, eşqin ilə dəhrdə mə'yus,
Qəlbimdə qübar etmədədi həsrəti-pabus.

2 Aşiqlər içrə namü nişanim bilinərdi,
Səhni-sərani tutmasalar mərdümi-salus.

3 Zülfün xəyali saldi məni zilli-möhnətə,
Bir zərrə düşməz üstümüzə şö'leyi-fanus.

4 Bir kəmingəhdə necə dam qurubdur xalın,
Qaşların tiğ çəkib, gözlərin olmuş casus.

5 Bir cəfadur bu cahan içrə vəfali aşiq,
Ömrüni sərf edə biganələrə səd əfsus.

6 **Nafiz**a, könlüm evin yıxmadadur tədrici,
Özi məchuli-pədər, künyəsi ibni-dəyyus.

## ~ 134 ~

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 Ki, suzi-qəlbimə hər dəm olur meyxanələr bais,
Dəmadəm atəşin artırmağa peymanələr bais.

2 Qədəhlər parə-parə oldi həm sındi meyü mina,
Buna meyxanədə ləngər vuran məstanələr bais.

3 Xəlayiq olmaz idi Leylivəşlər zülfünə məftun,
Olub sevdalərə Məcnun kimi divanələr bais.

4 Qəmindən atəşə yanmaqlığı tə’lim qılmaqdi
Ki, atəş gördüyündə yanmağa pərvanələr bais.

5 Cahanın pürməlalindən qəmim  əfzun olur **Nafiz**.
Neçün kim qəm büsatın qurmağa qəmxanələr bais.

## 13 - HƏRFU'Ş - "ŞİN" "ش"

### ~ 135 ~

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 Nihali-gülşəni-bağü nəzakətdə səmənlərmiş,
Məşami-canimi məmluv edənlər nəstərənlərmiş.

2 Əsib badi-səba xürsəndhal ikən çəmənlərdən,
Müşəvvəşxatirü əhvalimi zindan edənlərmiş.

3 Züleyxa ismətində olsa məhrulər məhal etdim,
Onun eşqi-əsiri Yusifi-gülpirəhənlərmiş.

4 Büsati-eşqi duymazdi çü Yusif nocəvan idi,
Vəli Misri-məhəbbət içrə bais pirəzənlərmiş.

5 Alıbdır səbrimi əldən sanırdım qaşların taqi,
Məni qolbənd edən əslində gisuyi-şikənlərmiş.

6 Yavağun iştiyaqində təmamən alə qərq oldum,
Deyəllər **Nafiz**i tabutdə gülgülkəfənlərmiş.

## ~ 136 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Şəbi-xürsəndüvə, cana, əcəb cananələr gəlmiş,
Yanaği lalələr birlə, gözi məstanələr gəlmiş.

2 Olubdur saqilər xürrəm, ürəkdən şad olur aləm,
Açıblar həm ziyafət süfrəsin peymanələr gəlmiş.

3 Gözəllər şəm’i-ruyindən salıbdır aləmə şö’lə,
Sorağında həvəslə cəm olub pərvanələr gəlmiş.

4 Xərab olmuş çahanın qəflətindən mərdümi-aləm
Durub meyxanələrdən xanəsi viranələr gəlmiş.

5 Görüb lə’li-şəkərbarın cununi-eşq olur aqil
Ki, Məcnunluq məqamindən çıxıb divanələr gəlmiş.

6 Genə əyyami-hicrində könül mürği həvaləndi,
Qəza həngaməsində başuva, **Nafiz**, nələr gəlmiş?!

## ~ 137 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Yüzün gülzarının ətrin çəməndə yasəmən çəkmiş,
Əcəb əfsürdəhal ikən bu dərdi nəstərən çəkmiş.

2 Eşitmiş kim xəzani ruzigar əsmiş çəmənlərdən,
Əyağin bağdən ikrah ilə ol simtən çəkmiş.

3 Qızardi vəchinə baxdıqca qəmdən lalənin rəngi,
Nədir bu matəmi-eşqün ki, nərgislər kəfən çəkmiş.

4 Çıxıb dağlarə şəst ilə, görəndə sinəmin dağın,
Küdurətlə əyağın dağdən həm Kuhkən  çəkmiş.

5 Səfil əndişələrlə mən olurkən dərdimə məhzun,
Səlamət mənzilində möhnəti gəbri-kühən çəkmiş.

6 Gərək daği-fərağində ürəkdən eyləyim nalə,
Bu əhvali bilib **Nafiz**, bir ayri sinəzən çəkmiş.

## ~ 138 ~

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

1 Əzzəlki rayihə güli-xəndanda qalmamış,
Bülbül usanıb səhni-gülüstanda qalmamış.

2 Göz yaşımı Ceyhun kimi tökdüm əyağinə,
Bir zərrə ziya dideyi-giryanda qalmamış.

3 Dərmanın, ey təbib, necə təsirdən düşüb,
Nə türkəçarədə, nə də dərmanda qalmamış.

4 Çeşmi-qəzalın eylədi viranə könlümi,
Həmxanəlik bu xanəsi viranda qalmamış.

5 Dəhri-xəlayiq eylə düşüb e’tibardən,
Mərdanəlik əlaməti insanda qalmamış.

6 Kimnən alım sorağini **Nafiz** zəmanədə,
Ol qəsdi-arifan dəxi Şirvanda qalmamış.

## ~ 139 ~

## Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün

1 Zövqü səfada meylim rüxsari-yarə düşmüş,
Şəbnəm misali əşkim bir laləzarə düşmüş.

2 Çeşmi-xədəngi yarın, bağrımi dəldi keçdi,
Qanım axıb töküldi, bir cuyibarə düşmüş.

3 Zövqü səfasi artır, biganəyə dəmadəm,
Cövrü cəfası əfsun, bu dilfikarə düşmüş.

4 Cani-həzinim, ey gül, busi-kənarın istər,
Can çıxdi bu dəhəndən, tən bir kənarə düşmüş.

5 Çeşmi-qəzalın, ey şəh, qan uddurub zəifə,
Bağrım yarıldi qəmdən, həp parə-parə düşmüş

6 Əfsanə oldi Səddam, Darüs-səlamda, **Nafiz**,
Mənsur tək asılmaq ol tacdarə düşmüş.

**~ 140 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Sanırdım gülşəni-hüsnün bu məhzum qəlbi dinc etmiş,
Vəlakin gördüm axirdə, məni eşqin girinc etmiş.

2 Qədin fikrin çəkəndən qamətim, cana, dönüb yayə,
Xəyal et rəngimi eşqində manəndi-narınc etmiş.

3 Axan göz yaşimi, ey dil, mühasib yox hisab etsin,
Töküldi qətrə-qətrə, sanki bir nimçə birinc etmiş.

4 Tənuri-qəlbdə atəş güni-gündən azalmışdur,
Təsəvvür eylə ol nani, soyuq təndir nə linc etmiş.

5 Fərasətlə bu **Nafiz** də atın səyritdi hər yanə,
Fələk axirdə qəsd ilə salıb atdan gülünc etmiş.

## ~ 141 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Bir məclisə düşdük ki, onun söhbəti getmiş,
Şürbi-şərabi-təlx ilə ünsiyyəti getmiş.

2 Nadanlari çəkmişlə necə qəsri-dərunə,
Arif olanın dəbdəbəli şöhrəti getmiş.

3 Meyxarəlik əfzun edib əxlaqə siraət,
Fərzanəliyin dəhrdə ülviyyəti getmiş.

4 Nadanlar o gündən ki, ələ aldi piyalə,
Peymanəliyin məclis ara ləzzəti getmiş.

5 Namərdligin şöhrəti tutmuşdi cahani,
Mərdanəligin həm deyəsən qeyrəti getmiş.

6 **Nafiz**, övladi-cahan yeksər olub xanəndə,
Xanəndələrin əldən əsil sənəti getmiş.

## ~ 142 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Nə yaxşi qəlbimə darüş-şəfa meyxanələr varmış,
Həmən meyxanələrdə çarəsiz məstanələr varmış.

2 Yıxıldi könlümün bürci pərirulər xəyaliylə,
Deme məndən səva çox xanəsi viranələr varmış.

3 Xəyal eylərdim əvvəllər ki, bülbüldür vəfa əhli,
Özün yandırmağa atəşlərə pərvanələr varmış.

4 Rəvayət eylədi ravi bu gün  Fərhadü Məcnundan,
Mənim əhvalimə bənzər neçə əfsanələr varmış.

5 Sanırdım mülki-dünyadən köçüb mərdanələr nəsli,
Fərağİ-künçi-üzlətdə yatan mərdanələr varmış.

6 Xəyal etmə, könül, Seyyid gedibdür mülki-Şirvandan,
Yəqin et şəhri-Şirvanda neçə fərzanələr varmış.

7 Sınıq könlündə, ey **Nafiz**, yatıb bir dürri-Nasüftə,
Xəzəf küncündə gizlənmiş əcəb dürdanələr varmış.

## ~ 143 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Ləbi-lə'li şəkərbarın, şəkər üstən şəkərlənmiş,
Yüzündə xali-mişginin əcəb zillü təhərlənmiş.

2 Müqəvvəs qaşlarun gördüm, niyamından çıxıb öylə,
İki cadu gözün üstə, iki əbru xətərlənmiş.

3 Gözün fikrin çəkərdim mən, pərişan idi əhvalim,
Bəsirət halətilə incilər dolmuş, kədərlənmiş.

4 Dedim qıl dərdimə çarə, dedin: get bəklə Soqrati,
Ölüyə can verən Loğman, gedib gördüm zəhərlənmiş.

5 Qalıbdır əsri-mazidə, vəfa, ilqarü hürriyyət,
Kəfənlənmiş, möhürlənmiş, kilidlənmiş, çəpərlənmiş.

6 Ki, bağlandi xəyalim kişvərinə əzm edən əzkar,
Bu əxbarin sorağində mənim könlüm qəhərlənmiş.

7 Fəqət cəngü cidal etmə, yığış **Nafiz**, bu dünyadən,
Əcəb təxti-rəvanun var, səninçün at yəhərlənmiş.

## ~ 144 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ol yüzi gül dilrüba mən bülbüli yad eyləmiş,
Bu sınıq könlüm evin bir tövr ilə şad eyləmiş.

2 Bisütuni-surəti-nəqşində bir Şirinzəban,
Kəndimi məndən edib, eşq içrə Fərhad eyləmiş.

3 Aşiqə zülm eyləmək həzrət Züleyxadən qalıb,
Eşqi isbat eləyib həm zülmü bünyad eyləmiş.

4 Həmqərin olmuşdi gül gülşəndə gördüm xar ilən,
Əndəlibi-safidil min ahü fəryad eyləmiş.

5 Xanimani-mülkimi viranə qılmışdi rəqib,
Rəbbimə minnət çün ani dövlətabad eyləmiş.

6 Eşq dərsin almışam **Nafiz** kimi divanədən,
Xeyli matəm aşiqi gör kimlər irşad eyləmiş.

## ~ 145 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Ayağinə nigarın aşiqi-biçarə üz qoymuş,
Saçın zillində əf'i türreyi-tərrarə üz qoymuş.

2 Hesabə almadan böylə dolanmış tari-zülfündə,
Ədəb mənzurəsin aşmış, bu yüzi qarə, üz qoymuş.

3 Ləbi-lə'li şəkərbarə şirin can nəqdini vermiş,
Bu sövdayi-əlamətlə, durub bazarə üz qoymuş.

4 Sənin mehri-cəmalindən o qədri qaynamış qanım,
Fələk eyvaninə qanımla bir fəvvarə üz qoymuş.

5 Çü, sordum lə'linin sirrin, bu mə'nadən küsüb getmiş,
Barış qovlinə aşiq ol şəkərgöftarə üz qoymuş.

6 Gedib **Nafiz** ziyarət eyləmişdir Kə'beyi-kuyin,
Müqəddər şövqü zövq ilə dəri-dildarə üz qoymuş.

## ~ 146 ~

### Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün

1 Büsati-eyşdə bir qönçədəhanım var imiş,
Çeşmi-şəhlası üçün dərdi-nihanım var imiş.

2 Demədim dərdimi canana mən hicabımdan,
Kəşfi-raz etməgə bu dildə bəyanım var imiş.

3 Xəstəhaləm, fərəhi-fəhminə mən müştaqəm,
Gələ iyadətimə yar gümanım var imiş.

4 Bu bəzmi-mərdüm ara çox da binəva degiləm,
Nəzmi-nazik deyilən gövhəri-kanım var imiş.

5 Salıb məni nəzərindən sanardım əhli-vəfa,
Təriqi-eşqdə bir cani yananım var imiş.

6 Bir piyalə mənə verdi dedi: şirinnuş et,
Bu təkyəgahdə bir piri-muğanım var imiş.

7 Bu ərsəgahdə yalğuz deyilsən **Nafiz**,
Əzizimiz, gözümün nuri, Turanım[1] var imiş.

1 Turan İbrahimov

## ~ 147 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Kim olursa leylivəşlər əhdinə bel bağlamış,
Sinəsin gördüm ki, axır lalələrlə dağlamış.

2 Bir sürurі-bəzmdə gündüzləri gül tək gülüb,
Gecələr bülbül təki ta sübh olunca ağlamış.

3 Gör ki, Yusif dözməyib vəsl imtəhanindən qaçıb,
Həm Züleyxa cəhd edib daldan ani cırmağlamış.

4 Eşqin adabın götür ol Şeyx Sən’andan qiyas,
Boynuna e’zaz ilə zünnar asıb sərsağlamış.

5 Qəmlilər bəzmində mən dərdi-dilim artırmağa,
Həbbəza Ceyhun kimi əşki-rəvanım çağlamış.

6 **Nafiz**a, mollanümalar səndən üz döndərsə gər,
Boynuna minnət qoyub şeytan ani barmağlamış.

## ~ 148 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Könlümi dünya qəmindən dəf' edən ol naz imiş,
Duydüm axir nazını aşiqlərə dəmsaz imiş.

2 Nasehin pəndinə uydum, əl götürdüm zülfdən,
Bilmədim adabi-eşqi, hər yetən qanmaz imiş.

3 Naleyi-Məcnuni səhradə xəyal eylərmisən,
Leyliveşlər mənzilində bir fəğanəfraz imiş.

4 Qəhr edib məl'unsifətlər badə verdi könlümi,
Bir-birilə həng edənlər gör necə həmraz imiş.

5 Dəstə-dəstə hacilər Kə'bə təvafindən gəlir,
Sən deme bu kütlənin bir xeylisi quşbaz imiş.

6 Gözlədim səbr eylədim, quti-rəvanım gəlmədi,
Yoxladım ibraz ilə Şirazda da şir az imiş.

7 İmdi nadan zümrələr hübb eyləməzsə **Nafiz**ə,
Gərçi ariflər yanında gördülər mümtaz imiş.

## 14 - HƏRFU'S - "SAD" "ص"

### ~ 149 ~

### Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Bil ömrü edən fani meyxanələrə məxsus,
Həm yıxmağa dünyani, peymanələrə məxsus.

2 Peymanə tutub əldə, min zövqü səfa dildə,
Adətgər olan zildə, rindanələrə məxsus.

3 Hər cövrə dayanmaqdi, eşq içrə qazanmaqdi,
Səhranı dolanmaqdi, divanələrə məxsus.

4 Yanmaği səfa sanmaq, hər möhnətə qatlanmaq,
Büryan oluban yanmaq, pərvanələrə məxsus.

5 **Nafiz** lafi bir rə'na, əlbətdə ki, amənna,
Hər cümləsinə mə'na, fərzanələrə məxsus.

## 15 - HƏRFU’D - “ZAD” “ض”

### ~ 150 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Şanə edibən zülfü pərişanə müariz,
Zülfün elədi şanəyə şahanə müariz.

2 Laf eylər ikən zülfünə sünbül vəqahəti,
Zülfü siyəhin eylər o hədyanə müariz.

3 Saqi, mənə bir badə gətir kim kitabədən,
Gər olmasa müdavimi-meyxanə müariz.

4 Sərməstlik məqaminə ruzi-qiyamədək
Şürbi-şərabə etməyə rindanə müariz.

5 Yaxdım dili-zari təzədən atəşi-eşqə,
Etdi cəm olub bir neçə pərvanə müariz.

6 Təlx oldi mizacim genə yarın sitəmindən,
**Nafiz** elədi eşqdə mərdanə müariz.

## ~ 151 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Əridər mum kimi dəhrdə insani mərəz,
Nə kim insani, yıxar xəndəyə heyvani mərəz.

2 Mərəz ilə doludur qəryəvü şəhrü qəsəbə,
Bürüyübdür necə gör kuhü biyabani mərəz.

3 Mərəzin çarəsini eyləmək asanmı, təbib,
Alıb ağuşinə gör fəxri-xiyabani mərəz.

4 Tutulanlar mərəzə imdi əkabirlərdir,
Az qalıbdur ki, tuta həzrəti-Loğmani mərəz.

5 Gərçi xaqanın əlindən mərəzim var, **Nafiz**,
Vay o gündən qəzəb ilə tuta xaqani mərəz.

## ~ 152 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Qıl səba əhvalimi hicran ilə canana ərz,
Can təlaşın söylə görsən ol güli-xəndanə ərz.

2 Ey təbibim, səhhəti-sə'yimdə məşğul olma kim,
Mübtəlayəm eşq dərdin etmənəm dərmanə ərz.

3 Sanki bir İsfəndiyari-eşqdə məcruh ikən,
Eyləməz məcruh könlüm Rüstəmi-dastanə ərz.

4 Xatiri-zarim fərağində hənuz əfsanədir,
Eyləməm biganəyə hali-dilim əfsanə ərz.

5 Xanimanimdən məni, **Nafiz,** ayırdi çərxi-dun,
Eylərəm əhvalimi ol həzrəti-Sultanə ərz.

## ~ 153 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Hani bir ruhrəvan badeyi-səhbadən əvəz,
Ruhbəxş olmağı kim qıldı Məsihadən əvəz.

2 Can fədadur sənə bu mərhələdə, ey saqi,
Göstər aləmdə mənə bir meyi-minadən əvəz.

3 Sanma bir kimsə sənin vəsfini qılsın, ey gül,
Yaraşarmi sənə hiç bülbülü-şeydadən əvəz.

4 Hansı gül bülbüli-şeyda yürəgin qan eylər,
Qan rəngində olan bir güli-həmradən əvəz.

5 Sanki zənbur toxunmuş ləbinə ahəstə,
Ləbi-şirinin olub şəhdi-müsəffadən əvəz.

6 **Nafiza**, gərçi bu rəmzin biləsən mə'nasın,
Tapmadım fikrdə mən ani bu mə'nadən əvəz.

## ~ 154 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Ləblərin hər dəm güli-rə'naya eylər e'tiraz,
Çeşmi-məsti nərgisi-şəhlayə eylər e'tiraz.

2 Bağlanıb könlüm quşi zülfi-girehgirindədir,
Zülfü zənciri-cünun qovğayə eylər e'tiraz.

3 Girdi dildarım kəlisayə çəlipa bağladi,
Əhli-iman bir büti-tərsayə eylər e'tiraz.

4 Qeys səhrani dolandi həsrəti-Leyla ilən,
Sanma bu kirdar ilə Leylayə eylər e'tiraz.

5 Lə'li-nabın söhbəti hər dəm dirildir mürdələr,
Ləblərin mö'cüzdəmi-İsayə eylər e'tiraz.

6 Mürği-könlüm bu təqərrüblə dolandi Qaf-Qaf,
**Nafiz**in mürği-dili ənqayə eylər e'tiraz.

## 16 - HƏRFU’T - “TA” “ط”

**~ 155 ~**

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ey təbibim, bəstərində qoyma kim bimarə şərt,
Xabi müşküldür nə lazım dideyi-bimarə şərt.

2 Gül yüzündə ol qəra xalın görüb baxdım, nə qəm,
Hiç bir mümkünmüdür bimarlıq didarə şərt.

3 Zülfüni məşşatələr əlləşdirib zay etdilər,
Gər məlahət olmasa kim bağlayar timarə şərt.

4 Gülşəni-ruyin təmaşasında aləm cəm olub,
Kəsmək olmaz bu tərəb mənzurəsin əğyarə şərt.

5 Lə’li-nabın nisbətində qoymuşam can nəqdini,
Gövhəri-qəltani hərgiz etmədən bazarə şərt.

6 Sinəmi qıldım nişanə navəki-müjganinə,
**Nafiz**a, canım bəhasi qoymadım sərdarə şərt.

## 17 - HƏRFU’T - “ŽA” “ظ”

**~ 156 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Cahandan əl üzən kəslər alar meyxanələrdən həzz,
Vəfa cananədən gəlməz, alar peymanələrdən həzz.

2 Ləbi-lə’lin sorağilə cahani layə’qəl gəzdim,
O kimdir künci-qəflətdə alar məstanələrdən həzz.

3 Yanar şəm’i-visalində dəmadəm aşiqin qəlbi,
Dəmadəm suzi-möhnətlə alar pərvanələrdən həzz.

4 Gözün sevdasi ilən vaizi-əbləh çəkər təsbeh,
Alar sevdali naşi səbheyi-səddanələrdən həzz.

5 Həqiqət ixtilatın eyləsən bir kəs pəsənd etməz
Ki, göftari-əsatirdə alar əfsanələrdən həzz.

6 Cahanın sərvətindən hiç zaman həzz almadım, **Nafiz**,
Alar könlüm dəmadəm söhbəti-fərzanələrdən həzz.

## ~ 157 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ey dila, söz demə kim, yari açığ, yari qəliz,
Eyləmə məclis ara yar ilə göftari qəliz.

2 Ləfzi-şirini çaliş bir dəxi təkrar etmə,
Olmasın dinləyənə bir dəxi təkrari qəliz.

3 Meyə aludə şəriətdə həram olmuşdur,
Yox səfa meykədədə, xaneyi-xəmmari qəliz.

4 Hicr əlindən elə bir dərdə mübtəla oldum,
Nəbzimi tutdi təbiblər dedi: azari qəliz.

5 **Nafiz**a, eylə qəzəl yaz oxuyanlar olsun,
Deməsinlər oxuyanda bunun əş’ari qəliz.

## 18 - HƏRFU’L - “ƏYN” “ع”

### ~ 158 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Eyləmək asan olurmi lə’li-canandan təmə’,
Kəsmək, ey aqil, məgər mümkünmüdür candan təmə’!

2 Mən ki, lə’li-yardən kəsdim ümidim böylə kim,
Gör kəsərmi həzrəti Xızr abi-heyvandan təmə’.

3 Bir şəmamə lütf qıl bustandən, ey bağiban,
Böylə kim kəssin mizacim bağü bustandan təmə’.

4 Keçdi əyyami-şəbabim kim, qəmi-ənduh ilən,
Çəkmədim zindan olan ömri-fəravandan təmə’?

5 **Nafiz**a, mən bu cəhanin kim təlaqin vermişəm,
Zərrəcə yox dildə bu mülki-Süleymandan təmə’?

## ~ 159 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Şami-qəmində gör necə çəkdi zəbanə şəm',
Suzi-güdazə verdi özün aşiqanə şəm'.

2 Aşiqliyin bu dəhrdə bürhani-eşq edər,
Suzi-dəruni nəql elədi yanə-yanə şəm'.

3 Pərvanələr yaxıldi fərağində atəşə,
Öz qovmini çəkirdi məgər imtəhanə şəm'?

4 Yanmaq şüar edibsə əgər şami-vəsldə,
Pərvanəni yandırmağa eylər bəhanə şəm'.

5 Səbrim tükəndi suzi-dəruni-firaq ilə,
Qarət edibdi könlüm evin kafiranə şəm'.

6 Əyyami-hicrdə məni nalan edir hər an,
Könlüm rübabinə vuraraq taziyanə şəm'.

7 Canim yanır fəraq ilə, **Nafiz,** zəmanədə,
Lazımdi hər gecə belə bir nüktədanə şəm'.

## ~ 160 ~

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Atəşi-rüxsardə gör kim, nədür pərvanə şəm',
Yanmağa adət edəndən qaldi yanə-yanə şəm'.

2 Ol fəqirin sevgili cananəsi pərvanədür,
Göstərir öz bəzmi-qanunun necə cananə şəm'.

3 Atəşi artır ki, şəm'in sızlayır pərvanələr,
Yoxsa göz yaşın töküb məhrum olar əlhanə şəm'.

4 Söyləyən var kim, necə gözdən salıb pərvanəni,
Bir süxənsazın dilindən düşdi min böhtanə şəm'.

5 Suzişi-dami-bəladə od dutub əndamini,
Axiri **Nafiz** kimi odlandi yanə-yanə şəm'.

## ~ 161 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ey səba, çox vermə ol giysuyi-mişkin tarə qəm’,
Aşiqi diltəng edib, vermə o zülfi-yarə qəm’.

2 Gözümün yaşın görüb fəhm eylə gendən halimi,
Vermə gülgun yaş ilə ol dideyi-xunbarə qəm’.

3 Badə ver, saqi, xərabat mülküni abad elə,
Qoyma kim, daim çəkə bu aşiqi-biçarə qəm’.

4 Daima abad qılmaqçun xəyalim kişvərin,
Ver zəkati-hüsn üçün ol rişteyi-əfkarə qəm’.

5 **Nafiz**a, qəm ne’məti-xümsü zəkatındur sənin,
Çəkgilən şamü səhər, ey sinəsi sədparə, qəm’.

## 19 - HƏRFU'L - "ĞEYN" "غ"

### ~ 162 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Bəllidür xəlqə gəlir daim səmalərdən füruğ,
Kim görüb ayineyi-aləmnümalərdən füruğ.

2 Şö'leyi-ahim pərişanəm, dutub dunya üzün,
Görmədim aləmdə əsla dilrübalərdən füruğ.

3 Macərayi-vəslini dərdaşina dutdum müdam,
Qəlbə mümkünmü gələ bu macəralərdən fürüğ.

4 Zərnigar olmuş cahanın bir səfasın duymadım,
Görmədim miqyasü miratüs-səfalərdən füruğ.

5 Dutmuş idim, **Nafiz**a, piri-muğanın pəndini,
Almışam meyxanədə və'zi-dualərdən füruğ.

## ~ 163 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Kuyinə dün gecə söhbətdə dedim cayi-fərağ,
Mənzilim olmadi kuyində sərapayi-fərağ.

2 Dutdi könlüm qəmi-eşqində bəla mənzilini,
Bu əlamətlə çəkəm mənzili-mə’vayi-fərağ.

3 Zülfü şəbrəngini dutmuş necə şəbbu ələmi,
Ol səbəbdəndi bu könlümdə şəkərxayi-fərağ.

4 Gəlir xəyalimə lə’li-ləbün piyaləsifət,
Fərəhlənib duturam kövni-dilarayi-fərağ.

5 Yusifin vaqiəsindən ki, mən pərişanəm,
Gəlir xəyalimə rö’yayi-Züleyxayi-fərağ.

6 Bu şe’ri mərqədi-Məcnunə yazıbdur **Nafiz**,
Göstərib dəhrdə bir mərqədi-Leylayi-fərağ.

## ~ 164 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Yazdi bahar ayəti-hüsnün varağ-varağ,
Seyğəl çəkibdi zülfünə güldən darağ-darağ.

2 Zülfün çəməndə ənbəri-sara dəmindədi,
Nəsrinü yasəmən tökülübdür qucağ-qucağ.

3 Qaşın xəyalın eyləməyə fürsət olmadi,
Hər yandan üstümə çəkilibdir bucağ-bucağ.

4 Gəldi səfayi-arizinə hüsn ayəti,
Axdi gözümün yaşi qəmində bulağ-bulağ.

5 Lə'lün bərabərində fəqət gənc tapmadım,
Gəzdim cahani kuhi-Bədəxşan yatağ-yatağ.

6 Gördi belə hüsn ilə səni, ey güli-rə'na,
Düşdi dalınca **Nafiz**i, şeyda sorağ-sorağ.

## ~ 165 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Etmədim dəhrdə bir dəm nəfəsi-rahəti-bağ,
İnkişaf ilə bu bustani necə basdi alağ,

2 Düxtəri-rəzə inandım güzər etdim bağə,
Abi-əngur nədi, vermədilər bir bardağ.

3 Üz çevirdim həzərat içrə gəlib Kuhkənə,
Çəkdi bu sineyi-suzanimə dağ üstünə dağ.

4 Dağə döndi yürəgim məmləkəti-eşqündə,
Bu vüsul ilə ki, çəkdim neçə illərdi fərağ.

5 Ümidi-sübh açılmaz mənə bu gülşəndə,
Əndəlibi-qəmi-gülşən ki, mənə verdi sorağ.

6 Bağü rаği-sitəmindür gətirən təngə məni,
Ol səbəbdən yığılıb başıma külli Qarabağ.

7 "Mən də namürsəli-peyğəmbəriyəm Şirvanın",
Ümmətimdür Qələbürdüvü Çağanü, Çalabağ.

8 **Nafiz**əm, təb'i-zərifimdən almadan bəhrə,
Olmuşam məmləkəti-xəlqi-cahan içrə qaçağ.

## 20 - HƏRFU’L - “FE” “ف”

### ~ 166 ~

### Nəvəm Arifşaha

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Gözüm nuri, xəyalim, fikrü zikrim, ey cavan, Arif
Ki, olsun daim əhvalun cahanda şadman, Arif.

2 Görüm bürhani-əql ilə xəyalün zirvələr aşsın,
Ziya tapsın zərifanə xəyalündən cahan, Arif.

3 Gəzib dünyani, gör həm də Səmərqəndü Buxarani,
Səmər versün sənə daim bu ömrü-cavidan, Arif.

4 Süxən gülzarinə gəl, nüktələr, mətləblər izhar et,
Gülüstani-süxəndə olgilən bir nüktədan, Arif.

5 Qolunda qüvvətin vardır fərasət elmini ögrən,
Dayın kibi gedib olma yalançi pəhləvan, Arif.

6 Yadında saxla bu fərdi, unutma izzəti-nəfsi,
Baban yazdi bu əş’ari sənə xatirnişan, Arif.

## ~ 167 ~

## Əhməd Cəfərzadə qəzəlinə nəzirə

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 "*Genə göylüm aparır canımi canana tərəf,*
*Bu yəqindir ki, məni qan aparır qanə tərəf*".

2 Qəm dutub dövri-bərim sinədə asayiş yox,
Dudi-ahim məni sövq eylədi qəlyanə tərəf.

3 Öz xoşumla bu əyalətdə Nişat olmaz idim,
Məni təqdiri-qəza yazdi bu Səlyanə tərəf.

4 Gərçi seyğəl üçün, ey dil, onu almışdım ələ,
Şanə çəkdi sitəm ol zülfi-pərişanə tərəf.

5 Təlxkam olmuşam axir ki, bu sevdadə, vəli,
Tutmuşam tuti kimi üz şəkəristanə tərəf,

6 Cümlə aləm ola düşmən mənə, qorxum yoxdur,
Sidq ilə mən də sığınnam Şəhi-mərdanə tərəf.

7 Anladım elmi-siyasətdə zəif olduğumi,
Fikrim oldur ki, gedəm bir də dəbistanə tərəf.

8 Bu qəzəl töhfəsini Əhmədə inşa qıldım,
Yetir, ey badi-səba, naməmi Şirvanə tərəf.

9 **Nafiz**a, gizləmə yaz dərdini Şirvan şahına,
Bir duası yetişər bəlkə bu nalanə tərəf.

## ~ 168 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Bir zamanlar olmuş idim sərvəri-əyyami-zülf,
Badeyi-gülfam ilə dolmuş dimaği-cami-zülf.

2 Badə zövqündə xüturi-qəlbimiz abad idi,
Ehtişami-qəlb üçün bir badeyi-gülfami-zülf.

3 Həlqeyi-zəncirini hər dəm salardi boynuma,
Eyləyərdi tə’minati-həsrəti-bayrami-zülf.

4 Nərgisi-zəmbağü nəsrinlə bəzərdim zülfüni,
Töhfeyi-adab ilə məndən budur ən’ami-zülf.

5 Küfri-zülfün aqibət imani məndə qoymadi,
Tobəkari-bəzmdən mən istərəm islami-zülf.

6 Zülf əlindən könlümüz hər dəm çəkir əndişələr,
Möhnəti-hicran ilə bir gün yetər əncami-zülf.

7 **Nafiz**a, zülfü fərağ ilə pəşiman olma kim,
Çox əzizi dəhrdə nalan edib nakami-zülf.

## ~ 169 ~

## Nəvəm Ağa Yusifə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Surətin gəldi genə didəmə, ey can, Yusif,
Oldum eşqündə necə hali pərişan, Yusif.

2 Günəş cəmalüvi tezliklə görməsəm ölərəm,
Gözlərim yaşi salar aləmə tufan, Yusif.

3 Sən orda cüşə gəlib təxti-fərağətdə otur,
Çəkibən xiffətini mənsə cigərqan, Yusif.

4 Görsə idim yüzüni bircə kərrə ölməz idim,
Biləsən onda olur dərdimə dərman, Yusif.

5 Başim üstündəki şəklündi divardan asılı,
Dədə baxdıqca olur şəklüvə heyran, Yusif.

6 O vilayətdə ki, məskən salıban əyləndün,
Cənnət olsun sənə bu mülki-Süleyman, Yusif.

7 Eydi-əzhadə qoyun kəsməmək qəbahətdir,
Gündə bu **Nafiz** oleydi sənə qurban, Yusif.

## 21 - HƏRFU’L- “QAF” “ق”

### ~ 170 ~

**Həzəc-6: MəfA’ilün / məfA’ilün / məfA’ilün / məfA’ilün**

1 Bu bəzmə bil ki, sən tək hər büti-yeganələr layiq,
Timari-zülfünə məhrəm min altun şanələr layiq.

2 Yığılsın bəzmi-işrətdə, bulunsun gündə hal əhli,
Bu bəzmi-canfəzayə olmasun biganələr layiq.

3 Yanar nari-fərağində, dəmadəm aşiqin cani,
Əzəldən şö’leyi-eşqə olub pərvanələr layiq.

4 Pozuldi gərdişi-aləm, əlim dut bir əyaq ilə,
Ləbün dövründə, ey saqi, neçə peymanələr layiq.

5 Danışma aqilü dana yanında meypərəstanə
Ki, bəzmi-işrətə göftar üçün məstanələr layiq.

6 Nəyə lazımdi bir qəsri ucaltmaq fani dünyadə,
Xərabat əhlinə **Nafiz** bilir, meyxanələr layiq.

## ~ 171 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Rəvacın artırır yari-səmənrüxsari-naz olmaq,
Binadən tövrdür mə'şuqələrdə dilnəvaz olmaq.

2 Fələk cövrü cəfalər eyliyəndə cövr qıl sən də,
Gərəkdür mahpeykərlər öz əslində təraz olmaq.

3 Kəmali-dövləti-hüsni Xuda Məhmudə tapşırdi,
Qul oğlanə həm asanmi gəlib hüsni-Əyaz olmaq.

4 Dəhanin sirrini bildim, mizacim təlxkam oldi,
Görənlər xani-həlvadə qəbahətdür piyaz olmaq.

5 Cahanda, **Nafiz**, olmuşdur, hərə bir tərzdə məşhur,
Sənə ziba nəsihətdür, cahanda pakbaz olmaq.

## ~ 172 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Bir müddət əzəl biz bu cahanın bəyi olduq,
Çoxdur həzərat içrə əmu, biz dayi olduq.

2 Döndi əcəba xəlqi-cəhan buqələmunə,
Kəcbin füqəra içrə onun həmrəyi olduq.

3 Dutdi bu cəhan mülkini əqrabəşünaslıq,
Bilməm kim idik, kimlərin axir nəyi olduq.

4 Min möhnət ilə Hadi qəmin çəkdi çəhanın,
Biz də onun əgnindəki qəm köynəyi olduq.

5 Kimsən, nəçisən söylədilər Molla Pənahə,
Söyləndi ki, Mustafa xanın təlxəyi olduq.

6 Bərhəmdi necə dəhrdə bu rişteyi-ümmid,
**Nafiz**, neçə nirəngü cəfa ilməyi olduq.

## ~ 173 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Səri-kuyində heyranəm, nədir bilməm fəravanlıq,
Məni zibh eylə, himmət qıl, Xəlilim, eşqə qurbanlıq.

2 Görüb bütxanədə vəchi-cəmalin, ey büti-ziba,
Keçib tövri-xürafatdan, qəbul etdim müsəlmanlıq.

3 Məni bir dəm nəzərdən salmamışdır ol kəmanəbru,
Hər an tiri-nigahilə dutar əhvalipürsanlıq.

4 Mənim həmkarim eşq içrə olub Fərhad ilən Məcnun,
Biri dağə güzar etdi, biri oldi biyabanlıq.

5 Düşüb səhralərə Məcnun qutardi dövr cövrindən,
Nə şad oldi bu aləmdə, nə bildi bir pərişanlıq.

6 Görüb Xosrovü Şirin halətin Fərhadi-dilxəstə,
Salıb üşşaq ara əfsanələrlə bir paşimanlıq.

7 Pəşimanəm, bu dünyayə neçün mən gəlmişəm, **Nafiz**,
Görün nirəngü rəng ilə dutubdur ərzi nadanlıq.

## ~ 174 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Lovğalanma bu gözəllik sənə yar olmayacaq,
Gələcək fəsli-xəzan, bir də bahar olmayacaq.

2 Görüb əhvalini ibrət elədi eşqindən,
Dəli könlüm toruna bir də düçar olmayacaq.

3 Neylirəm bir gülü ətrafını həm xar alsın,
Bəsdi, xar oldi könül, bir dəxi xar olmayacaq.

4 Bəsdi, yandırdi fərağatəşi süzan oldum,
Nə fərağin, nə visalin mənə kar olmayacaq.

5 Çəkmiş idim qəmi sinəmdə, qübarim çox idi,
Sənin eşqinlə sinəm bir də qübar olmayacaq.

6 Sənin eşqinlə nəyim var idi qurban elədim,
Surətin bir dəxi fikrimdə güzar olmayacaq.

7 Eşqdə mülki-vəfa **Nafiz**ə son məskən olub,
O məqamdan çəkilib bir də kənar olmayacaq.

## ~ 175 ~

### Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Ey qəlbimizin məxzəni-əsrari cavanlıq,
Ey ömrümüzün gülşəni-gülzari cavanlıq.

2 Sənsiz nə gözəllik, nə məhəbbət, nə səfa var,
Elmin biliyin bağı-çəmənzari cavanlıq.

3 Bax türfə gözəllər necə gör seyrə çıxıblar,
Seyr eyləməyə bağı-füsünkari cavanlıq.

4 Sən ömrümüzə nur, fərəh, vəsl verirsən,
Döndərməgilən tərsinə rüzgari cavanlıq.

5 Sərf etmə cavanlıq dəmini boş yerə, ey dust,
Olsun sizə yar, ömrünüzün  yari cavanlıq.

6 Elmi, ədəbi, sən'əti öyrət bizə bari,
Şər işlərə sövq etmə bizi bari cavanlıq.

7 **Nafiz,** demə kim, getdi əlindən belə gümrah,
Bir də görə bilməzsən o dildari cavanlıq.

## 22 - HƏRFU’L - “KAF” “ك”

### ~ 176 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Bağdən rüxsari-hüsnün boylanır gülzardək,
Bəllidür kim, böylə gülzar olmaz ol rüxsardək.

2 Ey mələksima, mana gəl hər dəm öylə baxma kim,
Gözlərin xişmi məni cəlb eylədi şonqardək.

3 Sünbülün bağri yarıldi saçların pürçininə,
Zülfünə güllər çəkəndə şanəni timardək.

4 Nərgisi-şəhla fərağində canım od dutdi həm,
Çeşmi-məstin şivəsindən olmuşam bimardək.

5 Könlümə bir rəxnə dəydi qaşların tağın görüb,
Paymal oldum diriykən bir uçuq divardək.

6 Məh cəmalın şövqza gördükdə mehr etdim vəli,
Etdi rəftari mənimlə çərxi-kəcrəftartək.

7 Tə’neyi-əğyar, **Nafiz,** xar edir hər dəm məni,
Könlümi büryan edibdür nari-atəşbartək.

## ~ 177 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Ay təki parlaqdurur ol mahi-rüxsarün sənün,
Sərv tək azadədür gülşəndə rəftarun sənün.

2 Bir nigah ilə mənim səbrimi tarac eylədi,
Qəmzeyi-dami-bəla ol çeşmi-bimarun sənün.

3 Çeşmimin yaşi axıb tufanə verdi ömrümi,
Qaldi girdabi-bəladə bu həvadarun sənün.

4 Məhfili-kuyində mən dövr eylədim şamü səhər,
Ləbləründən görmədim bir busə əsrarun sənün.

5 Hər qədər yazsan da, **Nafiz**, vəsfi-canandan qəzəl,
Qaldı çün viranələr cüngündə əş'arun sənün.

## ~ 178 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Saqi, minayi-sağəri məmlu sevənlərik,
Zülfü siyəhi, arizi-dilcu sevənlərik.

2 Zülfün həvəsiylə atıban eşq kəməndin,
Səhrayi-Xütəndə necə ahu sevənlərik.

3 Əksi-rüxün ki, sinənin ayinəsindədür,
Ol vəchdən təravəti-güzgu sevənlərik.

4 Əfsuni-sehr ilə görübən çeşmi-məstini,
Şəhlayi-çeşmi-nərgisi-cadu sevənlərik.

5 Zülfün yanında gərçi yatır şahmartək,
Fəhm eyləyir ki, həlqeyi-gisu sevənlərik.

6 **Nafiz**, şücaət ilə zəbərdəst ol eşqdə,
Çün Rüstəm ilə cəngdə pəhlu sevənlərik.

## ~ 179 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 İsrar edirdi yar bizə həmdəm olduğun,
Mən ki,  təsəvvür eyləmədim məhrəm olduğun.

2 Baği-ümid qönçəsi bir dəm açılmadi,
Bildim vüsal meyvəsinin çox kəm olduğun.

3 Daim gözüm dolur, boşalır, əbri-tirədək,
Görkəzmə bəzmi-gülşən ara şəbnəm olduğun.

4 Üz qoydi zindəganlığımız kim fənalığa,
Bir bilmədim bu ariyətin aləm olduğun.

5 Zahid bizi ərkanə çəkib imtəhan edər,
Gördi dəxi imanımızın möhkəm olduğun.

6 Bir gün gələr mübarək edəllər ki, **Nafiz**in,
Nəzmi-səmadə böylə Məsihadəm olduğun.

## ~ 180 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Rəyasət məclisində qoy ədalət bir şüar olsun,
Çalış ki, möhtərəm hakim, ədalət aşikar olsun.

2 Yetişsin novruz olsun baği-könlümdə riyazətsiz,
Açılsın lalələr, könlüm o mülkə bərqərar olsun.

3 Nəsimi nəsliyəm, mən də soyulsam eynimə gəlməz,
Sovet dövründə şakərdi, bir aşiq səngisar olsun.

4 Babam Sabir dözəmməz, bu ələmlərdən vərəm bağlar,
Gərəkməz şairin qəlbi bu vəch ilə qübar olsun.

5 Gedim yə'ni yatım heç bir şeyin üstündə zindanda,
Nə lazımdır ki, **Nafiz** mülki-Şirvandan kənar olsun.

## ~ 181 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Şanə, nolur bir timar ol türreyi-tərrarə çək,
Tut əlim, insaf elə zənciri-zülfi yarə çək.

2 İntizari-həsrətindən gözlərim qan-yaş tökər,
Bir ayağın toprağın bu dideyi-xunbarə çək.

3 Mən pərişani görüb çox rahat əylənmə, gülüm,
Bu qəmin bir zərrəsin, ey dilbəri-məhparə, çək.

4 Dur xəyalun sədqəsi, aşüftə əhvalim görüb,
Xürdədanlıq istilasın mənzili-əfkarə çək.

5 Guşeyi-səhni-məlamət mənzilindən **Nafiz**i,
Gəl yetiş, insaf elə, birdəfəlik gülzarə çək.

## ~ 182 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gördülər könlüm quşi aləmdə pərvaz olduğun,
Bildilər kim? əğniyalərdən sərəfraz olduğun.

2 Ol nigari-nazəninin niyyətin bildim fəqət,
Anladım kim xislətində bir qədər naz olduğun.

3 Qəlbimə ünsiyyəti fərzanələrdən görmədim,
Bilməz idim arifin bir böylə qanmaz olduğun.

4 Vurdular kim sinəmə peykani peykan üstünə,
Bilməz idim aşinalərdən tirəndaz olduğun.

5 Çeşmi-məstin sanmış idim nərgisi-şəhla kimi,
Qəmzeyi-qətdali kim bildirdi şəhbaz olduğun.

6 **Nafiz**a, əş’arinə kimsə pəsənd etməzsə gər,
Fəhm edər nüktəşünas aləmdə mümtaz olduğun.

## ~ 183 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Gəldi xəyali-zarimə ol kişvəri-hüsnün,
Ayinəni səd çak edib İskəndəri-hüsnün.

2 Hüsnün şüası düşməsə cami-büluridən,
Aləmləri təsxir eləməz ləşkəri-hüsnün.

3 Lə'li-ləbin məta'ini sərf etmə raciyə,
Qoyma təravətin apara gövhəri-hüsnün.

4 Tə'rifi sığmaz isə cahanın nizaminə,
Saxla rümuzi-himmət ilə ləngəri-hüsnün.

5 "Üşşaq"məqamində durub əzmi "Hicaz" et,
Hər pərdədə e'caz edə ramişkəri-hüsnün.

6 Bu mətləbi durma oxu hüsn ayələrindən,
Bir gün gələr ki, **Nafiz** açar dəftəri-hüsnün.

## ~ 184 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Qəni olursa gəda, onda bir ədani görün,
Səriri-səltənəti-təxtdə gədani görün.

2 Xətayə meyl eləməz şəxs əgər nəcib olsa,
Xətayi mülkünə gəşt eyləyin, xətani görün.

3 Bilmək istərsən əgər piri-muğanın sirrin,
Onun əlindən alıb sağəri səfanı görün.

4 Yenə divanə könül dutdi "Hümayun"da qərar,
Qülleyi-Qafə nəzər eyləyün, hümani görün.

5 Cəfayi-məmləkəti-eşqdə cigərxunəm,
Bu nərdi-eşqdə, şətrəncdə cəfani görün.

6 Gözəllər eşqinə hər gün qəzəl yazan **Nafiz**,
Qəzayə uğradi, indi gəlin qəzani görün.

## ~ 185 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Məşami-canimə doldi genə ol mişki-tər zülfün,
Bu münval ilə məst etdi cahani sərbəsər zülfün.

2 Güli-rüxsarın üzrə əylənibdir, öylə çin-çindir,
Əgərçi halıni sorsam, verər Çindən xəbər zülfün.

3 Şikəstəxatirəm bir dəm mənim əhvalimi sormaz,
Verər ovqatimə daim kədər üstən kədər zülfün.

4 Vəfadən dəm vuranda ol cəfa sərmənzilin dutdi,
Nolur az eyləsin canə cəfani bir qədər zülfün.

5 Birinə şanəni çəksəm, olur düşmənçilik peyda,
Mini cəm olsa, hər yerdən verər canə xətər zülfün.

6 Dutub könlüm quşun saxlardi zənciri-əsarətdə,
Müsavat əsgəritək başıma gətdi nələr zülfün.

7 Canından əl çəkib cana, çəkərkən bu elin dərdin,
Şikəstə **Nafiz**i saldi elindən dərbədər zülfün.

## ~ 186 ~

## Həzəc-9: Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün

1 Can məşamini görüm rayihəməşam olsun,
Həmişə xatiri-zövqün ələddəvam olsun.

2 Məclisi-işrəti-meydən fərəhlənən dəmdə,
Fərağı-möhnəti-qəm də'f olub təmam olsun.

3 Neçə rəfiqi-müvafiqlə əyləşən dəmdə,
Yanında bir sənəmi-saz əlində cam olsun.

4 Biləsən xain ürəklər doludur aləmdə,
Çalış rəfiqin olan pakizəməram olsun.

5 Hər nəfəsdə səni bədnam edən ol kəs kim var,
Cahanda çəkdiyi nəfəs ona həram olsun.

6 **Nafiz**, ol kəs ki, səni daima xərab istər,
Görüm onun mərəzi daima zükam olsun.

## ~ 187 ~

## Baqi əfəndinin qəzəlinə nəzirə

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

1 “*Ey rəhrəvani-eşq, rəhi-rastan tutun,*
*Mürşid gərəksə daməni-piri-muğan tutun*”.

2 Girdabi-eşqə düşsən əgər duni-dəhrdə,
Meyxanə mənzilində meyi-ərğəvan tutun.

3 Adabi-dəhrə gərçi təvəkkül məram isə,
Onda mərami siqlət ilə kün-fəkan tutun.

4 Eyşi-səfayi-dəhrə inanma, zəvali çox,
Gülgülkəfənlər ilə bəlada məkan tutun.

5 Meyl eyləmə şahin kimi qarğa yuvasinə,
Mürği-Hümayi-Qafda bir aşiyan tutun.

6 Çox da mükərrər eyləməyin lafi-**Nafiz**i,
Yox bavərin, bu rast kəlamin yalan tutun.

## ~ 188 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Əqlimi sərdən alıb dəhrdə sevda dedigün,
Soldurub rəngimi həm bir güli-həmra dedigün.

2 Heykəli-səngi-məlamətlə binasın yapdım,
Mənəm ol heykəli-üzmadə müqəvva dedigün.

3 Yusifin halini gör, Misri-məlahətdə inan,
Nə binadır törədib hiylə Züleyxa dedigün.

4 Ey həbibim, qədəmi-dəhrə çox qürur etmə,
Hani Cəmşid ilə İsgəndərü Dara dedigün.

5 Yədi-beyzavü Məsih ilə bir İsanəfəsəm,
Mənəm ol bəzldə Musavü Məsiha dedigün.

6 Qəm büsatın qurub aləmdə həm fərəhləndi,
Həm də girdabə düşüb **Nafiz**i-şeyda dedigün.

## ~ 189 ~

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

1 Hiç istəməzəm səndə, gülüm, ariyət olsun,
Məşuq gərək şuxi-mülayimsifət olsun.

2 Hiss etmədən ima ilə ruxsarini gördüm,
Bir də baxam, əxlaqimizə məsiyət olsun.

3 Mümkün olunca ruzəni dut, başla namazə,
Ehkami-təriqətdə gərək təqviyət olsun.

4 Gündüzləri dut ruzəni, iftar elə axşam,
İftari həlalınca yesən, afiyət olsun.

5 **Nafiz,** bu halə, Xaliqinə həmdü səna qıl,
Bu həmdü səna etməginə məğfirət olsun.

## ~ 190 ~

## İgidali Babanın ad günündə

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Qədəh doldur, deyəy sağlıq, bu məclis aşikar olsun,
Babanın cani sağ olsun, ona sağlıq şüar olsun.

2 Qohumun, əqrəbən daim, sevinsin şadman olsun,
Səni daim sevən kəslər, özü aləmdə var olsun.

3 Gözüm nuri Baba, ömrün uzun olsun bu dünyadə,
Bu Məmməd də qoy arxanda həmişə bərqərar olsun.

4 Bu şe'ri-ərmağani qoy nəsillər eyləsin əzbər,
Şirin misralarım bu ad günündə yadigar olsun.

5 Bu **Nafiz** bir dua qılsın, təmənna eyləsin Həqdən,
Uzun ömr ilə, yarəbbim, Baba qoy bəxtiyar olsun.

**~ 191 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Mənə asan gəlir, cana, dəmadəm bari-qəm çəkmək,
Əzəldə qismətim yoxdur səninlə Cami-Cəm çəkmək.

2 Dəmadəm cövrüni artır mənə, dərd ilə xoşhaləm,
Mənə qabil deyildür rahi-eşqindən qədəm çəkmək.

3 Məni xoşhal edər hər dəmdə hicrani-fəravanın,
Olubdur şakərim rahi-həqiqətdə sitəm çəkmək.

4 Süzüldi qətrə-qətrə qanli göz yaşim fərağində,
Mənə düşvardur şəbnəm zəmanında rəqəm çəkmək.

5 Ələmlər ləşkərin çəkdi, mənə müşküldürür əmma,
Nə mümkündür fərağı-dağı-möhnətdə ələm çəkmək.

6 Dolub, **Nafiz**, gözüm hər dəm tökər gülzarə şəbnəmlər,
Mənə sud oldi bariş əşk ilə aləmdə nəm çəkmək.

## ~ 192 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Allahın bir bəndəsi möhac olub ac olmasun,
Mərd ilə ülfət qılıb, namərdə möhtac olmasun.

2 Padşəhlər hirs ilə fəxr eyləyərsə tacinə,
Palçığa batsın görüm aləmdə bir tac olmasun.

3 Qətrə-qətrə sinəmizdən qan verirsə yarəmiz,
Pəmbeyi-daği-cünun əllərdə Həllac olmasun.

4 Könlümün dürdanəsin hər kəs ki, qəsb etmək dilər,
Dəhrdə ol kəslərin dərdinə illac olmasun.

5 Padşahim, qoyma gəl əqvam əlində **Nafiz**i,
Eylə bir tədbir qıl, namərdə möhtac olmasun.

## ~ 193 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Gördüm çəməndə dilbəri-əyyari-şuxi-şəng,
Rüxsari qıldi gülşəni-gülzari rəng-rəng.

2 Nərgis oyandi gözlərinə saldi mehrini,
Sünbül yanında, zülfü-siyəhtari çox qəşəng.

3 Zanbağ əyağinə tökübən abi-ruyini,
Nilufərin də çeşmi-əşkbari bir səhəng.

4 Şəmşir qaşlarında xətalər büruz edər,
Çeşmi-siyahın əldə qərari tutub tüfəng.

5 Bu həsrət ilə arizi-gülgünün eşqinə,
Ayinənin qəmində kənari dutubdi jəng.

6 Ahuyi-çeşmin öylə baxır canlar almağa,
Bu **Nafiz**in də dildə vüqari olub pələng.

## ~ 194 ~

## H.A.Q.-a

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Əzəldən bivəfa idin ki, naəhlə nəsib oldun,
Pozub əhdi-qərari, özgələrlə sən həbib oldun.

2 Dedin gəl eyləyim dərman, pozuldi günbəgün halim,
Xəyanətkar imişsən axıri xain təbib oldun.

3 Vəfayi-xatirimdən bil qırılmaz hiyleyi xətrin,
Mənə dil göstərib axırda dildən mültəhib oldun.

4 Əzəl İslamidün guya, səlam əhli, həlal ümmət,
Nədəndir bilmirəm axir dönüb əhli-səlib oldun.

5 Xəyal eylərdim  insansan, vəfayi-mehri-vicdansan,
Nədəndür hissi-vicdandan dolandın binəsib oldun.

6 Eşitmişdim ki, nəslin nanəcibdir mən inanmazdım
Ki, sən də nəslinə çəkdin, onuntək nanəcib oldun.

7 Nə oldi, **Nafiz**, axırda vətəndən ayri düşdün sən,
Dolandın qürbət ellərdə, pərişanhal qərib oldun.

## ~ 195 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Çəməndə bəllidi sirri-nihani bülbülümün,
Dutubdi ərşü cahani fəğani bülbülümün.

2 Edərdi mənqəbeyi "Şur"i-"Nəva" gahü "Hicaz",
Nədəndi imdi dutulmuş zəbani bülbülümün.

3 Şəbnəmindən gülün alırdi həm vüzui-səfa,
Nəmazi-sübh olunca əzani bülbülümün.

4 Nə çarə eyliyəlim dərdinə onun bilməm,
Yetibdi bağü çəməndə xəzani bülbülümün.

5 "Nəva" ilə gülə söylərdi öz hekəyətini,
Karə gəlməzdi belə dastani bülbülümün.

6 Gördi **Nafiz** buni ahəstə ağladi, ey gül,
Töküldi dəftəri-hüsnündə qani bülbülümün.

## ~ 196 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Qaşların yayi bəlali sinəmə vurdi xədəng,
Dəldi keçdi sinəmi ta olmasun bu sinə təng.

2 Göz yaşım rəngin olub daim bəzər rüxsarimi,
Lə’l olur isbat ilə çünki cigərdən aldi rəng.

3 Xəm gəlir qəddim füzun olduqda dərdi-möhnətim,
Nalələrdən baş verib dərd arturur ahəngi-çəng.

4 Ehtişami-eşqdə qət’ etmişəm rüsvaliqi,
Hər kim aşiqdür cahanda gözləməz bir namü nəng.

5 Eşq kuyində bu **Nafiz** badə verdi ömrüni,
Bişeyi-eşq içrə ani kim xəyal eylər pələng.

## ~ 197 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Məqami-izzə qədər cani çıxar məşhurun,
Bir qiyas eyləgilən halini gör zənburun.

2 Şərabxanədə məskun oluban qalmaz idi,
Olmaseydi şərabə ehtiyaci məxmurun.

3 Sən’ətə vəsvəsə vermək nə gərəkmiş, yarəb,
Təxti-sənətdə gitar aldi yerin tənburun.

4 Gözə görsənməz isə cayi-həlavətdə budur,
Mətbəxi-eyşdə nazəndəliyi fəğfurun.

5 Ərseyi-cəngdə sən Toxtamış olsan da belə,
Bir gün axirdə düşərsən dəminə Timurun.

6 **Nafiz**in  halini sorsan, məgər, ey şirinləb,
Bilməyirsənmi ki, hali nec olur məhcurun?

## ~ 198 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Zülfünə aşiq olan ömr edə zülmatda gərək,
İnzivayə çəkilib pərdeyi xiffətdə gərək.

2 Ey könül, rəmz məqamində hələ nadansan,
Olasan aqilü dana bu rümuzatda gərək.

3 Gedim şəkər gətirim Qəndahar mülkindən,
Şirinlik olmalıdır qəndü nəbatatda gərək.

4 Fələkin gərdişinə matü məəttəl qaldım,
Bəxti-şətrənci-xəyalin vura şahmatda gərək.

5 Yetirə cəng məqaminə bu gün Zal özüni,
Göstərə Rüstəm özün Rəxş kimi atda gərək.

6 Xişm ilən həzrət Ömər qəsri-Nəhavəndi yıxıb,
Deməli təxti-xilafət dəxi Bağdatda gərək.

7 Türki-mərdanədi **Nafiz** Ağam deyərdi buni,
“Mərd olan kəs ya türab altda, ya Heratda gərək.”

**~ 199 ~**

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

1 Gündən-günə ziyadə ola gərci ne’mətün,
Şükr eylə ki, əlündə qala bari dövlətün.

2 Cəhd eyləmə sərvət yığıban zəngin olmağa,
Zənginlik ilə getməsün əldən iradətün.

3 Etmə təğafül, eylə ibadət zəmanədə,
Sünnətlə, fərzilə, təməl olsun ibadətün.

4 Razü niyazə rəğbət ilə meylün arta gər,
Keçməz fənayi-fəqr ilə saətbəsaətün.

5 Ülviyyət ilə bil ki, həqiqətmərəm olur,
Tanri qatında səfbəsəf olduqca qismətün.

6 Razü niyaz ilə kişi hacətrəva bulur,
**Nafiz**, sənin bu bəndələr ilə nə hacətün.

## ~ 200 ~

## İzzət Rumi qəzələ nəzirə

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 “*Çəkib kəmanini ta tərfi-əbruvanınadək,*
*Keçirdi tiğini üşşaqin üstüxaninədək*”.

2 Nə ki, ne’mət, var ey ümmət, sənə həram olsun,
Xəyanətinlə o göz göynədən soğaninədək.

3 Etdi Bağdadə təcavüz Buş oğlu Buş məl’ün,
Qəsb edibdür nə ki, var, Səddamın dükaninədək.

4 Bu qan olan ürəgimdə gözüm var, ey qafil,
O bəsirətlə baxır dünyanın o yaninədək.

5 Şəbi-novruzdə atəş töküldi Bağdadə,
O gecə yatmadi **Nafiz** sabah əzaninədək.

## ~ 201 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Az eylə dilbəra, mana cövrü cəfalərün,
Bağrımi dəldi bunca ki, tirü bəlalərün.

2 Cismim yanıbdı, döndü külə iştiyaq ilə,
Düşdüm fərağİ-atəşinə bivəfalərün.

3 Sən bağİ-məlahətdə səfa çəkməyində ol,
Qalsun bəlayi-hicrdə qoy mübtəlalərün.

4 Hərdəmxəyalü dilbərü bimehr olduğun,
Bunca təsəvvür etməz idim dilrübalərün.

5 Yazdım bu rəmzü vaqiəni cümlə aşiqan
Bilsün vəfasız olduğuni məhluqalərün.

6 Gərçi vəfali aşiqəm əlbəttə, **Nafiz**a,
Dünyadə zəhmətin çəkərəm aşinalərün.

## ~ 202 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ləblərin xatirəmə bir xəyal olub gedəcək,
Dili-məhzun genə pəjmürdəhal olub gedəcək.

2 Çıxgilən pərdeyi-qəflətdən, ey güli-rə’na,
Nitqi-bülbül bu fərağətlə lal olub gedəcək.

3 Saqi, süz badeyi-gülfami səbrdən keçdi,
Künçü meyxanədə bir qilü qal olub gedəcək.

4 Mali-dünyayə belə arxalanma, ey aqil,
Mali-dünya görüsən bir zəval olub, gedəcək.

5 Ləbi-Şirinlərin eşqiylə yazıq Fərhadın,
Adını zikr edərək ağzı bal olub gedəcək.

6 Bilsə idim qoşulardım Xütən ahulərinə,
Dəli könül toruna bir qəzal olub gedəcək.

7 Oxu “Şahnamə”ni kim, Rüstəmi-dastanı tanı,
Görən əhvalini eşqində Zal olub gedəcək.

8 Sanma kim **Nafiz** uşaqdır, hələ də nadandır,
Bəzm içində o da bir əhli-hal olub gedəcək.

## 23 - HƏRFU’L - “LAM” “ل”

**~ 203 ~**

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Bülbül oldi genə gülşəndə bir əmanəti-gül,
Görmədi rif’ət ilə onda bir ədaləti gül,

2 Mədh edər qönçə zəmanindən oni bipayan,
Açıbdi səhni-çəməndə görün xitabəti gül.

3 Həmnəfəs olmasa bülbül gülə açılmaz idi,
Olmaz idi bu qədər dəhrdə təravəti-gül.

4 Açıldi gül-gül olub, xarə aşina oldi,
Niyə göstərmədi axirdə bir dəyanəti gül.

5 Axıtdi qanını bülbül gülün fərağində,
Çəməndə qopdi fəqiranə bir qiyaməti-gül.

6 Nədəndi gül üzünü gördügüm zəman, ey gül,
Verir qubari dili-**Nafiz**ə xəsarəti gül.

## ~ 204 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nobahar oldi həzimətdən çıxıb zibayi-gül,
Tutdi gülzari məram ilə fərəhəfzayi-gül.

2 Tac qoydi yasəmənlər səltənət təxtində həm,
Xürdədan oldi çəməndə bülbüli-şeydayi-gül.

3 Şövqdən kim nəstərən geydi ərusi-caməsin,
Lalə rənginnən utandi oldi bir həmrayi-gül.

4 Gül yüzün həngaməsində tapdi bustani-qəza,
Bir xəsarətlə çəməndə başladi qovğayi-gül.

5 **Nafiz**a, şükr eylə gülşəndə tutub Məcnunluğum,
Vəsfi-cani-vəsldə bir zövceyi-Leylayi-gül.

## ~ 205 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Bu dünyayə ümid etsən püratəş bir mədarın bil,
Dolan divanələrtək məlcə'i-eşqin həsarın bil.

2 Əgərçi könlüni işğal edibdür sərvqamətlər,
Pərişan olma qəmdən, onların qövlü qərarın bil.

3 Dəhani-dilbəri sorma kinayə laf edənlərdən,
Nədir məqsudi yarın sor, həqiqətdə şüarın bil.

4 Qəmindən xəstəhaləm, ey nigarı-nazənin, bir gəl
Ki, şəfqətlə dutub nəbzim, dili-zarın azarın bil.

5 Könüldə daği-möhnət mən gedərsəm gərçi dünyadən,
Şikəstə **Nafiz**in axtar, sorağ eylə məzarın bil.

## ~ 206 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Olmadın aləmdə bir dəm şadi-xürrəm, ey könül,
Qüssəvü dərdü bəla çəkdin dəmadəm, ey könül.

2 Dur, səfər qıl canfəşanlıqla bir ayri aləmə,
Çün sənə atəşfəşan oldi bu aləm, ey könül.

3 Ey könül, odlarə yanmaqdan usandım aqibət,
Lütf ilə əhvalımı sormaz bir adəm, ey könül.

4 Saldı əhvali-şərifimdən məni əndişələr,
Kimsəyə hali deyil bu hali-mübhəm, ey könül.

5 **Nafiz**a, mən baği-rizvanda olardım qaliba,
Gəlməsəydi bu cahanə bəlkə Adəm, ey könül.

## ~ 207 ~

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 Ring olanda necə başlarsa qilü qalə qaval,
Nəğamata yetişəndə gedər xəyalə qaval.

2 Gah bir təqti-səqil ilə dönər xunrizə,
Gah bir dəmdə sərasər düşər məlalə qaval.

3 Gah bir dəmdə bükər boynuni  bənövşə kimi,
Gah zənbağü fərağində açar lalə qaval.

4 Gah bir sevgilinin bənzəyər hilal qaşına,
Gah bir zülfü sorağ ilə vurar halə qaval.

5 Eydi-Novruzi-pürayəndə vurar şəqqanə,
Gah bir mahi-Məhərrəmdə, çəkər nalə qaval.

6 Ağzı tək bir sənəmin bənzədər özün “mim”ə,
Döndərər gah özünü  Kafü Nunü -Dalə qaval.

7 Möcüzat ilə durub kəşt eyləyər “Herati”,
Düşəndə “Kabil”ə yeksər dönər zəvalə qaval.

8 Ürək damarlarını doğradi əriştə kimi,
Sitəmlə mütrib əlində dönə xingalə qaval.

9 Əlində **Nafiz**in o Rüstəmi-dastanə dönüb,
Bənzəyir cəngidə hərgiz necə gör Zalə qaval.

## ~ 208 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Bir gecə fürsət edib xəlvəti canan, bizə gəl,
Gəlməsən bil gedir əldən, üzülür can, bizə gəl.

2 Başım üstündə durub, nəbzimi tut, halimi sor,
Açılıb yarəm, aparur sinəmi qan, bizə gəl.

3 Sevmiyənlər nə bilir halini hicranzədənin,
Sən ki, hal əhlisən, ey zülfü pərişan, bizə gəl.

4 Məni avarə salıb qoymagilən zülmətidə,
Nurdən pərdə tut, ey lə'li-dirəxşan, bizə gəl.

5 Min təbib versə dəva bil ki, sağalmaz dərdim,
Qədəmindir biləsən, dərdimə dərman, bizə gəl.

6 Getmə, bir ləhzə dayan, gör sənə **Nafiz** nə deyir,
Qaşına, gözlərinə, canına qurban, bizə gəl.

## ~ 209 ~

## Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün

1 Yazıram şövq ilə ol yari-bivəfayə qəzəl,
Yönəltməyir nədən ol mahi bir vəfayə qəzəl.

2 Qəzəli çeşminə məhrəm qılır ol müjgani,
Canfədadur genə ol nəştəri-xətayə qəzəl.

3 Qaşın niyamını mən Zülfüqarə bənzətdim,
Bir zərif duyğu ilə gəldi imtinayə qəzəl.

4 Gözlərin yadi bu könlümdə qəm binası qoyub,
Yaraşarmi belə bir dəmdə bu binayə qəzəl.

5 Təsnifatınla dolan, gəlgilən məqam üstə,
Ey müğənniyi-həzin, "Şur"ilən "Nəva"yə qəzəl.

6 Ey Züleyxayi-vətən, hüsnüni vəsf eylərkən,
Dedilər kim genə bu yazdı səmənsayə qəzəl.

7 **Nafiz**a, sürtər o sərraf Biriya[1] gözünə,
Yetişə gərçi nəzakətlə Biriyayə qəzəl[2].

**Şamaxı, 1974.**

---

1 Məhəmməd Biriya
2 Məhəmməd Biriyanın cavab şeiri əlavələrə daxil edilib

## ~ 210 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Həmdəmim çoxdu bu aləmdə vəli, yar deyil,
Çoxdu həmdərdlərim, dərdə "yari-ğar" deyil.

2 Açılmaz ayineyi-dil bənəfşəzar içrə,
Mənim gözüm dolub, ol səmtə cuybar deyil.

3 Aşinalər nədi, bir halimi sormaz, ey dil,
Görünür xatiri-zarimdən intizar deyil.

4 Ölmüşəm qüsseyi-qəmdən, nolur ziyarətə gəl,
Mənim məzarim, a zalim, məgər məzar deyil?!

5 Məni odlarə yaxıb mə'rəkədən dur oldun,
Elə bil yanmağıma kimsə səbəbkar deyil.

6 **Nafiz**a, cami-Cəmi, kaseyi-Kavusi ilə,
Kaseyi-zövqü səfa, cami-xoşgüvar deyil.

## ~ 211 ~

## Nəvəm Ağa İsrafilə

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Ey canımın arami, gözüm canım İsrafil,
Sən ruhi-təravətdə, ruhim, qanım İsrafil.

2 Əyyami-bahar oldun, novruzdə sən peyda,
Mehrin düşəli qəlbə, mehribanım İsrafil.

3 Sən bağü baharımsan, bir çeşmi-xumarımsan,
Adun Ağaİsralfil, adım-sanım İsrafil.

4 Dəndani-lətafətdə, olma təb'üvə məğlub,
Yaquti-zəbərcəddə, gövhərkanım İsrafil.

5 Qeyrətlə zəbərdəst ol, asudəgi, sərbəst ol,
Bayqurdi-rəharəst ol, Alparslanım İsrafil.

6 Aləmdə hünərmənd ol, həp Yusifə manənd ol,
Danayi-xirədmənd ol, pəhlivanım İsrafil.

7 **Nafiz**di dədən tani, afaqi dutub şani,
Fəhm et düri-qəltani, həp zişanım İsrafil.

## ~ 212 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ey yüzündür surəti-gülbərgi-əladən gözəl,
Ləblərin fərziyeyi-şəhdi, müsəffadən gözəl.

2 Sünbüli-zülfün təravətbəxş olur aləmlərə,
Fəhm edər divanələr kim, zülfü-Leyladən gözəl.

3 Misri-könlümdən xütur etməkdə ol Yusifliqa,
Tapmadı bir əhli-dil mehri-Züleyxadən gözəl.

4 Şeyx Sən’an kim Xumarın zülfünə pabəd olub,
Bağladi zünnarını zülfü çəlipadən gözəl.

5 Böylə “Üşşaq”ü “Nəva”lərdür yaxan aləmləri,
“Ləhni-Davudi” Hümeyravü Pərisadən gözəl.

6 Afərin! Sən’ətdə tüğyan eyləsə xanəndələr,
**Nafiz**a, ustadımın sövti Həkisadən gözəl.

## ~ 213 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Məlahət mənzilində bəhrələndi guyiya sünbül,
Qucaqlaşdi fəqət zülfün ilə tapdi səfa sünbül.

2 Məlahət gülşənində boylananda gördi aşiqlər,
Xəyal et gül dəhənlərdə olub dastansəra sünbül.

3 Neçə şair olanlar vəsfi-hüsnündə qələm çaldi
Ki, bustani-məlahətdə həqiqət macəra sünbül.

4 Oni qovğayə salsa zülfünün dami-girehgiri,
Yəqinimdür sənin eşqində olmaz bivəfa sünbül.

5 Dəmadəm **Nafiz** ilə əylənib möhnətsəralərdə,
Onuntək oldi axirdə görün bəxti qara sünbül.

## ~ 214 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Bir nəfəs əl çəkmədin meyxanələrdən, ey könül,
Dəhrdə zövq almadın peymanələrdən, ey könül.

2 Guşeyi-üzlətdə qalmaqda sərəncamın nədir,
Bir səfa gördünmi bu viranələrdən, ey könül.

3 Qəlbini odlara yandırmaqda bir mə’na nədür,
Yanmaği qıl təcrübə pərvanələrdən, ey könül.

4 Dəhr sövdasilə ömr etmək özü əfsanədür,
Bəsdir əl çək sazişi-əfsanələrdən, ey könül.

5 Paymal oldun cahanda, gərçi ibrət qılmadın,
Bir nəsihət almadın fərzanələrdən, ey könül.

6 Axiri-ömründə, **Nafiz,** gərçi qıldın e’tiqad,
Dutdun axir səbheyi-səddanələrdən, ey könül.

## ~ 215 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gəl gözəllər bəzminə, ey dilrüba, göstər cəmal,
Görməsin ayineyi-dil mehri-ruyindən zəval.

2 Hali ol bəzmi-səfadə aşiqin əhvalinə,
Əhli-bəzmi bir gecə çün istərəm fərxəndəhal.

3 Bil cəmalin görməyə həsrət çəkər könlüm mənim,
İntizari-qəlbimi artırma gəl sən mahü sal.

4 Gün yüzüni görməsəm zülmati-qəm bağrım yarar,
Kəsrəti-qəmdən dolub çağlar genə bu əşki-al.

5 Ey gözəllik təxtinin məhruləri, insafə gəl,
İştiyaqi-hüsn ilə **Nafiz** olubdur paymal.

## ~ 216 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ey könül, ehmal elə, zülfi-dütadən fariq ol,
Gənci-hüsnün pasibani əjdəhadən fariq ol.

2 Simi-simadə gözəllər hüsnünün heyranisən,
Mahrulərdən gələn cövrü cəfadən fariq ol.

3 Qəhri-eşqin möhnətindən tablər çəkmiş tənim,
Neynəva mülkündəsən ol ahüvadən fariq ol.

4 Görmüsən zənciri-zülfün tə’minatın bəllidür,
Aşiqi şeyda edən dami-bəladən fariq ol.

5 Eşqi-kamil olmasa kibri-riya cövlan edər,
Bir bəladur, **Nafiz**a, kibri-riyadən fariq ol.

## ~ 217 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Əhli-eşqin sənəma, şiveyi-rəftari gözəl,
Xülqi-ətvari gözəl, lə’li şəkərbari gözəl.

2 Yanaği laleyi-lala, boyi sənubərqəd,
Lalə rüxsarüvü həm də qədi-həmvari gözəl.

3 Qədin fədası olum bir də Kür kənarinə gəl,
İxtilat eyləmək üçün Kürün kənari gözəl.

4 Ədayi-xislətinə dildə şe’r olur cari,
Onun ədası gözəldür, bunun əş’ari gözəl.

5 Qəmzə tiğin çəkibən sinəmi al qan etdin,
Gəldi Loğman baxıban gördi bu bimari gözəl.

6 **Nafiz**in qəbri yanından keçib səlam etsən,
Görərsən onda gözünlə onun məzari gözəl.

## 24 - HƏRFU’L - “MİM” “م”

### ~ 218 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Qəmzən sipahi qıldi məni qəmlərə məhkum,
Bu ləşkəri-qəm olmadi bir dəm sənə mə’lum.

2 Getdin, atıban bizləri, bir özgə diyarə,
Oldum təzədən çöhreyi-didarinə məhrum.

3 Bağrım əridi atəşi-hicranın əlindən,
Zənbur evini atəşə salsan əriyər mum.

4 Hər yanda xətalər törədir padişəhi-Rus,
Bir gün alacaq qənşərini məmləkəti-Rum.

5 Getməzdi fəsad ilə Qərabağımız əldən,
Cövhər təki gər olsa idi bizlər Məxdum.

6 Hər yanda vəfa əhlini görcək qurulur dam,
Səyyadə düçar oldi genə **Nafiz**i-məzlum.

## ~ 219 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Düşdüm bəlayə könlümi mədhuş edəmmədim,
Ömrüm tükəndi, eşqi fəramuş edəmmədim.

2 Sünbül çəməndə zülfünü görcək qucaqlaşır,
Sünbül misali, zülfü dərağuş edəmmədim.

3 Lə'li-ləbin xəyalini könlümdə saxladım,
Fəsli-bəhanədə oni sərpuş edəmmədim.

4 Sinəmdə qaldi bir sənəmin daği-həsrəti,
Zövqi-səfasını necə bərduş edəmmədim,

5 Saqi süzüb şərabi dedi: çarə bundadi,
Lə'lün həvəsiylə mən oni nuş edəmmədim.

6 Susdurdu aləmi qəmi-eşqim rəvayəti,
Əfsanələrlə **Nafiz**i xamuş edəmmədim.

## ~ 220 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Bil cövrü cəfa çəkməyə dil məndə nə lazım,
Üşşaqə rəva görməyə bu səndə nə lazım.

2 Yarın sitəmiylə bu xəlayiqdən utandım,
Olmaq bu qədər dəhrdə şərməndə nə lazım.

3 Sevdayi-səri-zülfdə aşiqlərə gülmək,
Yasə batıban zar olana xəndə nə lazım.

4 Keçdim qəmi-eşqində bəla mənzərəsindən,
Guş eyləməyə məsləhətə, pəndə nə lazım.

5 Mən ki, sitəmi-çərx ilə bağlandım əzəldən,
Bundan sora gün gəlsə xoşayəndə, nə lazım.

6 Cəm eylə bu əş'arləri bir yerə **Nafiz**,
Əş'ari-süxən böylə pərakəndə nə lazım.

## ~ 221 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Səni rö’yadə gördüm, eşqə ümmidi-vüsal etdim,
Ayıldım xabi-qəflət bəstərin gördüm, məhal etdim.

2 Vüsaliylə məni bir ləhzə xəndan eyləməz ol şux,
Məni xar eyləyən yarın vüsalın nə xəyal etdim.

3 Tutubdur mülki-eşq içrə cəhani sərbəsər nazi,
Rümuzi-nazıni ol nazpərvərdən sual etdim.

4 Dedim: vəsli-xəyali-möhnətin  can qoymadi məndə,
Dedi: doğru xəyal etdin, mən isə böylə fal etdim.

5 Dedim: süzgün nigahindən dağıldi məhvəri-aləm
Dedi: süzgün nigahimlə necə oğlani zal etdim.

6 Gözəllər bəhs edir, **Nafiz,** büsati pəhləvanlıqdan,
Dutub Zalın qolun burdum, əcəb cəngü cidal etdim.

## ~ 222 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 İnani-eşqimi şuxi-tatarə bağlamışam,
Nüqreyi-sinədə ümmidi narə bağlamışam.

2 Amali-dildə həsrəti-əsbi-ümidimi,
Gecə səvarələnən bir qətarə bağlamışam.

3 Həlqeyi-zülfə əsirəm, təhəmmülüm yoxdur,
Laçın xəyalimi bir şahmarə bağlamışam.

4 Ümidi bağlamış idim visalinə qırdın,
Ümidi-vəslimi mən parə-parə bağlamışam.

5 Zəmanə hadisəsindən necə pərişanəm,
Genə ümmidimi Pərvərdigarə bağlamışam.

6 **Nafiz**a, nalələrim ərşi titrədir hər gün,
Zi bəs ki, ahim odundan sitarə bağlamışam.

## ~ 223 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Daim səfayi-lə'linə gər olsa rəğbətim,
Vəsli-hərimin olmadi aləmdə qismətim.

2 Mən dəbdəbeyi-kuyini bica dolanmadım,
Bir bilmədin nədəndi mənim bunca hacətim.

3 Gövhərfüruş girdi görün mis bazarinə,
Misgərlər əlində ayağa düşdi qiymətim

4 Fikrim bu idi kim buraram Rüstəmin qolun,
Əbnayi-dəhrə çatmadi axırda qüdrətim.

5 Ziddiyət ilə keçdi ömür duni-dəhrdə,
Axırda anladım gedib əldən səadətim.

6 Ey xali ənbərin, gələrəm mən ziyarətə,
Kuyin təvaf qılmağa var dildə niyyətim.

7 **Nafiz**, fərəh diyarinə mən bir göz açmadım,
Keçdi fənayi-fəqrdə saətbəsaətim.

## ~ 224 ~

**Əhməd Cəfərzadə qəzəlinə nəzirə.**

**Rəməl-6: Fə'ilAtün / fA'ilAtün / fə'ilAtün / fA'ilAtün**

1 "*Naşi bazarında mən dürdanəlikdən düşmüşəm,*
*Səhv edib, zahir olub əfsanəlikdən düşmüşəm*".

2 Sineyi-sənduqəmin inci dəhanın açmışam,
Məxzəni-əsrarə mən biganəlikdən düşmüşəm.

3 Hali-pəjmürdəmdən ol hali, sən ey piri-muğan,
Rindlər bəzmində mən rindanəlikdən düşmüşəm.

4 Xatirim pəjmürdədür, siz qaldırın peymanəni,
Müjdə ver Xəyyamə kim, peymanəlikdən düşmüşəm.

5 Məqsədim odlarə yandırmaq deyildür aləmi,
Şəm'i-ruyi-bəzminə pərvanəlikdən düşmüşəm.

6 Bəhri-qəmdə bir təlatüm buldi, mən qəvvas olub,
Dürrlər dəf etmişəm, dürdanəlikdən düşmüşəm.

7 Aləmi-təsnifi-şe'rə mən də bir sərraf idim,
Fəhm edib **Nafiz** kimi, fərzanəlikdən düşmüşəm.

## ~ 225 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 İnani-eşqimi mən nazli yarə tapşırdım,
Güli-gülzari görün güluzarə tapşırdım.

2 Gələndə bülbüli-şeyda fəğanə gülşəndə,
Gülün təravətini nobaharə tapşırdım.

3 Zülfü şəbrəng xəyaliylə bənd olub könlüm,
Bu qarə bəxtimi ol bəxtiyarə tapşırdım.

4 Alıbdi səbrü qərari bu intizar əldən,
Xülasə dərdi-dili intizarə tapşırdım.

5 Yar tapşırdi məni Xosrovü şirinsüxənə,
Mən oni sidq ilə Pərvərdigarə tapşırdım.

6 Diyari-eşqdə **Nafiz** keçib Nişaburdan,
"Nəva" çələngini ol nəğməkarə tapşırdım.

## ~ 226 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Gözəlim, hüsnüvə mən aşiqi-heyran deyiləm,
Ya ki şəhla gözüvə tərzi-nigəhban deyiləm.

2 Qaşlarun taqi xəyalimdə mənim çənbərdür,
Fərasət əhli nizamində nə çövkan deyiləm.

3 Məni mən' eyləsə ədna ki, çıxıb dairədən,
Çünki hər əbləh üçün kəlləsi qəltan deyiləm.

4 Maşımız gərçi yetər gündəki azuqəmizə,
Pulu çin-çin yığan aləmdəki şeytan deyiləm.

5 Pulu mən neylərəm aləmdə ki, əl çirki ola,
Ona gər feyzi-nəzər qılsamu insan deyiləm.

6 Şe'rimə diqqət edib, guş edənin **Nafiz**iyəm,
Məsnədi-şe'rdə Xaqaniyi-Xaqan deyiləm.

## ~ 227 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Eyşi-zəmirə gəldi nə ayəndədür qələm,
İrfani-bəzmdə necə payəndədür qələm.

2 Bəhlul alıbsa ondan əgər dərsi-hikməti,
Bərcəstə hikmətə necə danəndədür qələm.

3 Behzaz alıbdı dəstinə rə'na qələm budur,
Heyrətsərai-dəhrdə nazəndədür qələm.

4 Göstərdi Kirdigar onu Qur'anda "vəlqələm",
Firdövsi-ədndən gəlib, ayəndədür qələm.

5 Saz eylədi dimağimizi hər məqulədə,
Sazü ney ilə bəzmdə sazəndədür qələm.

6 Eşqin təmam vəsfini yazmış Xuda üçün,
Daim büsati-eşqə nümayəndədür qələm.

7 Cəm etdi bir yerə bu pərakəndə fikrimi,
Sanma xəyali-qəmdə pərakəndədür qələm.

8 **Nafiz** cahan içində nə avazədür bu kim,
"Üşşaq" naləsində nə xanəndədür qələm.

9 Vəsf eyləsən cahanda uzundur hekayəti,
Dastani-səri-zülfdə fərxəndədür qələm.

10 Nadan əlində nifrətə çevrilsə eybi yox,
Arif əlində dəbdəbədi, xəndədür qələm.

## ~ 228 ~

## Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün

1 Fərağın ilə, gülüm, həddən ötdü azarım,
Qəmində heyva misali saraldi rüxsarım.

2 Alıbdi baği-bəhari məlamət iqlimi,
Qurutdi gülləri döndi xəzanə gülzarım.

3 Sütuni-səbrimə çaldi fələk ağır tişə,
Binövrəsi zədələndikdə aşdi divarım.

4 Düşünməz idim əzəldən rəqibi-kəmfürsət,
Kizb edib dildə, siyasətlə olar qəddarım.

5 Zəmanə hadisəsindən görün nələr çəkdim,
Bir xəyal eylə görüm yoxmudur mədədkarım?

6 **Nafiz**a, piri-muğandan əgər mədəd yetişə,
Əlimdə olsa əgər bir piyalə xummarım.

### ~ 229 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Zövqü arifdə nüzul eylədi ayəndə məqam,
Nə qədər baqidi dünya o da payəndə məqam.

2 Naz ilə güş eləmə çəngü dəfü tənburi
İstəsən bəzmdə olsun dəxi nazəndə məqam.

3 Kamança pərdeyi-ismətdə sığınsın tarə,
Şövq ilə "Bəstənigar"i duta sazəndə məqam.

4 Bəzmi ariflər üçündür neyü çəngü balaban,
Gər büsat içrə dutarsa yeri danəndə məqam.

5 Təxti-izzətdə görərsən ərusi-musiqini,
İsfahan mülkünə gəldikdə nümayəndə məqam.

6 Kişvəri-qəmdə könüldən eləsin "suzi-güdaz",
Nalə eylərsə "qəməngiz"də nədir xəndə məqam.

7 Sülləmül-musiqini pozmasa gər xanəndə,
Dəhrdə ol qədər olmazdı pərakəndə məqam.

8 Gər haram olsa qazanci neçə sazəndələrin,
**Nafiz**a, "Rast" məqamın duta xanəndə məqam.

## ~ 230 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Bir namə yazmışam onu dildarə göndərim,
Səhni-çəməndə ol güli-bixarə göndərim,

2 Ərz eyləyim dəruni-dili dərdü möhnətim,
Bu canfəzayi-sirrimi sərdarə göndərim.

3 Ahəstə, bülbülüm, oxu eyşü nişat qıl,
Mən də bu qəmli nəğməmi gülzarə göndərim.

4 Eşq aləmi bərhəmdi əduyi-zəmanədə,
Bu fövqəl'adə sirri həvadarə göndərim.

5 Xakistər eyləyib mərəzi-şəkkərim məni,
Bu halimi dəhani-şəkərbarə göndərim.

6 **Nafiz?** fünuni-şerdə ustadıdır deyib,
İxvani-vəfa Mahir Ələmdarə göndərim.

## ~ 231 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Qoymadın bircə alım dincimi, canan, gedirəm,
Şadman olmuş idim, halı pərişan gedirəm.

2 Səni mən dust bilib yanına gəldim, lakin
E’tibarın yox imiş, indi peşiman gedirəm.

3 Dedim aşiqlərə bir kimsə ihanət etməz,
Amma mən başı bəlali, yürəgi qan gedirəm.

4 Dərdim artır günü-gündən tapılarmı çarə,
Bilmədim kimdən ümum dərdimə dərman gedirəm.

5 Vəsl ümmidi ilə sizlərə üz tutmuş idim,
Vəslimi eyləmədim sizlərə bürhan gedirəm.

6 Könlüm avarə qalıb dəbdəbeyi-möhnətdə.
Təngə gəldim, qoyuram canımi qurban, gedirəm.

7 Bəsdi, **Nafiz**, bu qədər dərdü məlalət çəkdin,
Bildim axirdə nədir haləti-nisvan gedirəm.

## ~ 232 ~

### Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün

1 Ey sərvərim, pənahim, ey şahi-tacidarım,
Yoxdur sənə ümidim, nə dəhrə e'tibarım.

2 Xaqanitək mən indi zindanlara düçarəm,
Çünki mənim varımdi, "Şərvan" kimi diyarım.

3 Bir dadə yet Xudaya, yox möhnətə dəvamım,
Həddin aşıbdır indi məhbəsdə ahü zarım.

4 Səbrü qərarim aldi gərçi bu bəd zəmanə,
Çün zari-natəvanəm, bilməm nədi qərarım.

5 Canim cəzanə gəldi, bu kişvərin zurundan
Bir gün nolur ki, düşsün İstanbula güzarım.

6 Kəmqiymət oldum axir, sərraf əlində gərçi,
Bir zadə dəyməz indi təb'i-kamil əyarım.

7 **Nafiz**, mənə rəqibin əhvali nişə yansın,
Yandi genə həbibim, qəlyani-qəmküsarım.

**~ 233 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Gedib möhnətsəradə can güdazə tabdən durəm,
Gözüm kim abi-nisanlar tökər seylabdən durəm.

2 Mənəm şeydayi-bülbültək ələmdən qan olan çeşmi,
Gülüstani-cahanda əndəlibtək xabdən durəm.

3 Nəmaz üstə məni mədhuş edibdir qaşların tağï,
Odur karim zəlalətdür, mən ol mehrabdən durəm.

4 Toxunsan gər bəyan eylər qəmim, mən bir rübabəm kim,
Bu ahəndil nigari-nazənin mizrabdən durəm.

5 Qəmin çəkməkdən, ey dust, sinədə asayişim yoxdur,
Şikəstə **Nafiz**əm  kim, sevgili-əhbabdən durəm.

## ~ 234 ~

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Sübhədək ta ağlaram, ərşə çıxıb xabım mənim,
Mat edib nisanlari çeşmimdə seylabım mənim.

2 Çeşmi-casusun pozubdur eşqimin sərhəddini,
Səbrimi qarət edibsən, yox dəxi tabım mənim

3 Ey nigari-nazənin, nazın hesabın çəkməyə,
Bir təəssüblə cəm oldi, gəldi əzhabım mənim

4 Hər kəsin könlündə şənlik başlanarkən, ey Xuda,
Bəs nədəndür kim açıbsan möhnətə babım mənim.

5 Ud könlum çox zəif olmuşdu, **Nafiz,** hicridən,
Nalə eylər hər gecə qəmgindi rübabım mənim.

**~ 235 ~**

**Nişat Şirvaninin qəzəlinə nəzirə**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 "*Yeri tərsa balasi, mən də sənə sayə gəlim,*
*Aç kəlisa qapısun, mən də kəlisayə gəlim*".

2 Sənin eşqinlə kəlisalərə düşdüm axir,
Necə indi duruban Məscidi-Əqsayə gəlim?

3 Gərçi islamə yaraşmaz bu kəlisa künci,
Gər qəbul eylərisən, qoy bu təmənnayə gəlim.

4 Eylə bu dəmdə möhübbətlə qəbul islami,
Müjdələr verməgə Məryəmlə Məsihayə gəlim.

5 Müjdə olsun sənə bu babdə, xanım Məryəm,
Can fəda qılmağa eşqünlə o mövlayə gəlim.

6 Ey Xuda, eylə hümayun ələmin islamın,
Dərgəhündə dolanım, mən də müsəllayə gəlim.

7 **Nafiz**a, mövzunu vermişdi Nişat Şirvani
Bixuda, Şəhriyara, Haciyə, imzayə gəlim.

## ~ 236 ~

## Ustad Şəhriyara

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Bu bəzmə bu gün mən də bir ünvan ilə gəldim,
Sözdən yapışıb dərdimə dərman ilə gəldim.

2 Söz mülkünü ustad eləmiş şövq ilə abad,
Şövkət gətirib məclisinə şan ilə gəldim.

3 Gördüm yenə də cuşə gəlib aşiq olanlar,
Gül baxçasına bir güli-xəndan ilə gəldim.

4 Heydərbabanı vəsf elədi ol böyük ustad,
Görmək dilədim hüsnünü min can ilə, gəldim.

5 Söz mülkünə Hafiz tək olub bir yeni sərraf?
Lə’l axtarıban bir düri-qəltan ilə gəldim.

6 Ustadımızın ruhuna rəhmət diləməkçün,
Tehranı qatıb Təbrizə Şirvan ilə gəldim.

7 Ustadi-qəza yazdı mənə eşq büsatın,
Bu mənzilə mən rahi-Xorasan ilə gəldim.

8 Dünyanı tutub Şəhriyarın fəzlü kəmali,
**Nafiz**, bura Hafiz kimi xoşxan ilə gəldim.

***Tehran, 16.09.2006***

## ~ 237 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Dün eyləmişəm yar ilə göftar qocaldım,
Dərdi-sərimi şərhi-dili-zar, qocaldım.

2 Eşq içrə yaxıldım da, yıxıldım da əzildim,
Eşqi eliyə bilmədim izhar, qocaldım.

3 Sındıqca, yıxıldıqca mətin olmadadır dil,
Ol dəmdə açıldı mənə əbsar qocaldım.

4 Gündüzləri bülbül təki gül vəsfini qıldım,
Pərvanə kimi şəm'i-şəbi-tar, qocaldım.

5 Sərşarlıq əlqissə gətirdi mənə sanci,
Al sancaği, ey Mahir Ələmdar, qocaldım.

6 Məndən nə umursan dəxi "Mənsureyi"-zərbi,
En "Zabilə" kim, ey kaman, ey tar, qocaldım.

7 Toy, bayram olurdi mənə yüzi suli ölmək,
Ölməkdə bu gün bir qərəzim var, qocaldım.

8 **Nafiz**dir adım olmamışam **Nafiz**ə həmraz,
Sağlıqla qal, ey **Nafiz**i-qəmxar, qocaldım.

## ~ 238 ~

### Həkim Şəmistan Əfəndiyə

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Ey mənim püşti-pənahım, ey mənim canım həkim,
Ey səriri-səltənətdə şanlı xaqanım həkim.

2 Ey mənim məhrəm qəbalım, sirri-halım sərhədi,
Ey təbiblər sərvəri, qiymətli Loğmanım həkim,

3 Əl vuranda nəbzimə, pəjmürdəhal oldun niyə,
Ol səbəbdən cismidə dövr eyləmir qanım həkim?!

4 Görgilən qəlbim hərarətdən sığışmır sinəmə,
Yox əyağə durmağa qayətdə imkanım həkim.

5 Yazgilən bir nüsxə, dərmanin şəfa versün mənə,
Bilmişəm sayəndədür zəhrabi-dərmanım həkim.

6 Könlümə bəxş etdi təmkini, şəfali əllərin,
Canına sağlıq dilər ömri-fəravanım həkim.

7 Həm səni var ol cahanda, həm dəxi ol Gülağam,
Qəlbimin sultani, ey canım, Şəmistanım həkim.

***14.11.2010.***

## ~ 239 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Gövhəri-kanəm, həm irfan içrə bir ülya mənəm,
Müttəsil dürlər saçan ol nükteyi-kala mənəm.

2 Bir zaman şəffaf idim hərgiz bulandım, çağladım,
Sinəsi hicran ilə məmluv olan dərya mənəm.

3 Könlümə mən bir rəqibəm, qarət etdim könlümi,
Sanki bir İskəndərəm, İskəndəri-Dara mənəm.

4 Sinəmə eşqinlə yol tap, həzrəti-Musa kimi,
Qəlbdən ol vəhyə nail, sinəsi Sina mənəm.

5 Sinəmi qıldım nişanə, qəmzeyi-müjganinə,
Durmuşam bu səhn ara bir mərdi-bipərva mənəm.

6 Ağlayardım hicrdən mən, sən olardın şadman,
Ey nigari-nazənin, bax gör fərəhəfza mənəm?

7 Hər zaman Şirvan nümuv etmiş necə aşiqləri
Bir həvali aşiqəm Şirvan ara, peyda mənəm.

8 Nüktədanlar bəllidür Şirvandan əskik olmayıb,
**Nafiz**i-nüktəşünasəm, həm Seyidasa mənəm.

## ~ 240 ~

### Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Bir fikr eləyin yari-cəfakar nə lazım,
Ondan soruşun böylə sitəmkar, nə lazım.

2 Bir fikr eləyin xəstə yatağində qəribi,
Əhvali sorulmazsa o bimar, nə lazım.

3 Bir fikr eləyin gülşəni-gülzardə yari,
Bülbül tək edə aşiqini zar, nə lazım.

4 Bir fikr eləyin zülfi-xəməndərxəm ucundan,
Bir aşiqi-aşüftə, diləfkar, nə lazım.

5 Bir fikr eləyin zülf-çəlipayə rəvami,
İsa dəminə bağlasa zünnar, nə lazım.

6 Bir fikr eləyin zülf xəyalində bu **Nafiz**,
Sarəngsifət bulsa siyahkar, nə lazım.

## ~ 241 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Olsa qənnadi ləbün bil ki,onun qəndi mənəm,
Atəşi-qəmlərə kim yansa onun kəndi mənəm.

2 Buteyi-eşq ilə suzəndə bir nəva qıldım,
Yandıran qəlyani bərq ilə onun zəndi mənəm.

3 Şəkkəri-lə’li-ləbindən səmər almış qəlbim,
Odur aşiqlər arasında şəkərxəndi mənəm.

4 Düşdi dildən-dilə övsaf ilə rindanəliyim,
Səfili-meykədənin mərdi-xirədməndi mənəm.

5 Sordum ey dust, bu meyxanədə kimsən-nəçisən?
Şairəm söylədi, ol Kamili-Sərbəndi mənəm.

6 Sözüm cahani tutub gəzdi, adımdır **Nafiz**,
Seyyidi-Yusifin ol sərfəli fərzəndi mənəm.

## ~ 242 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Səri-kuyində dildarın nə cövrü, nə ələm çəkdim,
Yenə hər dəm xəyal eylər ki, ixlası nə kəm çəkdim.

2 Piyaləm dolmadi bir zərrə ilhami-lətafətdə,
Gözümdən qan damıb doldi qədəhlər, xeyli dəm çəkdim.

3 Gözüm yaşıni mən bildim yıxanda könlümün bürcün,
Bir eşqin töhfəsindən gör necə seylabi-qəm çəkdim.

4 Mənim bu sinəmin daği nə bilsin Bisütunumdur,
Olub Fərhadi bir Şirinməqalın, nə sitəm çəkdim.

5 Mənim əhvalimə gülşəndə bülbüllər çəkib nalə,
Görüb bu səhnəni mən də könüldən bir nəğəm çəkdim.

6 Səni bir surəti-ziba çəkibdir Maniyi-qüdrət,
Bu əmrə dərkənar etdim ki, **Nafiz** tək qələm çəkdim.

## ~ 243 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Nə vaxtadək görəsən mən azari-yari çəkim,
Qərinələrlə əcəbmi bu intizari çəkim.

2 Rəqib məclisinə bərq o məhi-parə salıb,
Necə özüm tərəfə ol gözü xumari çəkim.

3 Hisari-qəlbimi bir ləhzədə viran etdin,
Ölüncə yoxdur ümidim ki, bu divari çəkim.

4 Binəva bülbülünəm seyri-baği-gülşəndə,
Mənim nəsibim odur ki, cəfayi-xari çəkim.

4 Şikəstə **Nafizə** bir dərd veribdir çeşmin,
Tərk edincə sinəmi can, gərək azari çəkim.

**~ 244~**

**Rəməl-3: FA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Zikri-Bismillahirrəhmanirrəhim,
Ruzigarin elminə Sənsən əlim.

2 Qəlbimin dərdinə bir eylə dəva,
Cümlə bimarü səlamətdə həkim.

3 Şükr olsun mən Mühəmməd ümməti,
İbni İsrafil ağa, ağa Kərim.

4 Həqpərəstəm, kamil et imanimi,
Almasun al ilə şeytani-rəcim.

5 Əhmədi-Müxtar həqqiyçün mənə,
Vergilən firdovsi-ə’ladə Nə’im.

6 İltimasəm kim, bu **Nafiz** bəndəni,
Dur qılma rəhmətindən, ya Rəhim.

## ~ 245 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Yanağın dairəsin gərçi güli-tər bilirəm,
Ol səbəb lə’li-ləbin sirrini əzbər bilirəm.

2 Qaşların qəbzəsinə canımi qurban edəli,
Qanlı qəssabın əlində onu xəncər bilirəm.

3 Qəmzeyi-tiri-nigahin ki, tökür qanımızi,
Sancılır qəlbimə peykan ilə nəştər bilirəm.

4 Əf’i zülfün xətər üstündə xəta mədənidür,
Yolumi kəsmədə bir hikkəli əjdər bilirəm.

5 Küfri-zülfün ki, səhərdən günümü qarə qılır,
O səbəbdən günümi şamə bərabər bilirəm.

6 Nə qədər cövrü cəfa eyləyəsən **Nafiz**ə sən,
Yetər imdadımızə həzrəti Heydər bilirəm.

## 25 - HƏRFU’N - “NUN” “ن”

### ~ 246 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Gəlseydi səfa qəlbinə cananın üzündən,
Dad etməz idim yaquti-mərcanın üzündən.

2 Hicranin üzündən götürüb başımı getdim,
İş düşdi məşəqqətlərə hicranın üzündən.

3 Bu vaqiəni bilmədi Fərhad ilə Məcnun,
Yusifdi nələr çəkdi Zuleyxanın üzündən.

4 Leylayı-sitəmkardə aşiq əzəlaxir,
Zülmatə düşüb zulfi-pərişanın üzündən.

5 Vamiq sitəmi-eşq ilə dəryalərə daldi,
Bəhri-qəmə qərq oldu o Əzranın üzündən.

6 **Nafiz** o qədər sərf elədi badeyi-nabi,
Tökdi üzümün suyun o zişanın üzündən.

## ~ 247 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Dadinə yetməgə sövq etməgilən bidadın,
Qaldıra ərşi-müəllayə əgər fəryadın.

2 Künci-meyxanədə mənzuri şərab içmək isə,
Məqsədi özgə deyildür şəraba mö'tadın.

3 Ol ahu gözlüni seyd eyləmək asan olmaz,
Görəndə titrədi əldə kəmani səyyadın.

4 Özgələr qəlbini ən'am verib şad etdin,
Xeyli matəm ki, yetişməz bizə bir imdadın.

5 Ey ki, bir parə gurühani ağladan mütrib,
Söylə insaf ilə sən'ətdə nədür icadın.

6 **Nafiz**a, hirs ilə sən'ətdə nə hikmətdir bu,
Əyaği yer duta şagird danar ustadın.

## ~ 248 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Acılmaz qönçeyi-ümmid, acaq meyxanədən-zaddan,
Müvafiq əhli-hal ilə tutaq peymanədən-zaddan.

2 Cahani sərbəsər dutdi sözün həngameyi-rəmzi,
Bəlağət tərzin ögrəndim neçə məstanədən-zaddan.

3 Könüllər buteyi-eşqi bular şəm'i-fərağətdə,
Dilə atəş düşər hər dəm, pəri-pərvanədən-zaddan.

4 Ki, tufani-məhəbbətdə sanırdım Nuh nicat eylər,
Kənari-bəhrə gəl bari, acaq tərsanədən-zaddan.

5 Qalıbdur natəvan könlüm Şəhi-Mərdan fərağində,
Xəbərlər gəlməyincə güşimə mərdanədən-zaddan.

6 Qalıbdur əsri-mazidə, xütur etməz həqiqətlər,
Məqami, nitqə gəl bari deyək əfsanədən-zaddan.

7 Yetimanə neçə inci yatır viranə könlümdə,
Tapılmazdur belə gəncinə bir viranədən-zaddan.

8 Şikəstə **Nafiz**in cövri-sitəmlə əqli bərhəmdir,
Gərək tə'lim ala eşqi, neçə divanədən-zaddan.

## ~ 249 ~

**Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün**

1 Gileyin çoxdusa, ey dil, fərağı-aləmdən,
Gəlir zühurə həmən vərtə bəni-adəmdən.

2 Saçın xəyalinə düşdükcə piç-piç oldum,
Kimsə azad olamaz zülfü xəməndərxəmdən.

3 Ləbi-lə'lin həvəsiylə sınıbdı balü pərim,
Yıxılmağım nəzər eylərsən əgər sülləmdən.

4 Ləbi-lə'lilə neçə mürdələr ehya elədi,
Bavərim vardı doğulmuşdu bu da Məryəmdən.

5 İştiyaqi-ləbi-lə'linlə cigər qan oldi,
Doyunca içməmiş idim o abi-zəmzəmdən.

6 Vəfavü lütfünü qıl **Nafiz**ə, ya həyyü Əhəd,
Fitneyi-mərhələdə qurtula naməhrəmdən.

## ~ 250 ~

**Həzəc-9: Məf’Ulü / məfA’İlün / məf’Ulü / məfA’İlün**

1 Naleyi-ahü fəğanim çıxmadi xərgahdən,
Qəlbimin amali yandi naleyi-“Segah”dən.

2 Gərçi dəryalərdə qərq olsam, təmənna etməzəm,
Möhnəti-ömri-fərağın çəkməzəm məllahdən.

3 Ayeyi-hüsnün görüb imanə gəldim, ey sənəm,
Tərk edib bütxanəni əzm etdim atəşgahdən.

4 Vadiyi-vəhdətdə bil dərgahüvün möhtaciyəm,
Üz çevirdim dəhrdə divanə şahənşahdən.

5 Xətm edib Xaqanini, **Nafiz,** təxəllüs olmuşam,
Həm kəlam ögrənmişəm mən Arifi-Allahdən.

## ~ 251 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Pərvanələr tək atəşi-eşqə şəkib ikən,
Dözdüm sitəmi-yarə necə dilfirib ikən.

2 Yıxdi vüsali təxtimizi badi-ruzigar,
Əhdi-vəfa pozuldi visalın nəsib ikən.

3 Susdurdi nəğməmi bu zamanın əlaməti,
Gülzari-hüsnünə baxıban əndəlib ikən.

4 Dil yaraləndi, yarələrim yoxdu bağlayan,
Canan hənuz halimi sormaz təbib ikən.

5 **Nafiz,** bu fani dəhrdə bir yarə munis ol,
Tənhalığı burax bu cahanda qərib ikən.

**~ 252 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Könül eylər təmənna xilqətin aləmpənahindən
Ki, ayri salmasın bir dəm məni meyxanə rahindən.

2 Mənə meyxanə küncündə küdurət göstərib saqi,
Rümuzi anladım mən saqinin süzgün nigahindən.

3 Məni sındırmaz idi saqiyi-gülçöhrənin nazi,
Könüllər qan olur bir dilbərin çeşmi-siyahindən.

4 Saçın sövdasıni çəkmiş vücudim torpağa dönsə,
Gələr ətri-bənəfşə daima qəbrim giyahindən

5 Gətirmə xatirə, **Nafiz,** qəmi-Fərhadü Şirini,
Neçə Xosrov olur peyda xəyalun təxtgahindən.

## ~ 253 ~

## Nabi Əfəndinin qəzəlinə nəzirə

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 "*Gülçin olamaz dəsti-təmənna çəmənimdən,*
*Ləbbəsteyi-nazəm, söz alınmaz dəhənimdən.*"

2 Həm Misri-məlahətdə Züleyxayi-zəmanə,
Çak etmədilər zərrə qədər pirəhənimdən.

3 Bu mərəkeyi-qəmdə fəlakətzədəyəm kim,
Getməz zəmani-həşrə qədər yarə tənimdən.

4 Gülpirəhəni-dəhrdə əttari-zəmanəm,
Üşşaqə gələr buyi-bənəfşə kəfənimdən.

5 Çini-cəbinə rəstələmə eşq kəməndin,
Ahuyi-Xəta bəstələnirkən rəsənimdən.

6 Sinəm necə gör yarələnib qəmzən oxundan,
Getdi fərəhi-Xatirə xatirşikənimdən

7 **Nafiz**, bu qədər eşqdə kim təlxmizacəm,
Zənbur çəkər şəhdi-şəkərxa süxənimdən.

## ~ 254 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Könlümün əndişəsi artır genə cananədən,
Bir dəruni-süz ilə dutdum xəbər pərvanədən.

2 Məclisi-işrətdə ani hiç ləbaləb görmədim,
Ol səbəbdən qəlbimi sındırmışam peymanədən.

3 Zülfünə bağlandığıçün yarın əldən düşməyir,
Ehtirami-vəslidə əl çəkmək olmur şanədən.

4 Nəğmələr kim incila vermişdi könlüm təxtinə,
Əskik olmaz ol səbəbdəndür nəva kaşanədən.

5 Zahidi-əbləh əgər bir şişə meydən nuş edə,
İntiqad etsən də getməz məscidə meyxanədən.

6 **Nafiz,** əfkarim məni hər dəm pərişan eylədi,
Küsmüşəm xatirşikən könlüm kimi divanədən.

## ~ 255 ~

**Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün**

1 Qıldın əfsürdə, gülüm, gülləri lətafətdən ,
Şərm edib sərv utandi bu qədü qamətdən.

2 Bu hüsn ilə olasan padişahi-ruyi-zəmin,
Xəbər verir əzəmət xaneyi-səadətdən.

3 Vəfavü eşq təriqin tutub qiyam eylə,
Vaizi-şəhr xəbərlər verə qiyamətdən,

4 Rümuzi-lə'li-ləbin gül görüb gülab axıdar,
Həyayi pərdəni yırtar, çıxar qiyafətdən.

5 Büsati-eyşdə bir zərifanə mətləb tut,
Doyunca həzz ala **Nafiz** də bu zərafətdən.

## ~ 256 ~

**Həzəc-9: Məf’Ulü / məfA’İlün / məf’Ulü / məfA’İlün**

1 Saçulur lə’li-Bədəxşan dideyi-xunpaşdən,
Fərq edər arif olan mə’dəndə lə’li daşdən.

2 Qalmışam zülmati-qəmdə Xızr çeşmindən cüda,
Təlimati-eşq üçün şərməndəyəm xəffaşdən.

3 Keçmişəm nərradi-eşqin siqlətindən tas-tas,
Eşqdə şətrənci mən fərq etmədim beşdaşdən.

4 Möhnətə düşdüm, vəli namərdə möhtac olmadım,
Mən kiməm ən’am üçün minnət çəkəm oğraşdən.

5 Dövr cövrilə şəkər ağzımda **Nafiz** təlx olub,
Şərbəti-eşqin nə fərqi şireyi-xaşxaşdən.

## ~ 257 ~

***Məhəmməd Biriya və Namiq Kəmalın qəzəlinə nəzirə***

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 "*Göz aç", ey kargər, bəsdir ayıl bir xabi-qəflətdən,*
*Cahanda mərhəmət ümma bu qanundan, bu dövlətdən*"[1].

2 Xəyal eylə cahan içrə müqəddər tale'in vardur,
Başun varsa, çıxar getsin bu zənciri-əsarətdən.

3 Yarım əsrün gəlib keçdi bu zalimlər diyarında,
Haçan sən şad olarsan, bir çıxarsan dərdü möhnətdən.

4 Utan bir aləmə baxdıqca, ibrət al bu dünyadən,
Bizimlə ittihad eylə, qutar şərmü xəcalətdən.

5 Cahanın ilməyi bil kim, siyasətlərlə dərhəmdür,
Bu qədri ağzuvi yorma, danışma çox siyasətdən

6 Cahanə gəlmişik biz də sürək ömrü nişat ilə,
Dəmadəm zövq alaq icma ilə baği-səadətdən.

7 Danışdıqca füzun oldi kəlami aşiqi-zarın,
De indi əqlüvə bir şey batırmi bu hekayətdən.

8 Səmimiyyətlə yoğrulmuşdu mayəm zülmə tab etməm,
Odur ki, zülmkarə gündə dəm vurram ədalətdən.

9 "*Nə əfsunkar imişsən, ah ey didari-hürriyyət?*
*Əsiri-hüsnün olduq, gərçi qurtardıq əsarətdən*"[2].

10 Bu nazik nəzmlər, **Nafiz**, Kamalnan Biriyanundur?
Ona ahənglər qoşdum bu bayramda nəğamətdən.

---

1 Məhəmməd Biriyanın beyti
2 Namiq Kəmalın beyti

## ~ 258 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Hifz et bizi bu kinəvərin şurü şərindən,
Az çəkmədi qəhrin bunun aləm pədərindən.

2 Mən zülm diyarındaki atəşlərə yandım,
Yarəbb, məni hifz elə bundan betərindən.

3 Balü pərimi yandıri hicran odu yarəb,
Pərvanə nə lazımdı yana balü pərindən.

4 Qərğulər edər dərdi-dilim sizlərə izhar,
Canımdi çıxan qəmli neyin pərdələrindən.

5 İncəldim, üzüldüm genə yarın sitəmindən.
Muyi-zəifə döndüm asıldım kəmərindən.

6 Meyxanədə saqi məni kim saldi nəzərdən,
Ölləm düşərəm piri-muğanın nəzərindən.

7 Qəmxar oluban dün gecə meyxanədə **Nafiz**,
Bir kasə içirdi mənə saqi zəhərindən.

## ~ 259 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Kim zövqü səfa bulsa əgər məclisimizdən,
Asari-məhəbbətlər anar munisimizdən.

2 Xubani-vəfa bağdə gəşt eyləməsəydi,
Bir ətri-səfa gəlməz idi nərgisimizdən.

3 Ayinəyi-İskəndəri pürtab edən nədür,
Ayinənin ətrafinə çəkmiş misimizdən.

4 Biz badieyi-eşqdə peyvəstə cünunuq,
Məcnun kimi aqil yetişər ən pisimizdən.

5 **Nafiz**, fənayi-dəhrdə fəqri-səza ilə
Hatəm səxasi bulmaq olar müflisimizdən.

## ~ 260 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Keçəndə badi-möhnət vədəsiz səhni-çəmənlərdən,
Bu münval ilə kim dil yarələndi dilşikənlərdən.

2 Bu qədri cövr əlindən bənzədim Ruintənə, ey dil,
Nəhayətsiz gəlir cövrü cəfalər simtənlərdən.

3 Məni-biçarəyə xəlqin dilindən tənələr yağdi,
Pərişanxatir oldum, xirqə geydim mən süxənlərdən.

4 Odur ki, qürbət ellərdə pərişanhal olur halim,
Gözüm yollardadır bir xoş xəbər gəlməz vətənlərdən.

5 Şəhidi-eşqi-qövlündə məni dəfn eyləyin üryan,
Kəfən geyməm nigara, olmasam gülgülkəfənlərdən.

6 Bu məna mülkünə, **Nafiz**, cəvahirlər tədarük qıl
Ki, ariflər məqamında adın düşməz dəhənlərdən.

## ~ 261 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Bu vəch ilə müşküldi tutam yar ətəyindən,
Hər gül aça gülşəndə tutar xar ətəyindən.

2 Könlüm nə qədər istəsə də yarə qovuşsun,
Çəkdi dutuban çərxi-sitəmkar ətəyindən.

3 Səntur qəmin çəkməyə hazırdi neyü çəng,
Gördükdə kamança yapışıb tar ətəyindən.

4 Bilmək diləsən rahi-həqiqət nə deməkdir,
Əl çəkməgilən qəmli qələndar ətəyindən.

5 Könlü qəm ilə dolmalıdır axıri mən tək,
Kim tutsa əgər yari-sitəmkar ətəyindən.

6 Çəksəm ayağın tozunu çeşmim olu rahət,
Öpsəm nə olur gündə çaharyar ətəyindən.

7 **Nafiz**, bu təmənna ilə asudə olarsan,
Sən sidq ilə tut Xaliqi-Cabbar ətəyindən.

## ~ 262 ~

**Müctəs-1: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilAtün**

1 Gəlir tabü təravət rəmzi, tə’bi-nazpərvərdən,
Gühər ənbarini aç tök çəhanə lə’li-gövhərdən.

2 Xəyalati-səməndin gəşt qılsın bu Nəhavəndi,
Açılsın nəğmənin əsrari qoy avazi-“Şüştər”dən.

3 Fərəhlənsin cahan əhli “Çahargah”in məqamindən,
Məlahət cövhərin çək naz ilə “Balü-kəbutər”dən.

4 Dəmadəm buteyi-qəmdə bir atəşbardır könlüm,
Alıb xasiyyətin niran ilə nari-səməndərdən.

5 Mənim könlümdə, **Nafiz**, dəmbədəm insaf olur peyda,
Mürüvvət əhliyəm qeyrət gəlibdür şiri-Madərdən.

## ~ 263 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Çox dolandım götürüb başimi səhraləri mən,
Mənə munis oluban gəldi bir ahuyi-xütən.

2 Görüb əhvalimi etməzmi hicab tə’n əhli,
Tə’nədən ar edə bilməz belə sevdayə düşən.

3 Bir qəra zülfə verib qəlbimi pabənd oldum,
Nə bahar oldi baharım, nə də gülzari-çəmən.

4 Üz tutub tale’imə qıl mənə bir çarə dedim,
Dedi: ömründə təmənnayi-əlac etməgilən.

5 Fələkin öz əməli, öz sözi, öz hikməti var,
Kimini tazə libasə, kiminə tazə kəfən.

6 Dedim: ey çərx, səadət qapısın kimdir açan,
Dedi: kim bilməz oni sən kimi hər yoldan ötən.

7 **Nafiz**in də nəyi var dərdi-sərindən qeyri,
Dərdi-sər çəkməyə xoşdur genə dünyadə vətən.

## ~ 264 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Nədən ol zülfü şəbrəngin kənar olmuş nizamindən,
Pərişanlıq çəkir könlüm qəmində, sübhü şamindən.

2 Gülün sevdasinə düşmüşdü sərgərdan olan bülbül,
Qılıb avarəlik rəsmin, çəkib möhnət fəramindən.

3 Ki, həm Xızrın xəyalində ləbin abi-həyat oldu,
Xəyalən aldı bir busə sənin lə'li-təamindən.

4 Üzüldi möhnəti-qəmdən könül, eşq içrə dustağəm,
Nə zaminlə xilas olmaz, bu nəzmiyyə məqamından.

5 Görəndə taqətim getdi, qaşın şəmşirə bənzətdim,
Salar yüz min məlalə Zülfüqarı ol niyamindən.

6 Dua eylə, desin amin mələklər, müstəcib olsun,
Səadət nəğməsi gəlsin, ağızlarda hər amindən.

7 Yazıb bu naməni dur şəhri-Şirvanə rəvan eylə,
Yetişsin **Nafiz**i-zarə Teyyubun[1] əssəlamindən.

1 Hacı Teyyub Süleymanzadə

## ~ 265 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Görməsəm rüxsarini əl çəkmərəm meyxanədən,
Şəm’ə almaq rəsmdür öz qanıni pərvanədən.

2 Şanə-şanə bağrım olsa, mey deyildür baisi,
Bil götürmüş əksini bir yol o zülfü şanədən.

3 Gündə yüz yol səcdə qılsam kimsə eyb etməz mana,
Səhvdir ummaq yıxılmaqdan səva məstanədən.

4 Keçdi qəm karvani üstümdən, görüb düşmüş məni,
Çəkmədim eşqündən əl, çəkdim dili-viranədən.

5 Sevgilər sərrafiyəm, hüsnü-xəyalun sərvətim,
Min xəzinəm var mənim, min lə’l, min dürdanədən.

6 Min cəfa, min cövrünə təmkin edib səbr eylərəm,
Səbr dərsin almışam **Nafiz** kimi divanədən.

## ~ 266 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Səbəb nədür genə məndən, nigar, incimisən,
Ələmlə dolmuş o çeşmi-xumar incimisən.

2 Tutulmuş ay kimi gülmür üzün, danışmırsan,
Təravətin pozulub, ey bahar, incimisən.

3 Nolur bağışlagilən, sevgi olsa, söz də olur,
Rəqib sözilə məni qılma xar, incimisən.

4 İcazə ver təzədən  qoy tutum o əllərini,
Baxım o gözlərə, ey gül'üzar incimisən.

5 Verək biz əl-ələ, bir busə ilən sülh eləyək,
Həqiqi sevgiyə gəl ver qərar incimisən.

6 Yazığdı **Nafiz**, onun keçgilən günahindən,
Acığlanıb ona, ey tacidar, incimisən.

**~ 267 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Mən tək olmaz, gözəlim, hüsnünə məftun biləsən,
Sənə qalmışdır əlac, dərdimə dərman elə sən.

2 Deyil insaf ki, mən həsrət ilən ah çəkim,
Məndən ayri gəzəsən, güllər içində güləsən.

3 Gəl bərabər geyinək, birgə çəmənzarə çıxaq,
Mən sənə, naz ilə bax qönçəyə, güldən gülə sən.

4 Məni eşqinlə əcəb müşkülə saldın, zalim,
Mən ki, razı deyiləm kim, düşəsən müşkülə sən.

5 Məni Məcnun kimi dildən-dilə dastan elədin,
Qorxuram kim düşəsən mən kimi dildən-dilə sən.

6 Nə bilirsən ki, gülüm, sevgi nədür, sirr nədür,
Get oxu, mə’rifət al, çünki uşaqsan hələ sən.

7 Gəlmədin mənzilinə, qüssədən öldi **Nafiz**,
Var ümidim dolanıb qəbrimin üstə gələsən.

## ~ 268 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Bəzənmişdir Zəbərcəd, Lə'l, Nüqrəvü tila divan,
Zühur etdi yüzün sərdəftərində bərməla divan.

2 Qaşın xəncər çəkib, bağrım yarıb, sahibqiran oldi,
Əcəb hüsnü məlahətdə qurub matəmsəra divan.

3 Hüseyni-Kərbəla, eynül-həyat, gülgül kəfənlərdən,
Yazıldi xatiri-məzhunimə bir Kərbəla divan.

4 Pərişanxatir olmaqdan, başımda macəralar var,
Onunçün bağladım adabi-eşqə macəra divan.

5 Təhəyyür etməyim neylim ki, mən divani-hikmətdə,
Fəqət mənsəbpərəstlərdə olubdur xudnüma divan.

6 Olub divanəxislət, həm məlal əfzun olur, **Nafiz**,
Dağılsın tarü mar olsun ki, yansın odlara divan.

## ~ 269 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Salmışam meylimi sən tək qaragöz dilbərə mən,
Yazmışam adını könlüm kimi bir dəftərə mən.

2 İzn ver, sevgili yar, bircə dolanım başına,
İzn ver bir də baxım can alıcı gözlərə mən.

3 İzn ver, bir də gəlim yanına, qurbanın olum,
Deyim öz sözlərimi sən kimi bir sərvərə mən.

4 Könül istər ki, gülüm, sən gəzəsən mən gül əkəm,
Naz ilə hər qədəmin qoyduğun əlvan yerə mən.

5 Verməərəm bir telini min qızıla, min lə’lə,
Verməərəm bir sözünü min zərə, min gövhərə mən.

6 Şövqdən eşqə düşüb hər yetənə can deməərəm,
Canfədalıq edərəm Xızr kimi rəhbərə mən.

7 Nə gözəldir bu cəmiyyət, nə şirindir bu həyat,
Gələ bilsəm bu cahanə yenə də bir kərə mən.

8 Baxsa kəc düşmən əgər nazlı vətən dilbərinə,
Dönərəm eşqdə **Nafiz** kimi cəngavərə mən.

## ~ 270 ~

## Rəsuli-Əkrəmin vəsfində

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Hüsnün ziyasını görübən ərzü asiman,
Səf-səf düzüldi şö´lə çəkib cəmi əxtəran.

2 Bir-bir təmaşə eyləməyə çıxdı mehrü mah,
Ruyi-zəmində rəng vurub böylə kəhkəşan.

3 Zöhrə fərəhlənib əlinə aldi çəngini,
Bəzmi-səfadə nəşvələnib oldi şadman.

4 Ruyi-zəmini dutdi ki, zülfün təravəti,
Ətrin çəkib cəhanə necə yaydi gülsitan.

5 Gülzari-hüsnünə vurulub bülbüli-İrəm,
Coşdi fərəhlə söylədi yüz kərrə dastan.

6 İsavü Musa mö´cizi-Davudi-həncəri,
Qüdsaşiyan əzimətinə Xızr olub rəvan.

7 Ya Mustafa, bu vəsfini qılmaqda acizəm,
Lütfünlə **Nafiz**i qılasan bəlkə xürdədan.

## ~ 271 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Lə'lsən, dürri-sədəf, gövhəri-kan, bir dənəsən,
Təkcə sənsən əməlim, eşqim, inan bir dənəsən.

2 Ola bilməz ürəyim başqa bir eşqin vətəni,
Surətin etmiş onu mülki-məkan bir dənəsən.

3 Sorağın verdi çəmənlərdə gözəllər şahi,
Eşqimə, taleimə şahi-şəhan bir dənəsən.

4 Ey vətən torpağının böylə məlahətli qızı,
Ey könüllər çirağі, şöhrəti-şan bir dənəsən.

5 Ziynətin sidqi-vəfa, əqli-kəmal, hüsnü cəmal,
Əbədi parlayasan, var olasan bir dənəsən.

6 Qoy hüzurində sənin səcdəyə gəlsin aləm,
Gün kimi bərq vurub, nur saçasan bir dənəsən.

7 Ürəyim razı deyil bir telinə meh toxuna,
Qoy toxunsun, eləsin sinəmi qan, bir dənəsən.

8 Gecə keçmiş yuxuda qəlbinə bir səs gəlsə,
**Nafiz** hicrində edər ahu fəğan bir dənəsən.

## ~ 272 ~

**Müctəs-1: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilAtün**

1 Əmin ol ey güli-gülşən, keçər badi-səba səndən,
Ayılsın qüsseyi-qəmdən, qılıb bülbül səna səndən.

2 Görünsün dağdar olmuş çəməndə lalənin hali,
Dutubdur xatiri-nərgis necə matəmsəra səndən.

3 Oyan, ey nəşvəli bülbül, bir ahəngi-"Hümayun"dan,
Füyüzat kəsb edər güllər dəxi "Şur"i-"Nəva" səndən.

4 Həvayi-sövtün ilə halbahaləm, ey güli-rə'na,
Nəfəs səndən, həvəs səndən, cərəs səndən, həva səndən.

5 De gəlsin məclisə Zeynal[1] əlində sazü tənburi,
Könüllər pürsəfa bulsun, bir ahəngi-"Rəha" səndən.

6 Xitabət vəqtidür, **Nafiz**, bəyan eylə kəramətlər,
Bu xürrəm məclisə bir dəm yetərsə incila səndən.

---

1 Xanəndə Zeynal Əhmədov

## ~ 273 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Dünyani dutub qəmli sorağı bənövşənin,
Hardandi böylə qüssəli çağı bənövşənin.

2 Taqət yox onda başını qaldırmağa nədən,
Bu gunədi həm xəstəsi, sağı bənövşənin.

3 Bir gərdənəqırdi bu cahan içrə əzəldən,
Məhrulər içrə bəmdi fərağı bənövşənin.

4 Dinarü dirhəmə satılan nərgisi-məsti,
Can qiymətində bəllidi bağı bənövşənin.

5 Aləmlər içrə rəngi-bənövşə bənövşəyi,
**Nafiz**, biləsən hardadi ağı bənövşənin.

## ~ 274 ~

## Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 "Yarəb, kim olur ərzimi canana yetirsin,"[1]
Şanə dil açıb zülfü pərişanə yetirsin.

2 Zillət çəkib ağlar füqəra şəhri-Səbadə,
Bu vaqiəni muri-Süleymanə yetirsin.

3 Cövr ilə, sitəmlərlə zülüm ərşə dirəndi,
Bu naləmi kim ol saçi reyhanə yetirsin.

4 Düşmüşdi qəmə, qəlbimə Nuh oldi meyi-nab,
İstərdi ki, bəxt ömrümi tufanə yetirsin.

5 Məst idim o dəmlər dedim, ey cami-həbibim,
Məst olmaği Cəmşidimə məstanə yetirsin.

6 Hər vəqt və bivəqt belə sızlama, **Nafiz**,
Qismətdir əgər Həq səni Şirvanə yetirsin.

1 Misra Seyyidindir.

## ~ 275 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Çəkirəm bir sənəmin dərdi-dilazarlığın,
Görmədim, ömr tükəndi genə dildarlığın.

2 Çeşmi-məsti necə gör halimi bihal elədi,
Bilmədi cümlə təbiblər nədi bimarlığın.

3 Dili-viranəmi gördükdə mühəndisi-qəza,
Başladi tə’mirə, bildim necə me’marlığın.

4 Boynuma saldi rəsənlərlə kəməndi-zülfün,
Xəlq seyr elədi dərpərdeyi-bərdarlığın.

5 Gözlərin xaneyi-viranimə ləşkər çəkdi,
Bəllidür dəhrdə Dara kimi sərdarlığın.

6 Zülfi şəbrəngini bilməm nə xəyal eylərdim,
Şəbi-hicran dəmidür, bildim onun tarlığın.

7 **Nafiz**a, yaz, yarat aləmdə yadigar qalsun,
Çıxacaqdır üzə axirdə sənətkarlığın.

## ~ 276 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Nə oldi bizdən, əzizim, belə üz döndərdin,
Nə xəbər dutdun, a zalim, nə salam göndərdin.

2 Neçə vaxtdır ki, gülüm, bircə xəbər yox səndən,
Məni min dərdə salıb axiri fikrin? dərdin.

3 Elə bil sevməmişəm, sən də məni sevməmisən,
Hani bəs eşqü qərar, bəs hani eşqü fərdin.

4 Görmüşəm minlər ilə, səntək həkim görməmişəm.
Unudub xəstəni sağlamlara dərman verdin.

5 Nə deyirsən ki, yanım mən də səməndər tək oda,
Elə bir ah çəkim sızlaya bəndər-bəndin.

6 Noldu, **Nafiz**, belə axirdə nəzərdən düşdün,
Bir zamanlar var idi sən dəxi bir sərvərdin.

## ~ 277 ~

**Həzəc-5A: MəfA’ilün / fə’Ulün / məfA’ilün / fə’Ulün**

1 Bu dəhrdə məni də bir əzabə yaz getsin,
Bu abü atəşü badü türabə yaz getsin.

2 Mənim nəvalərimə ney təranədən düşdi,
Təranə dutmağa cəngü rübabə yaz getsin.

3 Büsati-eyşdə hər dəm dolunca  peymanə,
Mənim də qismətimi bir qərabə yaz getsin.

4 Bu şadmərgdə, saqi, mizacim oldi xərab,
Xərabət əhlinə dur bir xərabə yaz getsin.

5 Bahar ayında könül gülşəni xəzan oldi,
Bu ərzi-halımi dəftər-kitabə yaz getsin.

6 Bu məqalati necə dasitan edək **Nafiz**,
Yazgilən Təbrizə, sonra Sərabə yaz getsin.

## ~ 278 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Ahü fəğanimi təzədən yar eşitməsin,
Şami-qəmində olmaya zinhar, eşitməsin.

2 Gisulərilə boynuma saldi rəsənləri,
İndi olunca gərdəni-bərdar eşitməsin.

3 Lə'li-ləbin xəyalini çəkmək məhal imiş,
Müşküldisə qoy lə'li-şəkərbar eşitməsin.

4 Qanım töküldi xəncəri-tiri-nigahidən,
Durmuş kəmini-səhndə xunxar eşitməsin.

5 Zindanə dönüb səhni-çəmən sərbəsər mənə,
Eylə mülaqat eylə ki, əhrar eşitməsin.

6 Hərb etdi **Nafiz** ilə xətakar qaşların,
Yar bağrımi, tök qanımi sərdar eşitməsin.

## ~ 279 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Cəfavü cövri-məlamətdi işi sadələrin,
Lə'li-nabındi genə qayəsi azadələrin.

2 Yoğrulubdur qəmi-ənduh ilə aşiq qəlbi,
Əskik olmaz bu səbəb möhnəti amadələrin.

3 Meyə aludə olanlar o qədər şürb etdi,
Kəsilibdir nəfəsi şişədəki badələrin.

4 Kuyi-canani dolanmaqdan üzüldüm getdim,
Bir nəzər qıl necədir haləti üftadələrin.

5 Rahi-eşqində dolanmaqla nəmazım keçdi,
Ziri-minbərdə yeri xalidi-səccadələrin

6 **Nafiz**a, razü niyaz eyləgilən Allahə,
Haləti tərbiyət almaqdi əsilzadələrin.

## ~ 280 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Döndi aləm cənnətə hüsnü xəyalin görcəyin,
Aləm oldi şad səndən, şad halin görcəyin.

2 Mübtəlayi-hüsnün oldum, oldum heyranın sənin,
Aləmi heyran edən əbru hilalin görcəyin.

3 Qamətindən sərvlər etdi hicab, baş əydilər,
Çıxdi yıldızlar təmaşayə cəlalin görcəyin.

4 Bağda nilufər, qərənfil, şurə gəldi vəcddən,
Qarə qaşın, qarə saçın, qarə xalin görcəyin.

5 Gül yanağindən utandi, geydi əlvan lalələr,
Ay buluddan pərdə dutdi, gün cəmalin görcəyin.

6 Cümlə iman əhli qarşında yıxıldi səcdəyə,
Əqlini, irfanini, fəzlü kəmalin görcəyin.

7 Şad olub cümlə təbiət geydi toy paltarini,
Al yavağin, gül dodağin sətri-alin görcəyin.

8 Nərgis ağuş açdi, bülbüllər mübarəkdür dedi,
**Nafiz** ilə hər səhər bəzmi-vüsalin görcəyin.

## ~ 281 ~

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 Genə dillərdə gəzir söhbəti Şirvanımızın,
Min ömür qiymətidür qiyməti Şirvanımızın.

2 Bağlari bağı-səfa, dağlari sərvət dağı,
Min cahan şöhrətidir şöhrəti Şirvanımızın.

3 Bir yani Ağsu, Qobustan, uca dağlar sırasi,
Bir yanı Pirquludur, cənnəti Şirvanımızın.

4 Ürəyim vəcdə gəlir harda eşitsəm adını,
Nə gözəldür edəsən söhbəti Şirvanımızın.

5 Uca dağ üstə durub əldə qədəh seyr edəsən,
Biləsən onda nədür, ləzzəti Şirvanımızın.

6 Verdi Xaqanini ən'am ədəb tarixinə,
Qoydi tacın başına Məhsəti Şirvanımızın.

7 İndi Şirvan dediyin bir nərəxər yaylağıdır,
Tanrıdan böylə imiş qisməti Şirvanımızın.

8 Bura kim gəldi ogündən o da Şirvanlı olur,
Onunçün oldi xəşil milləti Şirvanımızın.

9 Hamıya oldi pənah, bəs nə səbəbdən Yarəb,
Olmadi **Nafizə** bir şəfqəti Şirvanımızın.

## ~ 282 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Daşlar yağıbdı başıma bu çərxi-fələkdən,
Gəndüm misali ovxalanıb keçdim ələkdən.

2 Fürsət tapıb ətvar ilə əl vurdum o zülfə,
Məcruh oluban sanki qolum sındi biləkdən.

3 Eylə mənə bir busə əta gül yavağundan,
İnsaf elə, bədru deyiləm mən kələbəkdən.

4 Etmə məni ol ləblərüvin rənginə möhtac,
Ağzım sulani, qırmızı şafdalu deməkdən.

5 Ey dil, o tari-zülfə zərifanə toxunsan,
Zənn eylə zərafətlə işün bitdi, hənəkdən.

6 **Nafiz**, məni əhbab necə müşkülə saldi,
Şərm etmədilər kəsdiyi ol nanü nəməkdən.

## ~ 283 ~

## Müğənni Elnarə Abdullayevaya

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Ey yədi-bəyza, xəyal etdim ki, Musasən, nəsən,
Ruhpərvərsən cahan içrə, Məsihasən, nəsən.

2 Ol qədər Misri-məlahətdə pərişan olma kim,
Bilməsinlər eşq ilə bərhəm Züleyxasən, nəsən.

3 İncimişsənmi Xəlilindən, məgər Hacərmisən,
El xəyal eylər səni vüslətdə Sarasən, nəsən.

4 Sövti-avazın yaxar bil ki, pərilər qövmini,
Bu avaz ilə, gülüm, söylə Pərisasən[1], nəsən.

5 Sövti-Davüdin necə məstanə qılmış bülbüli,
Mirzə Güllər[2], Ummigülsüm[3], ya Humeyrasən[4] nəsən.

6 Barübəddürmi[5] setarü bəzmdə şüridəhal,
Vadiyi-heyrətdəyəm, bəlkə Nəkisasən[6], nəsən.

7 Nəğmeyi-avazinin müştaqi olmuş el bütün,
Bilməzəm Elnarəsən ya ki, şəkərxasən, nəsən.

8 **Nafiz**a, iqlimi-eşqi keçmədin sən bisəbəb,
Qəmlərə məhkum olub aləmdə rüsvasən nəsən.

---

1 Pərisa (əsil adı Fatemeh Va'ezi) İranın məhşur qadın müğənnisi (1950)
2 Mirzə Güllər - səsi qramafon valına yazılmış ilk məhşur Azərbaycan qadın müğənnisi (XIX sonu- XX əvvəli)
3 Ummigülsüm (əsil adı Fatimə Ibrahim) – dünyada məşhur Misir müğənnisi (1898-1975)
4 Humeyra –İran müğənnisi, aktrisa və bəstəkar
5 Barübəd - Xosrov Pərvizin sarayında musiqiçi və bəstəkar (VI-VII əsr)
6 Nəkisa- Xosrov Pərvizin sarayında məşhur fars arfa ifacısı və bəstəkar (?-628)

## ~ 284 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Ey könül, dünyadə sən zövqü səfa istərmisən?
Qəddi rə'na, simtən, bir dilrüba istərmisən?

2 Qaşların ovsafinə min-min qələmlər bağlanıb,
Qəmzəsindən sinənə tirü bəla istərmisən?

3 Qəmzəsindən qan daman məhrulərin bəzmində sən,
Aşiqi hicr ilə dərdə mübtəla istərmisən?

4 Düşməmiş bəhri-qəmə cövrüni idrak eylə sən,
Başuva gəlsün dəmadəm macəra istərmisən?

5 Gözlərün yaşi axıb dünyani mərcan eyləsə,
Çeşmi-əşkün mislini Dəclənüma istərmisən?

6 **Nafiz**i dindirmə çox sən, dözməsən əfğaninə,
Bu xərabə mülki dustum Neynəva istərmisən?

## 26 - HƏRFU'L - "VAV" "و"

### ~ 285 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Saqi, büsati-eyşdə sağər birov-birov,
Qaşun xəyali ilə tülu' etdi mahi-nov.

2 Ey yari-dilrüba, əridi qəlbimin yaği,
Şami-qəmində böylə vücudim dutub alov.

3 Adəm xisali olmasa gər yarü həmnişin,
Meyxanələrdə mərdümi-naqis vücudi qov.

4 Meyxanə xəlvətində doyunca şərab içib,
Zahid qoyubdu xirqəvü səccadəsin girov.

5 Bir ləhzə çəkmədim deyə kuyin səfasını
Viranələrdə oldi müqim ömri-tizrov.

6 Çəkmə bazari-eşqə bu gün söz məta'ini,
**Nafiz** cahanda olmasa gər bir süxənşənov.

## ~ 286 ~

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 Ədasilə məni heyran edibdir bir kəmanəbru,
Gözü şəhla, yanaği şafdalu rəngi, saçi qarğu.

2 Gözi xunrizi-aşiq, kipriyi əmrində səf-səfdir,
Dutub mülki Xorasani sərasər ləşkəri Hindu.

3 Müsəxxər etdi, könlümdə xəyalim ləşkərim qırdi,
Ləbi-şəkkər xəyalilə məzağimdür doli ağu.

4 Xəzan olduqca gülzarın pozuldi rəngi-timsali,
Düşüb getdi lətafətdən, təravətdən güli-şəbbu.

5 Nəhayət bir əlamətdən dəyişdi xilqəti-aləm,
Rəzalətlə ayaq açdi xəyanətlər mana doğru.

6 Mən ol muri-zəifəm kim, xəlayiq içrə, ey **Nafiz**,
Ki, Zali-Rüstəm ilə pəncələşdim həm vurub pəhlu.

## ~ 287 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Məlahət gülşənində seyr edərkən bir kaman əbru,
Zühur etdi məlahət mənzərində mehriban əbru.

2 Pərirulər məqamında durarkən həm bu rəmz ilə,
Alıb səbrü qərarim, saxladi eldən nihan əbru.

3 Aşıb azadəlik həddin, durub hüsni-məlahətdə,
Tapıb gülzari-hüsn içrə əcəb arami-can əbru.

4 Çəkib vəsmə, bu nazəndə xəyali ruhpərvərdir,
Sanırsan bağı-cənnətdə gəzir ruhi-rəvan əbru.

5 Çəkib xəncər çəməndə laləni al qanə döndərdi,
Nədən bağı-məlahətdə qəzadən saldi qan əbru.

6 Görün bu mehribanlıqla cəfa sərmənzilin tutdi.
Həzər bu mehribanlıqdan, əlindən əlaman əbru.

7 Müsəxxər etdi **Nafiz**, bu cahanda yeddi iqlimi,
Çəkib şəmşiri-bürranın, olub sahibqıran əbru.

## ~ 288 ~

## Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün

1 Zülfi-şəbrəngindən almış nəkhətin ol mişkibu,
Olmuşam divanələr sərdəftəri jülidəmu.

2 Bu vəcahət səndə ikən, dilbəra, insaf elə,
Bir durursanmi məgər ayinə ilə rubəru?

3 Zülfünün sevdasinə düşdüm bu gün meyxanədə,
E'tiqadilə meyi-gülnardən aldım vüzu.

4 Ey könül, divanələr səndən alıbdır tə'limat,
Olmusan adabi-eşq içrə necə xocəstəxu.

5 Gözlərin yadi bilə meyxanələrdir mənzilim,
**Nafiz**i bir dəm xəyal eylərmisən, ey mahru?!

## ~ 289 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Əqlimi aldı sərimdən necə cananədi bu,
Əsəri-badə ilən gözləri məstanədi bu.

2 Qoymaz aşiqləri kuyində dolansın bir dəm,
Bağі-hüsn içrə məlahətlərə biganədi bu.

3 Dedim: təranələrim yandırar axırda səni,
Dedi: aşiqlər arasında bir əfsanədi bu.

4 Doladım boynuma bir anda zülfi-şəbrəngin,
Dedi: kim bəstədi, zəncirdə divanədi bu.

5 Şəm'i-ruxsarinə yandırdi vücudim, dedi kim,
Şö'leyi eşq ilə yandı, necə pərvanədi bu?

6 **Nafiz** əyyami-xəyalında suxənsaz olali,
Gördülər təb'i-səlimində nə durdanədi bu.

## ~ 290 ~

## Ne'mətullah  Kişvərinin qəzəlinə nəzirə

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Firqətindən odlanıb daim yanarəm doğrusu,
Ol qaranğu gecələrdə bir fənarəm doğrusu.

2 Ol büti-ziba yanında e'tibarim qalmadi,
Ol səbəbdəndür ki, mən bir hərzəkarəm doğrusu.

3 Kokəbi-bəxtim qaraldi endi məğrib səmtinə,
Asimani-fikridə məşriqmədarəm doğrusu.

4 Ömrümün gülzari qəmdən möhrəganlıq tapsa gər,
Qəm büsatilə xoşam kim, bir baharəm doğrusu.

5 Cövhərimdən başlayıb dutdi ərəz mahiyyətim,
Cövhəri əqdəmdə bir "Bəstənigarəm" doğrusu.

6 "Şaxətai", "Mavərünnəhr"i "Dügah"ə saldılar,
"Rahül-ərvah"ə dəmadəm bir "Qətar"əm doğrusu.

7 Küfri qoyma, ya Rəhim, Bağdadımi viran edə,
**Nafiz**əm islamə bir himmətşüarəm doğrusu.

## ~ 291 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Göz yaşilə verdi yarım arizi-gülnarə su,
Əşki-çeşmi seyl edib saldi məni culərə su.

2 Bəstəri-eşq içrə, ey məhparə, gəl Loğmanım ol,
Ver zəkati-ləblərindən bir cür'ə bimarə su.

3 Getdi bu dari-fənadən bulmədi Zülqərneyn,
Abi-heyvan təşnəsiylə zülməti-əsrarə su.

4 Görməyə didarini tam bir qərinə gözlədim,
Endi məbluli-qəm ilən gözlərimə qarə su.

5 Nəxli-qəddim xüşk olub döndi sütuni-səbrimə,
Bağbanlar fəhm edər gər verməsən əşcarə su.

6 Kəssə barani-məlahət sərvin üstündən müdam,
Su verərdim gözlərimdən, **Nafiz**i-biçarə, su.

## ~ 292 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Dedilər eşq büsatında bir aşiqdür bu,
Bariki-fəzl ilə insanlığa layiqdir bu.

2 Nikü bəddən keçibən ədl məqamində durub,
Haqqi batildən ayırmaqlığa fariqdür bu.

3 Eşq girdabinə düşdüm sitəmi-hicrindən,
Sərgüzəşti-qəmi Əzra, həmi Vamiqdür bu.

4 Birinə sirrimi faş eyləyib isbat etdim,
İki yoldaşın arasında münafiqdür bu.

5 **Nafiz**i şəni' xəyal eyləmə, qövlündən utan,
Cümlə məxluq bilir aşiqi-sadiqdür bu.

## 27 - HƏRFU'L - "HE" "ه"

### ~ 293 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Gül yüzün göstəribən aşiqi diltəng eləmə,
Ləbi-lə'lün ki, səfabəxşdi, bədrəng eləmə.

2 Mütribi-eşqin əlindən qopuzun almagilən,
Tarü neydən gələn ahəngi pozub çəng eləmə.

3 Könül səhifələrindən açıb, ey gül, fali,
Bülbülün əqlin alıb gülşən ara dəng eləmə.

4 Mə'rifət bəzminə gəl, xovf eləmə, ey zahid,
Açıban təlxi-süxən əqlimi pərsəng eləmə.

5 Bülbül əhvalüvə əfğan eləyir, ey **Nafiz**,
Sən də fəryadə yetiş, ayri bir ahəng eləmə.

## ~ 294 ~

## Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Ey dil, həzər et sərdəki sevdani böyütmə,
Təşviqə gətir, səhni-təmaşani böyütmə.

2 Məcnunluğu öyrənmək üçün Leylini axtar,
Təxmini-təfəzzül ilə Leylani böyütmə.

3 Fərz eyləmə kim, bir kölədür Misrin əzizi,
Dastani-xətavərdə Züleyxani böyütmə.

4 Xosrov özüni atsa da dəryayə qəzadən,
Göz yaşi tököb sən Amudəryani böyütmə.

5 **Nafiz**, bu qədər yazmağın əhli-dilə bəsdir,
Əhli-səvadə dəftərü divani böyütmə.

## ~ 295 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Edibsən sinəmi təsxir amaçi-təəblərlə,
Qoşun çəkmə bəharistanə hirs ilə, qəzəblərlə.

2 Sənə layiq deyil könlum gülüstanın xərab etmək,
Dili-aşiq mülaqat istər ikən qönçələblərlə.

3 Məni məmnun edən dəmlərdə fikri-xeyrdən döndün,
Cəfa sərmənzilində pöhrələndin bu səbəblərlə.

4 Qəmindən səbrü aramım tükəndi rahi-eşq icrə,
Yetişdi ömr payanə, kədərləndim əsəblərlə.

5 Nədəndür adəm övladi rəhi-ərkani tərk etmiş,
Gərək tə’lim edək insani ərkani-ədəblərlə.

6 Götür sazi, rəha vəqti gəlib, mütrib olan **Nafiz**,
Cahani dolduraq başdan-başa eyşü tərəblərlə.

## ~ 296 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Açılıb, ətr saçıb, bir gülü xəndan Qubada,
Elə bil pöhrə vurub, sünbülü reyhan Qubada.

2 Gəzibən dağıni, ormanlarıni məst oldum,
Bu əlamətlər edibdir məni heyran Qubada.

3 Meşəsində neçə azadə marallar dolanır,
Dəstə-dəstə gəzişir bir sürü ceyran Qubada.

4 Aşıq Haşim bu əlamətlər ilə aşiq olub,
Bağlayıb şövq ilə bir nəğməli dastan Qubada.

5 Yetmişi saldı yola, səksənə də var həvəsi,
Tanrı qismət eləsin sinnini doxsan Qubada.

6 Baxın bu məclisə diqqətlə zövq alın bundan,
Cəm olub gör nə qədər sakini-Şabran Qubada.

7 Yaşasın ömri-fəravan ilə Qudyal əhli,
Görməsin zərrə qədər möhnəti-hicran Qubada.

8 Mən də namirsəli-peyğəmbəriyəm Şirvanın,
Olmuşam vüs’ət ilə bir gecə mehman Qubada.

9 Deyin ol Haşimə sazında bir “Nəva” çalsun,
Desin öz dərdi-dilin **Nafizi**-nalan Qubada.

## ~ 297 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Açma o tari-türrəni sübhi-nəsim ilə,
Qoyma dola cahani bu ənbərşəmim ilə.

2 Sənturi-çəngü tar tutub bərbətin yerin,
Məclisləri gəzir bir-iki paslı sim ilə.

3 Mülki-süxəndə kəlmələrim fərşi yandırar,
Bir dəm mülaqat eyləyə bilsəm Kəlim ilə.

4 Əbnayi-dəhrin əngəli Soqratla bitmədi,
Başlandi zulm fəlsəfəsi ol həkim ilə.

5 Əxz eylərəm nəvani kitabi-Nəvaidən,
Gönlüm bular şəfa o səadətnədim ilə.

6 Derlər ki, getdi **Nafiz** o gün yari görməgə,
Getdi ağam ziyarətə, qaldım Kərim ilə.

## ~ 298 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Düşübdü rövnəqi-eşqim sühufi-təqvimə,
Bahar zəxmə vurub mənzili-həftiqlimə.

2 Üstüxani-bədənim parə-parədür qəmdən,
Bu bəlanın dəxi yox ehtiyacı tərmimə.

3 Qanmazın halini sordum təbəssüm eylədi kim,
Nəkarəsən ki, məni başlamısan təfhimə?

4 Ey riya əhli olanlar, dəmi-qeybətdən usan,
Guş qıl mərhələlərlə təriqi-tə’limə.

5 Nə tutmusan ətəyindən o büti-mövzunun,
Səni kim tərbiyət etdi o bütə tə’zimə.

6 **Nafiz**i narə yaxanlar bunu bilsinlər kim,
Yansa da sınmayaçaq, gəlməyəcək, təslimə.

## ~ 299 ~

## Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün

1 Məclisdə tar ola, mən olam, bir də yar ola,
Vəslin həvəsilə belə bir ruzigar ola.

2 Qəm-qüssəni kənar edə peymanələr tuta,
Nə dildə qüssə qəm, nə də ki intizar ola.

3 Nazəndə dilbərin qazana etimadını,
Ənami-vəsl eyləməyə e’tibar ola.

4 İksiri-meydən ötrü şərabi-müğanədə,
Şürbi-xumarə əldə gərək ixtiyar ola,

5 Şükrigüzari-dəhrə ümid eyləyənlərə,
Hər güşəsində güllər aça nobahar ola.

6 **Nafiz**, müyəssər olsa bu ədna zəmanədə,
Qəm dəf’inə bir çarə qılan qəmküsar ola.

## ~ 300 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Ərənlər gəldi rö'yadə məni gördi yataq üstə,
Mənə rəbbim şəfa verdi ki, durdum mən ayaq üstə.

2 Girib baği-cinani kəşt qıldım əndəlibasa
Ki, içdim abi-kövsərdən, oturdum bir bulaq üstə.

3 Qurub piri-muğan meyxanənin fərzanələr bəzmin,
Qədəm basdım məziyyətlə mübarək təmtəraq üstə.

4 Dur, ey saqi, meyi-gulguni tut bəzmi-səadətdə,
Əridi bağrımın yaği töküldi şəbçiraq üstə.

5 O ziba çöhrəni, ey gül, gəlib məşşatələr görsün,
Və lakin çəkməsin kirşani zərif alyavaq üstə.

6 Xəyal eylərdim amalım açar könlümdə gülşənlər,
Fəqət əyyami-hicranın çəkibdir daği dağ üstə.

7 Yaxıbdır bağrımi hicran odi ləbtəşnədir **Nafiz**,
Olurmi ləzzətəfza bir dodaq qoymaq dodaq üstə.

**~ 301 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Gecə gördüm səni, ey zülfi çəlipa, yuxuda
Ki, edirdin mənim ilə necə qovğa yuxuda.

2 Nərgisi-məstin edir cilvələr, ey mahliqa,
Canımi təndən alır nərgisi-şəhla yuxuda.

3 Yuxu bir sirri-Xudadır nə bilərsən rəmzin,
Kim veribdir dəhənin sirrinə mə´na yuxuda.

4 Görmüşəm lə’li-şəkərbarıni qənnadi kimi,
Sanki xeyratdə molla görü həlva yuxuda.

5 Gündüz olduqda mənə tən eləyir əhli-riya,
Gecələr cövr eləyir yari-aşina yuxuda.

6 Zülfünün rəngi xəyalində məni qarə basar,
O rəngilə görürəm bəxtimi qəra yuxuda.

7 Yuxuda yar ilə bu həmzəban olan **Nafiz**,
Olub eşqində necə dərdə mübtəla yuxuda.

**~ 302 ~**

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Yardən qeyrilərə eyləsə gər yar gilə,
Nəyə lazımdır edə yari-diləfkar gilə.

2 Çalış əğyarələrə sirrini izhar etmə,
Çünki hər bir nəfəsində olur izhar gilə.

3 Yar cövri genə də saldi əcəb yasə məni,
Cövrdən etməz olur çün bu əzadar gilə.

4 Yar əğyari görüncə genə gileyləndi,
Kimə rişxəndi-ədalər, kimə təkrar gilə.

5 Xəstə olduqda bir əhvalini gər sormasalar,
Əqrabasından edər qəhr ilə bimar gilə.

6 Necə xoşnud ola məndən, buna vaqif deyiləm,
Hələlik eyləyir ol şuxi-cəfakar gilə.

7 Giley etmək yaraşır xatiri-zəntəb'lərə,
Nə gərək eyləyə ol **Nafiz**i-qəmxar gilə.

## ~ 303 ~

## Sultan Həmidin qəzəlinə nəzirə

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Xoşdur xəzan qəmi sovuşa nobahar ola,
Bülbül qədəhi-güldəki meydən xumar ola.

2 Nərgis göz açıb bağdə zəmbaği seyr edə,
Hər guşədə şəbbulər açа, lalәzar ola.

3 Bülbül gələ gülşəndə "Qəməngiz" məqaminə,
"Dad"ü "Bidad" bəzminə bir cannisar ola.

4 Eşq iqlimində mən dəxi hürriyət istərəm,
Aləmdə istərəm belə bir ruzigar ola.

5 Ey gül, fərağі-vəsldən üzmə ümidimi,
Könlüm həmişə  vəslinə ümmidvar ola.

6 "*Yarəb, olurmu dəhrdə bundan betər bəla,
Şəxsi nəcib nanəcibə qərzdar ola*" .

7 **Nafiz**, dəxi bundan da betər bir bəla budur
Xəlqi-fəqirə zülm eliyən hökmüdar ola.

## ~ 304 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Sevdayi-səri-zülfdə dil pürxəm olursa,
Aşiq dözə hər cövrə gərək adəm olursa.

2 Sevdayi-zəmanətdə sədaqət tapar aşiq,
Bu mərhələdə gözləri hər dəm nəm olursa.

3 Leylasənəmi-eşqdə öz tayuvi axtar,
Eşqün sənəmi-yarə əgər tov'əm olursa.

4 Qur məclisi-şirət belə kim zövq ala aləm,
Daravü hünərpərvəri-cami-Cəm olursa.

5 Sındırma sifali, yerə tökmə meyi-eşqi,
Saqi kərəm eylərsə, meyi Dərğəm olursa.

6 Ey gözlərimin nuri ki, rəftari çətindir,
Bəzmi-hərəmi-yardə, naməhrəm olursa.

7 Ləhni-ələmin fəhm elə, guş eylə nəvayə,
Bəzm içrə əgər **Nafiz**i-mö'cüzdəm olursa.

## ~ 305 ~

## Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün

1 Tə’neyi-duni-rəqibə hədəf olmaqdansa,
Məclisi-eyşdə cam ol xəzəf olmaqdansa.

2 Nə qədər var isə sərf eylə səfa məclisinə,
Əsəri-təb’i-rəvanun tələf olmaqdansa.

3 Saxla izzü şərəfi, kibrü riyadən uzaq ol,
Öl qutar mərd kimi, bişərəf olmaqdansa.

4 Dəsti-xubanda ikən ayinə olmaq xoşdur,
Bəhr qoynunda görünməz sədəf olmaqdansa.

5 Qülleyi-Qafə çəkil bir hümayi-himmət ilə,
Adəm övladi olub naxələf olmaqdansa.

6 **Nafiz**a, məzhəbi-eşq içrə bir tərəfgir ol,
Diyari-eşqdə çün bitərəf olmaqdansa.

## ~ 306 ~

## Nabi əfəndinin qəzəlinə nəzirə

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 “*Hilali-eyd qalmış əbri-gövhərbarın altında,*
*Misali-guşi-məhruyan xəmi-dəstarın altında*”.

2 Səfil əndişələrlə gölgələnmişdir necə sən’ət,
Odur ki, nalədən düşməz, kamança tarın altında.

3 Zəmani-bədsərəncamın önündə nəşvəhal olmuş,
Neçə fərzanələr pamal olub əsrarın altında.

4 Büküldi qamətim qəmdən, xəyalim dəxi sərgərdan,
Necolur hali həmmalın qalanda barın altında.

5 Məni mən etməyin yaran, rədifü hərzəkar olsam,
Necə ömr eyləsin aşiq, bu bədkirdarın altında.

6 Dağılsa könlümün bürci, onunçun qəm yemə, **Nafiz**,
Xiyal etmə dəfinə qaldi bir divarın altında.

## ~ 307 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Güzərim düşdü bu gün guşeyi-meyxanələrə,
Qanə dönsün ki, qanım qaynadi peymanələrə.

2 Məclisin şəm’inə çoxlar dolanır ahəstə,
Bir qiyas eyləgilən şəm’də pərvanələrə.

3 Xətayə uğradım, ömrümdə şərab içməz idim,
Məni axirdə gülünc eylədi məstanələrə.

4 Künci-meyxanə bir ibrət yeridir aqil üçün,
Baxdım ibrət götürüb burdaki rindanələrə.

5 **Nafiz**a, dərd ürəgimdə neçə qövr eylədisə,
Söylədim mətləbim ahəstəcə divanələrə.

## ~ 308 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Qismət bizə bir sağəri-dövlət ola bir də,
Bu bəzmi-şəfaxanədə rahət ola bir də.

2 Peymaneyi-vəslin çəkəm ağuşi-dərunə,
Şövq ilə dimağimdəki ləzzət ola bir də.

3 Asudə gəzəm zövq ilə gülzari-çəməndə,
Nə xari-məzəllət, nə də möhnət ola bir də.

4 Az çəkməmişəm yari-sitəmkar cəfasın,
Rəftari-əməl qoyma həqarət ola bir də.

5 Əyyami-qədimdə kişilik, adəti olmuş,
**Nafiz**, belə mərdanəlik adət ola bir də.

## ~ 309 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Yad et o keçən dəmləri, ey yar, unutma,
Etdin məni min dərdə giriftar, unutma.

2 Xoş gündə dolandın başıma, əqlimi aldın,
Dar gündə yad oldun, niyə zinhar, unutma.

3 Bəs noldu şirin dillərin, indi niyə susdun,
Daş qəlbli, qəddar, sitəmkar, unutma.

4 Ahim oduna yandi o güllər külə döndi,
Bağ soldi, xəzan oldi, o gülzar, unutma.

5 Gördi gözümün yaşıni qan ağladı bülbül,
Çəkdin sinəmə çarpazi dağlar unutma.

6 Odlandi sinəm şur ilə, qəlbim dilə gəldi,
Qaldi gecə-gündüz gözüm ağlar, unutma.

7 Fikr eyləmə mərdin başı qovğadə gərəkdür,
Zülm eyliyəni zülmə dutallar, unutma.

8 Bu ayrılığa mən dözürəm, kimsənə dözməz,
**Nafiz**də hələ dərdə dözüm var, unutma.

## ~ 310 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Can mülküni virənə qoyan canı unutma,
Gər cani unutsan, dəxi cananı unutma.

2 Düşsən həvayi-zülfə unut onda cahani,
Əhbabi unutsan, nəməkü nani unutma.

3 Əfsaneyi-eşqündə bəla bəhrinə düşdüm,
Gözdən tökülən qətreyi-mərcanı unutma.

4 Bu mulki-üqubətdə mənə zövqü səfa yox,
Mülki-sitəmi-vərtədə hicranı unutma.

5 Mən hicri-ləbi-yar ilə göz yaşımı tökdüm,
Çeşmimdən axan ol düri-qəltanı unutma.

6 **Nafiz**, Ağalardur sənin ustadun əzəldən,
Ömrün boyu cəhd et o şəkərxanı unutma.

## ~ 311 ~

### Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün

1 Adət eləmə rüşvətə bir dövlət içində,
Fəhm eylə bəla, faciə var rüşvət içində.

2 Rüşvət edibən səltənəti-Misri müsəxxər,
Üz tutdi neçə məmləkətə növbət içində.

3 Ey xudbin olanlar, saqın Allahi unutma,
Yerlə bir edər aləmi bir saət içində.

4 Tiflisdə baxın gör necə dövlət qurulubdur,
Gör bizdə müxalifdi hələ hüccət içində.

5 Torpağı verib başına şal bağlamaliykən,
Hər ləhzədə lovğa danışır övrət içində.

6 Olmuşdi cəhənnəm kimi xəlqin yeri burda,
Mə'murlar özün hiss eləyir cənnət içində.

7 Sənlə çəkəcəm arxayın ol həqqü hesabi,
Verdin zəhəri **Nafiz**ə bir şərbət içində.

## ~ 312 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Mənim tək çək cəfa, odlan, mənim tək sən də qan ağla,
Çəkilsin sinənə möhnət dağından min nişan ağla.

2 Sədaqət mülküni tərk eyləmə, yansan Səməndər tək,
Demə yoxdur bu odlarə, mənim tək odlanan, ağla.

3 Görüb göz yaşimi kəsdi səmalər seyli-niysanin,
Sənindir nöbət indi etmə çox ahü fəğan, ağla.

4 Nə hacət kim, görüb göz yaşıni biganələr gülsün,
Dağıtsa sinəni sirrin, nihan saxla, nihan ağla.

5 Pozarsa gər çəmənzari, xəzanın hörmətin saxla,
Gülürdün mövsümi-güldə, gəlib fəsli-xəzan ağla.

6 Sənin hər qətrə göz yaşın, səadət nəğməsin səslər,
Fərəhlə cəm olur axir bu aləm, bu cahan, ağla.

7 Fələk dönsün məramilə, veribdür imtahan **Nafiz,**
Vururdun dəm rəşadətdən, buyur ver imtahan, ağla.

## ~ 313 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Bəzmi-tərəbdə kim verə gər yarə piyalə,
Vermək nə gərək şürbi-tələbkarə piyalə.

2 Dutduqca piyalə qızarır lalə yavaqlar.
Verdikdə ziya səhfeyi-rüxsarə piyalə.

3 Sirri-dəhəni-yari piyalə açar əlbət,
Vaqifdür əzəldən belə əsrarə piyalə.

4 Şürb eyləməsə sirrini vaiz bilə bilməz,
Cəhd eyləgilən vermə o murdarə piyalə.

5 Çeşmi-siyəhin fikri ilə xəstədi könlüm
Ol lə'li-ləbin zövqidi bimarə piyalə.

6 **Nafiz** kimi divanələrə çarə bulunmaz,
Bəlkə ola bu dərdimizə çarə piyalə.

## ~ 314 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Tərğibi-nəzərgahinə gəldim sitayişə,
Gördüm bütün aləm yığılıbdır nümayişə.

2 Görmək səni müyəssər olurmuş bu gün mana,
Çeşmimdə gəldi əşki-rəvanim fəzayişə.

3 Güş eylədim kəlami-hədisin rümuzini,
Düşdi fərəhlə qüssəli qəlbim güşayişə

4 Sədbərgü ətri-rayihəsi dutdu aləmi,
Gəldi rəhayi-aləmi-nisvan nəvazişə.

5 **Nafiz,** anasi bəllidürür cümlə mö'minin,
Feyzülbəşərdi binti-Əbubəkri-Aişə.

## ~ 315 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Yar olan bəzmi-səfadə təkəllüm eyləməsə,
Sındırar şişeyi-qəlbi təbəssüm eyləməsə.

2 Əsəri-naz ilə hərdəm pozar hüzurımızi,
Gəlib insafə əradə tərəhhüm eyləməsə.

3 Nazü qəmzən yeridər cövrünü nəhayətsiz,
Aşiqi-qəmzədə zülmə təzəllüm eyləməsə.

4 Aşiqin rahi-vəfadə nəmazi batil olar,
Əgərçi xaki-dərindən təyəmmüm eyləməsə.

5 Təsnifati pozulubdur nəvayi-nəğmələrin.
Şövq ilə bəzmdə **Nafiz** tərənnüm eyləməsə.

**~ 316 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Sənin ol xali-mişkinin bu könlümdə məqam etsə,
Həlal olsun ona qanım, mənə xabi həram etsə.

2 Mənim divanə könlüm eşqilən səhranəvərd oldi,
Qəbahətdurmi Məcnunə dutub vəhşini ram etsə.

3 Olur comərdilik daim yıxılmış şəxsi qaldırmaq,
Əməl dəftərini sağdan alar, kim, niknam etsə.

4 Ləbi-lə’li-zülali-yari kim təşbih edə bilsə,
Nəvid olsun ana, kim abi-kövsərdən pəyam etsə.

5 Süxən gülzarının, **Nafiz**, oldurdun sən də Həssani,
Dilündə kəlmeyi-tovhid açılsa mirkəlam etsə.

## ~ 317 ~

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

1 Ey səba, himmət elə düşsə yolun Şirvanə,
De ki, **Nafiz** də qəriblikdən olub divanə.

2 Qəmi-ənduh dutubdur təb’i-naziktərimi,
Səməndi-təb’imi yoxdur gətirən cövlanə.

3 Necə əmniyyətimi möhnətə saldi gərdün,
Necə növrağimi pozdi nə deyim dövranə.

4 Necə susdurdu fələk əldə rübabım səsini,
Eylədi eşq diyarında məni əfsanə.

5 Yoxdu bir yari-vəfadar deyəm dərdi-dilim,
Tapmıram rahi-həqiqətdə belə fərzanə.

6 Gərçi bir qədrşünas olsa kifayətdi mənə,
Fikri-zikrim də rəfaqətlə yetər canana.

7 **Nafiz**a, daməni-mövladən əlin üzməgilən,
Döndər üz rahi-həqiqətdə Şəhi-Mərdanə.

## ~ 318 ~

### Müzare-1: MəfʼUlü / fAʼilAtü / məfAʼİlü / fAʼilün

1 Qaldım sitəmi-yar ilə bu tirəxanədə,
Bülbül necə təhəmmül edər aşiyanədə.

2 Yarın bəhanə eylədigi bəllidür müdam,
Qaldım tərəddüd ilə xəyali-bəhanədə,

3 Yarın xədəngi-qəmzəsinə cannisar olub,
Durdum həmişə dideyi-tərzi nişanədə.

4 Mən rəhrəvani-eşqi-bəla mənzilindəyəm,
Məhbus olubdu şöhreyi-eşqim zəmanədə,

5 Yanmaqla iltica elədim nari-firqətə.
Suzi-dərunimi sipər etsin zəbanədə.

6 Fərhadü Məcnun axiri öz çarəsin tapıb.
**Nafiz** təhəmmül eylədi bu aşiqanədə.

## ~ 319 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Başladi yar mənim halimi təhrirə genə,
Bir dəm azad edibən bağladi zəncirə genə.

2 Halımız yar fərağində genə mübhəmdir,
İş qalıb bariqəyi-eşqdə təqdirə genə.

3 Hiyləgərdür belə ay üzlü sənəmlər bilirəm,
Əl atıb mərhələlərdə yeni təzvirə genə.

4 Yıxıb üşşaqin evin tövri-məlamətlərlə,
Gərçi Me’mari-qəza başladi tə’mirə genə.

5 Çəkdi divarə mənim surətimi Maniyi-eşq,
Çıxdı Bəhruzi-zaman surəti-təsvirə genə.

6 Nərgisü yasəmənin  cövhərin çəkən **Nafiz**,
Sındırıb sağəri qət’ eylədi iksirə genə.

**~ 320 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Dolandım  kuyi-yari əzm edib məstanə-məstanə,
Gəlib Məcnun məqamində durub divanə-divanə.

2 Mənə piri-muğan tövsiyəsindən qeyri pənd olmaz,
Tapam piri-muğani, axtarım meyxanə-meyxanə.

3 Məni məsti-xərabati görəndə ehtiyat etmə,
Dolannam başına, ey şəm'ru, pərvanə-pərvanə.

4 Axıb dəryaləri dutdi gözüm yaşi fərağində,
Bilirsən ehtiyacım var düri-qəltanə-qəltanə.

5 Mənim rahi-həqiqətdə çaşıbdır əqlim, ey naseh,
Mənə öz pəndini isbat elə fərzanə-fərzanə.

6 Şikəstə **Nafiz**i islah elə, yarəbb,  aləmdə
Cəhani iştiyaq ilə gəzim mərdanə-mərdanə.

## ~ 321 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Pərvanə özün vurdusa eşqin çırağinə,
Yandıqca bağlanıb genə hicran ocağinə.

2 Yanmaqlığın tərənnüm edər ziri-ləb nədən,
Hərdəm nə pıçıldar genə şəm'in qulağınə.

3 Qəmxanələrdə həsrət ilə doldi gözlərim,
Şami-qəmində bənzəri var qan çanağınə.

4 Qanim həlal edim rəhi-eşqində dəmbədəm,
Hicri-rüxündə dözməmiş olsam fərağinə.

5 Hicrin qəmin apardım özümlə məzarədək,
Bir yetmədim üsuli-məhəbbət məzağinə.

6 Lütf etmədin zəmanədə bir busə **Nafizə**,
Şirvanlılar ki, hürmət edərdi qonağinə.

## ~ 322 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Şö'leyi-ahimi görsən şərarə şəklində,
Gözlərimdən saçılır qan sitarə şəklində.

2 Məlalət ilə cigər qətlə-qətlə qan oldi,
Töküldi didələrimdən üsarə şəklində.

3 Qəmgin əhvalimi yazmaq çətindi xamələrə,
Nigarə ərz elədim istixarə şəklində.

4 Ey cəfapişə sənəm, gündə qəlbim ayinəsin,
Sındırırsan, eləmə parə-parə şəklində.

5 Rəqib kəlməsi bağrımni yarır nəştər tək,
Onun ibarələri istiarə şəklində.

6 **Nafiz**a, məzhəkədür aləmin təranələri,
Gəlir qulağimə hər dəm nəğarə şəklində.

## ~ 323 ~

## Nabi Əfəndinin qəzəlinə nəzirə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 "*Dökəlim biz gözümüz yaşıni şəbnəmcəsinə,*
*Xəndələr etsin o afət güli-xürrəmcəsinə*".

2 Gir gülüstani-İrəm bağinə, ey aşiq olan,
Tərk qılma belə bir rövzəni Adəmcəsinə.

3 Gəl ki, tə'lim edəlim bunca sədaqət tərzin,
Qol sarım bir gecəlik boynuna məhrəmcəsinə.

4 Rahi-ərkani tut, əyri oturub düz danışaq,
Hürməti-xani-vəfa bağlına möhkəmcəsinə.

5 Kə'beyi-kuyinə varsam məni məhzun etmə,
Lə'li-nabında sirab et məni Zəmzəmcəsinə.

6 Ürəyim qəşy eləyir həsrəti-pabusin ilə,
Lütf qıl **Nafiz**ə gəl həzrəti-Məryəmcəsinə.

## ~ 324 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Aşinalıq səhli yox ol dilbəri-dilcu ilə,
Kim görübdür türki sadiq dost ola gürcü ilə.

2 Çox da seyğəl vermə rüxsarə, pozar timsalini,
Ey gözüm nuri, dəmadəm oynama güzgü ilə.

3 Gör ki, vəhşilər bilə ülfət dutub insanlığım,
Hər cünun babəstə olmaz dəsteyi-ahu ilə.

4 Müşkül imiş qəlbdə əhd ilə peyman bağlamaq,
Aşinalıq rəsmini ol nərgisi-cadu ilə.

5 Xali-mişkinin nə qovğalər qılıb qanlar tökər,
Ənbərin zülfi siyahi-həlqeyi-giysu ilə.

6 **Nafiz**a, xəlq içrə mən çox hiyləgərlər görmüşəm,
Bəzi mərdimzadənin bir fərqi yox tülku ilə.

## ~ 325 ~

**Həzəc-5A: MəfA'ilün / fə'Ulün / məfA'ilün / fə'Ulün**

1 Rəqibi-div özün qoydu həmqərin yerinə,
Səngi-xara necə kim girdi gövhərin yerinə.

2 Bu büsat içrə mələklər itirib sərkələfin,
Göylərə buqələmun çəkdi əjdərin yerinə.

3 İndi əğyarə nəsib oldi visali heyhat,
Əzizlədi kolu bülbül, güli-tərin yerinə.

4 Oxudum heyyətü məntiqi, çox kitab açdım,
Həsəd əhli bunu fərq etdi dəftərin yerinə.

5 Var adam mərtəbədə həm Şəqiqü Ədhəmdir,
Adam da var ki, gərək bağlana xərin yerinə.

6 Şərarət atəşinə bəsdi sərbəsər yandıq,
Gedəlim məmləkətin çeşməsi sərin yerinə.

7 **Nafiz**a, elmi-nəğamata rəğbətim bu olub,
Cəhd qıldım ki, girəm sən'ətin dərin yerinə.

## ~ 326 ~

**Həzəc-5A: MəfA'ilün / fə'Ulün / məfA'ilün / fə'Ulün**

1 Lə'lün Yəməndə bəhsə durubləllər içində,
Zülfün çəməndə qürrədi sünbüllər içində.

2 Könlüm quşi pərvaz eləyib zülfünə qondi,
Qaldi bu sayaq sübhü məsa zillər içində.

3 Şəhbaz gözün könlümi seyd eylədi axır,
Kəfgirə dönüb bağrım o çəngəllər içində.

4 Şəhla gözünün üstəki əbruyi-xəmindən,
Bağrım dəlinib doğranı xəngəllər içində.

5 Min hadisələrlə necə əngəllərə düşdüm,
Batdım təzədən yasə bu əngəllər içində.

6 Göz yaşimə qərq oldu vücudim bu səbəbdən,
Batdi ayağım qaldi necə gillər içində.

7 **Nafiz** qəmi-ənduhini çəksin nə bəyanə,
Lal oldi dilim qaldı neçə dillər içində.

## ~ 327 ~

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

1 Naz ilə cilvələnib bir güli-rə’na Şəkidə,
Başimə düşdi əcəb bir yeni sevda Şəkidə.

2 “Yuxari başda” qurulmuşdi dilara məclis,
Bəzmimiz Habil[1] ilən oldi mücəlla Şəkidə.

3 Başladi nəğmeyi-“Segah” ilə kim xanəndə,
Feyziyab oldi pəsəndideyi-icma Şəkidə.

4 Bəzm qanunini saqi yürütdi hörmət ilə,
İçildi təntənəli sağəri-səhba Şəkidə.

5 Bir nəfəs verdi mənə sanki Məsihadən əvəz,
Ruhimi təndən alıb bir büti-tərsa Şəkidə.

6 Çıxardı əqli başından, olardı divanə,
Yusifi görsə idi imdi Züleyxa Şəkidə.

7 Şövqü zövq ilə ki, **Nafiz** oxudi “Sarəng”i,
Şövq ilə cuşə gəlib bülbüli-şeyda Şəkidə.

1 Habil Əliyev (1927-2015) - məşhur kamança ifaçısı, Azərbaycanın xalq artisti

## ~ 328 ~

## Laədri şairin qəzəlinə nəzirə

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Xab gəlməz genə ol çeşmi-xumarın gözünə,
Salıb eşqində məni qəhr ilə narın gözünə.

2 “*Yanalım, yaxılalım, sürmə kimi həll olalım,*
*Girəlim bəlkə bu tədbir ilə yarın gözünə*”.

3 Bülbül ovsafi-məhəbbətdə oxur nəğməsini,
Kül atıbdır genə bu babdə xarın gözünə.

4 Ləbin iskəncəbi bəhsində hekayət söylər,
Bir şəkər qatgilən ol bari, ənarın gözünə.

5 Ləbi-innabüvə həsrətdən olubdur ətşan,
Kim buraxmazla məni böylə pinarın gözünə.

6 **Nafiz**a, Hacı[1]ni gör kim necə də zəxmə vurar?
Nə göründi genə bu bəzmdə tarın gözünə.

1 Hacı Məmmədov (1920-1981) - məşhur tarzən, Azərbaycanın xalq artisti

## ~ 329 ~

### Şeyx Səfinin qəzəlinə nəzirə

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 "*Göy güldü, bulud ağladı, ey şanlı piyalə,*
*Saldı məni mey şövqünə bir qanlı piyalə.*

2 *Ol dəm ki, dilim dutmaya, saqi, kərəm eylə,*
*Allahi sevirsən mənə bir canlı piyalə."*

3 Mən eşq büsatında ki, atəşlərə yandım,
Göz yaşım ilə doldu bu hicranlı piyalə.

4 Göz yaşımız həsrətlə süzüldükcə fərəhlən,
Doldur içəlim, ey düri-qəltanlı piyalə

5 Ərdəmli dolan, dəstini öp piri-muğanın,
Qoy qismətin olsun dəxi irfanlı piyalə.

6 İsqatü səlatimə çaharyar gəlincə,
Versinlə səlavat ilə dördyanlı piyalə.

7 **Nafiz**, bu səramədlər əcəb başımı yardı,
Düşdi sərimə bəzmdə Şirvanlı piyalə.

**~ 330~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Qızarmış abrudən ol yavaqlar al tərzində,
Gözün fikri alıbdur səbrimi işğal tərzində.

2 Dağılmış zülfi-şəbrəngin necə gör arizin dutmuş,
Fəqət, ey şanə, sən zülfün dara ehmal tərzində.

3 Ləbi-innabüvə bəslər ədavətlər meyi-gülgun,
Onunçun ləzzəti getmiş olub xardal tərzində.

4 Qaşın xəncər çəkib kipriklərin durmuş nizam ilə,
Görəndə doğranır bağrım necə xingal tərzində.

5 Müənbər zülfüvün mali-məta'in çəkməyə daim,
Bu yük aşiqlərin boynundadır həmmal tərzində.

6 Fərəhnak olmaq üçün hüsn bağında əzəl **Nafiz**,
Bununçün bəxt yar olsun gərək iqbal tərzində.

**~ 331 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Neyləyim mən meyi-gülguni verən saqilərə,
Bir əyaq ilə məni saldi gör əyağlərə.

2 Dur ləbaləb elə peymanəni meydən, saqi,
Bənzədib lə’li-Bədəxşan kimi dodağlərə.

3 Qədin fədasi olum, intizar çəkməkdən,
Gözüm qəmində genə oxşadi bulağlərə.

4 Gözlərin cilvələnəndə dutub Xəta mülkün,
Məni öldürməgə əl atdılar bicağlərə.

5 Edib cahani müsəxxər o müəttər zülfün,
Qəmində ənbəri-Sara düşüb ocağlərə.

6 Aç bəsirət gözün aləmdə şəkərxab etmə,
Gör necə nəğmə qoşub **Nafiz** alyavağlərə.

## ~ 332 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Ləblərin ətvari-sima yağdırır can üstünə,
Guya şəbnəmdir düşən gülbərgi-xəndan üstünə.

2 Həsrətindən çıxdı canım, gül dəhanın sədqəsi,
Alma bu mənzurəni məşhərdə hicran üstünə.

3 Qaşların tiri-kəmanın çəkdi həm bu ərsədə,
Bir kəmandar ol ki, vur peykani-peykan üstünə.

4 Ey vəfadən dəm vürub axirdə ilqarın pozan,
Gəlməsin bu babdə bir zərrə nöqsan üstünə.

5 Vadiyi-vüslətdə çeşmin canıma qəsd eyləsə,
Qoyma bu həngamədə təqsiri Loğman üstünə.

6 Çeşmi-fəttanın tökər bir baxmaq ilə qanimi,
Sanki Fəqfuri-nejad əzm etdi Xaqan üstünə.

7 Ey əduyani-vəfa, tök qanımi divanimə,
Xuni-Osmani necə tökdünsə Qu'ran üstünə.

8 **Nafiz** ol səhni-vətəndən çıxdi divan bağladi,
Gündə şətrənci-xəyali getdi Şirvan üstünə.

## ~ 333 ~

## Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün

1 Düşdü atəş genə hicran ilə tərib öyinə,
Sanki Daradi sipahin çəkib qərib öyinə.

2 Cavan olanda ki, Alim gələrdi xanəmizə,
Dutdi nirəngü qəza gəlmədi həbib öyinə.

3 Getmə biganələrin xanəsinə rəğbət ilə,
Gedərmidür şərəfin gözliyən rəqib öyinə?

4 Tükəndi səbrü qərarüm zəmanə cövrü ilə,
Bir atəş endi genə səbr ilə şəkib öyinə.

5 Sinəmdə yarəmi say görgilən inayət ilə,
Sağalda bilmədi, çox getmişəm təbib öyinə.

6 Çəməndə **Nafiz** oxur bülbüli-şeyda əvəzi,
Bir ahü nalə salıbdur kim əndəlib öyinə.

## ~ 334 ~

## Yəhyəvi Ərbədili qəzəlinə yazılmış nəzirə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 "*Zahida, bükmə məni ayə yazılmış kəfənə,*
*Neyləyər ayə günah ilə bələnmiş bədənə.*"

2 Ayeyi-hüsnünə baxdıqca gözlərim doldi,
Kur olur çeşmi-pürabım baxa vəchi-həsənə.

3 Ey xoşa eşq büsatında Züleyxa olmaq,
Bu vəcahətlə baxıb Yusifi-gülpirəhənə.

4 Ey gözüm, yar fərağində nə sud eyləmisən?
Nə sənə ayeyi-rəhmət yetərimiş, nə mənə.

5 Mürği-könlüm təzədən zülfünə bənd oldu genə,
Sanki bir bülbüli-şeydadi qonub yasəmənə.

6 **Nafiz**in eşq ilə əfsanə kimi düşdi genə,
Sözü ariflər arasında dəhəndən-dəhənə.

**~ 335 ~**

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Bahar oldivü açıldi, çəməndə pürsəfa lalə,
Səfa həngaməsində xülqü amali vəfa lalə.

2 Vəfali olmağın adabni tərk etməz aləmdə,
Sənə versin məhəbbətlə vəfa əcrin Xuda lalə.

3 Həmişə rəngi-ruyindən qızılgüllər həyalənsin,
Sənə bəxş eyləyib tanri vəfa, ismət, həya lalə.

4 Çəməndə bərqərar ol, baği-işrətdən kənar olma,
Səninçün daima əhli-dua qılsın, dua lalə.

5 Sənin eşqinlə düşdüm çöllərə tazə nişan tapdım,
Olubdur xatirim eşqində dərdə mübtəla lalə.

6 Xəyalati-qəmində, xabi-qəflət çeşmimi dutdi,
Oyatdi xabi-qəflətdən məni, badi-səba lalə.

7 Tükəndi taqətim, laləyavağlər cori-zülmündən,
Nə sirr imiş ki, hicranında gəlməz insafa lalə.

8 Əgər **Nafiz** səbahət rəsmin istər dilrübalərdən,
Səbahət mənzilində feyz ver, ey dilrüba lalə.

## ~ 336 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Lə’li-nabın əsər etdikdə dili suzanə,
Yandı qəmdən cigərim döndi necə büryanə.

2 Rahi-eşqində hekayətlərimi saydıqca,
Dərdimə qəmli rəqəmlər də gəlir əfğanə.

3 Cəhd edir gərçi ədu qəlbimi sındırmaq üçün
Dutuban cövrü cəfa birlə məni hədyanə.

4 Sən cəfa eyləmə kim, ey güli-rə’na, axır,
Deməsinlər ki, rəzil oldi belə cananə.

5 Gərçi məhzunəm əduyi-zəmanə cövründən,
Parçalandı yürəgim döndi qanım qətranə.

6 Ey əzizim, hələ sən eşq büsatında dolan,
Bəlkə taət edəsən onda nəməknən nanə.

7 Çox vəfasızlar ola, bil ki, vəfadan dönməz,
Eşq mülkündə durar **Nafiz** əfəndiyanə.

## ~ 337 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Dedilər mail olubdur çəməndə gül xarə,
Bülbülün qəlbini ol vəch qılıb səd parə.

2 İntizarın çəkəli qanə dönübdür könlüm,
Bir təbib ol, yetişib şəfqət qıl bimarə.

3 Öpmüşəm lə'lini xab içrə şəbi-çərşənbə,
Vaqifəm lə'li-Bədəxşanda olan əsrarə.

4 Ləblərin abi-Fərat olsa mən ki, ətşanəm,
Qalmışam təşnə Fərat içrə məni biçarə.

5 Nə Düşənbə, nə Səmərqənd, nə Buxarani gəzim,
Ol qədi sərv sorağilə gedim Fərxarə.

6 Bu töhfeyi-qəzəli şövq ilə yazıb **Nafiz**,
Dur rəvan et Düşənbə şəhrinə, Gülrüxsarə[1].

---

1 Gülrüxsor - Tacıkistanın xalq şairəsi

## ~ 338 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Vurğunam abi-həyati-dəhənün çeşməsinə,
Qaşlarun vəsməsinə, gözlərüvün sürməsinə.

2 Vadiyi-eşqdə  aşiqləri bir-bir gördüm,
Canfədalərdi fəqət dilbəri-nazəndəsinə,

3 Gəldi bustani-məlahətdə gülün əyyami,
Fürsəti verdi genə bülbüli-sazəndəsinə.

4 Çəkmə hicran ilə dağ sinəmə tabım yoxdur,
Rəsmdir tab eləməz ahu bəbir həmləsinə.

5 Eyləyibdir məni məcruh bir kəbutər tək,
Düşməmiş könlüm o şəhbazlərin çəngəsinə.

6 Mahrulər məni bu babdə nalan etdi,
Səsim axirdə gedib düşdi "Nəva" pərdəsinə.

7 Biriya, dün demisən kim düşəcəkdir **Nafiz**,
Səcc ilə bəhrdə xarratlərin rəndəsinə.

## ~ 339 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Mehrdən şövq ilə baxdım o gözi şəhlayə,
Aşiq oldum əcəba Mədrəsədə tərsayə.

2 Möhnəti-eşqini mən canə qəbul eyləmişəm,
Məkkə qurbani kimi ta çəkələr ərsayə.

3 Nə Züleyxa və nə Yusif buna həmta olmaz,
Gör mina gərdəninə zülfü salıbdır sayə.

4 Bilməzəm huri-mələkdi və ya pərizadə,
Tanrı xəlq eyləməyib bir beləsin dünyayə.

5 Yoxdu, **Nafiz**, buna tay, bu nə mələkmənzərdi,
Bunu Məryəmdi doğan, bənzəri var İsayə.

## ~ 340 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Açılmaz qəlbimin eyni, fəqət yüz nobahar ilə,
Qəzali çeşminə həsrətdi könlüm intizar ilə.

2 Ki, qəmdidə görüb bülbül, mənimçün nalələr çəkdi,
O dəm sarəng əfqanə gəlibdür səd həzar ilə.

3 Siyasət məclisində bir müxalif əndəlib olsa,
Rəyasət hey'əti bağlar ani bala həsar ilə.

4 Zəmani-bisərəncamın o qədri cövrüni çəkdim,
Qoşulsa karvan gəlsə, qəmim çəkməz qətar ilə.

5 Dedin ki, yüksələn enməz gedəndə, ey Rəsulzadə,
Gedib hürriyətim əldən, fəqət sən şəhriyar ilə.

## ~ 341 ~

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 Nəfsindən ötrü getmə, dərdi-sərü xəyalə,
Etmə təmə’ bunca dünyadə mülkü malə,

2 Göydə hilali görcək tut ruzəni əmin ol,
Aldanma, qafil olma, hər bənzəyən hilalə.

3 Dünya durunca vardır bil möhnətü məlamət,
Sevdayi-canfəzadə gər düşməsən məlalə.

4 Hər dəm nəzər qılarsan, bir surəti-həcərdür,
Arif gözilə baxsan, rüxsarü xəttü xalə.

5 Həddi-kəmali-yarə yetməz rəfi’ olanlar,
İrfani-mə’rifətdə gər yetməsən kəmalə.

6 Çəkmə cahanda bir dəm, cəhd eylə ruzi fikrin,
Ruzirəsəndi, **Nafiz**, həmd eylə Zülcəlalə.

## ~ 342 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Şikəni-zülfdə bağlandıq əcəb gisudə,
Təmtəraq ilə şəkərxab edib ol məhrudə.

2 Bu gözəl bəzmi görün türfə əlamətləri var,
Dinlə məntiqi Əyazın yetişir Məhmudə.

3 Mirzə Güllər ilə həm Mehdi, Fələkzadə gəlib,
Nəql edir "Şur" hekayətlərini Mə'budə.

4 Bu qəzəllə sənə heykəl yonuram xocəstə,
Böylə sərdabə ucaldi cahanda Davudə.

5 Mürği-"Sarəng"i təmaşasına dəvət edəlim,
"Mö'ləvi" rayihələr vardı güli-şəbbudə.

6 Kaş oleydi bu gözəl bəzmimizdə Mirzə Səlim,
Vura mizrabi-sitəmlər tara, həm də rudə.

7 Gəl Həsənçəp kimi bu bəzmə "Əbülçəp gəlsin,
Gör nəbat həncərəni Qəndi kəmanəbrudə.

8 Gərçi Farabiyi-sani deyilən Haci Nəcəf,
Gəlməsə Mahmud ağa gün keçirər bihudə.

9 Sən'ətə sərf elədiy ömri-girənmayəmizi,
O da "Nəva"yə düşüb qaldı qəmi-qəyğudə.

10 **Nafiz**a, axtara xəlq onda bilələr qədrin,
Səni gər fil qulağında görələr uyğudə.

## ~ 343 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Peymanəni yıxdım genə meyxanələr içrə,
Qan oldi könül bir dəxi peymanələr içrə.

2 Yaxdım oda canü dili-əndami zəifi,
Bir dəbdəbə buldum dəxi pərvanələr içrə.

3 Çox rindi-xərabatlərin dərdini çəkdim,
Bir ad elədim mən qoca rindanələr içrə.

4 Gər ləhni-nəğamat ilə bəzm içrə buyursam,
Təsnifi-münacatımı fərzanələr içrə.

5 Hər dəm aradım dəhrdə mən qədrşünasi,
Ol kimdi qalan qeydimə divanələr içrə.

6 Bihudə dolanma, dəm al İsa nəfəsindən,
Bir gün gələcəkdir dəmi qəmxanələr içrə.

7 Bu təlx həqiqətləri qoy bircə kənarə,
Çək başə bu peymaneyi-qəndi zəhər içrə.

8 İqlimi-məhəbbət səni pəjmürdə qılıbdır,
Saxla bunu, **Nafiz**, demə biganələr içrə.

## ~ 344 ~

## Nardaranli Asimə cavab[1]

### Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün

1 Yetişib nameyi-nəzmin bu səhər Şirvanə,
Görüm Allah sala mərdin işin samanə.

2 **Nafiz**a, eylə dua şur ilə ol Asimə kim,
Kümeyti-təb'imi çün ol gətirib cövlanə.

3 Şəhri-Şirvanda yəqinimdi yox bu gün şair,
Mən də şair deyiləm, əl basaram Qur'anə.

4 Məni Şirvanda xəlayiq tanıyır xanəndə,
Səni bir feyz qılam "Düşsə yolun Şirvanə"[2].

5 Təsnifatımda mənim var ikən məlahətlər,
Girərəm bə'zi qina əhli ilən meydanə.

6 Nəğmeyi-mö'cüzələr sineyi-suzanda yatır,
Sanki zənburi-həzin şəhd yığıbdır şanə.

7 Təb'dən saldi məni indiki "Yə'cuc-Mə'cuc"
Ərz edim dərdimi Zülqərneyinə, Loğmanə?

8 Bu şəbabətdə təmam oldi cümlə əhvalim,
Nəyə lazımdi qılam şərhini tul əfsanə.

9 Nardaranda tanıyırdım bir Ələmdar Mahir,
Bu viladə necə Asimdi, türki-türkanə?!

---

1 Asim Nardaranlının şeiri əlavələrə daxil edilmişdir.
2 Vaqif Yusiflinin eyni adlı kitabına işarədir.

10 Barəkəllah sənin əş’arüvə min-min əhsən,
Bir quti lə’li-zəbərcəddi düri-dürdanə.

11 Bu nameyi-qəzəlün zövqü şövqim artırdi,
Etdi məftun məni bir dəxi bu dövranə.

12 Güli-şəbbulər açıldi belə nasaz olma,
Dur kəsalətdən uzaqlaş, ver özün Qəzyanə.

13 **Nafiz**a, naməni yaz Nardaranə dur göndər,
Mərhəba Asimə saldi səni bu tüğyanə.

**20 noyabr 1995-ci il.**

## ~ 345 ~

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Görəydim bir səni Haci[1], o tari-mizrab ilə,
Fərağı-cami-ətşanəm, əyadət et şərab ilə.

2 Şərabi-nabsiz, sənsiz, alışdi sinəmiz, ey gül,
Qəmindən qovrulub yandım, həbib oldum kəbab ilə.

3 Çoşur qəlbim təlatümlə, özüm natiq süxənvər tək,
Mənimlə rubəru dursan, deyərdim səd hicab ilə.

4 Usanmaq bilmədən sənsizdir eylər gözlərim girye,
Yuyundum çeşmi-əşkimlə və qərq oldum hübab ilə.

5 Ki, sordum taleim rəsmin, bilən bir baş münəccimdən,
Dedi: bəxt ulduzun sönmüş münəccimlər kitabiylə.

6 Səba bu nameyi-nəzmi yetir sən şəhri-Şirvanə,
Keçirmə ömrü yollarda vəli qəflətlə, xab ilə.

7 Çəməndə güllər açmış, hardasan. dustaq olan **Nafiz**,
Ki, şeyda bülbülasa gəl gülüstanə-şitab ilə.

---

1 Tarizən Hacı Məmmədov

## ~ 346 ~

## Məlikli Molla Əli Şirvaninin qəzəlinə nəzirə

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 "*Taracə verdim ömrümi bir şuxi-şəng ilə,*
*Yəğmayə getdi nəqdi-həyatım bu rəng ilə.*

2 *Ol mahi-ruyə xali-siyəh ögrədir sitəm,*
*Filfili ondan ötrü döyəllər həvəng ilə.*"

3 Təxmir olubdu tinətim eşq atəşində həm,
Ahəngi vücudimdə, "Nəva"lərdi həng ilə.

4 Sənduqi-sinəmizdə ki, qəm bir dəfinədir,
Zinət veribdi ömrümə dərdi-qəşəng ilə.

5 Rövzənlər açdi sinəmə qəmzən çəkib sipah,
Qəlbimdən axan dəmləri doldur səhəng ilə.

6 Qəmzən oxun ha yağdırasan xəstə göylümə,
Bu cismi-zarın alveri dutmuş xədəng ilə.

7 Dil mürğin ovladın, nə xəyalində var buyur,
Çax çaxmaği, tök qanimi qaltağ tüfəng ilə.

8 Zülfi-siyahüvi dağıdıb gül cəmalüvə,
Dil ayinəsin zülmətə saldın, bu jəng ilə.

9 Mənsurluğun qayəti oldur ki, dəhrdə,
Qəm kişvərində bağlana gərdən çələng ilə.

10 **Nafiz** təhəmmül eylədi cövrü cəfalərə,
Qəmxanələrdə oldi ömür yari, təng ilə.

## ~ 347 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Hər güldə var lətafət, reyhan olmayan yerdə,
Reyhani ək becər sən, xəzan olmayan yerdə.

2 Bimarına məgər kim heç yoxmudur əlacin,
Vur qəlbimə xədəngin, dərman olmayan yerdə?

3 Dolsa qəm ilə qəlbim, hicrində gər sərasər,
Cismimdə var cərahət hicran olmayan yerdə.

4 Şəm'in nədən mənim tək cismində bir səda var,
Pərvanə yanə-yanə büryan olmayan yerdə.

5 Eşqində etdi Nofəl Məcnunə çox məzəmmət,
Leyli hələ ağızda dastan olmayan yerdə.

6 Şəm'i-sitəmsəradə pərvaneyi-zəbunəm,
Bir dəm təmaşa olmam suzan olmayan yerdə.

7 Hər şəhrdən gözəldür Bağdad ilən Səmərqənd,
**Nafiz** qərar dutarmi Şirvan olmayan yerdə.

**16 sentyabr 1994 şəhri-Bağdad**

## ~ 348 ~

## Seyyidin qəzəlinə nəzirə

**Müzare-2: MəfʼUlü / fAʼilAtün / məfʼUlü / fAʼilAtün**

1 “*Dutdi qərar ta ki, könül zülfü yardə,*
*Səbrü qərar qalmadi mən biqərardə*”.

2 Səbrü qərarim aldi əlimdən zəmani-kəc,
Ömrüm tükəndi səbrdə, həm intizardə.

3 Ömrüm tükəndiyin nə bilərdim fəqət səbəb,
Gülzari-gəştə taqətim olmaz bəhardə.

4 Gülzari-gəştə çıx tələb et nəstərənləri,
Güş et, qəribə həncərələr var həzardə.

5 Guş eylədim ol pərdədə “Sarəng” məqamıni,
Gəldi qərar eylədi “Dəşti”, “Qətar”də.

6 Gəldi qərarə dil baxım ol lalə ruyinə,
Şövq ilə gülüzari görüm laləzardə.

7 Şövq ilə təsnifatını arif duyub dedi:
Qəmli tərانə var qocaman nəğməkardə.

8 Qəmli təranələr neçə qəlbi kəbab edib,
Ol vəchdəndi **Nafiz** özi intehardə.

9 Ol vəchdən ki, dil qaşına mübtəla olub,
Həm gördügün görübdi iki Zülfüqardə.

10 Həm gördügün görübdi yetib yaşi əlliyə,
Ömrün keçirdi çərğ ilə tuyğunşikardə.

## ~ 349 ~

## Əhməd Cəfərzadə qəzəlinə nəzirə

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 "*Olmadi əyyamdə bir kami-dil qismət bizə,*
*Yoxdurur Məcnunsifət qəm çəkmədə nisbət bizə.*"

2 Bəxt-nasazım məni saldi bəla girdabına,
Doldur, ey saqi, qədəh, bəlkə gələ taqət bizə.

3 Çıxdı gülşən seyrinə ol dilbəri-fərxəndəhal,
Qalmadı bir dəm  təmaşa qılmağa fürsət bizə.

4 Ədl camin mən əlimlə vermişəm ədnalərə,
Neyləyim bəslər ədulər, büxl ilə nifrət bizə.

5 Az qalıb etsin xəyanətlər babam İbrahimə,
Bu sifat ilə həramdır qılsalar sünnət bizə.

6 Mən cahan içrə binadən bir xeyirxah olmuşam,
Daima vurmuş zərər, əğyari-kəmfürsət bizə.

7 **Nafiz**a, şeytan calağ olmuşdur öylə millətə,
Az qalıb etsin siraət, bu xəbis adət bizə.

## ~ 350 ~

**Həzəc-6: MəfA’ilün / məfA’ilün / məfA’ilün / məfA’ilün**

1 Gərçi fərağə dözməyib üzüldüm intizardə,
Vardı cəhənnəm atəşi bu şərm edən diyardə.

2 Neyim “Nəva”lər eylədi, “Suzi-güdaz”ə çəkdi qəm,
Çalıb yoruldu “Dilkəş”i rübabü çəngü tardə.

3 Xəzanə vardi ömrümün təb’i-rəvani-qiyməti,
Tökübdi bərgü barıni təbim keçən bəhardə.

4 Bu qəmdən istərəm könül, çəkəm “Həsar” “Müxalif”ə
Ya qəmi rəf’ edib keçəm duram “Ərazbari”də.

5 Çəkibdi mülki-könlümə “Qətar”ilən sipahlər,
“Hümayun” eylə bəxtimi bu cəbr edən “Qətar”də.

6 Müğənnilər kimi dolan bu “Pəncigah”ə “Rast” elə,
“Qəməngiz” eyləsən fəqət, qalarsan ahu zardə.

7 “Hicaz” pərdəsin tutub, təğənni eylə növhələr,
Alıb “Səmayi-şəms”i qəm, zühəldi əşkbardə.

8 Təhəmmul eylə, **Nafiz**a, təbin dolubsa lə’ldən,
Gətirmə Misrə Yusifi, müştəri yox bazardə.

## ~ 351 ~

**Rəməl-5: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

1 Nolu yarəb ki, düşə bir cürə “şonqar” əlimə,
Elə billəm ki, düşüb bir düri-şəhvar əlimə.

2 Tizrəftari-pərü bal ilə gəl cövlanə,
Verdi bir kəbkxüram böylə çəmənzar əlimə.

3 Nə “ütəlgi” və nə “tuyğun”, nə də “şəhbaz” olsun,
Düşə “burqut” ilə “bəhri” ya da “laqqar”əlimə.

4 Bu seydgahdə mən neylərəm “cıqaltayi”,
Gələ “ley” “sar” ilə “müşkül”di həvəskar əlimə.

5 Bəslədim gərçi zəmanimdə neçə “tərlan”i
Almaram mən belə “muymul”i, nə də “sar” əlimə.

6 “Baz” ilə sərf elədik ömrü girəmmayəmizi,
İndi pirani çağımda, düşə “şonqar” əlimə,

7 Gör “çalağan”ilərə bağladi bu dastani,
Düşə gör neyləyərəm **Nafiz**i-biar əlimə.

## ~ 352 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Eylər təmaşa kimsə ki, bu hüsn bağinə,
Göz yaşini gərək ki, axıtsın ayağinə.

2 Dilbər dodağini meyi-gülgunə bənzədən,
İkram ilə sallandi gözəllər bulağinə.

3 Gəldim ziyarətə, rüxi-canani görməgə,
Bağlandi qapu pəncərə yarın otağinə.

4 Şami-qəmində naləvü fəryadilən gəlib,
Tökdüm gözümün yağını anun çirağinə.

5 Bir busə istədim yanağından zəkat üçün,
Dillənmədi, yavaşca əl atdi biçağinə.

6 **Nafiz** kəməndi-silsileyi-zülfə bağlanıb,
Döndi pələngə, düşdi o zülfün duzağinə.

## ~ 353 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Sərvi-azadə südur etdi çəməndən-çəmənə,
Qondi bülbül genə gülşəndə səməndən-səmənə.

2 Mənəm ol silsileyi-zülfə giriftar olali,
Dolaşıb şanəsifət zülfə, şikəndən-şikənə.

3 Bildi dil dəhrdə Məcnunluğun ovqatin,
Bağlanandan belə divanə, rəsəndən-rəsənə.

4 Məni-hicranzədə söz mülkünə bərdar olali,
Barbərdar oluram təlx süxəndən-süxənə.

5 Deyirdim əqdəsi-eşqində səndən incimərəm,
Düşdi azurdəligim imdi dəhəndən-dəhənə.

6 Cəfayi-hicrdə **Nafiz** ölübsə kar eləməz,
Onu on dörd kərə büksən də kəfəndən-kəfənə.

## ~ 354 ~

## Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün

1 Meyxanələrdə məstəm,sail azan piyadə,
Bir rahə rəhnümun ol, rast olmayın fəsadə.

2 Ruyin görəntək, ey gül, lal oldu kim lisanim.
Eyb etmə bizəbanəm, gər tapmasam ifadə.

3 Halim pərişan oldi, gərçi sənin qəmindən,
Ol vəchdən sən etdin, bir xəndeyi-ziyadə.

4 Ahim yetə əflakə, əşkim rəvanə xanə,
Bəxti-siyahi buldum, dünyavü-bivəfadə.

5 Məcnuni qeyrə nisbət dutsam özüm cünunəm,
Məcnun fərağə daldi, Leyli sitəmsəradə.

6 Leyli nəvalərindən, Məcnunə tənə qıldım,
Məcnun hekayətindən, boynumda var qəladə.

7 **Nafiz**, mənəm səadət eşqində bir şəkiba,
Gəlməz dəxi səadət, getdi səbr ilə badə.

**~ 355 ~**

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Səfayi-bəzimdə kim verdi ol nigarə qədəh,
Düşər məlalə toxunsa ləbi-dildarə qədəh.

2 Kim ki, məstanə olu meydən e'tiraz etməz,
Rəvamıdır verəsən bəzmdə hüşyarə qədəh.

3 Şərabi-nabi verün yari-mehriban olana,
İnanma zövq verə xatiri-əğyarə qədəh.

4 Cəfadur aşiqə əğyar ilə qədəh çəkmək,
Məzərrət ilə olur əldə parə-parə qədəh.

5 Qədəh çəkən mən idim bir zaman bu gün mən bax,
Salıbdi ömri-girənmayəmi azarə qədəh.

6 Zöhdü təqvani necə tərk qılıbdur **Nafiz**,
Çəkdi səccadəsini satmağa bazarə qədəh.

## ~ 356 ~

### Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün

1 Dərdini dəf etməgə al dəstinə gülgun qədəh,
Artacaq dərdin əgərçi almasan hər gün qədəh.

2 Qan olub könlun gedər, qoyma əlindən sağəri,
Yoxsa bu könlün kimi daim olur pürxun qədəh.

3 Lalə-lalə dağlər könlümdə kim baş qaldırıb
Kim, ana təşbih edib qaldırgilən meygun qədəh.

4 Varə-varə dərdim artır yar cövründən müdam,
Dərdimi söylər yəqin, bir söhbəti-əfzun qədəh.

5 Şami-vəslündə, gülüm, dutdum qənaət Qafıni,
Xişm ilən Ənqayi-vəslun vurmasun şəbxun qədəh.

6 **Nafiz**a, ikrah qıldım, bədəni tərk eylədim,
Çünki fəhm etdim mənimlə qaldırır hər dun qədəh.

## ~ 357 ~

## Möhtərəm  şair Rüstəm Tofiqə

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Düşdüm xəyali-bəhrdə hər dəm sorağinə,
Gəldim cahanə mən, bəni-adəm sorağinə.

2 Gənci-xəyali-qəmdə yatar, əjdəha kimi,
Zülfi-siyahi, haləti-pürxəm sorağinə.

3 Cəmşidi-zövqü şövq ilə sevdayə düşmüşəm,
Bir kaseyi-Kabus ilə, bir Cəm sorağinə.

4 Ey təb'i-səlimiylə səxavətli qardaşım,
Gəldik şəbi-xürsəndinə, Hatəm sorağinə.

5 **Nafiz** bu bəzmə qoydu qədəm ehtiram ilə,
Xanəndələrlə, Tofiqi-Rüstəm sorağinə.

9 May 2017

## 28 - HƏRFU’L - “YE” “ي”

### ~ 358 ~

### Baqi əfəndinin qəzəlinə nəzirə

### Həcəz-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün

1 “*Xoş gəldi mənə meykədənin abu həvasi*”,
Düşdü əlimə piri-muğanın ki, yaxasi.

2 Məşğuli-meyi-nabə həlalasa yanaşdım,
Cürm oldi nəmazın səhərə qaldı qəzasi.

3 Bağrımi yarıb şəfqət ilə mehrini doldur,
Əyri qaşuvun var isə bir mehrü vəfasi.

4 Lə’lün bu kiçik şe’rimin övsarına sığmaz,
Ləl’ü-ləbüvün Ləl’i-Bədəxşandi bəhasi.

5 Bəzm içrə müğənni oxudi “Şur”i “Nəva”ni,
Heyhat qəmin qəlbimə kökləndi “Nəva”si.

6 Şe’rin dilini ögrədibən tifl çağında,
Ad qoydular bu **Nafiz**ə Şirvan şüərasi.

## ~ 359 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Dərdim dedim ol yari cəfakarə dinmədi,
Bildim dəruni meyli var əğyarə, dinmədi.

2 Nə söylədimsə dinmədi, yandırdı qəlbimi,
Bir riqqət ilə gəlmədi göftarə, dinmədi.

3 Sövdayi-əlamətdə canım hicr ilə yandi,
Gəldi təbəssüm eylədi bimarə, dinmədi.

4 Keçdi kənardən, məni dindirmədi ol gül,
Vurdi dübarə sinəmə min yarə dinmədi.

5 Yağdırdı fələklər başıma səngi-cəfani,
Bu inziacə **Nafiz**i-biçarə dinmədi.

## ~ 360 ~

**Müzare-2: Məf’Ulü / fA’ilAtün / məf’Ulü / fA’ilAtün**

1 Asan olurmi insan tərk edə şəhri, yari,
Zülmün görərsə bir qul, rədd edə şəhriyari.

2 Ol padişahi-hüsnün, didarın istəyir dil,
Bir gün nolur bu yanə düşsəydi rəhgüzari.

3 Varın verən utanmaz, aləmdə bir məsəldir,
Şərməndə neyləsin kim, yoxdur əlində vari.

4 Məhzun olan bu qəlbim, busi-kənarın istər,
Yarəb olurmi nagəh, bu qəmlərin kənari.

5 Zulmat içində keçdi, əfsaneyi-həyatım,
Ozayi-çərxin, ey gül, yoxdur məgər fənari?

6 Sorsan ki, hali-**Nafiz**, ey düsti-kəminayət,
Qəmxanələrdə məhkum, artıb genə azari.

## ~ 361 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Bilsən məşami-canə nəsimi-səhər nədi,
Gülqənd nə məzaqidə, gülbərgi-tər nədi.

2 Könlümni qəza seyd qılıb məhzun eylədi,
Bildim qəza nə, iştə qəzavü qədər nədi.

3 Gərdəndə zülfün əfi, gözün şiri-nər kimi,
Gördüm ki, əjdəha nədi, həm şiri-nər nədi.

4 Dürci-dəhani-yari görəndə əmin olub,
Fəhm eylədim xəzinədə dürri-gühər nədi.

5 Əndişə etmə, **Nafiz** əya, zali-çərxdən,
Göstərgilən şücaəti bilsin hünər nədi.

## ~ 362 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Ol ahu gözli neçün görmədi nigahimizi,
Çıxardı aləmi-əflakə dudi-ahimizi.

2 Fərq edə bilmədi mahiyyətimi zahidi-dun,
Dəgişmək istədi əmmaməyə külahimizi.

3 Zəmanə vəsvəsindən sığındım Allahə,
Bu məşqi-eşqdə mən tapmışam pənahimizi.

4 Büsati-eyşimi mən nobaharə saxlamışam,
Xəzanə ram edə bilməm güli-giyahimizi.

5 Çaharguşədə əbrari-çaharyar otura,
Sala həngam ilə bir həngə pəncgahimizi.

6 Rübi-məskuni dolandım həzər etdim, **Nafiz**,
Aradım tapmadım aləmdə xeyirxahimizi.

## ~ 363 ~

## Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün

1 Üsuli-dəbdəbənin olseydi məmnuni,
Nəyə lazımdi gedib Qeys duta hamuni.

2 Könül mizacini hifz eylə bəd əməllərdən,
Saxla adəmliyə gültək dəruni-biruni.

3 Çirki çıxmaz ətəgindən o pədərməchulun,
Alıban dəstinə hey övkələsə sabuni.

4 Bir xəyal eyləyən olmaz məni-azurdədili,
Dutdi əndişəliyim bunda rüb'i-məskuni.

5 **Nafiz**a, istərəm aləm hami məsrur olsun,
Məta'i-şerimizin iştə budur məzmuni.

## ~ 364 ~

### Kamil Sərbəndinin qəzəlinə nəzirə

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Gülqəndi-ləbin düşdi dilə fikri-xəyali,
Hicranın unutdurdu mənə dərdü məlali.

2 Gül-gül deyənin fikri pərakəndə dolanda,
Bu qissəni yazdırdı mənə bir güli-ali

3 İnnabi-ləbin könlümi mey şövqünə saldi,
Təlif qılıb hüsnüvə bu fikri-məali.

4 Beş on söz ilə şəxs süxənpərdaz olurmi,
Tuti kimi təkrar edəsən tərzi-məqali.

5 Dünyani dolandıqca bəla bəhrinə düşdüm,
Aşiq ola aləmdə gərək başı bəlali.

6 "Təb'i mənə vermişsə əgər sidq ilə Xaliq,
Bəndə nəçidür alsın əlimdən bu cəlali."

7 **Nafiz**, niyə Xaqanı vətəndən gedər oldu,
Qürbət yükünü çəkdi Nişat ilə Zülali.

## ~ 365 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Arizin şə'şəeyi-cilvada pürtab kimi,
Dişlərin safi dəhanində düri-nab kimi.

2 Lə'li-nabın fərəhindəndi, ey güli-rə'na,
Məzaği-canimə gəldi necə qəndab kimi.

3 Gözlərin fikrini çəkməklə əcəb xab etdim,
Gözümə girdi görün uyğu şəkərxab kimi.

4 Bağі-hüsnün bu əlamətlə təravətləndi,
Göz yaşımla elədim onları sirab kimi.

5 Çeşmi-məstin bu qədər fikrini çəkməkdəndi,
İntizarındı çəkir bağrımı qüllab kimi.

6 Vaizi-qəmzədə daim yüzünə baxmaqdan
Müshəfi-hüsnün oxur nəş'əli tullab kimi.

7 Mən vəfa qılmağa amadə, o bimehrü vəfa,
Başımi kəsdi mənim hikkəli qəssab kimi.

8 Rahi-eşqündə olan qəmli **Nafiz**i-şeyda,
Çırpınır eşq ilə tənburidə mizrab kimi.

## ~ 366 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Fərağİ-eşqdə könlüm nə qədər qəm çəkdi,
Qəm büsatın yığıban dərdi bir aləm çəkdi.

2 Hər nəfəsdə yığılır sinəmə ənduhi-qəmin,
Gör ki, bu aşiqi-dülsüxtə necə dəm çəkdi.

3 Çəkə bilməz qəmi-dünyani neçə qafilələr,
Genə bu dərdi-həzari bu qədi xəm çəkdi.

4 Qəm büsatında əcəb təxtgah edib qəlbin,
Bu mühəyyani nə Daravü nə də Cəm çəkdi.

5 Girdi bütxanəyə nəqqaş, ey qədi rə’na,
Qaşın kəmaninə nazəndə bir qələm çəkdi.

6 **Nafiz**a, fəxr edəlim, sən’əti nəğamat ilə,
Nəğmələr mülkünə bu Mirələm[1] ələm çəkdi.

---

1 Mirələm Mirələmov, gənc müğam ifaçısı

## ~ 367 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Fərağı-eşq ilə bir cansitan olan kim idi!?
Bu ərsəgahdə ol nöcavan olan kim idi!?

2 Həvalənib verən ömrün nigari-cansuzə,
Həvayi-vəsl ilə ol badban olan kim idi!?

3 Dasitani-qəmi-əyyami-dəhrdən keçdi,
Ərадə dillərə bu dasitan olan kim idi!?

4 Ey ləbi şövqünə bihudə yığan məxluqi,
Ləbün piyaləsinə bağrı qan olan kim idi!?

5 Bəhari-hüsnünə seyğəl çəkəndə məşşatə,
Görən zəmanda bəhari xəzan olan kim idi!?

6 Çəməndə bülbül edər qönçə ləblərin vəsfin,
Mətai-ləblərinə xürdədan olan kim idi!?

7 Fərağü möhnətinə **Nafiz** indi Zal oldi,
Büsati-qəmdə görün pəhləvan olan kim idi!?

## ~ 368 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Soldurdun özün yoxsa ki, solmazdi bu sevgi,
Viranə qalıb, böylə dağılmazdi bu sevgi.

2 Kimlər səni aldatdi ki, ilqarını pozdun,
Min həmleyi-dövranla pozulmazdi bu sevgi.

3 Olseydi əgər səndə vəfa, məndə dəyanət,
Gül qönçəsi tək böylə saralmazdi bu sevgi.

4 Çərxin qələmi yazdısa bu eşqimi nakam,
Ey qanlı qələm, böylə yazılmazdi bu sevgi.

5 Etdin günümi qarə, qarə günlərə qaldım,
Sən zülm elədin, bu günə qalmazdi bu sevgi.

6 **Nafiz**, onu avarə salan sən özün oldun,
Avarəçilik rəsmini qılmazdi bu sevgi.

## ~ 369 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Ögrənib dil şəm’i-rüxsaridə pərvanəligi,
Böylə zənciri-cünun olmaği, divanəligi.

2 Bir əyağ ilə əlim dutsa idi piri-muğan,
Mən də təhrirə salardim dəxi rindanəligi.

3 Gənci-hüsnün əbədi könlümə dolseydi əgər,
Dutardım axıradək mən də o viranəligi.

4 Saçın xəyali məni qələmun edib getdi,
Bağladım qəliyəmutək o zülfə şanəligi.

5 Gərçi namərd olanın şüğli fənadur, **Nafiz**,
Sən də məğrurə gətir himməti-mərdanəligi.

## ~ 370 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Məskən bizə axir genə meyxanələr oldi,
Həmdəm dəxi zəncirdə divanələr oldi.

2 Lə'l axtarıb aləmdə ləbin sirrinə vardım,
Gör lə'li-ləbindən kimə peymanələr oldi.

3 Bülbül gülə nəğmə oxudi bağ arasında,
Odlarə yananlar dəli pərvanələr oldi.

4 Bülbüllərimiz getdi xəzan  olcağın, ey gül,
Soldi bu çəmənzarimiz əfsanələr oldi.

5 Gər qönçeyi-ümmidim açılsa çəmən içrə,
Ətrin çəkən axir genə biganələr oldi.

6 **Nafiz**, qəmi-hicranə dözüb səbr edənin bil,
Axirdə qazanci belə dürdanələr oldi.

## ~ 371 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 İndi nə edək yar gəlib qalmadi, getdi,
Bizlər sari bir lütfü nəzər salmadi, getdi.

2 Daşdandi zəmanın ürəgi tale'ə minnət,
Tale'də bizə dəhrdə yar olmadi, getdi.

3 Qəmxanədə bir eşq bina eylədik əzzəl,
Rüzgar vurub yıxdı, bina olmadi, getdi.

4 Fərhad yarıb dağlari Şirinə güvəndi,
Şirin dəxi Fərhadə vəfa qılmadi, getdi.

5 Vurğun da bu dünyayə gəlib gəzdi dolandi,
Hərçənd ömürdən o da kam almadi, getdi.

6 **Nafiz** də alıb camini meyxanəyə gəldi,
Boş qaldi əlində qədəhi dolmadi, getdi.

## ~ 372 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Qurban gözüvə, köynəyi əlvan yaraşığli,
Nazəndə yavağunda gəzən qan yaraşığli.

2 Lə'lün ki, bu şəng ilə sınıq könlümə dolsa,
Dünyani bəzər lə'li-Bədəxşan yaraşığli.

3 Bir odlu baxışla məni seyr eylə uzaqdan,
Atəşkədə bu qəlbdə niran yaraşığli.

4 Ahu nigəhin söyləmərəm fitnə törətdi,
Alsan canımi, ey gözü fəttan, yaraşığli.

5 Bir müddət əgər ayrı dolansaq nə qəm ondan
Zinət verir eşq əhlinə hicran yaraşığli

6 Kim dinləyəcəkdir belə ahəngü "Nəva"ni,
Gər olmasa **Nafiz**dəki əlhan yaraşığli.

## ~ 373 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Eylədin qəlbimi eşqinlə parə-parə, yeri,
Ölüncə bəllidi sinəmdə böylə yarə yeri.

2 Kiprigin sinəmə ol qədri yarələr vurdi,
Qalmadi təndə nə mərhəm, nə türkəçarə yeri.

3 Həmişə vird eliyən şəkkərə, ey tuti zəban,
Nəbatü qənd sorağ ilə Qəndəharə yeri.

4 Təməlindən necə səqfi pozuldi dünyanın,
Doyunca nifrət ola böylə ruzigarə, yeri.

5 Küfr əliylə necə viranə qaldi Bağdadım,
Dur indi hac evinə sinəsi sədparə yeri.

6 Gör ki, **Nafiz** dutub əldə ələmin islamın,
Tazədən vurmağa zərbə bu ələmdarə yeri.

## ~ 374 ~

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Eşq xülyasında Qeysin zülfü Leyladur yeri,
Gərçi Məcnun olduğunda seyri-səhradur yeri.

2 Mənzilim meyxanə oldi həsrəti-lə'lin ilə,
Söylədi əhbablər kim, gör nə ə'ladur yeri.

3 Mən səlamət mənzilində düşmüşəm qovğalərə,
Bu cəhanın kim, əzəldən şuri-qovğadur yeri.

4 Naləm əflakə ucaldi xəlqi-aləm bilmədi,
Dərd əlindən naləmin övci-Sürəyyadur yeri.

5 Gəl bu dünyadən xilas ol, ey könül, qəm çəkmə çox,
Aşiqin irşadi-mə'nadə o dünyadır yeri.

6 Mə'rifət sərmayəsindən pay alıb ehraz ilə,
Anladım kim, **Nafiz**in hübbi-müsəlladur yeri.

## ~ 375 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Kuyin səfadur aşiqə baği-irəm kimi,
Görsəndi sinən ayinəsi sübhidəm kimi.

2 Bir busə lütf qılmaği etmə müzayiqə,
Düşsün soraği dillərə sahibkərəm kimi.

3 Bu surət ilə mənzili bütxanələrmidür,
Gəldi xəyalə bir büti-ziba sənəm kimi.

4 Ey saqi, dur əyağə, busati-xuramə gəl,
Bir cam gətir bəzmimizə, cami-Cəm kimi.

5 Döndərdi saqi qəlbimizi qəm yatağinə,
Həsrət nişani sinədə qaldi ələm kimi.

6 Zülfün qəmi nə halə salıbdursa **Nafiz**i,
Şami-qəmində gözləri hər dəmdə nəm kimi.

## ~ 376 ~

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Əyağinə tökülsə qətrə-qətrə çeşmimin yaşi,
Xəyal et dürri-qəltanə dönər əngüştərin qaşi.

2 Dəhanin sirrinə vaqif deyildür qan olan könlüm,
Onun kim Xızrdan qeyri məgər olmazmi sirdaşi.

3 Yüzün gülzarini çəkmiş necə gör Maniyi-qüdrət,
Pərilər heyrətə gəlmiş ki, görsünlər o nəqqaşi.

4 Nə mümkündür ləbi-lə'lin olan yerdə içəm badə,
Bu əmr ilə alam piri-muğandan sağəri kaşi.

5 Ayağım çəkmərəm, eşqində qiymə-qiymə doğransam,
Xəyal eylə fələkdən başimə yağdırsalar daşi.

6 Dedim qəflətsəradə qalmışam bir dadimə yet sən,
Bu qəflətdən oyan, dur get dedi, ey **Nafiz**i-naşi.

## ~ 377 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Görməsəydim başım üstündə o cəlladləri,
Eləməzdim bu qədər naləvü fəryadləri.

2 Fələkin məmləkəti-eşqdə fənni bu imiş,
Şad ikən saldı əcəb qəmlərə dilşadləri.

3 Göstərib ərseyi-eşq içrə sinəmin dağın,
Eşq sevdasinə saldım neçə Fərhadləri.

4 Suri-İsrafili guş eylə, düşmə təşvişə,
Cəm edib bəlkə verə bizlərə irşadləri.

5 Duracaq qəbrdən ol dəmdə həzrəti-Adəm,
Basacaq bağrına bu naxələf övladləri.

6 **Nafiz**a, daməni-mövlayə yapış, eyləmə qəm,
Kimsələrdən diləmə dəhrdə imdadləri.

## ~ 378 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Dün məni gülşəndə ikən gördi cananın gözi,
Sanki İbrahim Xəlili gördi Saranın gözi.

2 Gül-gül oldi arizumuz gülşənə seyğəl çəkib,
İstirab ilə fəqət kur oldi hicranın gözi.

3 Əxtəri-bəxtim oyandi gəşt qıldu bürc-bürc,
Bu səyahət rahini seyr etdi cövzanın gözi.

4 Yar vəsfində təğəzzül eylədim bir fərdi mən,
Görməmişdi böylə fərdi ibn Sinanın gözi.

5 Yusifi görmək çox asan olmadi məhrulərə,
Yumdi tökdi dürri-qəltani Züleyxanın gözi.

6 Lə'li-şəhvarın məta'i şerimizdür, **Nafiz**a,
Aləmi-mənadə neyçün kordi dünyanın gözi.

## ~ 379 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Dün gecə fikri-xəyalimdə hal olub getdi,
Surətin gözlərimə bir xəyal olub getdi.

2 "Münəccim etdi nəzər bəxtimin sitarəsinə,"[1]
Yandı qəmdən cigəri, pürməlal olub getdi.

3 İstədi bağdə əfğanə başlasın bülbül,
Görüb nəvalərimi nitqi lal olub getdi.

4 Neçün zəmanə bu çərxin mühərrikin pozdi,
İçimdə fəlsəfəli bir sual olub getdi.

5 Xütən ahulərinə yüz qəzəl yazan könlüm,
Qəzaya uğradi indi qəzal olub getdi.

6 Ruintən ilə Rüstəmi-dastanə bənzədi,
Cəng edib eşq ilə **Nafiz** də Zal olub getdi.

---

1 Misra Seyyidindir.

**~ 380 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Şəm'iivüsali bəzmdə pərvanə neylədi,
Zəncirə dözməyəndə o divanə neylədi.

2 Netdi fərağï-yardə hər xudnüma olan,
Əfzun olunca qəmləri fərzanə neylədi.

3 Şövqi-visali-dəhrdə məhzun olan könül,
Yazdı vərəq-vərəq neçə əfsanə, neylədi.

4 Doldi boşaldi mey neçə meyxanələrdə kim,
Sərməstlik dəvamına rindanə neylədi.

5 Axdi qəmində gözlərimin yaşi Nil kimi,
Asudəlik ki, vermədi bu canə, neylədi.

6 Aşiqliyin nə xeyri olubdur cəm'iyyətə,
Gəldi neçə min, mülki-Süleymanə, neylədi.

7 Bihudə qəlbi sındırı cövri vəfasızın,
Yazdı genə **Nafiz** belə əfsanə, neylədi?

## ~ 381 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Gördük nişati-cam ilə rüsva olanlari,
Amali-eşq ilə necə xülya olanlari.

2 Bədbəxtlik tutub ətəyindən zəmanədə,
Elmi-fününi-dəhrdə dərya olanlari.

3 Bükmüş belin fəraq ilə gülçini-ruzigar,
Manəndi-sərv tək qədi rə'na olanlari.

4 Məcnun fərağə dözməyib üz tutdi çöllərə,
Həbs eylədi bir xanədə Leyla olanlari.

5 Töhmətlər ilə Yusifi zindanə saldırıb,
Dərdü bəlayə saldi Züleyxa olanlari.

6 **Nafiz**, cahanda bunlara ibrət gözilə bax,
Gör intihayi-eşqdə, şeyda olanlari.

## ~ 382 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Mən səni sanmış idim qəlbimə bir yar kimi,
Nə üçün oldun, əzizim, mənə əğyar kimi.

2 Sinəmə sancılı hər dəmdə qəmi-hicranın,
Bülbülün sinəsinə gündə batan xar kimi.

3 Ey ki, ixvani-vəfa, yarə çox aldanmayasız,
Gəlməsin məsləhətim sizlərə pindar kimi.

4 Yar cövrün çəkib aləmdə bir səfasını mən
Görmədim dəhrdə bir yari-vəfadar kimi.

5 Eşq sərmənzilinin qayəti məlalətdür,
Sizlərə rahi-vəfa gəlməsin həmvar kimi.

6 Gecələr zülf xəyalilə möhnətim artıb,
Gündüzüm oldi fərağində şəbi-tar kimi.

7 Bivəfanın qəmini çəkməyə dəyməz, **Nafiz**,
Yazıram bəlkə düşə dillərə əş'ar kimi.

## ~ 383 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Saçın  vəsfi-diraz olsa o zülfi-piçtab ayri,
Təravətbəxş olursa ənbər ayri, mişki-nab ayri.

2 Yuyarkən zülfüni ikrah elə bir qəlpə sabundan,
Neçün zülfi-tərində özgədir sabun, gülab ayri.

3 Günüzlər afitabi-aləmarasan, gecə məhtab,
Həqiqət mənzilində şəhr ayri, afitab ayri.

4 Genə əyyami-hicrində könül mürği nəvaləndi,
Görüb əhvalimi dilləndi çəng ayri, rübab ayri.

5 Ayağın toprağın bir tutiyatək çeşmimə çəkdim,
Vəleykin sürmə ayri, tutiya ayri, türab ayri.

6 Şərabi-lə'li-nabındır yaxan aşiqlərin qəlbin,
Bilir kim təşnədillər lə'li-nab ayri, şərab ayri.

7 Şikəstə **Nafizə** dün şəb açıldi dəftəri-hüsnün
Yazıb hüsn ayəsin bir dəftər ayri, bir kitab ayri.

## ~ 384 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Rəngdə lə’li-ləbindir badeyi-həmra kimi,
Gözlərin xasiyyəti bir nərgisi-şəhla kimi.

2 Çeşmin ilə xali-mişkin bir qaranlıq rəmzdür,
Zülfi-şəbrəngin xəyalimdə şəbi-yelda kimi.

3 Qafi-könlümdən genə, ey şahbazi-vüslətim,
Dərbədər saldın mənim əfkarımı ənqa kimi.

4 Əllərin qurbani, dur bir həzrəti-Musasifət,
Aləmə göstərgilən dəsti yədi-beyza kimi.

5 Böylə kim şəm’i-cəmalın oldi gözlərdən nihan,
Surətin gəldi xəyalə bir gecə rö’ya kimi.

6 **Nafiz**, ol namehribanın həsrətindən, qaliba,
Çalxalandi eşq ilə qəlbim genə dərya kimi.

## ~ 385 ~

## Əmir Əlişir Nəvai qəzəlinə nəzirə

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Qəmi-eşqin fərağinmi çəkim, yoxsa cəfasinmi?
Yazım ovzayi-hüsnə sərnəviştin macərasinmi?

2 Fərağində ləbi-lə'li-zülalin iştiyaq etdim,
Deyim sərmənzili-eşqində-könlüm ibtilasinmi?!

3 Fərağın həmlə çəkdi könlümə fərxəndəhal ikən,
Çəkim bilməm rəhi-eşqin səfasınmi, bəlasınmi?

4 Edib əhvalimi bərhəm görün zülfü bilə xali,
Vəfasızlıqda xalin göstərim, zülfü qərasinmi?

5 Nədəndür eşq ara yarin xəyalin bilmək istərsən,
Mana bimehr olmağinmi, əğyarə vəfasinmi?

6 Sazında, ey pəripeykər, mənimçün min həva çaldın,
Çalırsan şövq ilə imdi qəmi-eşqin həvasinmi?

7 Rəvacın verməyə **Nafiz**, rəqibim iltimas eylər,
Edərsənmi xəyanətkar ədunin iltimasinmi?

## ~ 386 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Rüxsari-yari görgilən əhli-hünər kimi,
Baxma səfayi-ayinəyə bədnəzər kimi.

2 Eşqi-məcazi sanma gəlib çatdi könlümə,
Eşqin səfasi olmaya gəldi-gedər kimi.

3 Çəkdin səməndi-nazını cövlanə, ey sənəm,
Mən olmuşam səmənd belində yəhər kimi.

4 Gah afitabi-aləmarasan günüzləri,
Göydən günəş batanda çıxırsan qəmər kimi.

5 Ey yari-süxənvər, nola bu nəzmi-**Nafiz**i,
Assan qulağinə necə dürri-gühər kimi.

## ~ 387 ~

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Gülüstan içrə güllər açılub bərgi-səmənsənmi,
Ucasən narəvənlərdən məgər sərvi-çəmənsənmi?

2 Gələndə bağrımi yaxdun, gedəndən qiyğacı baxdun,
Vüsal ehramini, cana, bu tərz ilə geyənsənmi?

3 Məni qəmzə rimahilə xəyal etməm vuran kimdür,
Rəvadurmi sual etsəm diliranə bu sənsənmi?

4 Qəmə, ey mübtəla könlum neçün sərməsti-səhbasən,
Meyi-eşqi əzəldən kasələrlə nuş edənsənmi?

5 Gözəllik riştəsin çəkdin cahanın pərdəsindən sən,
Bu hüsn ilə lətafətdə Hüseynsənmi, Həsənsənmi?

6 Deyirlər **Nafiz**i-zari şəkərgöftari-aləmsən,
Yerimdə mat olub qaldım, belə şirinsüxənsənmi?

## ~ 388 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Görmədim bir zülm edən ol dilbəri-rə'na kimi,
Bivəfa gördüm ani müxlisinə dünya kimi.

2 Gənci-hüsnün xişmlə bir gün həlak eylər məni,
Ə'fi zülfün bəklər üstündə bir əjdərha kimi.

3 Mən yəqin girdabi-eşqə düşsəm ol Vamiqmisal,
Yaxılarsan hicrilə sən də yəqin Əzra kimi.

4 Ey gözüm, ömrə güvənmə olsan İskəndər belə,
Gün gələr dünya vəfasızlıq edər Dara kimi.

5 Naz ilə bir gün səni gülşəndə görsə bəllidür,
**Nafiz** eylər vəsfini, bir bülbüli-şeyda kimi.

## ~ 389 ~

### Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

1 Qəddin ucaldı göylərə sərvi-səhi kimi,
Sayəndə narəvən görünür kutəhi kimi.

2 Dutdun cahani şövqi-ruxi-abü tab ilən,
Xurşid ərzə daldalanınca məhi kimi.

3 Ezaz ilə sən padişəhi-ruyi-zəminsən,
Əzzəllər İranın necə şahənşəhi kimi.

4 Daim cahanda izzət ilə yüzün ağ ola,
Mən rusiyahəm eşqdə dəsti təhi kimi.

5 Əlfazdə çarəm kəsilib nalə eylərəm,
Həştü hezar cümləsinin cəh-cəhi kimi.

6 Hani o bəzmi-dəhrdə məndim giramisi,
Ariflərin zəbaninə bir bəh-bəhi kimi.

7 Ramişgərivü rəqs ilə həqq olmaz aşikar,
Dərvişlərin səmayə girən əbləhi kimi.

8 **Nafiz**, cahanda çox nərəfərzəndi görmüşəm,
Kəlvayi-hiylə bişəsinin rubəhi kimi.

**~ 390 ~**

**Əlqismətə**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Döndərib gərçi hilalə qaşuvun yayi məni,
Bu səbəbdəndi üzüb ləblərüvün payi məni.

2 Ağzımın əyriliyindənsə sözün rastına bax,
Sözümü təlx bilib söyləmə hərcayi məni.

3 Dün gecə lə’li-ləbindən elə sərməst oldum,
Bu həlavətlə, gülüm, sanma şəvəllayi məni.

4 Gəlir qulağimə hər dəm, “nəva”lər İrandan,
Kəsai[1]nin genə də ağladacaq nayi məni.

5 Dün gecə badəmi bir şeyx əlimdən aldi,
Sandı ki, görməyəcəkdir fərəhəfzayi məni.

6 Zahidin sövməəsində nə işim var, **Nafiz**,
Görsə ekranda belə anlamaz ol ayi məni.

1 Həsən Kəsai (1928-2012) İranın məhşur neyrəni (ney çalanı)

## ~ 391 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

1 Ümidi-vəslin ilə üzdü intizar məni,
Fərağİ-həsrətin ağlatdi zar-zar məni.

2 Dedim: aram ilə kuyində  bir qərar dutum,
Qərarım əldən alıb, qıldı biqərar məni.

3 Bahar fəsli gələndə olur aləm xürrəm,
Qəzani gör ki, məlul etdi hər bahar məni.

4 Xəzan olanda tökər bərgü barıni necə kim,
Xəzani yaprağa döndərdi ruzigar məni.

5 Fərağİ-vəsldə gəh ağlayıb, gəhi güldüm,
Nə xəndə qəmdən ayırdi, nə əşkbar məni.

6 Çəkibdi qətlimə qəmzən bu qanlı şəmşirin,
Rəvamı doğrasa eşqində Zülfüqar məni.

7 Sınıq bu könlümə qəm ləşkəri hücum etdi,
Himayəsində genə saxladi Kərrar məni.

8 Qəm olmaseydi əgər mən də **Nafiz** olmaz idim,
Xəlayiq içrə qılıb bunca nəğməkar məni.

## ~ 392 ~

### Füzulinin qəzəlinə nəzirə

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Cəfadən yar usanmazmı, məni candan usandırdi,
Fələklər şö'ləsi kəmdür, məni məcmərdə yandırdi.

2 Fərağı-eşqə yanmazdım, bu canımdan usanmazdım,
Nə Leylayə inanmazdım, məni Məcnun inandırdi.

3 Gəzərkən çölləri veyli, məzaqim təlx olub xeyli,
Coşarkən qəlbimin  seyli, gözüm yaşın bulandırdi.

4 Qəribəm bağı-vüslətdə, usandım cori-töhmətdə,
Yatarkən xabi-qəflətdə, bu qəflətdən oyandırdi.

5 Vücudin haləti vardır, vəfa ülviyyəti vardır,
Visalın surəti vardır,əvam üşşaqi qandırdi.

6 Xəyalim ərşi-rəbbani, dutub **Nafiz** bu ərkani,
Oxu fəhm eylə Qur'ani, sənə bəlkə us andırdi.

## ~ 393 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Bilməm nə tövr ram edim ol şivəkarımi,
Şahinsifət gəmişdirib alsam şikarımi.

2 Hicran dəmində zərrə qədər yox şikayətim,
Bir səbr ilə bərhəm keçirəm ruzigarımi.

3 Didari-vəslə çatmaq üçün kamran ikən,
Mümtazi-nazın əldən alıb ixtiyarımi.

4 Baxdıqca məhliqalərə səbrim kütah olur,
Möhnətsərada kimdi çəkən intizarımi.

5 **Nafiz** olur ki, dəhrdə şeyda cavanlara,
Təlqin edəllə bu gühəri-abdarımi.

## ~ 394 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Ey dil, dəmi-söhbətdə mərarət sənə qaldi,
Yar oldi fərəhbəxş, nədamət sənə qaldi.

2 Verdim çəmənin güllərinə nəşvi-nümani,
Ey bülbüli-şeyda, bu lətafət sənə qaldi.

3 Qəlbimdəki gizlətdigim ol eşqi-girami,
Viranə könüldə bu əmanət sənə qaldi.

4 Yar eyşü səfa mənzilinin oldi çirağï,
Məxsusi-əlamətdə məlalət sənə qaldi.

5 Yazmaq bu şikayətləri indi sənə məxsus,
Ey xameyi-**Nafiz**, bu kəramət sənə qaldi.

## ~ 395 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Kim sadir etdi eşqə cəfanın əsasıni,
Nari-cəhənnəm içrə tutubdur qiyasıni.

2 Hər kim təkəbbür eyləməyə meylin artırır,
Xəyyati-qəza tikdi təzərrö' libasıni.

3 Ol kimlər idi cövrü cəfayə dözəmmədi,
Ol kimlər idi tapmadi qədrişünasıni.

4 Şəhbazi-dil əsarəti-qəmnən həvalənib,
Başından aldılar qəmi-eşqin həvasini.

5 Mə'mureyi-cahan tərəbi-eşqə tab ikən,
Mən bilməz idim ərzi-fənanın hirasıni.

6 Çoxlar bu fənayə gəlibən pir olub gedib,
**Nafiz** də gəldi aldılar əldən əsasıni.

**~ 396 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Məclisi-eyş quruldi onun şərabi hani,
Ləzzətəfzadısa bu qəlbdən kəbabi hani?

2 Gül budağında durub bülbül eyşi-işrətdə,
Bəs onun  şövq ilə əzzəlki istirabi hani?

3 Yar üzün açdi xəlayiq hami müştaq oldi,
Etdigi pərdeyi-ismətdəki hicabi hani?

4 Dedim: yüzündə qəra xalının divanəsiyəm,
Təriqi-eşqə münasib onun  cəvabi hani?

5 Mənim kitabi-əzimim  gəlib səmalərdən,
Səzayi-eşqə münasib onun  kitabi hani?

6 Sanma kim hicrin əlindən gecə yatar **Nafiz**,
Görün, təsəvvür edün, gözlərində xabi hani?

## ~ 397 ~

## Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün

1 Həlqə-həlqə könlüm oldi çini-əbrulər kimi,
Nafeyi-dəşti-xəta tərzində ahulər kimi.

2 Doğranır bağrım görəndə qəmzeyi-qətdal ilə,
Hiç kafər görmədim aləmdə əbrulər kimi.

3 Zülfi-ənbərfamının tutduqca ətri aləmi,
Aşiqi xoşhal edər ətri-səmənbulər kimi.

4 Hər tərəfdən sallanıbdı zülflərin qərğu kimi,
Fikri-zülfündən necə incəlmişəm mulər kimi.

5 Kiprigin ləşkər çəkib qəsd ilə canım almağa,
Qətlimə amadədür ol çeşmi-cadulər kimi.

6 **Nafiz**i hicran ara zarü pərişan eylədin,
Nalə eylər hər gecə hicrində qərğulər kimi.

**~ 398 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Ayağin bağidən ol gül’üzarü dilşikən çəkdi,
Bu münval ilə məhrulər cəfasın nəstərən çəkdi.

2 Pərişan oldi gülşəndə bənəfşə gərdənin bükdi,
Görüb bülbül bu hali qəlbdən bir sinəzən çəkdi.

3 Kəfənlənmişdi sanki yasəmən bir ağ duvağ ilə,
Bu hali gördi nilufər, durub gülgülkəfən çəkdi.

4 Dutübdur atəş afaqi, yanır pərvanələr qövmi,
Bu atəşbari himmətlə genə gəbri kühən çəkdi.

5 Görüb pirahəni-həmrasını lalə kədərləndi,
Sənin didari-hüsnündə bir ayri pirəhən çəkdi.

6 Görüb piri-süxənsaz olduğun **Nafiz** bu aləmdə,
Dəhani-Biriyadən arifanə bir süxən çəkdi.

## ~ 399 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Nobəhar oldi genə bülbüli-şeyda oxudi,
Sərinə düşdi necə bir yeni sevda oxudi.

2 Geyibən əgninə bir ətləsi-diba güldən,
Mərami-bülbüli yeksər güli-həmra oxudi.

3 Məşqi-eşqi edibən dəhrdə təranə kimi,
Nəğmələr silsiləsin eylədi bərpa, oxudi.

4 Verdi gül qönçəsinə bir yeni mə’nayi-süxən,
Pirəhənçak oluban gül dəxi ziba oxudi.

5 Cuşə gəldi dəxi bülbül fərəhindən coşdi,
Eşqin əfsanəsini dasitansəra oxudi.

6 **Nafiz**in yasinə gəldi neçə bülbül bağə,
Süfrəsindən yedi iştahilə həlva oxudi.

## ~ 400 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Fəryad, oxundi, bağidə eşqim hekayəti,
Bilməm kim idi, kimlərə etdi şikayəti.

2 Faş etdi sirrimi genə əğyarə əndəlib,
Bülbüllərin də hərdən olurmuş qəbahəti.

3 Gördüm rəqibi-divdə əfkari rəng-rəng,
Girdim büsati-eyşə dəgişdim qiyafəti.

4 Əğyarlər məramini pozdum həmən zibəs,
Bəzmi-səfadə göstəribən bir şətarəti.

5 Pərvanələr kimi dolanıb şəm'i-ruyinə,
Rahi-vəfayə səmt edəlim istiqaməti.

6 Bəzmi-vüsal təntənəsindən fərəhlənib,
Busi-kənarə eyləmək olmaz qənaəti.

7 **Nafiz**, yetərdi vüslətə mərdüm zəmanədə,
Aşiqlərin gər olmasa dildə mərarəti.

## ~ 401 ~

**Müctəs-2: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilün**

1 Könül, bu intizari-zülfü yarə az qaldi,
Şəfayi-vəsli-qəmi-intizarə az qaldi.

2 Qəmin təranələrin çaldi binəva bülbül,
Xəzan qəmi sovuşub, nobaharə az qaldi.

3 Canım çıxır dəhənimdən diyari-qürbətdə,
Yetişməyə fəqət ol gül’üzarə az qaldi.

4 Min qəmim var ürəgimdə, birin deyə bilməm,
Deməgə dərdi-dilim aşikarə, az qaldi.

5 Sərayi duni-rəqibin viran olar, **Nafiz**,
Könüldəki fərəhi-bişümarə az qaldi.

## ~ 402 ~

**Həzəc-6: MəfA’ilün / məfA’ilün / məfA’ilün / məfA’ilün**

1 Rəva bilsən nə dəm cana, verim cani, ağam cani,
Buyur zibh et Xəlilasa, bu qurbani, ağam cani.

2 Ləbin fikrin çəkəndən günbəgün mahiyyətim artır,
Sinəmdə mə’dəni-lə’li-Bədəxşani, ağam cani.

3 Pərişan olmasın zülfün ki, mən ondan pərişanəm,
Pərişanlıqdan aldım böylə imkani, ağam cani.

4 Bu qədri abü tab ilən gəzərkən Nil kənarində,
Cəmalın heyrətə saldi Züleyxani, ağam cani.

5 Gələr bir gün cavanlar, mən gedərsəm xakə pəjmürdə,
Çirağ əldə gəzəllər mülki-Şirvani, ağam cani.

6 Gedibdir mülki-Şirvandan Ağa İsrafili-**Nafiz**,
Vətən tutmuş Səmərqəndü Buxarani, ağam cani.

## ~ 403 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Şami-qəmində fot elədim çox zamanlari,
Çəkdirdin aqibət mənə ahü amanlari.

2 Hicranın ilə daima qəmnən dolan gözüm,
Tökdi fərağİ-yar ilə əşki-rəvanlari.

3 Gül həsrətilə bülbül itirdi fərağətin,
Saldi bəlayi-eşqə neçə bağbanlari.

4 Gülzari-kuyinin qocaman əndəlibiyəm,
Buldum təriqi-eşqdə qönçə dəhanlari.

5 Eşqin məni bir Rüstəmi-dastanə döndərib,
"Ruintən" etdi gör nə qədər pəhləvanlari.

6 Talib olanlar eşqə ucaldi səmalərə,
Mən dəstgahsız enirəm nərdibanlari.

7 Zülfün qəmin apardım özümlə məzarədək,
Qəbrim içində bağrıma basdım ilanlari.

8 **Nafiz,** məta'i-şerinə yox müştəri nədən,
Mizani yoxdi xəlq çəkə xürdədanlari

## ~ 404 ~

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

1 Ta fələklər könlümə mə'mur edib məhruləri,
Müştəri təxdində baisdir qana əbruləri.

2 Hər çalanda kiprigin mizrabtək dilləndirir,
Könlümün tənburinə bağlandığı giysuləri.

3 Zülfü şəbrəngin qoşun çəkməkdədir Çin üstünə,
Gah öpüb, gah iylərəm zülfündəki şəbbuləri.

4 Könlümün ayinəsin etmişdi qəm xeyli xərab
İntizarım qəlbidə sındırdı bu güzguləri.

5 Ney kimi sızlardım eşqindən qəmi-hicrin dutub,
Çeşmi-məstin gör əlimdən saldi bu qarğuləri.

6 Baği-hüsn içrə yüzündə xali-mişkin əylənib,
Gör fəzilətlə salıblar cənnətə hinduləri.

7 Gözlərin yadi bilə zəhr içərdim ruzi-şəb,
Lə'li-nabın istiqamətdən salıb ağuləri.

8 **Nafiz**a, sinəndə qat-qat olmuş eşqin dağlari,
Cəm edib vermiş fələk munca qəmi-qəyğuləri.

## ~ 405 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Görüm, ey kaş, sıneydi fələkin xamələri,
Necə gör yazdı mənimçün belə bərnamələri.

2 Sütuni-səbrimə söykəndi bəxti-idbarim,
Sonra da başimə gətdi belə həngamələri.

3 Yaramazlar geyinibdi şərəfli xəl’ətlər,
Mənimsə əgnimə qəmdən biçibdi camələri.

4 Bağü büstanə nigəhban ikən xəzan oldi,
Əzmi-bustan eləyib dərmədim şəmamələri.

5 Nəzər et, zahidin əmmaməsini gör, **Nafiz**,
Ayağ altında əzilsin onun əmmamələri.

## ~ 406 ~

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

1 Getdi-fəraği-eşqin ilə can tapılmadi,
Can pərdeyi-fərağidə, canan tapılmadi.

2 Baş aldi getdi məmləkətin xani-Təbrizə,
Axtardılar, sorağladılar, xan tapılmadi.

3 Lə'lün xəyali qamətimi yayə döndərib,
Ol yayi çəkməyə niyə peykan tapılmadi.

4 Ey dil, xəzinəmiz boşalıb axca-maxcadan,
Cibi-ümidi-küncdə "şirvan"[1] tapılmadi.

5 Şeytani qovdu xəlq, özü şeytanlıq eylədi,
Məkri görüb bu xəlqdə şeytan tapılmadi.

6 **Nafiz**, niyə Xaqani çıxıb getdi Təbrizə?
Bu mülkdə Xaqaniyə Xaqan tapılmadi?

---

1 1994-2001-ci illərdə tədavülə buraxılan 10000 manat dəyərində əskinasın xalq arasında adı

## ~ 407 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Eşq sərmənzilinin  indi mənəm sərkari,
Qeysü Fərhadi çağırram, yığaram həmkari.

2 Deyil insaf ki, mən güşeyi-üzlətdə qalam,
Məşqi-eşqi dəyişib kim pozalım pərgari.

3 Gülüm xəzanə dönübdür bu dövr cövründən,
Hani bu gülşəni-gülzarın indi əttari,

4 Nə qədər var isə dəstimdə şişə qəlyanim
Saymaram Qeysəri, Fəqfuri, Şahi, Xotkari.

5 Nəğmələr mülkünə mən xosrovanə **Nafiz** ikən,
Rəvami sevməyəsən mən kimi sənətkari.

## ~ 408 ~

## Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Sinəmdə yazdım ayəti-hüsnün varaq kimi,
Dibaçeyi-eşqimdə fəqət  təmtəraq kimi.

2 Badi-səba gətirdi uzağdan sorağıni,
Əfsanətək dəhənlərə düşdüm soraq kimi.

3 Hicrin çıxardı göylərə ahim şərarəsin,
Yandım, alışdım, atəşə döndüm ocaq kimi.

4 Ağlatdi həsrətin məni, yaxdi vücudimi,
Ümmanə döndi göz yaşim, axər bulaq kimi.

5 Asari-qəmdə sındırı qəddi-nihalimi,
Şəmşiri-qəmlə doğradi, tökdi nacaq kimi.

6 Ariflər içrə **Nafiz** əfəndi əda olub,
Allahi sevirsən, onu sanma uşaq kimi.

**~ 409 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

1 Könüldən sil çıxar jəngi, danışma hərzə, hərcayi,
Məlahət bəzminə sən də yetiş, eylə təmaşayi.

2 Sorarsan Şeyx Sən’andan nədir mahiyyəti eşqin,
Səni vadar edən noldi, nədən sevdin bu tərsayi?

3 Ki, mey bəzmində bir ləhzə mənim də bir xumarım var,
Alıbdır əqlimi sərdən həmən ol saçi xurmayi.

4 Məhəbbət pak olan yerdə həyatın iqlimi xoşdur,
Fəqət arif olan kəslər çıxarmaz onda qovğayi.

5 Nəvalər pərdədən düşdi, çalındi suri-İsrafil,
Avazım ərşə yüksəldi, ötüb övci-sürəyyayi.

6 Könül təxtində izzətlə Mühəmməddən əmin tapdım,
Bu surətdə xəyal etmə nə İsayi, nə Musayi.

7 Könüldə saxla irsi, ey oğul, ta biədəb olma
Ki, öyrən elmi-irfani, gedib olma şəvəllayi.

8 Vəfa sərmənzilində aşiqə ölmək şərafətdür,
Dəmadəm eyləyər **Nafiz** Xudadən bu təmənnayi.

**~ 410 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Görüb dildarını aşiq yaxınlaşdi, qucaqlaşdi,
Salıb yadə keçən əyyami kövrəldi, uşaqlaşdi.

2 Könüldə nobahar oldi, açıldi laləvü nərgis,
Oyandi nəxli-ümmidim, tumurcuqlar budaqlaşdi.

3 Dedi: ey mehrini məndən kəsən aşiq, nə qafilsən,
Könül eyvaninə bundan bir od düşdi, ocaqlaşdi.

4 Gözi seyr etmədə əhvali-pürsani bəraşüfdə,
Çəkib xəncər o yandan tiği-əbrulər buçağlaşdi.

5 Dedi: eyhami-Şirvan zindəganlıqda sənə kafi,
Dilində cümlələr əksi-səda verdi, uzaqlaşdi.

6 Özü getdi, sözi buztək üşütdi qəlbimi, əfsus,
Mənimçün fəsli-gül əmma sərinləşdi sazağlaşdi.

7 Özüm **Nafiz** kimi eylərdim eşq içrə təhəmmüllər,
Könül küncündə səbr ilə zəbərcədlər yatağlaşdi.

## ~ 411 ~

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Görəndə qüssəli gülşəndə gülyavağləri,
Döndi dil qanə, qaraldi gözümün ağləri.

2 İntizar ilə gülün bağri qanə dönməzmi,
Olmaseydi dili-bülbüldə gül fərağləri.

3 Gülün övsafi üçün bir nəva qılıb bülbül,
Dübarə cəh-cəh ilə qıldi təmtərağləri.

4 Çəməndə başladi şur ilə saqinamələri,
Çağırdı gülşənə bəstənigar saqiləri.

5 Meyi-gülrəng dəmadəm süzüldü kasələrə,
Şövqdən nuş elədim bir neçə bardağləri.

6 **Nafiz**in nəğməsinə səd hezar toplandi,
Elə bil balə qatıb bir kasə qaymağləri.

**~ 412 ~**

**Kamil-2A: MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

1 Ləbi-lə'lüvün zülali gül ilən şəkərlənibdi,
Neçə müştəri ticarət edibən bəhərlənibdi.

2 Sözümün şəkərliyindən pay umur şirinsüxənlər,
Niyə ovqatım olub təlx, əzilib zəhərlənibdi.

3 Mənitək şirinməqali yetirərmi bu zəmanə,
Neçə fazili-münasib bu işə kədərlənibdi.

4 Elə şadi-xürrəm oldum, yarananda "İctimai",
Adi Mirzə İsmayıldi, soyadi Ömərlənibdi.

5 Soruşun "Gün Az.TV"-dən, nədi "ANS"-in mərami,
Nədən oldi "İctimai" üzümə çəpərlənibdi.

6 Nə məni çağırmaz "Speis", nə "Xəzər", nəinki "Lider",
Elə bil ki, bir-birilə bu sayaq xəbərlənibdi.

7 Yığışıbdı dəstə-dəstə "ATV"-də əbniyalər,
Hərə bir maşınla gəlmiş bura, dördtəkərlənibdi.

8 Əbədiyyətin bəhari qələmimdi filhəqiqət,
Nə yazıb qəzavü tədbir belə birtəhərlənibdi.

9 Qalıb indi bircə çarə, varıb Ərzrumə getmək,
Bu xəyalimin səməndi bu gecə yəhərlənibdi.

10 Dedim: ərzi-halimi mən, niyə yazmayım ki, mövzun,
Belə arizu qılarkən ürəyim təpərlənibdi.

11 Təb'imin kəramətindən saçılırsa dürri-mərcan,
Niyə görməsin xəlayiq bu səra gühərlənibdi.

12 Nə büsat içində xanəm, nə əzadə növhəxanəm,
Bu xəyali-qəmdə **Nafiz** necə gör qəhərlənibdi.

## ~ 413 ~

**Fəqir Ordubadinin qəzəlinə nəzirə**

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 *"Sədheyf o zülfi-xəmbəxəmə bad əlindədi,*
*Can riştəsi, nə çarə qılım, yad əlindədi.*

2 *Tanrı rizasinə mənə bənd olma, ey əcəl,*
*Başim görürsən axir o cəllad əlindədi*".

3 Yox təşnəyə bir qətrə su abi-Fəratdən,
Sanma əlaci Dəcleyi-Bağdad əlindədi.

4 Ey qaşi Zülfüqar, götür ol tiği dəstinə,
Əsli Dəməşqdəndi bu fulad, əlindədi.

5 Çək Bisütunə kiprik ilə yar surətin,
Sanma ki, eşq tişəsi Fərhad əlindədi.

6 Ruyində dam qurdu o xali-müənbərin,
Bu fitnə o zülfün kimi səyyad əlindədi.

7 **Nafiz**, tərənə silsiləsin doldur aləmə,
Bəzmi-tərəbdə çün qaval ustad əlindədi.

## ~ 414 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Suri-İsrafili çal, gözləmə islahati,
Çəkdilər çox yuxari mərtəbəyə Şəddati.

2 Seyr qıl bizlərin əhvalinə ya heyyü Əhəd,
Tazədən təlqin edirlə bizə Mənat Lati.

3 Dilim-dilimdi dilim, yazmasam bu mövzuni,
Yağdırarlar başıma dillənəndə sursati.

4 Nə çarə eyləyim əhvali-zarimə bilməm,
Nə vəch ilə belə mən olmayım xərabati.

5 Təlxkaməm əsəri-möhnəti-məlamətdə,
Dönüb ağzımda necə zəhri-marə qənnati.

6 Sübhü şam zağü zəğənlər yığılıb dövrəmdə,
Bu əlamətlə necə saz qılım ovqati.

7 Ey əduyani-vəfa, harda yazılmışdi cəfa,
Aç İncili, vərəqlə Qur’an ilə Tövrati.

8 Könlümi riştə qılıb qəhr ilə xərçəngi-cəfa,
Çağır Əflatuni gəlsin, yox isə Buqrati.

9 Müxənnəs aləmə baxma, nəvani çək, **Nafiz**,
Şəfavü feyz verər nəğmənin rümuzati.

## ~ 415 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Hər eşqə düşən dəhrdə divanə yazıldi,
Meyxanəyə kim girdisə məstanə yazıldi.

2 Gözlər qana-qan eylədi, kipriklər ox oldi,
Bihuş eləmək zülfi-pərişanə yazıldi.

3 Şirindili gördi, mey özün çəkdi kənarə,
Taği sökülüb dil evi viranə yazıldi.

4 Hicran odi yandırdi cəhənnəm kimi cani,
Gülzari-əməl soldi zimistanə yazıldi.

5 Min qəmzə satıb naz eləmək qönçəyə düşdi,
Fəryad eləməg bülbüli-nalənə yazıldi.

6 Qızlarda nə adətdi bu aşiqlərə gülmək,
Hər möhnətə dözmək sevən oğlanə yazıldi.

7 Ey dil, özüvi atmagilən atəşi-eşqə,
Odlarə yananın adi pərvanə yazıldi.

8 Saxla sinən üstündə xəyali sənə bəsdür,
Hansi umanın minnəti cananə yazıldi.

9 Cəhd eyləgilən mülki sədaqətdə qərar et,
Fərmani-zaman sineyi-suzanə yazıldi.

10 **Nafiz**, hamı orderlə təzə mənzilə köçdi,
Orderdə sənin aduva meyxanə yazıldi.

## ~ 416 ~

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

1 Laçın könlüm cəfalərnən qəm üstən qəm binaləndi,
Vəli ruyin görüb bir dəm dili-mürğim səfaləndi.

2 Dəmadəm rahi-eşq içrə xiyal etdim ki, Fərhadəm
Ki, bir dağə güzər etdim, könül Şirinxətaləndi.

3 Yuyundun, ey dili ahən, sürüldükcə qızıl qanım,
Heyif şümşad barmaqlar qanım ilə hənaləndi.

4 Vücudimdən çıxıb hər dəm canım bir ağ göyərçintək,
Genə əyyami-hicrində könül neytək nəvaləndi.

5 Nədən bimarına bir dəm kərəm lütfün rəvan olmaz,
Vücudi-natavanımçün rəvan cövrün cilaləndi.

6 O zülfündə dili-mürğim düşübdür öylə bir damə,
Xəmi-giysudə dustağın fərağinlə cəzaləndi.

7 Düşündi **Nafiz** əl çəkdi sənin tək bivəfalərdən,
Fəqət ol aşiqi-sadiq vəfayə aşinaləndi.

## ~ 417 ~

## Şamaxının vəsfi

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Ey gözəllər gözi, gülzari-gülüstan Şamaxi,
Bağlari baği-səfa, dağlari əlvan Şamaxi.

2 Ey gözəllər vətəni, hüsnüni vəsf etmək üçün,
Tapmıram bir elə söz ki, ola şayan Şamaxi.

3 Nə gözəl abi-həvasi, nə gözəl mənzərəsi,
Nərgisi, laləsi, zəmbaği çirağban Şamaxi.

4 Dörd tərəfdən bürünüb dağlar üzüm bağlarına,
Göydə quşlar dolanır başına pünhan Şamaxi.

5 Mərdlik səndə, vəfa səndə, sədaqət səndə,
Gözü tox, qəlbi açıq, vari-firavan Şamaxi.

6 İçdi Xaqani suyundan ucalıb dağ oldi,
Nur saçır hər tərəfə səndəki irfan Şamaxi.

7 Seyyidə, Sabirə şe'riyəti sən ögrətdin,
Sən ki, bəxş eyləmisən canlara min can Şamaxi.

8 Ey mənim öz vətənim, əqli-kəmalim, cigərim,
Ey şəhərlər şəhəri, mərkəzi-"Şirvan" Şamaxi.

9 Dolanım başına mən, qoy bir öpüm toprağını,
Ey olan aləm ara lə'li-dirəxşan Şamaxi.

10 Səndə Davudi-məqam oldi bir Fələkzadə,
Gəlməmişdi bu cahanə belə əlhan Şamaxi.

11 Eşidib adıni **Nafiz** də gəlib məclisüvə,
Badə ver saqi, gəlib məclisə mehman Şamaxi.

**~ 418 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

1 Təbibim bizlərə rəğbət verərmi, yoxsa verməzmi,
Bu məhzun qəlbə bir şəfqət verərmi, yoxsa verməzmi?

2 Zəmani-bədsərəncamın o qədri cövrüni, çəkdim,
Gözüm açmağə bir fürsət verərmi, yoxsa verməzmi?

3 Qəmindən xəstəhaləm, müntəzirəm ol güli-rə'na,
Şirin göftar ilə nüsrət verərmi, yoxsa verməzmi?

4 Bu şirin nəzmi-dürpaşi yazıb sultanə ərz etsəm,
Müqabil olmasa xəl'ət verərmi, yoxsa verməzmi?

5 Gedib ərz eləyim şahə, deyim dərdi-dilim əmma,
Vəziri-səngdil rüxsət verərmi, yoxsa verməzmi?

6 Gedib dari-fənadən Fikrətim[1], **Nafiz** nə məhzunəm,
Təbiət böylə Fikrət verərmi, yoxsa verməzmi?

1 Şair Fikrət Sadığın (1930-2016) vəfatına.

## ~ 419 ~

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

1 Əvəz etməz oda yanmaqda o pərvanə məni,
Səndən artıq kim edər dəhrdə divanə məni.

2 Künci-meyxanəni məskən mənə bəxtim elədi,
Neylədim atdı əcəl bu qara zindanə məni.

3 Görməyincə yüzüni mən meyi adət elədim,
Odlayıb sinəmi, xar eylədi meyxanə məni.

4 Necə susdurdi şərab əldə rübabım səsini,
Necə döndərdi heçə eylədi əfsanə məni.

5 Vəslə ümmidimi bir zərbədə viran elədi,
Odlayıb yaxdı əcəb atəşi-hicranə məni.

6 Vurma divanəligi başıma, tən etməgilən,
Sənin eşqin elədi sərsəri, divanə məni.

7 İstədim tövbə edəm dəhr qəmin çəkməkdən,
Nə rəvadır çəkələr künci-şəbistanə məni.

8 Qalmadi firqətinə dözməyə taqət məndə,
Bəlkə də mey yetirə vəsli-gülüstanə məni.

9 Şişəni qoyma yerə, çəkmə bu meyxanədən əl,
**Nafiz**a, gər yazalar dəftərə məstanə məni.

## ~ 420 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Leylayə dönən ol saçı reyhanə nə oldi,
Gəlməz bulağə, ol dəli ceyranə nə oldi.

2 Nə cəh-cəhi gəlməz, nə səsi bağ arasında
Susdi nədən ol bülbüli-nalanə, nə oldi.

3 Noldi dayanıb gözləri yollarda pərişan
Ağlar görurəm, ol ləbi xəndanə nə oldi.

4 Hani o gülən gözlər, o məğrur baxışlar,
Ahəstə gedən yari-xuramanə nə oldi.

5 Soldi, gözəlim, bəs nədən ol alma yavağlar,
Gəlməz işığі, ol məhi-tabanə nə oldi.

6 Gəldi nəzərə bəlkə pozuldi o hörüklər,
Taci-əməlim, zülfi-pərişanə nə oldi.

7 Bəs noldu o şuxluq, o gülüş, nəğmələr, ey yar,
Kim qəlbini incitdi, o cananə nə oldi.

8 Dünyadə vəfa yoxsa gözəllərdə nə təqsir,
Əhdin pozan ol Leyliyi-dövranə nə oldi.

9 **Nafiz** dəxi bu mərhələdə səmti dəyişdi,
Meydənmi küsübdur, bəs o meyxanə nə oldi?

## ~ 421 ~

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

1 Fikrin nədi, cana, məni talan eləməkmi,
Yarmaq sinəmi bağrımi, al qan eləməkmi.

2 Vəslə olan ümmidimi bir zərbədə qırmaq,
Abad olan eşqimi viran eləməkmi.

3 Ömrün gəmisin qərq elədin bəhri-bəladə,
Girdabə salıb bir dəxi tufan eləməkmi.

4 Dünyani qəfəs, könlümi möhnətlər əsiri,
Dörd bir tərəfim atəşi-hicran eləməkmi.

5 Qəm qafiləsi çəkdi qətarın sinəm üstə,
Bu canımi min həmləyə qurban eləməkmi?

6 Bir ləhzədə vardın, başımün üstünü aldın,
Ənqa kimi Qaf dağına üsyan eləməkmi?

7 Göz yaşi ilə qəlbimə dağlarmi çəkmək,
Bir də bu pərişani, pərişan eləməkmi?

8 Qolbənd elədin **Nafiz**i, zalim, nədi qəsdin,
Kəsməy nəfəsin, yer ilə yeksan eləməkmi?

## ~ 422 ~

**Müzare-2: MəfʼUlü / fAʼilAtün / məfʼUlü / fAʼilAtün**

1 Şükr kim bağımıza ol güli-rəʼna gəldi,
Getmiş idi, qayıdıb saqiyi-səhba gəldi.

2 Neçə müddətdi ki, tərk etmiş idi bəzmimizi,
Bu büsat içrə genə ol güli-həmra gəldi.

3 Badə ver saqi, alışdi sinəmiz, şurə gətir,
Əldə gül dəstəsi ol yari-dilara gəldi.

4 Saqiya, sağəri qaldır, fərəhimdən öldüm,
Məclisə ruh verən ol fərəhəfza gəldi.

5 Bu gözəl məclisə təşrif gətirib Meysəridən,
Mey sorağilə neçə düxtəri-tərsa gəldi.

6 Lalələr rəqsə gəlib, sərvlər xələt versin,
Üzü gül, qəmzəsi xoş, qaməti Tuba gəldi.

7 Bu lətafət, bu səxavətlə, səni gördükdə,
Seyri-gülzarimizə Hatəmi-dünya gəldi.

8 Şad olarkən, sənəma, könlümə qəm çəkdi hücum,
Hali pəjmürdə kəlisayə Məsiha gəldi.

9 Şanəni çəkmə dübarə, o səri-zülfündən,
Dili divanələrə, bir yeni sevda gəldi.

10 Tar-kaman şurə gəlib səs-səsə versin neylər,
Məclisə "Şüştər" ilən **Nafiz**i-şeyda gəldi.

## ~ 423 ~

**Rəməl-1: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilAtün**

1 Handasan bir dəm nəfəs ver cani-canan tənbəki,
Gəlgilən bir dəm gətir dudi-şəkərxan tənbəki.

2 Həm qızılgüldən, biyandan ətr gəlmişdir sənə,
Zərnəvadan gəlmisən, Tağlabiyandan tənbəki?

3 Bilgilən can çıxdı ağzımdan, çıxınca ləzzətin,
Dudi-ahimdən xəbər tutduqca qəlyan tənbəki.

4 Pərdeyi-qəflətdə çox əylənmə, çıx bustandən,
Məşqi-eşqi bir şüşə qəlyani-püstan tənbəki.

5 Çıxmısan kuhi-Niyalə dəxi əl çatmaz sana,
Ummasın Cabbar, Seyyid həm dəxi Xan tənbəki.

6 Zərnəvadə bir Səfərali var idi, bir Mühübb,
Bəslər idi bir neçə bustan-bustan tənbəki.

7 Vardı aşiq Şamilin bir Piri adli qardaşi,
Gətirərdi zəhmət ilə Zərnəvadan tənbəki.

8 Mö’təbər qəlyan çəkən idi bizim doktor Əli,
Doldurardi ol gümüş qəlyanə dərman tənbəki.

9 Aşiq Abbasın dəmağindən yerə düşməzdi hiç,
Zal dövründən deyərdi dürli dastan tənbəki.

10 Ol əzizin məhzərindən indi bir Şərbət[1] qalıb,
Pişrovlar nəğməsin ərz eyləsin qan tənbəki.

---

1 Aşıq Şərbət Fətiyev (1935-2016)

11 Olmasan bil, hövsələm əldən gedər diltəng olar,
Qəlbdə təqib edər htcrani hicran tənbəki.

12 Bu rüunətlə necə odlara yaxdın könlümü,
Bir şərarətlə görüm sən də alış, yan tənbəki.

13 Həsrət əyyamın bu günlərdə nəsib etdin mana,
Şiveyi-rəftarinə Nafiz sənaxan tənbəki.

14 Dur, gözün qurbani, köhnə dosta bir tel vurgilən,
Göndərər insaf edib bəlkə Əvəzxan[1] tənbəki?

15 **Nafiz**in qəlyaninə şayəstə «Gülgəz» tənbəki,
Canımın canani, ey can tənbəki, can tənbəki.

1 Xanəndə Əvəzxan Xankişiyev

## ~ 424 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Dəli divanədi kim çəksə bu dünya qəmini.
Çəkgilən sağəri, asan elə fərda qəmini.

2 Ləbi-lə'lünlə əgər olsa idim xatircəm,
Çəkməz idim bu qədər badeyi-həmra qəmini.

3 Gül qəmin çəkməg ilə bülbül ömrü fot elədi.
Görmədim gül çəkə bir bülbüli-şeyda qəmini.

4 Eşqi-Hacərlə, Xəlilim, nədən nigaransan,
Anlayırdınmi məgər həzrəti-Sara qəmini?!

5 Mahiyar olmadi yar, ey güli-rə'na, bir dəm,
Şayəd ol xəncəri-xunin çəkə Dara qəmini.

6 Dəhənin şövqi ilən qanə boyandım hər dəm,
Bilmədin ruzi-əzəl **Nafiz**i-rüsva qəmini.

## ~ 425 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

1 Dağıdır badi-səba dildə əza pərdəsini,
Göstərir əhli-dilə nəqşi-niza pərdəsini.

2 Dəhr hökmiylə pərişanlığa layiq olali,
Açıb ehkami-riyazətdə səza pərdəsini.

3 Bu rümuz ilə xəyalim dolanır dünyani,
Çəkmişəm lohi-dilə ruhfəza pərdəsini.

4 Aşiqi-qəmzədəyəm, halimə həm məmnunəm,
Bağladım mən bu bina ilə qiza pərdəsini.

5 Ruzimi ruzi-əzəldən verib ol Ruzirəsən,
Kim çəkər göydən enən dəmdə qiza pərdəsini.

6 **Nafiz**a, sanihələrlə qəza elə nəfsə,
Çəkib Ustadi-əzəl gör ki, qəza pərdəsini.

## ~ 426 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Can təlaşilə pəsənd etdim o çeşmi-nərgisi,
Paymal oldi cahan icrə bu eşqin müflisi.

2 Rastguluq mənzilində doğru söz dürdanədür,
Fərq olur arif dəmində həm düzi, həm əyrisi.

3 Hifz elə insanlığı, bədnam olmaqdan saqın,
İltihabi-yarədür aləmdə insanın pisi.

4 İstəsən əhvalımız bəzm içrə niran olmasın,
Məclisi-meyxanəyə cəlb eyləmə hər nakəsi.

5 Eşq bir cövhərdi kim, ariflərin ovsafına,
Qoyma eşqin cövhərindən pay aparsun iblisi.

6 Əl götür divanəlikdən, ey üsuli-eşq olan,
Hafizi-zehnündə qalsun **Nafiz**in ol tədrisi.

## ~ 427 ~

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Gəl ey saqi, qədəh ver kim, yetişdi eşqin əyyami
Ki, bir sağərlə bu dərdə qıla bilsən cərəncami.

2 Əbubəkri xəyal etsən, Əlini gör, Ömərdən keç,
Gətirmə xeyməyə şəhri-risalətlərlə Xəyyami.

3 Əzəldən bir günah etdim ki, əndərdim üzüm suyun,
Yuyulmaz bu günah, ey dil, əgər gərm eylə həmmami.

4 Bilirdim Zahidin bipiri-nirəng olduğun əlbət,
Genə təqvayi-himmətdə riya gördüm o bədnami.

5 Dübarə bir qədəh ver kim, bu sirri ərz edim, saqi,
Neçün sağərpərəst olmuş əzəldən **Nafiz**in nami.

## ~ 428 ~

**Həzəc-6: MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**

1 Bahar oldivü gülzarın açıldi qaşü qabaği,
Könüllər şad olan dəmnən xəzanın döndi növraği.

2 Dolub aşiqlərin qəlbi bir əzhari-lətafətlə,
Səadət nəğməsin çal, ey güləndamani-qıpçaği.

3 Dur, ey bülbül, bezən cəh-cəh, məlahət bəzminə boylan,
Avazinlə digərgun et çəməndə sağilən zaği.

4 Açılmış, qönçələnmişdir, fəqət əzhari-rəngarəng,
Satır tovri-lətafətlər, çəməndə lalə yapraği.

5 Dolur çeşmim fərağinlə gəl, ey siminbədən saqi,
Rəva görmə fərağ ilə ola çeşmim su oynaği.

6 Bu **Nafiz** zöhdü taqvadən keçib dünyayə bənd oldi,
Eşit, ey Xaliqi-xilqət ki, azad et bu dustaği.

## RÜBAİLƏR

**~ 1 ~**

**Rəməl-8: Fə’ilAtün / fə’ilAtün / fə’ilün**

Ey könül, atəşə pərvanəmisən?
Badeyi-eşq ilə məstanəmisən?
Aləmə qülqülə salmaq nə demək?
Sən də Məcnun kimi divanəmisən?

**~ 2 ~**

**Rəməl-3: FA’ilAtün / fA’ilAtün / fA’ilün**

Hər şeyin cövhəri mə´cun olmaz,
Eşq sirr olsa da məknun olmaz,
Çoxdu Leylayə bənzədən özünü,
Bu zamanda dəxi Məcnun olmaz.

**~ 3 ~**

**Xəfif-1: Fə’ilAtün / məfA’ilün / fə’ilün**

Xal üzündə necə də xalə yaxın,
Yavağun bənzərinə lalə yaxın,
Səri-kuyində qocaldım getdim,
Mehribanlıqda mənəm Zalə yaxın.

**~ 4 ~**

**Həzəc-11: Məf’Ulü / məfA’ilün / fə’Ulün**

Uğradım zalim olan səyyadə,
Cövrlər etmə dili-bərbadə,
Bisütun dağına vardım bir gün,
Özümi oxşadıban Fərhadə.

**~ 5 ~**

**Rəməl-8: Fə’ilAtün / fə’ilAtün / fə’ilün**

Genə zülfün dolaşır şanələrə,
Rəhm qılmaz dili-divanələrə,
Ləblərün zövqü şövqüm artırdi,
Məni çəkdi genə meyxanələrə.

**~ 6 ~**

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

Bazari-eşqə mən dəxi bir tazə müştəri,
Qoymaz özün bu səhndə hiç nazə müştəri,
Hərrac oluncə verməsə lə΄lün bəhasını,
Can qiymətində gözləməz əndazə müştəri.

**~ 7 ~**

**Rəməl-5: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

Aşiqin dillərə düşməkiliyi sevda illədür,
Onun aşüftəliyi bir güli-rə΄nə illədür,
Qülleyi-Qafə təmaşa eləyəndə biləsən,
Onun əfsanəliyi, zinəti-ənqa illədür.

**~ 8~**

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

Təqdiri-Xudadəndi yetən böylə əlamət,
Yetdi Rəsuli-Əkrəmə iqbali-səadət,
Me΄raci-şə΄ni-vüslətə rəfrəfsəvar olub,
Allahinə qul olmaq ilən tapdi risalət.

**~ 9 ~**

**Xəfif-1: Fə’ilAtün / məfA’ilün / fə’ilün**

Hani aləmdə bir yari-vəfadar,
Rəsuli-Əkrəmə olsun həvadar,
Əbubəkrü Ömər, Osmanü Heydər,
Həqiqətlər məqamində çaharyar.

**~ 10 ~**

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

Bizlər sari bir rəhgüzər etsən nə olur?
Gəlməzdən əzəl bir xəbər etsən nə olur?
Bağrım qanadi həsrəti-lə΄li-sitəmindən,
Ey yar, mənə bir nəzər etsən nə olur?

**~ 11 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

Yarımın ruzi-əzəldən açıqdi dərğahi,
Mən də Musa kimiyəm eşq kəlimullahi,
Gəlgilən cənnəti-mə’vayə, sən ey ayinətən,
De görüm handa taparsan belə seyranğahi?

# TƏXMİSLƏR (BEŞLƏMƏLƏR)

## ~ 1 ~

### Xacə Hafizin qəzəllərinə təxmislər

**Rəməl-5: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün**

- I -

Tükəndi cümlə sərmayəm, vəli gəlməz mədaxilha,
Məni-əfkəndeyi-zari kənar etdi mənazilha,
Dəmadəm **Nafiz**i sındırdi eşq içrə əzazilha,
*"Əla ya əyyushəs saqi ədri kə'sən və navilha,*
*Ke eşq asan nemud əvvəl vəli oftad moşkelha."*

- II -

Dəruni-halimi təsvir edər kilki-qəza şayəd,
Keçib ta dinü dünyadən ki, axər olmayım mürtəd,
Könül ayinəsin saf et ki, yoxdu eşqə bir sərhəd,
*"Be buye nafeye kaxər səba zan torre boqşayəd,*
*Ze tabe cə'de meşkinəş çe xun oftad dər delha."*

- III -

Bu eşqin kuçəsində bir görən varmi məni xürsənd,
Üveysasa cigərsuzəm, Şəqiq olmuş mənə manənd,
Ki hüşyar olmasa salik, nə hacət kim ana rişxənd,
*"Be mey səccadə rəngin kon gərət pire muğan quyənd,*
*Ke salik bixəbər nəbod ze raho rəsme mənzelha."*

- IV -

Bu eşqin mənzilində mən kədərlənmiş, xəfidərdəm,
Cəfa rəsmində məhzunəm, üqubətlərlə həmsərdəm,
Rəhi-eşqi-fərağ ilə xətadidə cavanmərdəm,
*"Məra dər mənzele canan çe əmne eyş çon hər dəm,*
*Cərəs fəryad midarəd ke bər bəndid məhmelha."*

- V -

Yatır qəlbimdə ülviyyət, mən olmam hər zada mail,
Əzəldən sahibi-qüdrət yaratmışdır məni fail,
Müqəddər hökm ilə, ey dil, bu can olmuşdursa zail,
*"Şəbe tariko bime moco girdabi çonin hayel,*
*Koca danənd hale ma səbokbarne sahelha."*

- VI -

Mənim qəmmazi-qövlümdə hüveydadır nədamətlər,
Tapulmuşdur rəhi-eşqimdə bürhani-kinayətlər,
Bu bədfərcam eşqin siqlətindən su içib əxtər,
*“Həme karəm ze xodkəmi, be bədnami keşid axər,*
*Nəhan key manəd an razi kəzo sazənd məhfelha.”*

- VII -

Dutubsan eşq məzurun, sehrpərdazi qo Hafez,
Qədəm qoy rahi-eşq içrə, həkimanə bero Hafez,
Müsəxxər qılmısan aləmləri irfanşəno Hafez,
*“Hozuri gər həmi xahi əzi ğayeb məşo* ***Hafez****,*
*Məta ma təlqa mən təhva də’əd dünya və əhmilha.”*

## ~ 2 ~

## Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün

- I -

Küfr əlində necə Bağdad kimi bərbadəm,
Neynəva mülkünə məmuri-dili-naşadəm,
Nə Vamiqəm, nə də Məcnun, nə Rəd, nə Fərhadəm,
*“Faş miquyəmo əz qofteye xud dilşadəm,*
*Bəndeyi eşqəmo əz hər do cahan azadəm”.*

- II -

Oda yaxdım bu zəif canımı, canından iraq,
Göz yaşım axdı qədəhlər dolusu, misli-əraq,
Kim aparsun bu hekayətlərimi yarə soraq,
*“Tayere-gülşəne-qodsəm çe dəhəm şərhe-fəraq*
*Ke dər in damegəhe hadise çon ofdadəm”.*

- III -

Yandı əhvalimə dil açdı gənə bərbətü ud,
Yandırar odlara cümlə mələkuti bu sürud,
Şükr həm duzəxin atəşlərinə, ya Mə’bud,
*“Mən mələk budəmo firdose bərin cayəm bud,*
*Adəm avərd dər in deyre-xərababadəm”.*

- IV -

1 Hicrdən köksünə tarın çəkilib bir neçə tar,
2 Dəstgahında zəban açmaq üçün pərdəsi var,
3 Cümlə eşq əhlini lovhindən edən bərxürdar,
4 *“Nist bər lohe-deləm coz əlefe qaməte-yar,*
5 *Çe konəm hərfe-degər yad nədad ostadəm”.*

- V -

1 Eşq mövlayə ənis olmağa ümmidi – dirəxt,
2 Hər Süleymanə münasib deyil tac ilə təxt,
3 Mərdü zən taleinə qismət ola əql ilə bəxt,
4 *“Kokəbe bəxte – məra hiç monəccem nəşinəxt,*
5 *Yarəb əz madəre – giti beçe talezadəm”.*

- VI -

1 Gərçi bir cam ilə buldum dəxi pərvaneyi – eşq,
2 Yürəgim əldə qədəhlər dolu peymaneyi – eşq,
3 Canı canana necə verməli məstaneyi-eşq,
4 *“Ta şodəm həlqebequşe dəre – meyxaneye-eşq*
5 Hər dəm ayəd ğəmiyəz no be mübarəkbadəm”.

- VII -

1 Gərçi insanlığa aləmdə bu qədr oldusa rəşk,
2 Cümlə küffarə cihad eylədi Bağdadü Dəməşq,
3 Hey zəmirində bu **Nafiz** qıla gör eşqini məşq,
4 *“Pak kon çehreye – **Hafez** be səre-zolf’ze əşk,*
5 *Vərnə in seyle – dəmadəm bebərəd bonyadəm”.*

## ~ 3 ~

## Mövlana Lütfinin qəzəlinə təxmis

### Müctəs-1: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilAtün

- I -

1 Eşq mülkündə deyərdim görmüşəm agahını,
2 Bu qəhərli sinəmin görsəydin atəşgahını,
3 Naleyi-ahü fəğanim yandırar xərgahını,
4 *“Gögdədür hər dəm fəğanim görgasən mahını,*
5 *Də’viyi-mehrimğə danuğ dartda gər mən ahını.”*

- II -

Qəlbimə hakim olannan gərçi hicranın əli,
Günlərim səbr ilə ötdi, xatirim işkəncəli,
Olmuşam divanələr sərdəftərində bir dəli,
*“Sən təki sultani sevmək həddim irməzdür, vəli,*
*Bu bəlaliğ eşq fərq etməz gədadən şahini.”*

- III -

Cazibi-çeşmi-siyahin iştə sehrin mə’dəni,
İstəyir zülmatə salsun zülfü şəbrəngin məni,
Qoyma könlüm şəhrin işğal eyləsin bir ərməni,
*“Daneyi-xalın təmənnasında, ey gül xirməni,*
*Rəhm qıl kim, çöhreyi-zərdim basur dərgahını.”*

- IV -

Getdi taracə gülüstan, qaldı səhra bülbülə,
Yoxdu bir qeyrət çəkən kim, çeşmimin yaşin silə,
İştiyaqi-zülfün oldi boynuma bir silsilə,
*“Zülfüni yüzün fərağində dutan həsrət bilə,*
*Heyf kim, zaye keçirdi munca salü mahını.”*

- V -

Binəva **Nafiz** təki düşdüm bəla səhrasına,
Ahü fəryadım gedib çatdi fələklər tasına,
Yoxdu bir mə’naşünas, bu mətləbin sirrin qana,
*“**Lütfi**ni qovma eşigdən, ver zəkati-hüsn ana,*
*Handa etsün sən qəni barəndişi Allahını.”*

**~ 4 ~**

## Seyid Nəsiminini qəzəllərinə təxmislər

### Həzəc-6: MəfA’ilün / məfA’ilün / məfA’ilün / məfA’ilün

- I -

Gəl ey saqi, bu gülzarə, rəva qıl, feyzi-ənzarın,
Qədəh doldur, səfa gəlsin, dili-zarinə əhrarın,
Bu narın abi-nisandan açıldi rəngi əzharın,
*“Bahar oldi vü açıldi yüzündən pərdə gülzarın,*
*İrişdi qönçənin dövri, zəmani qalmadi xarın.”*

- II -

Dolub rəxşəndeyi-aləm, cəhanın gülüzarından,
Səfa qövlün şüar eylər, ayırmaz yari yarından,
Çəkər güllər lətafət, feyz alar, həm dəm həzarından,
*“Gülüstan Turi-qüds oldi, baharın nurü narından,*
*Gəl ey Musa, gör asarın, çəməndə nur ilən narın.”*

- III -

Bu mə’nani sual eylər, hərə  öz dilbərindən kim,
Duyar aşiqlərin qəlbi, bu sirri əzbərindən kim,
Fəqət ayri düşərmi hiç ərəz öz cövhərindən kim,
*“Nə ənbərdir dutan, yarəb, şəqayiq məcmərindən kim*
*Ki, buyindən anın qədri sınıqmış mişki-tatarın.”*

- IV -

Səfa bəxş eyləyər qəlbə, kimin yar olsa həmtayi
Ki, aramım alıb əldən, mənim bir saçı xurmayi,
Bədəndişə əlamətdən ki, rəngim oldi çəhrayi,
*“Gəl ey siminbədən saqi, mənə sun cami-səhbayi*
*Ki, gəldi rövnəqi-güldən, meyi-gülrəngi-xummarın.”*

- V -

Cigərqan oldun ey bülbül, fəğanın qayəti noldi,
O vəsfin qıldığın güllər xəzan olduqda həp soldi,
Genə saqi məramilə həmən peymanələr doldi,
*“Bu musiqidən ey same’, sana gər nəsnə kəşf oldi,*
*Məqamatın bəyan eylə üsulun, göstər ədvarın.”*

- VI -

Yanar qəlbim fərağündə, düxanın görmək istərsən?
Dedim: bəlkə bu növrağın asanın görmək istərsən,
Gəl ey **Nafiz**, **Nəsimi**nin lisanın görmək istərsən,
*“Bu gün gər aləmül-qeybin nişanın görmək istərsən,*
*Rəyahin us bəyan eylər zühurun çərxi-səyyarın.”*

## ~ 5 ~

### Rəcəz-1: Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün

\- I -

1 Çəmənlər rəng-rəng oldi, boyandi sirri-əsrarə,
2 Bu mə'nadən xəbər getmişdi hərçi yardən-yarə,
3 Salıbdır çoxların saqi, meyi-gülrəng xummarə,
4 *"Bahar oldi, gəl ey dilbər, təmaşa qıl bu gülzarə,*
5 *Buraxdi qönçələr pərdə bəşarət bülbüli-zarə."*

\- II -

1 Təbiət mö'cüzat ilə yaratmış bir baharıstan,
2 Gözəllər zərxara geydi, büründi şalü atlasdan,
3 Gəlib bülbül fəğanə nəğməsaz etdi neçə dastan,
4 *"Şəqayiq pərdədən çıxdi, boyandi bağ ilə bustan,*
5 *İrişdi gülşənin hüsni, boyandi rəngi-əzharə."*

\- III -

1 Baharın hüsnü qovğası ayırmaz Qafidən-Qafi,
2 Tutubdur cümlə üşşaqə əlində sağəri-safi,
3 Mənə lütf eylə, ey saqi, şərbi-nabi, insafi,
4 *"Məni mən' etmə, ey zahid, güvənmə zikrə, ey sufi,*
5 *Ki, sən məğrursan zikrə, mənəm müştaq dildarə."*

\- IV -

1 Ki, mişki-ənbərə bənzər çəməndə lalənin xali,
2 Əzəldən daği-həsrətdir, kim, olmaz xalidən xali,
3 Ayırsa arifi-irfan ki, hərfi zal ilən dali
4 *"Ki, hər bəlhüm əzəl bilməz nədir kim, eşqin əhvali,*
5 *İrişməz qasirin əqli bu müğləq sirri-əsrarə."*

\- V -

1 Fəqət sərvü sənubərlər bir ayri cür təmaşadır,
2 Qərənfil, yasəmən, şəbbu, qızıl güllər mütərradır,
3 Qədəhlər qaldırıb lalə, sanırsan cami-səhbadır,
4 *"Açıldi nərgisü lələ dutubdur yasəmən çadır,*
5 *Söyütlər, ərğəvan titrər, qamışlar mindi ənharə."*

- VI -

Qədəhlərdə mey aramın tutubdur, xeyli gülgündür,
Mənim **Nafiz** olan könlüm, qəmi-eşq ilə üzgündür,
Bu əhvalı görüb nərgis, cigərxun, hali qəmgindür,
*“Bənövşə, gül təmaşasi, qənimət bil ki, beş gündür,*
*Satar mə’şuqə gül hüsnün, xəridar ol bu bazarə.”*

- VII -

Əzəldən əqlin almış bir güli-rə’na Nəsiminin,
Dilində xeyli əzbərdür, qəmi-Leyla Nəsiminin,
Yetişsə dəstinə bir dəm, yədi-Beyza Nəsiminin,
*“Yaxıldi canına cani dəmi-İsa **Nəsimi**nin,*
*Vüsali-dərdinə dərman, irişdi cani-bimarə.”*

## ~ 6 ~

## Cahanşah Həqiqinin qəzəlinə təxmis

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

- I -

Ətri-mişki-ənbərin zülfi-pərişanındadur,
Sidri-tuba haləti, sərvi-xuramanındadur,
Şahbazi-həmlələr kim, ey pəri şanındadur,
*“Elmi-tövhid ol ləbi-nitqi-dirəfşanındadur,*
*Vəhdətin cami-meyi, lə’li dirəxşanındadur”.*

- II -

Şiveyi-rəftarinə artır əzabi aşiqin,
Nəğmeyi-“Sarəng”də susmuş rübabi aşiqin,
Bu təhəyyür ilə bağlandı kitabi aşiqin,
*“Lövhi-məhfuzundadur yövmül-hesabi aşiqin,*
*Həlqeyi-dami-bəla zülfi-pərişanındadur”.*

- III -

Həbbəza, lə’li-ləbindan aldı kim, rəngin şərab,
Ol səbəbdən bağrımi büryan edib qıldi kəbab,
“Qülhü Allahü Əhəd” bir aç kitabı bab-bab,
*“Surəti “-inna fətəhna”dur xəti-ümmül-kitab,*
*Ayeyi-“fəthən mübin” ol surətin şanındadur”.*

- IV -

Mən bu mə’nadə durub sidq ilə bir yahu çəkim,
Çıxsana, ey canimin cani, vəfa təxtinə kim,
Eşq camin ver, nişat et qəlbimi sən, ya həkim,
*“Layəzali-məsti-eşq oldum mən ol mə’nidə kim,*
*Kövsərin xəmri nigarin abi-heyvanındadur”.*

- V -

Sureyi-“vəlleyl”də təşviq olan an zülfdür,
Mə’nəvi əhvalimə hali, pərişan zülfdür,
Aşiqin imani im’an, küfrü iman zülfdür,
*“Surəti-“vəşşəms” “vəlleyl” ənbərəfşan zülfdür,*
*Aşiqin dini məgər kim, küfrü imanındadur?”*

- VI -

Cənnəti-kuyində mən göz yaşimi qıldım səbil,
Güllərə nəşvü nüma verməkdədür ol abi-gil,
Aşiqin mirati-qəlbi saf olur həm mö’tədil,
*“Ləbləri camindədür “eynən təsəmma səlsəbil”,*
*Qabi-qövseyn ol cəmalin ərşi-rəhmanındadur”.*

- VII -

Ey könül, xoşnud ikən fəsli-baharındır döyün,
Yapmısan əlmasü yaquti-zəbərcəddən öyün,
Vəsf edər müştaq ilə **Nafiz** də əlbət gördügün,
*“Çün* ***Həqiqi*** *ol ləbi-dəndani şərh eylər bu gün,*
*Gövhərin xasiyyəti nitqi-dürəfşanındadur”.*

## ~ 7 ~

## Əmir Əlişir Nəvaini qəzəllərinə təxmislər

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

Olmuşam gərçi gözün fikrin çəkib bimar mən,
Hər gecə şəbgir bəzmində qalam bidar mən,
Qəm büsatın feyz qıldım hər nəfəs qəmxar mən,
*“Yar ilə əğyar azarindən olurkən zar mən,*
*Kim təni-zarim kimi başdan ayaq azar mən”.*

- II -

Çövri-nazın çəkməyə oldum fəqət məmduh mən,
Atəşi-tufanə düşdüm həm Xəliləm, Nuh mən,
Məhv olub gör kim vücudim, qalmışam bir ruh mən,
*“Yari-zülmi-tiğdən könlüm kimi məcruh mən,*
*El cəfasın çəkməyə bağrım kimi əfkar mən”.*

- III -

Sanma kim, bu cövrü zülmündən qalam xalid mən,
Daima hicranına səbr eylərəm cahid mən,
Qəm qəm olmazdi əgərçi olmasam naşid mən,
*“Yar halın anlamaq ümmididən navmid mən*
*Xəlqinin yüz möhnətü peykardən nakar mən”.*

- IV -

Gözlərin yadiylə aldı canımi azarlər,
Hər görəndə bağrımın qanın tökər ənzarlər,
Gözlərimə sancılır hər dəm çəməndə xarlər.
*“Qəm yemək bulmuş işim, yoxdur vəli qəmxarlər*
*Türfə iş kim gərçi biqəmxar mən, qəmxar mən”.*

- V -

Olmasa gərçi pərirulər yanında rif’ətim,
Bivəfanın daima nəfsin qırar ülviyyətim,
Bəs nədəndür zəhr camilə bulandi şərbətim,
*“Can təlaşindən nə dərdim bəllidür, nə sihhətim,*
*Nə ölü mən, nə diri, nə sağ, nə bimar mən”.*

- VI -

Can desəm hər nakəsə ərkani bilməzdür əcəb,
Bivəfaliq surətindən ölsə dönməzdür əcəb,
Bu cahanda mərd olub bir ömr sürməzdür əcəb,
*“Gər başım alub cahandan çıxsam irməzdür əcəb,*
*Kim məlul əhli-cahandan anca dersən var mən”.*

- VII -

**Nafiz**a, dildar qətlimçün nəzərsəhm eyləsə,
Yarə üstən yarəmə vurmaq əgər fəhm eyləsə,
Xəstəhal olmuş vücudim dövrəsin zəxm eyləsə,
*“Ey **Nəvai**, ömr əgər budur, əcəl rəhm eyləsə,*
*Gəlsə canim almağa, can birlə minnətdar mən”.*

## ~ 8 ~

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

1 Getdi dildən taqətim, bir dilsitani tapmadım,
2 Eşq mülkündə bir asudə zəmani tapmadım,
3 Xubilər bəzmində bir şəkkərdəhani tapmadım,
4 *“Mehri çox görkəzdim, əmma mehribani tapmadım,*
5 *Can bəsi qıldım fəda, arami-cani tapmadım”.*

- II -

1 Zərri-xalis olsa da, kamil əyari görmədim,
2 Bəli dünya fırlanır, mən xoş mədari görmədim,
3 Eşq mülkündə özümtək şərmsari görmədim,
4 *“Qəm bilə canimğə yetdim, qəmküsari görmədim,*
5 *Hicr ilə dilxəstə buldum, dilsitani tapmadım”.*

- III -

1 Yar hicrində riyazətlər keçirdim bir zəman,
2 Ol zəmandan dərdimin dəf’inə eylərdim güman,
3 Oxladi müjgan oxilə sinəmi əbrukəman,
4 *“Eşq ara yüz min məlamət oxinə buldum nişan,*
5 *Bir kəman əbrudə düzlükdə nişani tapmadım”.*

- IV -

1 Ey fələk, yüz cövr ilə başımda sındır girdəkan,
2 Cövrün əyyami-əzəldən sinəmi etmiş məkan,
3 Dərdi-qəm ənbari tək sinəmdə açmış bir dükan,
4 *“Könlüm içrə sərv oxdur, qönçə peykan, gül tikan,*
5 *Dəhr baği içrə bundan gülsitani tapmadım”.*

- V -

1 Gülşəni-kuyində bir fərxəndə halim görmədim,
2 Vüsləti-yarə nüfuz eylər xəyalim görmədim,
3 Çox dolandım eşq mülkündə bir alim görmədim,
4 *“Hüsn baği içrə sən tək şahi-zalim görmədim,*
5 *Eşq kuyində özüm tək natavani tapmadım”.*

- VI -

Nalənin çəkdim dəmadəm hicr ilə zilin-pəsin,
Səbrimin eyvaninə çəkdim onun bir pərdəsin.
Sərnəvişti-dasitanın gəl oxi sərlövhəsin.
*“Çox oxurdum Vamiqü Fərhadü Məcnun qissəsin,*
*Öz işimdən büləcəbrəq dasitani tapmadım”.*

- VII -

Qaldı şətrənci-xəyalim cəngdə bir atla heyf,
Ləşkəri-Rus aldi dünyani nə təxribatla heyf,
Sinəmə çəkdi tüfəngin doldurub sursatla heyf,
*“Təb’i-gəncidən mə’ani xürdəsin yüz qatla heyf,*
*Kim nisar etməgdə şahi-xürdədani tapmadım”.*

- VIII -

**Nafiz**a, ustadlər bəzmində hüşyar ol ki, sən.
Hacət al feyzi-hünərdən, olgilən şirinsüxən,
Arizu eylərmisən kim, cümləsin gülgülkəfən,
*“Ol aman içində bulsun, ey* ***Nəvai****, gərçi mən.*
*Bir zaman eşqində möhnətdən amani tapmadım”.*

**~ 9 ~**

## Kişvərini qəzəllərinə təxmislər

### Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

- I -

Ayağın tozuni izlər gözüm ta kim qübar olcaq,
Şərafətdür ayağun toprağında xaksar olcaq,
Edər xəndə rəqibim, aləm içrə şərmsar olcaq,
*“Məni mən’ etmə, ey zahid, fəğandan ruyi-yar olcaq*
*Ki, bülbülnin fəğandan ixtiyari yox bahar olcaq”.*

- II -

Doyunca daği-həsrət çəkdim ol çeşmi-xumarimdən,
Güli-surətnüma sərbəstə qaldi nobəharimdən,
Ayırdi zülm ilə gərdun məni busi-kənarimdən,
*“Nə yarimdən vəfa gördüm, nə xoşluq rüzgarimdən,*
*Vəfalu yar həm xoşdur, cəfayi-rüzgar olcaq”.*

- III -

Şirin cümlə dilindən duymadım, sordum güvahindən,
Mübarək badəsin almış, keçib könlüm təbahindən,
Nə bir rəmz anladım yarin sözündən, istilahindən,
*“Fələk eyvaninə hər yan düşər od könlüm ahindən,*
*Yıxar tufan səlamət evini çeşm əşkbar olcaq”.*

- IV -

Mənə sövdayi-zülfündən gəlib bir nüsxeyi-cəli,
Pərirulər əyağinə tökülsə çeşmimin lə’li,
Neçə düşnam verdün gündə lə’lündən dedim bəli,
*“Vəsiyyətim bu kim andan qoparma, ey səhər yeli,*
*Səri-kuyində bu xaki, təni-zarim qübar olcaq”.*

Bu qəzəldə təxəllüs olmadığı üçün
mən də öz təxəllüsümü yazmadım.
**Nafiz**

**~ 10 ~**

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

- I -

Kuyin təvafın eyləyirəm mən kənarədən,
Açıldı sanki eşqi-şəhab istixarədən,
Bağrım ki, yandi ahim odiylə şərarədən.
*“Könlüm nəsibi çünki bəla qıldı yarədən,*
*Tabi-bəla gətürmədi can çıxdı arədən”.*

- II -

Sərgərdan ahulər kimi kuyin ayağlasam,
Eşqin kitabını açıban hey varağlasam,
Ehrami-Kə’bə tək, sənəma, qarə bağlasam.
*“Çeşmimdən, ey qəzalə, fərağində ağlasam,*
*Pərkalələr düşər cigəri-parə parədən”.*

- III -

Hüsnün təfavüt eyləməzəm mehrü mah ilən,
Küyin səfası cilvələnir xanəgah ilən,
Xəlvətsəradə qanımı tökdün rimah ilən,

4 *“Könlüm qəra qılur yüzüni sənsiz ahilən,*
5 *Qurtar xuday için məni bu yuzi qarədən”.*

- IV -

1 Bilməm nədir axır fələkin istədikləri,
2 Yüz möhnət ilə sinəmə dəydi təpikləri,
3 Gördi rəqib halimi çaldi çəpikləri,
4 *“Baş ağrıdur səhər bu müəzzin dedikləri,*
5 *Yarəb ki, uçursun ani Tari minarədən”.*

- V -

1 İndi bu kəc zəmanədə kim qaldi sevməli?
2 Hər mərdü zən xəyal elə kim büsbütün dəli,
3 Adəm qiyafətində qalıb qan soran zəli,
4 *“Könlündə hiç rəhmi yox ol dilbərün bəli,*
5 *Mehri-giyah bitməz olur səngi-xarədən”.*

- VI -

1 Dinlə vəsiyyətim, əməl et, əyyühənhəbib,
2 Ölsəm Nəcəfdə dəfn eləyin olsa gər nəsib,
3 Ömrüm fənayə yetmədədür sanki ənqərib,
4 *“Bimarlıq nəhayətə yetdi, gör ey rəqib,*
5 *Gurü kəfən yərağı ki, iş ötdü çarədən”.*

- VII -

1 Çərxin nizami pürxəm olub döndi tərsinə,
2 Aləm təmaşa qıldi onun məkrü fəndinə,
3 **Nafiz** əzəldə düşdi məlamətli təhrinə,
4 *“Kiprikləri xəyalinə, ey **Kişvəri**, genə,*
5 *Könlüm bulub kəbabü asıldi qənarədən”.*

**~ 11 ~**

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

- I -

1 Mehribanlıq aləmində bəllidür saralığın,
2 Can alan kəslər gərək göstərməsin qovğalığın,
3 Aləmi-vüslətdə bir dəm dutmasın tərsalığın,
4 *“Necə kim xəlqi dirildur şivəvü rə’nalığın,*
5 *Vəh kim öldürdü məni məstivü bipərvalığın.”*

- II -

Bir nigari-nazəninsən kim dəmadəm sevməli,
Gərçi canımdur əyağın altına əlvan xəli,
Şivəkarlıq adətindən büsbütün aləm dəli,
*“Zülməti-zülfün əgərçi afəti-candur vəli,*
*Abi-heyvan şərbətidür lə’li-ruhəfzalığın.”*

- III -

Qəmzə tiği bəllidür arami məndə qoymadi,
Nəfsi-halim sinənin narın dərəndə, qoymadi,
Ləblərin dürdanəsində bircə xəndə qoymadi,
*“Vəh nə məclisdür bu kim, hər cani təndə qoymadi,*
*Ol qiya baxuşlarun, adabi-bəzmaralığın.”*

- IV -

Olmaseydi xüblər nazü nizamində dəgər,
Xal-mişkini bəha əbruləri həm cilvəgər,
Gərçi ol şirin zəbanında əzilmişdür şəkər,
*“Çıxmaya eyvani-xavərdən dəxi xurşid əgər,*
*Çəksələr anda sənün bu surəti-zibalığın.”*

- V -

Gözlərin yadiylə boylandi bu dəm gülşəndə gül,
Ləblərin peymanəsindən almışam bir cami-mül,
Məsti-çeşmin tə’sirindən olmuşam aləmdə lül.
*“Yüzidən bürqə götürdi ol pərivəş, ey könül,*
*Vəh ki, yetdi tilbəlik çaği bilə rüsvalığın.”*

- VI -

Görməmişdi seyrdə gül ruyi-həmrasın məgər?
Duymamışdi narəvən bu sərvi-balasın məgər?
Xubrulər görməsəydi zati-əşxasın məgər,
*“Sürmeyi-naz ilə görsən çeşmi-şəhlasın məgər,*
*Bilsən, ey nərgis ki, yarutmaz səni şəhlalığın.”*

- VII -

**Nafiz**in ikraminə gəl, ey gözəllər sərvəri,
Gərçi ariflər seçər bunda ərəzdən cövhəri,
Gərdənində bir çələng et susəni, nilufəri,
*“İştə can verdi qəmindən xəstəxatir **Kişvəri**,*
*Hani, ey ruhi-mücəssəm, ol dəmi-İsalığın?”*

**~ 12 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

\- I -

Könüllər qan olur sənsiz ki, sanki lalə yaprağı,
Əzəldən qanla sir olmuş cahanın qarə toprağı,
Tükəndi səbrü aramım dolandır, saqi, bardağı,
*"Bahar oldivü açıldi çəmən göyçəklərin bağı,*
*Qucaqlaşdi gülü sünbül, dodaqlaşdi meyü saqi."*

\- II -

Şəriət var bu aləmdə, şəriətni qənimət bil,
Risalət adətin saxla, təriqətni qənimət bil,
Bu mənzildən kənar olma, həqiqətni qənimət bil,
*"Gəl, ey saqi, qədəh vergil, bu söhbətni qənimət bil*
*Ki, bəllidür nə qalubdur bu fani ömrdən baqi."*

\- III -

Onu xəlq eyləyib xaliq bütün afaqə göstərmiş,
Dəhani lə'li-mərcandursa, simasi güli-tərmiş,
Sinəsi nəsrini şərməndə qılmışdır nilufərmiş,
*"Nə xülqi hüsndür, yarəb ki, ol ayə Xuda vermiş,*
*Pəridən hüsnü artıqdır,mələkdən qalib əxlaqi."*

\- IV -

Nəvaziş göstərib axır məni biçarə qıldılar,
Sitəmlə sinəmin ayinəsin sədparə qıldılar,
Pərilər həq divanında yüzümi qarə qıldılar,
*"Vətəndən, ey diriğa kim, məni avarə qıldılar,*
*Siyəhçeşmani Kəşmiri, güləndamani Qıpçağı."*

\- V -

Qəzadən pürtəlatüm buldi əncamım yenə vəh kim,
Məzəmmət xaninə nam oldi ikramım yenə vəh kim,
Dolandi ruzigarım bitdi həngamım yenə vəh kim,
*"Qəmin aldi qərarü səbrü aramım yenə vəh kim,*
*Mənim evimdə qarətdür, görünməz eldə heç bağı."*

- VI -

1 Vəfa sərmənzilin gəzdim, fəqət qaldım sorağ içrə,
2 Qəmindən sərbəsər dustağə döndim bir otağ içrə,
3 Sən ey hurinəsəb, daim ömür sür təmtərağ içrə,
4 *“Ləbin üzrə xəti-səbzin bitəndən bərlü bağ içrə,*
5 *Yürəgi təbteyi-qandur, açılsa qonçə ovrağı.”*

- VII -

1 Məlahət gülşənində məhliqasən, ey güli-nəsrin,
2 Saçın əndişəsin çəkmiş, edər can sinəmi tərkin,
3 Şikəstə **Nafiz**im, dur bir avaz ilə oxu Yasin,
4 *“Qızardi* ***Kişvəri****nin yüzi xuni-dil bilə, leykin,*
5 *Qara xalin xəyalində, qaraldı gözləri ağı.”*

## ~ 13 ~

## Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

1 Qəlbimi tə’mir qıldın, cana, novki-tir ilən,
2 Könlümün dinlənməsi mümkün deyil tə’xir ilən,
3 Mən bu əhvali necə şərh eyləyim təhrir ilən,
4 *“Düşdü könlüm dami-zülfün bəndinə təqdir ilən,*
5 *Öylə kim, qurtulmaği mümkün iməs tədbir ilən.”*

- II -

1 Dil pərişanlıq çəkib bağlandı qəddi-ruyinə,
2 Könlümün pərvanəsi boylandı ruyi-muyinə,
3 Məst olub heyrətdə qaldım zülfi-mişkinbuyinə,
4 *“Həlqə-həlqə kakilün cırmışdı könlüm boyinə,*
5 *Necə kim, aslanı bağlarlar iki zəncir ilən.”*

- III -

1 İntizar etmə, gülüm, zülfündəki həmxanəni,
2 Söyləgil Fərhadü Məcnunə belə əfsanəni,
3 Etmə işğal, ey sənəm, könlümdəki viranəni,
4 *“Zinhar, ey həmnişin, söylətmə mən divanəni,*
5 *Kim, tükənməz bu mənim dərdi-dilim təqrir ilən.”*

- IV -

Xatirim bağü behişt rö'yasın istər hər gecə,
Laleyi-rüyin güli-həmrasın istər hər gecə,
Ənbərəfşan kakülün yəğmasın istər hər gecə,
*"Tilbə könlüm çün saçun sevdasın istər hər gecə,*
*İstərəm könlüm muradın naleyi-şəbgir ilən."*

- V -

Ol kəmanəbru nədən aşiqləri nəxcir edib,
Tiri-çeşmilə bu gün can almaği tə'xir edib,
Kasə-kasə qanimi, **Nafiz**, içibdir, siyr edib,
*"Sizni görgəc* ***Kişvəri*** *can vermədi, təqsir edib,*
*Qulluğuna gəldi iştə yüz tutub təqsir ilən."*

**~ 14 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

- I -

Sənin hicrində xoşhaləm, pərilər min qətar olsa,
Nə fərqi bu cahan içrə nə Kəşmirü tətar olsa,
Məni-biçarəyə hər dəm himayə kirdigar olsa,
*"Qəriblik ixtiyar etməz kimin ki, yari yar olsa,*
*Dirilməz yarsız bir dəm kişi gər ixtiyar olsa."*

- II -

Nigarim mehribanlıqdan səvayi bir əda bilür,
Özün sultani-aləmdən, bizi hərgiz gəda bilür,
Məşəqqətlər çəkən könlumni kuyində fəda bilür,
*"Bu dirligdən mənə yegdir eşigində Xuda bilür,*
*Ləgədkubi-cəfa birlə təni-zarim qubar olsa"*

- III -

Əzəl dust idi, işrətlər, nəvazişlər, rica qıldi,
Şirin söhbətlər artırdi, kəlam ilə heca qıldi,
Dolandi ruzgarım keçdi, əyyamım düca qıldi,
*"Səninlə ol məhəbbət kim mənim könlümdə ca qıldi,*
*Ani aşkarə qılmaz mən qiyamət aşkar olsa".*

- IV -

Vücudim xakə dönsə bivəfalərdən məni sanma,
Yanıb nari-qəmə pərvanələr tək hiç alovlanma,
Ədalət naminə hərgiz mən aldandım, sən aldanma,
*“Rəqiblər cövrini çəkmək mana asandurur əmma,*
*Əgər sən yari-canidən könül ümmidvar olsa.”*

- V -

Budur nalə çəkir **Nafiz**, itirdi yarü yoldaşın,
Əgər viranələrdə naləsin duydunsa xəffaşın,
Genə ol mahi-gülçöhrə edib tiği-əcəl qaşın,
*“Yolunda oynadır, cana, qələndər **Kişvəri** başın,*
*Əgər qövlün ola, qövlü qərarun bərqərar olsa.”*

## ~ 15 ~

## Füzulinin qəzəllərinə təxmislər

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

- I -

Arizində xali-mişkindən səva bərca nədir,
Sünbülüm, sərvim, fərağində güli-həmra nədir,
Zülfünə müşki-müəttər, ənbəri-Sara nədir,
*“Öylə sərməstəm ki, idrak etməzəm dünya nədir,*
*Mən kiməm, saqi olan kimdir, meyi-səhba nədir”.*

- II -

Dəhr qəhrin çəkməyə könlümdə aram istərəm,
Cövrü nazın adətindən rəsmi bayram istərəm,
Dəhrdən təcrid olub Məcnun kimi nam istərəm,
*“Gərçi canandan dili-şeyda üçün kam istərəm,*
*Sorsa canan bilməzəm kami-dili-şeyda nədir”.*

- III -

Eşq mənzurin gedib Fərhaddən etdim sual,
Ərz qıldi olmagil bu babdə Xosrovxisal,
Olmasan səhranəvərdi-dəhrdə Məcnun misal,
*“Vəsldən çün aşiqi müstəğni eylər bir vüsal,*
*Aşiqə mə’şuqdən hər dəm bu istiğna nədir”.*

- IV -

Eşq mizani cahan əhlinə bir tarif degil,
Ol kəsin meydanidür kim, eşqdən xaif degil,
Eşqdən dərs almayan kəs hikmətə vaqif degil,
*“Hikməti-dünyavü mafiha bilən arif degil,*
*Arif oldur bilməyə dünyavü mafiha nədir.”*

- V -

**Nafiz**a, Allahimə qıldım zəkat üçün qəmi,
Gözlərimin əbri-nisandan füzundur şəbnəmi,
Eşq rahində sərasər tut təriqi-Ədhəmi,
*“Ahü fəryadın,* ***Füzuli****, incidibdür aləmi,*
*Gər bəlayi-eşq ilə xoşnudisən qovğa nədir”.*

**~ 16 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

- I -

Qubari-qəm könüldə dərdi-hicran etdigimdəndür,
Qəmi-ənduhim olduqca fəravan etdigimdəndür,
Cigər qanilə hər daşi Bədəxşan etdigimdəndür
*“Pərişan xəlqi-aləm, ahu əfğan etdigimdəndür,*
*Pərişan olduğum, xəlqi pərişan etdigimdəndür.”*

- II -

Məlahət gülşənində bəslənər zənbağ, həm lalə,
Salar fəsli-xəzan əlbətdə ani özgə bir halə,
Xiyali-zülfün ilə qamətim, cana, dönüb nalə,
*“Gözüm kim bağrımın qanın tökər pərkalə-pərkalə*
*Dəmadəm arizuyi-lə’li-canan etdigimdəndür.”*

- III -

Görüb rüsvayi-aləm olduğum tən etdi yoldaşlar,
Əgilmiş binəvalığdən, vəfa rahində çox başlar,
Muradım gülşəkər ikən, nəsibim oldi xaşxaşlar,
*“Deyil bihudə gər yağsa, fələkdən başimə daşlar,*
*Binasin tişeyi-ahimlə viran etdigimdəndür”.*

- IV -

Bu cani nəzr qıldım canına, canan həbib olsa,
Səhərlər səy qıllam, bu dualər müstəcib olsa,
Məni şirin təam eylər, vüsalın ənqərib olsa,
*“Xəta səndən deyil, cismim oxundan binəsib olsa,*
*Hübabi-əşki-gülgun içrə pinhan etdigimdəndür”.*

- V -

Vəziri-xazinəm, şətrənc ilə mat eyləyib şahim,
Özüm müflis tək qaldım, üzüldi dövlətim, cahim,
Bəlali **Nafiz**əm seyli-sitəmlə ləngidim rahim,
*“**Füzuli**, ixtilati-mərdümi-aləmdən ikrahim,*
*Pərivəşlər xəyalin munisi-can etdigimdəndür.”*

## ~ 17 ~

## Üsulinin qəzəlinə təxmis

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

Varmı bir şirinsüxən vəsfündə xamuş eyləyən,
Qalmadi aləmdə dərd əhlin dərağuş eyləyən,
Ayeyi-rəhmətdə şövq ilən “dəbərnuş” eyləyən,
*“Cami-lə’lündür dəmadəm cani mədhuş eyləyən,*
*Qanə-qanə qanıni bidillərin nuş eyləyən”.*

- II -

Ey bənim şəni’-nüzulim birlə bitəb’ ərz edib,
Bir qələndər nam-nəng hədyanlari şəb ərz edib,
Bu təcəllani bizə bir mahi-Nəxşəb ərz edib,
*“Ey ləbi camın, iraqlardan ləbaləb ərz edib,*
*Şövq ilə cani ülul-əl-babi bihuş eyləyən”.*

- III -

Şəm’inə pərvanələr hicr ilə qəmnak oldu, gəl,
Sinəmin ayinəsi məqsumi-sədçak oldu, gəl,
Bu xərabə mülkdə bax gör nə məllak oldu, gəl,
*“Kaseyi-sər hicr ilə peymaneyi-xak oldu, gəl,*
*Hey bizimlə əhdü peymanın fəramuş eyləyən”.*

- IV -

Sanma ərkani-təriqətdən məni məhcurdur,
Gərçi idraki-xəyalim zöhd ilə pürnurdur,
Gər günəhkarəmsə eşqündən vəli məbrurdur,
*“Hər nə yüzdən gözləsə, didardən məxmurdur,*
*Can gözinə pərdeyi-pindari rupuş eyləyən”.*

- V -

**Nafiz**a əmdən təməssül etmə hər sərdabiyə,
Bu mühübbətlə təcahüllər keçər qüllabiyə,
Bu qiyafətlə inanma zahidi-zərdabiyə,
*“Ey **Üsuli** lütfüni qəhr içrə qılmış təbiyə,*
*Nuri-sübhi, zülməti-şamə həmağuş eyləyən”.*

## ~ 18 ~

## Mühibbi təxəllüsli Sultan Süleyman Qanuninin qəzəllərinə təxmislər

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

Qəm qəm üstündən gəlirsə ahü zarımdır bənim,
Qüssələr salim bu canımda azarımdır bənim,
Nəqdi-canım sərf edəm, çünki bazarımdır bənim,
*“Bir dəm əksilməz yanumdan dərdi-yarumdur bənim,*
*Olamaz tənha, qomaz qəm, qəmgüsarımdur bənim.”*

- II -

Tale’im pərsəng urub, dövran dönüb tərsinəmi,
Ehtişami-eşq ilə bərhəm qəza sehrinəmi,
Eşqdən qəvvas olub, düşdüm bəla bəhrinəmi,
*“Naxun ilə gülsitan etsəm nola bu sinəmi,*
*Əşki çeşmum durmaz axır çeşməsarumdur bənim.”*

- III -

Arizumuz bəllidur, yetməz diləklər səqfinə,
Ah bitə’sir olub, dəyməz yurəklər səfqinə,
Bu Məsihənfasızmuz yetdi mələklər səqfinə,
*“Dudi-zəncir ilə asılan fələklər səqfinə,*
*Görünən qəndili-ahi-pürşərarımdur bənim.”*

- IV -

Qəm büsatından keçib aşiqlərə, sevdalıyam,
Rüstəmi-eşqəm cəhanda rahi-eşqin Zalıyam,
Kərbəla zülmün fəhiməm, Neynəvadən haliyam,
*"Bir Həsən hüsnü Hüseyni-xu şəhin abdalıyam,*
*Yarələr sinəmdə kim, var Zülfiqarımdur bənim."*

- V -

Bir hekayət ərz edərdim, saqi, hüznəfza təvil,
Olmuşam piri-muğanın mənzilində mən dəxil,
**Nafiz**əm viranələr küncündəki qəlbi əlil,
*"Şahi-eşq oldum,* ***Mühübbi****, bana yetməzmi dəlil,*
*Sinədür təlüm, nəfirüm ahü zarımdur bənim."*

**~ 19 ~**

**Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

- I -

Əcəl xəyyatı əzzəldən mənimçün bir kəfən kəsdi
Ki, ölçüb əynimə uyğun, həmin ol gülbədən kəsdi,
Nihali-ömrümi sanki həzin bir pöhrədən kəsdi.
*"Səlamın ol şəhi-xuban niçun bən bəndədən kəsdi,*
*Anı bən sevmədən artuq nə suç itdim, nədən kəsdi."*

- II -

Kəsilsin qoy küdurətlər, bu aşiq sərfəraz olsun,
Kəsilsin gündə qurbanlar bilə razü niyaz olsun,
Kəsilsin əbri-nisani həva dönsün əyaz olsun,
*"Didim: gəl zülfüni kəsmə, bənim ömrüm diraz olsun,*
*Didi: devri-qəmərdür bu sənün ömrün kəsən, kəsdi."*

- III -

Dutuldi çöhrəsi yarın, mənim ömrüm xəzan etdi,
Mənim ömrümi kəsməkçün sərəncami asan etdi,
Yüzüni ol pəriçöhrə, məni gördi nihan etdi.
*"Sənin Yusif cəmalüni görənlər tərki-can etdi,*
*Əcəbmi Yusifi görib, əlini cümlə zən kəsdi."*

- IV -

Kəsilməz ta ölüncə səndəki bu xasü xasiyyət,
Girami canlar almaqçun verilmişdir sana rüxsət,
Cəmalın şövqünə canım çıxarsa, ey qəmər təl´ət.
*“Görəldən sərv rəftarun yürüməz, qalmadi qüdrət,*
*Eşidib qönçə göftarun həmən ol dəm süxən kəsdi.”*

- V -

Görəndə ruyini, ey gül, gözüm lala, dilim lalik,
Pərirulər içində sən, güli-gülçöhrədən barik,
Süxənsənc olduğum dəmdə ki, etdim kəndimi tarik.
*“Olub sultani-eşq əvvəl hisari-qəlbimə malik,*
*Gəlib me´mari-qəm axir ana yer-yer bədən kəsdi.”*

- VI -

Süxənpərdaz edərdim daima əbrar üstündə,
Gəzərkən şişələr sındı səfil əttar üstündə,
Təbiblər neyləsün zira ağır bimar üstündə,
*“Qalursa-daməni-dilbər nədən əğyar üstündə,*
*Gülün hiç görmədünmi sən ətkini dikən kəsdi.”*

- VII -

Olurkən sakini-cənnət, qərayib şənə muyində
Ki, məst olmuş əzəldən şaneyi-biganə buyində,
Görəndə ğəşy edib ***Nafiz***, o mişkin xali ruyində,
*“**Mühibbi** cövri-yar ilə öliyor duyi kuyində,*
*Fələk xəyyati anunçün gəlib xunin kəfən kəsdi.”*

## ~ 20 ~

**Rəcəz-3: Müftəilün / məfA’ilün / müftəilün / məfA’ilün**

- I -

Hər kim istərsə görə Yusifliqanın pakını,
Görməsə mirati-qəmdə sineyi-səd çakini,
Bülbülə müşküldu görmək güllərin xaşakını,
*“Bir nəzər hər kim görə rüxsari-atəşnakını,*
*Tutuşub eşq atəşinə seylə verür xakini.”*

- II -

Sineyi-suzanımi dutdi dəmadəm rəşki-çeşm,
Ğəşy edərdim dəf′ə-dəf′ə  görməsəm biğəşki, çeşm,
Qəmzə peykani nədür, adın qoyublar məşqi-çeşm,
*“Dəf′ə-dəf′ə  dudi-ahü qətrə-qətrə əşki-çeşm,*
*Mülki-eşqün qıl təmaşa əncümü əflakini.”*

- III -

Gərçi qul oldum sana, gəzdim cahani sərsəri,
Görmədim əbrar olub, insaf edə bir dilbəri,
Rəxti-xabımda bu kim, qoynuma saldım əjdəri.
*“Eşq ilə çün olmuşam divanələr sərdəftəri,*
*Bənd edib boynuma taqsun zülfinün fitrakını.”*

- IV -

Ləblərin sandım həlavətdə şəkərli ləbləbi,
Könlümi aşüftə qıldi ol turunci-ğəbğəbi,
Mən ani ikram edib südlə bişirdim səhləbi.
*“Gənci-hüsnündə bəni çün uri zülfün əqrəbi,*
*Ağzıma sun lutf edib lə′li-ləbün tiryakini.”*

- V -

Zülfünün zəncirinə **Nafiz** olub divanəsər,
Sünbüli-zülfün məşamımda vəli reyhani-tər,
Leyluvəşlər qovminün gülzarinə saldım nəzər.
*“Ləblərin sirrin bilib verdim miyanından xəbər,*
*Afərin edər **Mühübbi**nin görən idrakini.”*

**~ 21 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

- I -

Vəfayi-xatiri-məndə uğursuz bir sənəm qaldi,
Çıxıbdır mehri qəlbimdən, gözümdə gərçi nəm qaldi,
Mənə cani yananlardan, nənəm qaldı, dədəm qaldi.
*“Salınub sərvtək getdi, dilimdə ah qəm qaldi,*
*Gözüm yaşi rəvan oldi bana ancaq ələm qaldi.”*

- II -

Mana nə bir dəli təskin edər oldi, nə bir dana,
Şikəstə əndəlibim tək gəlim qoy şimdi əfğana,
Şikayətmi edim ya ki, bu əhvali deyim xana.
*“Çürütdüm ömrümün nəqdin məta΄i-vəsl üçün, cana,*
*Müyəssər olmadi vüslət, həman bir ikki dəm qaldi.”*

- III -

Qərinəm keçdi zillətlə, bir abad olmadi dəhrim,
Üzüldüm qüssə çəkməkdən, səlamət qalmadi təhrim,
Neçün ziba sənəmlərçün azaldi günbəgün mehrim?
*“Gözəllər payinə saçdum şu dənlu dürri-əşki kim,*
*Dükətdi kiseyi-çeşmim, bir ikki üç dirəm qaldı.”*

- IV -

Ol ahəndil nədəndür kim, xütur olmazmi sözümdən,
Yəqin seyr eyləməz qaldi, dökülən yaşi gözümdən,
Saralmış rəngimi bir dəm məgər görməzmi yüzümdən.
*“Yazırkən yarə əhvalım dutuşub ahum özümdən,*
*Kül oldi əldəki kağız, əlimdə bir qələm qaldi.”*

- V -

Fəqət illərlə uğraşdım rəhi-eşqin bəlasiylə,
Düşüb səhranişin olmaqda **Nafiz** macərasiylə,
Mana qan uddurub getdin, qızıl bir eşq tasiylə.
*“**Mühibbi** sərbəsər gəzdi səri-kuyin həvasiylə,*
*Cahanda irmədük sancağlə baği-İrəm qaldi.”*

**~ 22 ~**

## Baqi Əfəndinin qəzəllərinə təxmislər

### Mütəqarib-1A: Fə’Ulün / fə’Ulün / fə’Ulün / fə’Ulün / fə’Ul

- I -

Aşüftə oldum ömrdə bir dilsitanə mən,
Bu vüs’ət ilə yetmədim əmnü əmanə mən,
Dərdü bəlayə gəldim əcəb imtəhanə mən,
*“İrdim fəğanü zar ilə ol asitanə mən,*
*Çıxdım kəməndi-nalə ilə asimanə mən”.*

- II -

Ləl'ün şirindi, görmədim axır şəkərlərin,
İçdim fərağı-bəzmdə hər dəm zəhərlərin,
Daim büsati-eyşə açılsın səhərlərin,
*"Lö-lö dişin qəmiylə sirişkim gühərlərin,*
*Düzdüm ümid riştəsinə danə-danə mən".*

- III -

Gəldim səfayi-kuyinə mən e'tiram üçün,
Çeşmin qəzəblə seyr elədi qətliam üçün,
Şövqi-visalın ovqatı bitdi məram üçün,
*"Yadi-ləbünlə cami-meyi-ləl'fam üçün,*
*Kuyi-Muğani gəşt elədim xanə-xanə mən."*

- IV -

Zənn eylər idim eşq ilə ərkanə yetdi ömr,
Bəhri-qəmində gör necə tufanə yetdi ömr,
Səbrim tükəndi, qəhr ilə böhranə yetdi ömr,
*"Sübhi-visalın irmədi payanə yetdi ömr,*
*Şami-qəmündə şəm' kimi yanə-yanə mən".*

- V -

Sənsən ziyadə qəmlərə qəmxar edən məni,
Qəm kişvərində pərdələnib olmusan qəni,
Çək barmağın ki, zay elə, çeşmimdə pərdəni,
*"Cövrü cəfani çəkməgə sevdi könül səni,*
*Dərdü bəlayə gəldim əfəndi cəhanə mən".*

- VI -

Hüsnün təravətin soruşur qönçədən çəmən,
Saçun sorağı gəldi, məlul oldi yasəmən,
**Nafiz**, kim idi bəzmdə rə'na şəkərdəhən,
*"**Baqi**, müsəxxər oldi mana Kişvəri-süxən,*
*Keçdim səriri-nəzmə bu gün xüsrovanə mən".*

## ~ 23 ~

## Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

\- I -

Şirin nitqində dildarın fərəhləndim cəvab açdım,
Vəcahətlə bəhari-gülşənində fəsli-bab açdım,
Üzün ayinəsindən aləmə bir afitab açdım,
*“Cəmali-aləmarasından ol mahin niqab açdım,*
*Əcəb fərxəndə gəldi fali-əhvalim kitab açdım”.*

\- II -

Təravətdən əsər qalmaz mənimtək bir qədi xəmdə,
Gülə olmazsa aludə verərmi feyzi şəbnəmdə,
Xüsusən eşqdür baqi, bu aləmdə, o aləmdə,
*“Yaxam çak eylədim eşqin yolunda daği-sinəmdə,*
*İçindən gənc peyda oldi, bir kinci-xərab açdım”.*

\- III -

Səraində kəmərləndi, göründi incədür beli,
Azalmaq bilmədən artıb görün kim, çeşmimin seyli,
Bu dəmdə zülməti-zülfün dağıtdi ol səhər yeli,
*“Lətaif söylədim güldi, açıldı höqqeyi-lə’li,*
*Yenə seyr eyləsin yaranə dürci-dürri-nab açdım.*

\- IV -

Bəlağət məclisində dutmuş idim lafə simürği,
Gətirdim çərğyanə ədl ilən insafə simürği,
Buraxdım künci-qəflətdən həvayi-safə simürği,
*“Həvayi-eşqün içrə mən qaçurdum Qafə simürği,*
*Cinahi-himməti ol dəm ki, manəndi üqab açdım”.*

\- V -

Oda pərvanədür halim qəmi-eşqündə ey məhvəş,
Sərayi-əndərunə könlüm ahindən düşər atəş,
Edər **Nafiz** xəyalün əhli-irfanə əlamət bəxş,
*“Salub şəmşiri-nəzmi-abdari dəhrə **Baqi**vəş,*
*Bəlağət kişvərin ey padişahi-kamyab açdım”.*

## ~ 24 ~

## Müzare-2: Məf’Ulü / fA’ilAtün / məf’Ulü / fA’ilAtün

- I -

Qəm büsatın vətən etdimsə bu sevdadən bil,
Hali-xürsəndligim badeyi səhbadən bil,
Bəxtimin qarəliyin ol saçı Leyladən bil,
*“Fitneyi-aləmi ol qaməti-rə’nadən bil,*
*Hər bəla kim yetişir aləmi-baladən bil.”*

- II -

Taəti-eşq ilə aləmdə taparsam qüdrət,
Şükr edən əzm ilə vəhdətdən alar əmniyyət,
Eşqdən məxzəni-qəlbimdədi vəhdaniyyət,
*“Haləti-eşq ilədür adəmə nuraniyyət,*
*Rəngi-ruyi-qədəhi badeyi-həmradən bil.”*

- III -

Rövnəqi-xani-vəfa ne’məti-əlvan ilədür,
Gülşənin  təntənəsi qönçeyi-xəndan ilədür,
Hər əzamət ki, Xudavəndi-cahanban ilədür,
*“Dili-danayə şərəf pərtövi-irfan ilədür,*
*Hüsnü ayinəyi əksi-rüxi-zibadən bil.”*

- IV -

İftixar eyləyib hər kəs bu dəhrə maildir,
Layə’qəl ömr sürən tacü təxdə naildir,
Ənbiyalər həkəmindən necə gör qafildir,
*“İşveyi-dəhrə könül verməz o kim aqildür,*
*Almadı bəhrə bəgüm kimsə bu dünyadən bil.”*

- V -

**Nafiz**in niyyətinə sağəri doldur, saqi,
Ver səxavətlə bu axşam bir-iki bardaği,
Ol ki, Kəsra idi nagah dağıldi taği,
*“Dövləti-dari-cəhan, dövri-zaman, ey* ***Baqi,***
*Paydar olmadığın qisseyi Daradən bil.”*

## ~ 25 ~

## Müzare-2: Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün

- I -

Sevdayi-səri-zülfdə aşiq səmər çəkər,
Bundan səva bu dəhr qəmin birtəhər çəkər,
Mən çəkdiyim bəlaləri kim, mötəbər çəkər,
*"Qaşun kəmani kəndiyi xeyli gərər çəkər*
*Qorxum bu sinə tiri-müjəndən zərər çəkər".*

- II -

Hüsnün alıb təravətini çün rəbi'ədən,
Eşqün sərayi-qəlbimə doldi səri'ədən,
Aləm təmam nagüman oldi səririədən,
*"Xurşid əsiri-eşqin olubdur əşiədən,*
*Boynunda tövqi-şövq ilə zənciri-zər çəkər".*

- III -

Olmaz zəmanə sirrilərin pərdəpuş edən,
Yoxdur cahanda mərdi-süxənsazi guş edən,
Cövr ilə əhrimənlər əlindən xüruş edən,
*"Möhnətsərayi-dəhrə gəlib eyşi-nuş edən*
*Bir dəm xoş olsa, bir neçə gün dərdi-sər çəkər".*

- IV -

Sərraf əlində cəhd qılıb olma kəməyar,
Eşq aləmində himmət edib dutgilən qərar,
Bülbül misali cuşə gəlib olma xar-xar,
*"Açılma cami-badeyi-gülgunə qönçəvar,*
*Naziklik ilə lə'li-ləbündən xəbər çəkər".*

- V -

Çəkmə büsati-eyşi-zəmirə əduni kim,
Açma həramzadələrə əndəruni kim,
**Nafiz**, necə sındırdın o mina səbuni kim,
*"**Baqi**, həmişə gör bu xumi-nilgüni kim,*
*Dürdi-bəlavü dərdini mərdi-hünər çəkər".*

## ~ 26 ~

## Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

- I -

Cahanın xubi-ziştin fərq etməkdə əqildən bil,
Bu nazik mətləbi xasiyyəti-mərdümsəqildən bil,
Rəvayət pərdəsin açsam, bu əhvalim nəqildən bil,
*“Həqiqət sirrin, ey zahid, dili-biqişşüqildən bil,*
*Rümuzi-eşqi fəhm eylə, bir az sən də bu dildən bil”.*

- II -

Ərasət olmayınca qanlu göz yaşim axar durmaz,
Baxar biganələr tək yar-yoldaş halimi sormaz,
Sınar könlüm bu aləmdən, vəfavü əhdi sındırmaz,
*“Çəkər dil möhnətü dərdi, məhəbbət riştəsin qırmaz,*
*Kəsilmək var isə ol dilbəri-peymangüsildən bil.”*

- III -

Könül kuyin itiylə həmnişindir, bir yana getməz,
Nə vəslə nail olmaz, nə bu qəmlərdən ölüb-itməz,
Necə həngamədir adabi-hicranun sona yetməz,
*“Xətü xal öldürür üşşaqi tabi-ariz incitməz*
*Zəvali bilmək istərsən, ziyadən bilmə, zildən bil”.*

- IV -

Dəhanin sirrini öyrənmək olsa xahimindür həp,
Bu sirrin barini çəkmək genə-gəllahimindür həp,
Cahani seyr qılmaq adəti səyyahimindür həp,
*“Rəvaci-rövnəqi-hüsnün, nəsimi-ahimindür həp,*
*Səfayi-nobəhari sən həvayi-mötədildən bil”.*

- V -

Əgər yüz min həkim olsa sağalmaz sinəmin daği,
Şikəstə **Nafiz**in səlnamələrdə qaldi ovraği,
Gözüm yaşi meyi-gülgunə döndi qəmdən, ey saqi,
*“Vücudin xakini tər tut gözün yaşiylə ey **Baqi**,*
*Güli-gülzari-mə’na açulur bu abu gildən bil”.*

## ~ 27 ~

## Müzare-2: Məf’Ulü / fA’ilAtün / məf’Ulü / fA’ilAtün

- I -

Sanma, ey dust, xəyalimdə məni xülyayəm,
Çeşmi batində nəzər eyləyəsən bərcayəm,
Bil ki, bustani-lətafətdə güli-həmrayəm,
*“Nola dəhr içrə nişanim yox isə ənqayəm,*
*Nə əcəb seyl kibi çağlamasam dəryayəm.”*

- II -

Mən xəyalimlə süxən qəsrinə oldum bənna,
Bu əhrimənlər içində yaşadım bipərva,
Səbrü təmkinimi dəf etdi badeyi-səhba,
*“Gözə göstərməz isə tənmi bəni hər ədna*
*Ki, nəzər fərq edəcək mərtəbədən əlayəm”.*

- III -

Gərçi məcrayi-süxəndə dolanam rindanə,
Ərzimi ruhfəzalıqda deyəm mərdanə,
Nə bilər naqis olanlar nədi bu dürdanə,
*“İltifat eyləməzəm zərrə qədər nadanə*
*Asimani-hünərə mehri-cahanarayəm.”*

- IV -

Təb’i-tüğyanım olan yerdə nə lazım isna,
Bu həlavətlə cahanda edərəm istiğna,
Ey cahandidə həbibim, biləsən amənna,
*“Surətə gərçi gəda şəklin urundum əmma,*
*Məsnədi-məmləkəti-mə’rifətə Darayəm”.*

- V -

Əşki çeşmimlə məlul oldi bu gün şəbnəm də,
**Nafiz**əm mülki-sədaqətdə, guşeyi-qəmdə,
Buldum ixvani-vəfa Adəm ilən Xatəmdə,
*“**Baqi**ya dini-Mühəmməd həq üçün aləmdə,*
*Dəmi-canbəxş ilə nəzm içrə bu gün İsayəm”.*

**~ 28 ~**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

- I -

1 Saqi, minayi-sağəri məmluv edən Cəm ol,
2 Sevdayi-səri-zülf sorağiylə pürxəm ol,
3 Aləmləri feyzinlə kəramətdə aləm ol,
4 *"Gülzarə gəl nəsimi-səba kibi xoş dəm ol,*
5 *Açıl dərumi-qönçə kibi şadi-xürrəm ol".*

- II -

1 Həmxanə kuyin itləri ilə bir ad isə,
2 Bu xanimanda dövr eləmək bir inad isə,
3 Boynunda tövqi-şövq ilə zəncir azad isə,
4 *"Səhni-hərimi-vəslinə düşmək murad isə,*
5 *Əvvəl səfayi-təb' ilə manəndi-şəbnəm ol".*

- III -

1 Peyğam aparma gülşənə bir bəd xəbər kibi,
2 Daim büsati-bəzmdə ol tazə tər kibi,
3 Qəlbə dəramət eylə gülüm gülşəkər kibi,
4 *"Kəsbi-lətafət eylə nəsimi səhər kibi,*
5 *Andan dəruni-pərdeyi-əsrarə məhrəm ol".*

- IV -

1 Çoxdandı Neynəvadədi bu qəmli qafilə,
2 Düşdi həmişə zülmət içində təğafülə,
3 Çeşmim piyaləsindən axan dirri-nab ilə,
4 *"Axar su kibi irməgə bir bəhri-kamilə,*
5 *Seyr et bəsiti-xakidə səyyahi-aləm ol".*

- V -

1 Qəm bəstərində payımal olma fərəş kibi,
2 Yandırsalar da cövr ilə döz bir həbəş kibi,
3 Sünbülsərani döndərib etmə küləş kibi,
4 *"Başun gərəksə göglərə irsün günəş kibi,*
5 *Dərvişlik dilərsən əgər zərrədən kəm ol".*

- VI -

1 Dini-Mühəmməd eşqinə hər dəm səlam edün,
2 Təlif olan məcəllələri xasü am edün,
3 Eşq aləmində yanmağa yeksər dəvam edün,
4 *“Xaki-hərimi-hürməti-kuyin məqam edün,*
5 *Ərkani-Kə’bə kibi müəzzəm mükərrəm ol”.*

- VII -

1 Saqi, büsati-eyşi-fəravan biro-biro,
2 Sağər şərarətindən alıb aləmi alo,
3 **Nafiz**, cahanda tapsan əgər bir süxənşəno,
4 *“**Baqi**, xisali-mərdümi-naqis vücudi qo,*
5 *İnsani-kamil olmağa səy eylə adəm ol”.*

## ~ 29 ~

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

- I -

1 Cori-eşqindən bu könlüm qəhr olur, bimar olur,
2 Sanma kim bir kimsənə bu dərdimə qəmxar olur,
3 Dərdi bir dərd əhlinə şərh eyləsəm naçar olur.
4 *“Suzi-eşqilə qaçan kim dildən ahü zar olur,*
5 *Ah dudü dud əbru əbr atəşbar olur.”*

- II -

1 Mən ki, bir əfkəndəyəm pürxəndə lə’li-nab üçün,
2 Sən xumar ol rəxti-xabunda fəqət əhbab üçün,
3 Qətrə-qətrə saymışam göz yaşimi hesab üçün,
4 *“Axsa əşküm didədən ol gövhəri-nayab üçün,*
5 *Əşk seylü seyli yəm-yəm pürdüri-şəvhar olur.”*

- III -

1 Atəşi-ahim səmavəti dutubdur şö’ləbar,
2 Baği-ömrümdə qətiyyən görmədim bir dəm bahar,
3 Daği-hicranun məni dəmdən salıb etmişdi xar,
4 *“Yansa daği-sinəm üzrə həsrəti-xəddünlə nar,*
5 *Nar nurü nur hurü hur, pürənvar olur.”*

- IV -

Böylə kim namehriban gördüm o nazlı dilbəri,
Bağlanıb bərraq olan adabi-eşqin dəftəri,
Tiflsən, səd parə qıl, ayineyi-İskəndəri,
*“Kuhdən keçsə qəmi-zülfünlə ahum sərsəri,*
*Kuh dəştü dəşt bağü bağ sünbülzar olur.”*

- V -

Görmədim bir əhli-dil gəzdim cəhani sərbəsər,
Bivəfalıq karvani bağrımın başin əzər,
Adəti-biganələrdən eyləyər **Nafiz** həzər,
*“Qönçəyə baxsa ləbünsüz çeşmi-**Baqi** bir nəzər,*
*Qönçə bərgü bərg xarü xar xəncərdar olur.”*

**~ 30 ~**

## Bəsirinin qəzəlinə təxmis

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

- I -

Zülmə adət eyləmək, səndə belə adətmi var?
Aləmi, eşq içrə, dildarım, belə söhbətmi var?
Dövləti-didarinə aşiqlərə həsrətmi var?
*“Arifə dövlətdən istiğna kimi dövlətmi var!*
*Tərki-ləzzati-cahan etmək qədər ləzzətmi var!”*

- II -

Şəhri-könlüm tarü mar ikən bu tədbirimə dək,
Aləmi-vüslətdə məhzunəm bu təqsirimə dək,
Eşq camın verdilər mürşidimə, pirimə dək,
*“Şahi ali cahdən, dərvişi-xatirrimə dək,*
*Kimsəyə təxti-sərayi-dəhrdə rahətmi var!?”*

- III -

Bağrımi qan eyləyən ol dilbərin əbrusudur,
Çeşmi-məsti xatirimdə bir xəyal fanusudur,
Könlümi məhzun edən, hicri-qəmi-qəyğusudur,
*“Eşqi-hüsni-pak əzəldən xaslər məxsusudur,*
*Yoxsa amilərdə heyhat öylə xasiyyətmi var!?”*

- IV -

Aləmi rövşən qılır səndə olan simayi-şəhr,
Çeşmi-fəttanında var xasiyyəti-məstanə təhr,
Bəs nədəndür xatiri-naşadimə ayəndə qəhr,
*“Ləzzət iras eyləyir amazişi-ənbai-dəhr,*
*Qafilə üzlət kimi sərmayeyi-izzətmi var!?”*

- V -

Görməmiş dünyavü təzvinin gözi bir sən kimi,
Mehrdən kuyindürür aşiqlərə gülşən kimi,
Gəl məlahət bəzminə ahəstə şirinzən kimi,
*“Nəqşi-Şirin kuhə asandursa, əmma mən kimi,*
*Kuhkəndə kuhi-möhnət çəkməyə taqətmi var”.*

- VI -

Qeyrilər xoşnud olub, seyran edərkən bəzmini,
Dinləmək zövq artırır, hərgiz rəcəzdən rəzmini,
Mən ki, lə’li şərbətindən aldım axir rəz’mini,
*“Yar qətlimçün vüzu qılmış təqərrüb əzmini,*
*Ya zəmirində nəmazım qılmağa niyyətmi var!?”*

- VII -

Mən üqubətlər diyarında, fəqət mə’sum ikən,
**Nafiz**a, həngameyi-tərci’ədən məqsum ikən,
Neynəvazəm bu xərabə mülkdə, bir bum ikən,
*“Ey* ***Bəsiri****, əbdin əhvali ana məlum ikən,*
*Dərgəhi-mövladə ərzi-hacətə hacətmi var!?”*

**~ 31 ~**

## Nabi əfəndinin qəzəllərinə təxmislər

### Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün

- I -

Ötdükcə zəman ol qədər insan unudulmuş,
Pakizə vücud həzrəti-Loğman unudulmuş,
Ayineyi-rüxsarı pərişan unudulmuş,
*“Bir dövrdə gəldik ki əzizan unudulmuş,*
*Dutmuş yerini xürd, büzorgan unudulmuş”.*

- II -

Çəkdinsə məzəllətlərini cövrü cəfanın,
Çəkmə ayağın meykədədən, olsa ziyanın,
İncinsən əgər məsləhətindən ürəfanın,
*“Getmiş nəməki maideyi-xani-vəfanın,*
*Aləmdə hüquqi-nəməki-nan unudulmuş”.*

- III -

Gər Leyliyi-Məcnun ola, həm Vamiqü Əzra,
Eşq aləmi aşiqlərə imdi yeni xülya,
Tapmazsan əgər dəhrdə bir yavərü həmta,
*“Qalmış səri-meydani-məhəbbət təkü tənha,*
*Zəntəb’lər almış yeri, mərdan unudulmuş”.*

- IV -

Bülbül gülə mail, gül ona talib olanda,
Bülbül qəmə aludədi, gül toyda, nişanda,
Hərçənd vəfa qalmadi, bu qönçədəhanda,
*“Nadanlıq olub mötəbər əbnayi-zəmanda,*
*Xətti pozulub nüsxeyi-irfan unudulmuş”.*

- V -

Hicranın əlindən sığınıb dağlara Fərhad,
Qan oldu qəzəbdən görünür Dəcleyi-Bağdad,
Billahi, belə olmamış idi bizim əcdad,
*“Olmuş o qədər xəlqi-cəhan məkrdə ustad*
*Kim, sabiqeyi-şöhrəti-şeytan unudulmuş”.*

- VI -

Bu mərhələdə biz olalım kimlərə möhtac,
“Ya heyyü Əhəd” dərdimizə eylə bir illac,
Bir vadiyi-möhnətdə qalıbdur dəxi Həllac
*“Xəlq açmadadi bir-birinə pənceyi-tarac*
*Əhkami-Xuda, mə’niyi-Quran unudulmuş”.*

- VII -

İnsanlar ədalətlə rəha nəxlini əksin,
Aqil olan, əlbəttə, edər onlara təhsin,
**Nafiz** də fəlakətzədələr fikrini çəksin,
*“**Nabi**, kimi görsən yürüdür hökmünü nəfsin,*
*Həqqin bizə göndərdiyi fərman unudulmuş”.*

## ~ 32 ~

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

- I -

Rümuzi-təl’əti-sima, xət ilə xaldədür,
Pürsəmər sinən əcəb pənceyi-ətvaldədür,
Tale’yi-zənnimi gör, səfheyi-rəmmalidədür,
*“Sanma kim rahəti-dil dövlətü iqbaldədür,*
*Bari-möhnət götürü, gərdəni həmmaldədür”.*

- II -

Xütən ahusuni təşbih edib, ahu olma,
Nafeyi-dəşti-Xəta bəslə, gəl ağu olma,
Kəcnümalər hərəmi-qəsrinə güzgu olma,
*“Vajgun bəxt ilə dilbəsteyi-gisu olma,*
*Dönmə ol düzdi-nigunsarə ki, çəngaldədür”.*

- III -

Xirməni-vəslini biganələrə qılma əta,
Nə bilər şəhd ilə gülqəndə qarışmış bu məta’,
Tinətində o Züleyxa kimi gər olsa vəfa,
*“Sanma kim kəsrəti-əmvatdədür zövqü səfa,*
*Xirməni-dərdü ələm, müntəzəm ol haldədür”.*

- IV -

Firqətin ruzi-əzəl sinəmə çəkmiş daği,
Yazdi səlnamələrə, dərdü bəla dustaği,
Olmuşam meykədədə cövrü cəfa tapdaği,
*“Etmə rindani-təğazə ramazanda, saği,*
*Zimməti-dəfi-qəmin vədəsi şəvvaldədür”.*

- V -

Gərçi məhrulər əlindən çəkəsən dadü bidad,
Döndərər mumə, vücudin ola gər misli-pulad,
Olma sərraf dükanində gedib simü fitad,
*“Nə olur nəqsipəzirü, nə çəkir gərdi-kəsad,*
*Ne’məti-zövq ki, sənduqeyi-ehmaldədür”.*

- VI -

Çəkmə kirşani-zənim, gül yüzinə, ey gülüzar,
Bu vəcahətlə oni çəkməyə nə hacəti var,
Salmısan hüsn gülüstaninə bir dərdü azar,
*“Düşməz aludələrə daireyi-istiğfar,*
*Çıxmaz ol çirk ki, pirahəni-baqqaldədür”.*

- VII -

Bağlanandan o məhin zivəri-gisusinə dil,
Göndərib tə’nə pəyamın xütən-ahusinə dil,
Mərhəbalər dedi ol sineyi-güzgusinə dil,
*“ O məhi-çardəsalın baxıb əbrusinə dil,*
*Çeşmi-ərbabi-vəzayif məh ilə saldədür”.*

- VIII -

**Nafiz**a, ömrü girənmayəmizə düşdi məlal,
Vacibati-səlavat ilə kənar eylə vəbal,
Allaha razü niyaz et var ikən əldə məcal,
*“Kim bular* ***Nabi*** *əfəndi kimi, həm tazə xəyal,*
*Feyzi-sabit genə pirani-kühənsaldədür”.*

**~ 33 ~**

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

- I -

Buldum zülali-dərdü şəfa dilbərimdədür,
Mərcani-ləl qiyməti əşki-tərimdədür,
Sağərlərin sərəmədi, xakistərimdədür,
*“Mövci-murad badeyi-canpərvərimdədür,*
*Hərfi-nəşat zirü ləbi-sağərimdədür”.*

- II -

Təlx oldi cahan əhlinə, hər ləhzə söhbətim,
Olmaz fəqət ədulərə bir zərrə rəğbətim,
Neylim mənim də böylə yaranmış təbiətim,
*“Bazi-şikargiri-çəragahi-himmətim,*
*Kami-dükovn, cünbüşü balü pərimdədür”.*

- III -

1 Əzzəldə xatirimdədi bu aləmin qəmi,
2 Bir ləhzə azalmaz siləsən çeşmimin nəmi,
3 Dutsan rəvadi dürrə bərabər bu şəbnəmi,
4 *“Məndən sorun həqayiqi-əsrari-aləmi,*
5 *Tə’lifi-raznameyi-dəhr əzbərimdədür”.*

- IV -

1 Eyşi-büsati-dəhrdə sazəndədür güruh,
2 Sığmaz kəlami dillərə, gər eyləyəm şüruh,
3 Saqi, mənim müalicəmə etməsən səbuh,
4 *“Ahimdədür kilidi-tilismati-gənci-ruh,*
5 *Abi-həyat lücceyi-çeşmi-tərimdədür”.*

- V -

1 Hər kim ki, dəhrdə  məni tək oldi dərdnak,
2 Ol kimsə ləhzə-ləhzə özün eylədi həlak,
3 **Nafiz** də qəmli nəğmələrin qıldi “rak-rak”,
4 *“**Nabi**, edər şükufələri dəhr ətrnak*
5 *Bağı-behişt xatiri-naziktərimdədür”.*

**~ 34 ~**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

- I -

1 Xəyali-kişvəri-qəmdə könül məllakə dönmüşdür,
2 Düri-çeşmim fərağində əcəb əmlakə dönmüşdür,
3 Xəyali-pürməlalim qəm çəkib qəmnakə dönmüşdür,
4 *“Sərim üstündə qat-qat dudi-ah əflakə dönmüşdür,*
5 *Qubari-qəm könüldə tudə-tudə xakə dönmüşdür”.*

- II -

1 Neçün qanuni-ülfətdə ədalətsizdi bu dövran,
2 Edibdir atəşə saət-bə-saət sinəmi suzan,
3 Bu halətdə məni görsən, olarsan halimə heyran,
4 *“Qurutdi tabi-qəm cismim, yəmi əşk etdi sərgərdan,*
5 *Tənim girdab içində dövr edən xaşakə dönmüşdür”.*

- III -

Fələk dövri-zəmanində məni hiç etmədi məmnun,
Mənim pəjmürdə əhvalim görənlər seyr edər məhzun,
Olur fikrim pərakəndə, səməndərdən qəmim əfzun,
*“Dilə rəsm etmədən nəqşi-xəyalin gördigi şuxun,*
*Dəruni-pürhəvəs məcmüeyi-həkkakə dönmüşdür”.*

- IV -

Ədalət qalmayıbdır qazilərdə eyləyə nüsrət,
Gözün fikrin çəkəndən xəstəhaləm, ey qəmərtəl’ət,
Nə mö’minlərdə iman bəllidür, əsla edə şəfqət,
*“Rəvaci-zöhdi gör təsvir edərkən məclisi-işrət,*
*Müsəvvirlər əlində qıl qələm misvakə dönmüşdür”.*

- V -

Nədən bimar könlüm, qapudan bir zümrə girməz hiç,
Müalicə gümaniylə təb’im bir əmrə girməz hiç,
Mənim kim zindəganlıqda nəyim var ömrə girməz hiç,
*“Sərəngüşdümdəki naxundən özgə nüqrə girməz hiç,*
*Mənim cibi-ümidim kiseyi-dəllakə dönmüşdür”.*

- VI -

Bunu fəhm eyləyib **Nafiz** açılmazdır bizə əbvab,
Çıxıb rahi-həqiqətdən, əzəldə gördügün əzhab,
Əritdi bağrımın yağın, əlində sərsəri qəssab,
*“Həqiqət üzrə ağlar, inlər, ey* ***Nabi****, əcəb nayab,*
*Sirişki-əşk şimdi gövhəri-idrakə dönmüşdür”.*

## ~ 35 ~

### Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün

- I -

Gəlir bəyani-səfa fikri-müstətabımdan,
Düşüb fikarə çoxi ərdəmi-cənabımdan,
Nə rəmz anladın, ey gül, səhi-cəvabımdan,
*“Nühüftə suzişim anlandı piçü tabımdan,*
*Qəmim nihan idi, faş oldi iztirabımdan”.*

- II -

1 Ləblərün eylər ikən abi-həyati icra,
2 Görmədim hüsnüvə manənd bir güli-rə'na,
3 Müttəsil qəmlərə tab eylər aşiqi-şeyda,
4 *"Əgərçi bir yerə gəldim o şux ilə əmma,*
5 *Niyazməndi-visal olmadım hicabımdan".*

- III -

1 Artırıb şövqümi gülşəndə ikən şəbnəmi-sübh,
2 Doldurub qəlbimi ol mürği-səhərdən qəmi-sübh,
3 Nə sirrdür ki, mənə bivəfadi həmdəmi-sübh,
4 *"Be həqqi-sidqnəfəs rast söylə, ey dəmi-sübh,*
5 *Nə gün gəlir, xəbərün varmı afitabımdan".*

- IV -

1 Cami-eşqi bizə xatirnişan Cəm etmişdir,
2 Xiyali-zülfünü könlümdə bərhəm etmişdir,
3 Qəlbimə yarə vurub, didəmi nəm etmişdir,
4 *"Sipehr kibi təvazö' qədim xəm etmişdir,*
5 *Yağan məkarimi-əxlaqdur səhabımdan".*

- V -

1 Həyati-fanidi fəhm eylə qayətim yoxdur,
2 Təriqi-bəstədəhanəm ki, qeybətim yoxdur,
3 **Nafiz**in dərdi-sərindən şikayətim yoxdur,
4 *"Mənim mühasibi-gərdunə minnətim yoxdur,*
5 *Aşağə varsa belə* ***Nabi****ya, hisabımdan".*

**~ 36 ~**

## Vəsli Ruminin qəzəlinə təxmis

**Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün**

- I -

1 Ey büsati-ənbiyanin mö'tədillər məhzəri,
2 Vadii-eşqin sorağində yananlar zivəri,
3 Elmi-irfan ilə açmışdır bütün müşkülləri,
4 *"Rütbeyi-çarümdə əshabi-giramın sərvəri,*
5 *Heydəri-kərrardır Ali-əbanın məfxəri".*

- II -

Qəbul etmişdir əzəl gündən Xudanın taətin,
Saxlamışdı Mustafanın ol müqəddəs adətin,
Gözləmişdi ənbiyanin Sirəti-əmniyyətin,
*“Xəl’əti-faxir kimi geydi şücaət kisvətin,*
*Əmri-mövla ilə qəl’ etdi o babi-Xeybəri”.*

- III -

Qılmış idi Rəbbinə razü-niyazın sübhü şam,
Dutmuş idi vadiyi-vəhdətdə bir xoştər məqam,
“La-fəta illa Əli” adiylə həm xocəstə Nam,
*“Əl vurunca Zülfüqarə titrədi aləm təmam*
*Madəri, dünya gözü görsün bu gunə Sərvəri”.*

- IV -

İsmi-şani dutdi afaqi sərasər, dəmbədəm,
Görməyənlər ani pəjmürdə qalıb gözlərdə nəm,
Cəngidə İsgəndəri Daradan idi möhtəşəm,
*“Müxbiri-sadiq qamu övsafını zikr etdi həm,*
*Elm babi olduğiyçün, oldi millət rəhbəri”.*

- V -

Məsnədində ənbiyanın gör necə mə’sud idi,
Cəng meydani zəmanində cihadalud idi,
Cümlə ənsari-girami fəzlinə xoşnud idi,
*“Gövhəri-pak ilə həm övsafdə məhmud idi,*
*Elmü helm ilə müzəyyən, övliyalər zivəri”.*

- VI -

Daima şirin rütəbdəndi nəhari-ne’məti,
Dəhrdə fərxəndəfal idi bəhari-ne’məti,
Həq təala verdi bir kamiləyari-ne’məti,
*“Hatəmü Ne’man onun bir rizəxari-ne’məti,*
*Qeysəri-Rum ilə Kəsra bir gədayi-kəmtəri”.*

- VII -

Nafiza, ol Şahi-Mərdani dəmadəm sevməli,
Bil Əmir-əl Mömünindür aləmə zabitəli,
Naümid olmazsan adın çağıran dəm, Ya Əli!,
*“Gərçi bir kəmtər gəda nə’tində acizsən, vəli,*
*Vəsliya, cəddindürür, mədh eylə Şahi-Heydəri”.*

## ~ 37 ~

## Mövlanə Nişat Şirvaninin qəzəllərinə təxmislər

### Həzəc-1: MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün

- I -

Keçən şəb bir məkanda veyl gördün bir kuhənsali,
Pərişan oldu əhvalim ki, sordum ondan əhvali,
Gözəllər şivəsindən kim, olubdur qüssə pamali,
*"Nəzər qıl, yarın, ey dil, gör gözi küncündəki xali,*
*O bir əyyari-hindudur kim, olmaz fitnədən xali".*

- II -

Pərirulər xəyalilə dönüb idbarə iqbalim,
Cəfavü ruzigar ilə şikəst olmuş pərü balim,
Saraldı heyva mislində, pozuldi rəngü timsalim,
*"Şəbi-hicran nə nəhvilə ki, sərf olmuşdur əhvalim,*
*Bəyan etsəm əgər yarə, olurmi bilməzəm hali".*

- III -

Gözəllərdə nə adətdir, olar biganəyə mail,
Pərirulər xəyalilə pərişandur neçə aqil,
Pərişan gəzmə dünyani, bu sevdadən keç, ey qafil,
*"Vüsalın surəti yoxdur, əgər eşq olmasa kamil*
*Ki, dün halim görüb vaiz, bana çəkdi bu timsali".*

- IV -

Saçın sövdasinə düşdüm kəsildi qəmli ahəngim,
Yanımda qalmadi getdi nə sərkərdəm, nə "Sərhəng"im,
Qəmin həngaməsindən həm ucaldi sövtü sarəngim,
*"Bəsa hər yerdə qan tökdüm cigərdən qalmadi rəngim,*
*Sürahi tək bu vəch ilə uçurdum çöhreyi-ali".*

- V -

Gözüm inciləri ərzan olur bihudə dolmaqdan,
Yoruldun tiri-müjganin təni-zarimdə bulmaqdan
Ki, rəngi-zəfərani anladır çöhrəm saralmaqdan,
*"Həvadən düşdü könlüm, cismü can əfsürdə olmaqdan,*
*Düşər pərvazdən bir quş, şikəst olsa pərü bali".*

- VI -

Məni tüğyani-zülmə saldi bir əbləh, nədür vəchi,
Cigər qanimi şövq ilə içər gəh-gəh, nədür vəchi,
Cəfa kim nazəninlərdən gəlir bəh-bəh, nədür vəchi,
*“Yüzün döndərdi məndən bilməzəm ol məh, nədür vəchi,*
*Kimin kim bəxti yar olmaz, dönər idbarə iqbali”.*

- VII -

Xiyal etdikdə hicranın çəmin qanım qaralmışdır,
Hesab eylər belə Nafiz, zibəs, ömrüm qısalmışdır,
Fəqət zülfün xəyalilə məni bir ə’fi çalmışdır,
*“Nigara, bir tərəhhüm qıl, Nişat üftadə qalmışdır,*
*Onu tək qoyma kim, qalsun bəlavü qüssə pamali”.*

**~ 38 ~**

**Müctəs-1: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilAtün**

- I -

Ki, düşdi başimə qəmxanələrdə bir yeni sövda,
Məni tənhayi-vüslətdən çıxarsın surəti-cövza,
Cahani gəşt qıldım laübali məstü bipərva,
*“Keçən ay gəlmiş idim şəhrə, ey Raci, hilalasa,*
*Məni üryani-lağər görcəyin el baxmadi əsla”.*

- II -

Süzüldi qətrə-qətrə əşki-çeşmim bəzmdə mey tək,
Qəzadən kinli səyyadin əlində olmuşam pey tək,
Atıldım əski tərz ilə üburigahə bir şey tək,
*“Şamaxi toprağından ta ki, mən qət olmuşam ney tək,*
*Qəmişdən ev tikib Səlyan mülkün tutmuşam mə’va”.*

- III -

Məni sərgərdan aləmdə qılan həm cövrü canandır,
Genə etməm məzəmmətlər, uşaqdur, fikri nadandır,
Qəmi-eşqi-fərağ ilə yürəgim təbteyi-qandır,
*“Zibəs kim xanəviranəm, xəyalim dəxi virandır,*
*Yığılmaz bir yerə fikrim ki, bir beyt eyləyim inşa”.*

- IV -

Nə qədri canimə gəlsə cəfalər xeyli əfzəldir,
Sinəmdə yarə üstən yarə cövrü zəxmi-çəngəldir,
Vətəndə sərfəraz idim, fəqət gördüm iş əngəldir,
*“Danışsam hali-mazidən o bir şərhi-mütəvvəldir,*
*Bir özgə nəhv ilə ovqatımi sərf etmişəm bica”.*

- V -

Cəfa rəsmi bu aləmdə qoyun iqbalimə qalsun,
Bu qəm, **Nafiz**, məşəqqətlər çəkən əhvalimə qalsun,
Rəvadurmi səfa mülki dəmadəm zalimə qalsun,
*“**Nişat**əm bir şeyim yoxdur ki, beytül-malimə qalsun,*
*Düri-nəzmimdən özgə əhli-Rum eylər nəyim yəğma?”*

**~ 39 ~**

## Molla Qədir Nacinin qəzəllərinə təxmislər

### Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

- I -

Sənün şənündə Allahım məni təb’i-səlim etmiş,
Odur xasiyyəti-əhvalimi iştə həlim etmiş,
Hümayun namımi **Nafiz** ilə **Ağa Kərim** etmiş,
*“Həkimi-sün’əzzəldən mizacım müstəqim etmiş,*
*Mizaci-müstəqimim, çeşmi-bimarın səqim etmiş.”*

- II -

Qəmində Davudun zərbi aşırdi təxti-Taluti,
Dutubdur kizbi-kimyagər əlində bərqi-kibriti,
Dolandım şəhri-Bağdadi, aradım şəhri-Tiqriti,
*“Sənin tək  bir büti-ziba nə mümkün madəri-giti,*
*Gətirsin ruzigarə, dəhr oni çoxdan əqim etmiş”.*

- III -

Bu İbrani, bu Siryani, təhəyyürdə qalıb netsün,
Gözəllər qəm bulağindən su içsin vü çıxıb getsün,
Səfarət bəzminə yarım nə mümkündür hücum etsün,
*“Deyirlər Yusifi əhsən, nədür həddi sənə yetsün,*
*Onun hüsnü-ruxi gögdə haçan mahi dünim etmiş.”*

- IV -

Cəmalin şə’ninə hər gün açıldi, qübbeyi-əzrəq,
Tüyur eylər səmavati həzin bir şahini-əbləq,
Cəmi-məxluq içində mən fəqirin hali müstəğrəq,
*“Sənin şə’nində “Lövlakə” buyurmuş bariyi-mütləq,*
*Əgər İsani ruhullahü Musani Kəlim etmiş.”*

- V -

Məqami-qürbdə canlar sənin ruhi-fədakindür,
Yanında padşahi-qibleyi-aləm məsakindür,
Dili abad edən dünyalər içrə nuri-pakindür,
*“Zəhi-ərbabi-dövlət rövzeyi-kuyində sakindür,*
*Məni kaşaneyi-hicrində bəd bəxtim müqim etmiş.”*

- VI -

Qutarmaq ümməti qəmnən bu oldi eşqin amaci
Ki, Əqsayi-mübarəkdən qılıbdır ərşə me’raci,
Bu miskin **Nafiz**in sənsən şəkərgüftari-illaci,
*“Verən tövfiqi-taət firqeyi-zöhhadə, ey* ***Naci****,*
*Bizimçün eşq camın dəf’ei-ümmidi bim etmiş.”*

## ~ 40 ~

### Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün

- I -

Ol pəri, fikri-xəyali-huşimi çənd eyləmiş,
Lə’li-nabın söhbətin, bir-bir pərakənd eyləmiş,
Sünbüli-zülfün öyəndə, gör nə rişxənd eyləmiş,
*“Parə-parə könlüm ol şuxi-şəkərxənd eyləmiş,*
*Zülfünün hər tarinə, bir parəsin bənd eyləmiş”.*

- II -

Ey yüzi gül xirməni, aşiqlərin əndişəsi,
Bu lətafətlə olarsan aləmin həmşirəsi,
Çeşmi-məstindür ki, qüdrətdən çəkilmiş vəsməsi,
*“Məndə yox canü cigər kim, canim almış şivəsi,*
*Qəmzə tiği bağrımi pərkənd-pərkənd eyləmiş.”*

- III -

Şad ikən aləm bütün, qərq oldular göz yaşimə,
Bu təğafüllər mənim hərgiz yaraşmaz yaşimə,
Zülfünə bağlandığım, indi gəlir yaddaşimə,
*“Ol pərinin zülfü sevdasi düşübdür başimə,*
*Məhv edib əqlim məni Məcnunə manənd eyləmiş.”*

- IV -

Ey cahanın dilbəri, canım nisar etdim sana,
Qanım ilə çəkgilən ağ əllərə əlvan həna,
Bivəfalığda məzəmmət qılmasın bir kəs mana,
*“Ey mana Məcnun deyib təşni edən, şükr et ana,*
*Kim məni Məcnun, səni mərdi-xirədmənd eyləmiş.”*

- V -

E’tibari olmayan kəslərlə dutmaz ülfətim,
Ol səbəbdəndür ki, həm kəmdür mənim həmsöhbətim,
Eşq mülkündə cigərsuz eyləmək xasiyyətim,
*“Gündə yüz daği-cünun künd eyləməgdür adətim,*
*Kuhkən bir Bisütun dağın əgər künd eyləmiş.”*

- VI -

Can gözinə dutdum ol qaşi hilali öylə kim,
Bağrımın başın əzər hər dəm xəyali öylə kim,
Gör fərəh dövründə ol Leylimisali öylə kim,
*“Qalib olmuş könlumə hübbi-cəmali öylə kim,*
*Zəhri-qəhrini, məzaqi-canimə qənd eyləmiş.”*

- VII -

Ol büti-ahəndilə təsiri olmaz naləmin,
Gərçi baran olduğunda dərdi artar şəbnəmin,
**Nafiz**a, hər daşın üstündə cigər pərkaləmin,
*“**Naci**ya, bilməm nədir eyşü nişati aləmin,*
*Həq məni canan xəyali birlə xürsənd eyləmiş.”*

**~ 41 ~**

## Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

\- I -

Qədi-rüxsari-hicran ilə könlüm fikrə dalmışdur,
Pərişanxanələrdə sərbəsər qanım qaralmışdur,
Gəl ey ayinətən bil hövsələm sənsiz daralmışdur,
*“Səməndi-canimi, zülfün kəməndi bəndə salmışdur,*
*Düşüb ətşan könül çahi-zənəxdanında qalmışdur.”*

\- II -

Neçün ayineyi-vüslətdə mə’sud olmasın könlüm?
Yetib məqsudinə, eşqində xoşnud olmasın könlüm,
Cəfa sərmənzilində qəmlə məhdud olmasın könlüm,
*“Dəm olmaz kim, qəmi-eşqində bixud olmasın könlüm,*
*Demə rəngi-rüxun bais nədir böylə saralmışdur.”*

\- III -

Könül zülfi-xəyalun naminə bağlandi zəncirə,
Qaşun əfsanəsində rast gəldi qanlı şəmşirə,
Sübut etməkdə bu rəngi nə hacət şərhi-təhrirə,
*“Xəyali-xali-ruyin ruzigarım eyləmiş tirə,*
*Qəmi-sevdayi-zülfün əqlimi başımdan almışdur.”*

\- IV -

Mən istərkən səni bağİ-çəməndə nilgün içrə,
Məni xar eyləmə qəmxanələrdə sərnigun içrə,
Rəvadırmi laçın könlüm sədalənsin zəbun içrə,
*“Cəfavü möhnətim həddən ötübdür dövri-dun içrə,*
*Ümidim əksilib, sərrişteyi-səbrim qısalmışdur.”*

\- V -

Çəkib canan cəfasın dəhrdə bir olmadım xəndan,
Nədamətlər məqamində xəyalim oldi sərgərdan,
Qurulsun ədl ilə təğyir, açılsın məhşəri-mizan,
*“Fərəh camin verən saatdə xəlqə saqiyi-dövran,*
*Mənə yetdigdə guya sağərini daşə çalmışdur”.*

- VI -

Çahandidə olan könlüm, cahanda xeyli qəmgindür,
Düşüb dəryayi-eşqə binəvaliğlə didərgindür,
Xudadən könlümə nazil olan səbr ilə təmkindür,
*“Bu gunə rəncü möhnət bir kişiçün qeyri-mümkündür,*
*Məgər vəchi-fələkdə kovkəbi-bəxtim qaralmışdur?”*

- VII -

Cahanın **Nafiz** olmuş hər sərəncamində möhtaci,
Heçün kim, qəm büsatində fələk baxmışdi qiyğaci,
Onun sevdasinə dözməz, nə Mənsuri, nə Həllaci,
*“Dönüb kafurə mişkin,xəm gətirmiş qamətin* ***Naci,***
*Xəbərdar ol, gedib gün, müddəti ömrün azalmışdur.”*

## ~ 42 ~

### Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün

- I -

Əhrimənlər niyyətilə aləmə doldi şürur,
Saqi hicranın əlindən doldurub bir cami-nur,
Bu cahani ram edib sərmayeyi-dərdi-mürur,
*“Olma qafil, vaqif ol, ey sahibi-zər, əhli-zur,*
*Qılmasın sərməsti-layəqəl səni cami-qürur”.*

- II -

Yetmədi məqsudinə bir dəm bu qəmli qafilə,
Yoxdu bir kəs şəfqət ilə çeşmimin yaşın silə,
Malü dövlət yığmaq ilə ömr yetməz hasilə,
*“Uyma malü mülki-dünyayi-fənayə hirs ilə,*
*Qıl təfəkkür, hani səndən əqdəm əshabi-dühur”.*

- III -

Ömr qılma bir dəqiqə dəhrdə möhnət bilə,
Ömrüvi sərf eylə mövlayə sığın taət bilə,
Adi sanun söylənirsə dəhrdə şöhrət bilə,
*“Qılmadı dünya vəfa Cəmşidə bu hişmət bilə,*
*Köçdü Zöhhakü Fəridun İyrəcü həm Səlmi-Tur”.*

- IV -

1 Sanma kim dünya əzəldən bir sürurabad idi,
2 Gərdişindən aləmin çoxlar ona səyyad idi,
3 Bəzilər naşad olurkən, bəzilər dilşad idi,
4 *"Noldi ol həzrət Süleyman kim ona münqad idi,*
5 *İnsü cinnü divü vəhşi mürğü mahi marü mur".*

- V -

1 Cəm olub dünyayi-aləm etdilər bir şiri qətl,
2 Bu ədalətsiz cahan içrə edəllər piri qətl,
3 Gördünüz Səddami-dövrani necə tədbiri-qətl,
4 *"Qıldi Dara tək şəhənşahi əcəl şəmşiri qətl,*
5 *Getdi İskəndər ki, hökmü aləmə salmışdi şur".*

- VI -

1 Bu vəfasız dəhrdə qalmaq təmənna eyləsən,
2 Gözlərin hicran ilə dolmaq təmənna eyləsən,
3 Qüssədən rəngin qaçıb, solmaq təmənna eyləsən,
4 *"Qissə kutəh, safdil olmaq təmənna eyləsən,*
5 *Cəhd qıl kim söhbəti-əhli-səfadən olma dur".*

- VII -

1 Bu könül tənburinin hər dəm qulağın burma kim,
2 Qəlbdən fəryad edib həm nalələr arturma kim,
3 Səy edib sahibcəmallar mənzilində durma kim,
4 *"Gər mütii-nəfssən, lafi-məhəbbət urma kim,*
5 *Xatirindən etməsin bu fikrlər əsla xütur".*

- VIII -

1 **Nafiz**a, dildarə sərf etdim səzai-ömrümi,
2 Verdi hər an girdbadə bu ətai-ömrümi,
3 Gör qəzavü qüdrəti, bax gör qəzai-ömrümi,
4 *"**Naci**ya qəflətdə hiç etdim mətai-ömrümi,*
5 *Eşq sövdasində sudim olmadı qəlbi-hüzur".*

## ~ 43 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

- I -

Gərçi canim qüssələndi dəhrdə hər dəm mənim,
Aldi, getdi könlümi qarətgəri-matəm mənim,
Könlümi hər dəm nigaran etdi bir həmdəm mənim,
*”Sayeyi-sevda başımdan olsa bir dəm kəm mənim,*
*İstəmən dövlət ola məcmueyi-aləm mənim”.*

- II -

Vadiyi-vüslətdə bir dəm könlümi rahət qılıb,
Xatiri-naşadimə hicrani hər saət qılıb,
Gəl məzəmmət eyləmə, çünki buna adət qılıb,
*“Demə rüsvay neçünsən, əqlimi qarət qılıb,*
*Bir pərivəş dilbərü hurinəsəb həmdəm mənim”.*

- III -

Eşq qanunun təcəlla eylədi Şahi-ərəb,
Verdi ilhami-risalət təxtinə zivər tərəb,
Sərvqamətlər bilə baş endirər nəxli-rütəb,
*“Qaşların mehrabinə tövf eyləməkdəndür səbəb*
*Yay-asa qamətü qəddim olubdur xəm mənim”.*

- IV -

Qəddü ruyin bil münasibdür sənin dilbərligə,
Ləli-nabın qiyməti artar çıxa rövşənligə,
Zari-hicrində hesab eylər məni kəmtərligə,
*“Gər qəbul eylərsə ol məhvəş məni çakərligə,*
*Çakərimdir guyiya min Xosrovü yüz Cəm mənim”.*

- V -

Pərtövi-ruyin yanında qeyri tə’lət istəmən,
Bu mükafatın bəhasın özgə xəl’ət istəmən,
Gülşəni-kuyin təmaşasında cənnət istəmən,
*“Eşq dərdilə xoşam, bir ləhzə sihhət istəmən,*
*Sevməzəm olsa təbibim İsiyi-Məryəm mənim”.*

- VI -

Şövqi-eşqin könlümə dastani-atəşbar tək,
Mən bu dastani necə şərh eyləyim izhar tək,
Tövri-nazın sinəmə amadədir azar tək,
*“Gözlərimğə sancılır gördükdə xəttin xar tək,*
*Bais oldur kim, kəm olmaz gözlərimdən nəm mənim”.*

- VII -

**Nafiz**a, möhnətfəzadə tövri-cövlanın əcəb,
Qəlbüvi doldurmasın hicran ilə qəhrü qəzəb,
Eşqüvün bürhanidi qəlbündəki xocəstə təb’,
*“**Naci**ya rizqü məaşım qeyridən qılman tələb*
*Halimə vaqifdürür ol Xaliqi-aləm mənim”.*

## ~ 44 ~

## Ünsi əfəndi qəzəlinə təxmis

**Rəməl-5: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

- I -

Vəfa rahində məhrulər məni həm sərzənişdərlər,
Dodağimni ləbi-lə’li məzağilə çirişdərlər,
Gözəllər könlümün xaliçəsin böylə ərişdərlər,
*“Nə adətdür gözəllərdə məni gördükdə neşdərlər,*
*Çəkəllər tiği-əbrudən nəzər əhlin qilişdərlər”.*

- II -

Biri tuyğun nigah ilə yarıbdır bağrın ənqanın,
Pərirulər məqamində bilinməz fərqi xaqanın,
Baxan saətdə üşşaqin biləllər eybü nöqsanın,
*“Vurallar tiri tir üstən tökəllər aşiqin qanın,*
*Dönüb bir xəndə ilə vurduği zəxmin kirişdərlər”.*

- III -

Cəfayə meyl edər isən səni kim eyləyər təhsin?
Dilarayi-zühasən gülşən içrə, ey güli-nəsrin,
Vəfadə sərfəraz eylə, unut biganəlik rəsmin,
*“Qara xalə məni qoymaz baxım ol mərdümi-çeşmin,*
*Misaldur danəyə qəsd eyləyən quşlari kişdərlər”.*

- IV -

Əgər eşq olmasa aşiq qədim əşyadurur qalmış,
Vəleykin gül-gül olmuş yasəmənlər şaxədə solmuş,
Ləbün sevdasi ilə bəzmdə peymanələr dolmuş,
*“Əgər lə’li-ləbün öpdimsə, qəhr etmə, bu rəsm olmuş,*
*Ələ bir alma düşdükdə qızarmış olsa dişdərlər”.*

- V -

Qəmim var dağı-hicrində, rəhi-eşqin qəmidür bu,
Gülün üstündə şəbnəmdi və ya çeşmim nəmidür bu,
Mənəm, Həvvayi-vüslətdə, deyəllər Adəmidür bu,
*“Dedim: çaki-giribandur və ya sübhün dəmidür bu,*
*Nə kim hər qədri-pürqiymət dedi: olsa gümüşdərlər”.*

- VI -

Sığın Allahə, ey **Nafiz**, keçər axirdə cürmündən,
Nə kim vardur küdurətlər çıxar eyvani-qəlbündən
Çəməndə bülbülə dəydi xəsarət vəchi-gülbündən,
*“Şikayət eyləmə **Ünsi**, gözəllər çori-zülmündən,*
*Fitad olmuş ola hərçənd genə axir çəkişdərlər”.*

**~ 45 ~**

## Mir Naşidi Rumi qəzəlinə təxmis

### Müctəs-1: MəfA’ilün / fə’ilAtün / məfA’ilün / fə’ilAtün

- I -

Nigara, surəti-hüsnün bütün afaqə şaiqdür,
Edib bürhani-aləm xublər bəzmində fariqdür,
Məlahət gülşənində təmtərağın çox mütabiqdür,
*“Giribanı-cəmalın mətlə’i-mehri-məşariqdür,*
*Təcəllizari-eşqə nuri-hüsnün ləm’i-bariqdür.”*

- II -

Olurkən baği-vüslətdə, nigara, sən təki zəngin,
Neçün aşiqlərin qövlündə qıldın qəlbüvi səngin,
Məlahət səhnəsindən qoy ucalsın sövtü ahəngin,
*“Görənlər ziritari-kakilindən ruyi-gülrəngin,*
*Sanırlar sünbülüstan içrə bitmiş bir şəqayiqdür.”*

- III -

Edər sünbülləri bihuş açılsa zülfü mişkinin,
Xəcalətdən bükər boynun mə’tai-Çinü Maçinin,
Dəyər ovqatinə rəxnə gülüstan içrə nəsrinin,
*“Həlavət bəxş olur əhli-dilə göftari-şirinin,*
*Ləbin Misri-məlahətdə mükərrər şəhdi-faiqdür.”*

- IV -

Pərirulər məqamında kimin yar olsa iqbali,
Cəfavü cövrdən olmaz onun könlündə işğali,
Bir anda gər nəzər qılsan, olurkən haldən-hali,
*“Duyar əvvəl baxışda nükteyi-sərpuşi-amali,*
*Nigahın vaqifi-sirri-zəmiri-qəlbi-aşiqdür.”*

- V -

Bu **Nafiz** həm cahandidə, xəyali həm dəxi nahid,
Pərişanxatir olmaqla səfa mülkündədir cahid,
Bu təxmisi təbərrük qıldım aləmə ola xalid,
*“Məbanidür əhibbayi-zəmanın tövrü bil,* ***Naşid****,*
*Mütabiq-surətən, əmma ki, mə’ni namüvafiqdür.”*

**~ 46 ~**

**Seyid Əbülqasim Nəbati qəzəlinə təxmis**

**Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün**

- I -

Bir zəman eşqdə divanələrə baş oldum,
Mən bu divanəligimlə necə gör faş oldum,
Surəti-halimi təğyirdə nəqqaş oldum,
*“Bəs ki, bu üzdəniraqlar ilə yoldaş oldum,*
*Şərbəti-qəndikən şireyi-xaşxaş oldum”.*

- II -

Vəsfimi dutmadılar bir güli-xəndan olani,
Oldum aludeyi-mey möhnəti-hicran olani,
Eşq mülkündə vəfa kim belə ərzan olani,
*“O mələkmənzərə aşüftəvü heyran olani,*
*Səgi-şəbgərd kimi dideyi-xəffaş oldum”.*

- III -
1 Aləmin təntənəvü eyşü nəşatın yığdım,
2 Busitani-ələmin həbbü nəbatın yığdım,
3 Səbrü təmkini-rəhi-eşq səbatın yığdım,
4 *“Əhrimən tək neçə yol eşq büsatın yığdım,*
5 *Genə fərmani-Süleyman ilə fərraş oldum”.*

- IV -
1 Geygilən ətlasü diba ilə həm zərbafi,
2 Yaxma odlara bizi, eyləgilən insafi,
3 Tay dutma mənə hər yoldan ötən əclafi,
4 *“İstədim taki olam lə’li-ləbün sərrafi,*
5 *Eşq biçizi olub qızlara beşdaş oldum”.*

- V -
1 Eşq kuyində bəlalər çəkibən **Nafiz**i-zar,
2 Oldi əyyami-fərağində görün axiri xar,
3 Gərçi dünya dolanır zərrəsifət başimə dar,
4 *“Canü dil verdi* ***Nəbati*** *sənə dəxi nəyi var?*
5 *Demə billa ki, əcəb aşiqi-qəllaş oldum”.*

## ~ 47 ~

## Seyid Əzim Şirvani- Seyyid qəzəllərinə təxmislər

### Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün

- I -
1 Ə’la ya əyyühəssaqi, canım ey möhtərəm saqi,
2 Gözün fikrində qəddim qaşların tək oldu xəm, saqi,
3 Bu miskinə inayət eyləyərsənsə nə dəm, saqi,
4 *“Ölüncə çəkmərəm meyxanədən hərgiz qədəm, saqi,*
5 *Ələ al sən əyaği-badəni, eylə kərəm, saqi”.*

- II -
1 Qəmin həngaməsində qüssələndim qəmgüsar oldum,
2 Bu qədri möhnəti-qəmlər əlində üstüvar oldum,
3 Açıldı lalələr sinəmdə, əyyami-bahar oldum,
4 *“Nə oldi böylə kim, indi zəlili-ruzigar oldum,*
5 *Məni piri-muğan saxlardı daim möhtərəm saqi”.*

- III -

Üzüldi taqətim getdi bu aləmlərdə qövğadən,
Nə qədri istədimsə almadım ləzzət bu dünyadən,
Məni məhrum qılma,  himmət eylə bu təmənnadən,
*“Bilurin sağəri ləbriz qıl xurşidi-səhbadən*
*Ki, bizdən razı olsun xatiri-Cəmşidi-Cəm, saqi”.*

- IV -

Qaranlıq aləmə sal bir ziya məhtabi-mislinlə,
Şirinlik tövhəsin bəxş eyləsən qəndabi-mislinlə,
Ləbi-lə’li-şəkərbari-şərabi-nabi-mislinlə,
*“Xəyali-tağİ-əbruyi-kəci-mehrabi-mislinlə,*
*Əliftək qamətim, geysulərin tək oldu xəm, saqi”.*

- V -

Gözün fikrin çəkəndən dildə əfzundur şəbi-tarım,
Qəmi-eşqi-fəraq ilə çoxaldi cümlə azarım,
Vəfa qıl möhnəti-qəmdə, əlim tut, ey vəfadarım,
*“Dəhani-yar fikrilə yox oldi cümleyi-varım,*
*“Vücudim oldi gör bir nüktə eşqində ədəm, saqi.”*

- VI -

Ləbün fikrində mən xürrəm olum, yoxsa qılım nalə?
Məni əyyami-gərdun saldı bax gör kim, necə halə,
Vücudim məhv olub möhnətsəradə dönmüşəm zalə,
*“Behişti verdi Adəm danəyə, mən daneyi-xalə,*
*Olum qoy xalinə qurban özüm mən, həm dədəm, saqi.”*

- VII -

Nə istər, **Nafiz**a, hərdəm qələmdən xatiri Seyyid,
Şəbi-hicran ilə dolmuş ələmdən xatiri-Seyyid,
Müşəvvəşdür dəmadəd bir sənəmdən xatiri-Seyyid,
*“Tutulmuş qönçə tək hicrində qəmdən xatiri* ***Seyyid****,*
*Səri-minanı aç xatirdən eylə rəf’i-qəm, saqi”.*

## ~ 48 ~

### Rəcəz-8: Müftəilün / müftəilün / müftəilün / müftəilün

- I -

Eyləməm, ey məh, cüda bir məclisi-şəndən səni,
Etməsin axır Xuda gülzari-gülşəndən səni,
İstəməzdim ta rəqib seyr eyliyə gendən səni,
*“Gizlər idim bir zaman bu çeşmi-rövşəndən səni,*
*Gizlədir indi, nigarım, qeyrilər məndən səni.”*

- II -

Qoy büsati-eşqimiz gülşənlər açsın sinədən,
Gül-gül olsun qönçələr, xirmənlər açsın sinədən,
Razi olma rövzəni düşmənlər açsın sinədən,
*“Qoy xədəngi-möhnətin rövzənlər açsın sinədən,*
*Dil görə, ey mahrüx, şayəd bu rövzəndən səni.”*

- III -

Canım alıb hər nəfəsdə vəslə imkan eyləsən,
Tazədən könlüm quşun bir ləhzə pərran eyləsən,
Naz ilə zülfi-pərişani pərişan eyləsən,
*“Bu qədü rüxsar ilə seyri-gülüstan eyləsən,*
*Fərq qılmaz bağiban, ey sərv, gülşəndən səni.”*

- IV -

Dövri-cövrün ram edən, bədbəxtdir, ey tiri-ah,
Bu üqubətlə fəravantəxtdir, ey tiri-ah,
Cameyi-əlvan pərişan rəxtdir, ey tiri-ah,
*“Gərçi, nöh əflaki-kəcröv səxtdir, ey tiri-ah,*
*Qorxma pərran eylərəm suz ilə cövşəndən səni.”*

- V -

Bu nihani-razi qıldım ol guli xəndanımə,
Söylədim ahəstə bilmərrə məhi-təbanımə,
Nagahan vaqif olubsa, nükteyi-pinhanımə,
*“Sən dua eylə yetim, ey can, bu gün cananımə,*
*Hiç qəm çəkmə qutarram məhbəsi-təndən səni.”*

- VI -

1 Qıldı rövşən bəxtimi, zülfün qəra, ey şəm'rüx,
2 Az qalıb şəmşiri-qəm bağrım yara, ey şəm'rüx,
3 Pürbəla Mənsur tək çəkdin dara, ey şəm'rüx,
4 *"Mən hara, həmgameyi-vəslin hara, ey şəm'rüx,*
5 *Od tutub pərvanə tək yannam görəm gendən səni."*

- VII -

1 Eşqdən Xızra xəbər gəldi bəlayi-bəhrdən,
2 Şövqdən Fərhadü Məcnun içdilər ol zəhrdən,
3 Çəkmə göz, sevdali **Nafiz**, sən də ruyi-şəhrdən,
4 *"**Seyyid**a, hər kimsənə bir mətləb istər dəhrdən,*
5 *Mətləbim yox qeyrdən, mən istərəm səndən səni".*

## ~ 49 ~

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

- I -

1 Nə dəm ki, çeşmimi hicr ilə rəxti-xab aparır,
2 Qərarü səbrimi ol ləbləri innab aparır,
3 Ürəgim qəşyələnir, bağrımı zərdab aparır,
4 *"Qəbr evinə o ki, bir şişə meyi-nab aparır,*
5 *Atəşi-duzəxi söndürməgə seylab aparır".*

- II -

1 Dolanardım o səri-kudə rəha zövqü ilə,
2 Fikrü zikrim fərəhəfzavü vəfa fövqü ilə,
3 Bağladın boynumu zənciri-cünun tövqü ilə,
4 *"Abidin səhvini eyb etmə qaşın şövqü ilə,*
5 *O qədər fikr qılır, əqlini mehrab aparır".*

- III -

1 Gəzmədim zövqü səfa birlə bu gülşən bağını,
2 Sinəmə çəkmə sərasər genə hicran dağını,
3 Rəngi-ruyim necə oxşarsa xəzan yaprağını,
4 *"Guzərim kuyüvə düşcək əyağım toprağını,*
5 *Tutiya etmək üçün çeşminə əshab aparır".*

- IV -

1 Hər kim eşq içrə əgər qılmasa rüsva özüni,
2 Rəşk ilə dəhrdə əfsanə biləllər sözüni,
3 El dila, dutsa əgər pərdə bəsirət gözüni,
4 *“Şəbi-hicran müjələr dutmasa çeşmim önüni,*
5 *Giryədən sübhə kimi aləmi seylab aparır”.*

- V -

1 Gözlərin yadi bilə oldum əzəldən bimar,
2 Şadman oldi, fərəhləndi görəndə əğyar,
3 Etdin əyyami-fərağində necə **Nafiz**i xar,
4 *“Şərhi-zülfün gecələr* ***Seyyid****i qoymuş bidar,*
5 *Gərçi əfsanə uzandıqca gözi xab aparır”.*

## ~ 50 ~

## Ustadi-ə’zəm, Fələkzadə Mirzə Məhəmməd Həsən qəzəlinə təxmis

## Münsərih-1: Müftəilün / fA’ilün / müftəilün / fA’ilün

- I -

1 Kiprigiylə məni seyd etdi kəmanəbrulər,
2 Səfayi-gülşəni-gülzarə çıxan məhrulər,
3 Rubəru durdi xüram ilə saçi qarqulər,
4 *“Açıldi həlqeyi-zülfi-nigardən mulər,*
5 *Dolaşdi bir-birinə şahmari giysulər”.*

- II -

1 Cəfavü möhnət ilə halimi yaman elədim,
2 Qəmində sübhü məsa ah ilə aman elədim,
3 Səfayi-kuyini Kə’bə bilib iman elədim,
4 *“Görüb yüzündə qəra xalların güman elədim,*
5 *Riyazi-həşt behişti dutubdi hindulər”.*

- III -

1 Bir dəm ima ilə baxdım o güli-rə’nayə,
2 Sanki can almaq üçün göndərilib dünyayə,
3 Sirrimi faş elədim Mədrəsəli tərsayə,
4 *“Qəza qılıb nəzər etdim o çeşmi-şəhlayə,*
5 *Odur ki, qətlimə fərman yazıbdı əbrulər”.*

- IV -

1 Rümuzi-naz qılıb bağrımi yaxıb getdün,
2 Türfətül-eyndə bir bərq tək çaxıb getdün,
3 Xaneyi-qəlbimi min naz ilə yıxıb getdün,
4 *“Yadunda varmi dünən qiyğaci baxıb getdün,*
5 *Dedim ki, qaidədür kəc baxalla ahulər”.*

- V -

1 Nigari-kani-lətafət gedib kənarimdən,
2 Qərarü himmət ilə dönmədim qərarimdən,
3 Rəbi’i-zövqü səfa bulmadım baharimdən,
4 *“Nə yarim incimaz idi, nə mən nigarimdən,*
5 *Əradə gəzdi, dolandi rəqibi-bədgulər”.*

- VI -

1 Bulmadım eşqdə bir səhhətü səlamətlər,
2 **Nafiz**i qıldi mühəyya bu tövr əlamətlər,
3 Nəsibim oldi bəla, töhmətü nədamətlər,
4 *“Təlxkam eylədi bu* ***Mirzə****ni məlamətlər,*
5 *Şərbət ağzımda necə döndi oldi ağulər”.*

**~ 51 ~**

## Mirzə Ələkbər Sabir qəzəllərinə təxmislər

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

- I -

1 Tiri-müjganin əzəldən bu təndür amaci,
2 Fərasət əhli bilər, iştə qədri-sərraci,
3 Qaşların ərşi-müəllayə çəkdi Həllaci,
4 *"Xüsrovi-hüsnün, əzizim, sənimişsən taci,*
5 *Xublər cümlə sənin dərgəhüvün möhtaci."*

- II -

1 Nə təmaşəyə çəkibdür məni tərsa zülfün,
2 Eylədi səbrimi əfsun ilə yəğma zülfün,
3 Nəkhəti-rayiheyi-ənbər-Sara zülfün,
4 *"Qabi-qovseyn qaşun, leylətül-əsra zülfün,*
5 *Tapmısan mərtəbeyi-hüsndə sən me’raci."*

- III -

Təşneyi-qəmzədəyəm, lə’li-zülalin üzrə,
Yığılıb kani-lətafət xətü xalin üzrə,
Əbri-tirə nə gərəkdür ki, cəmalin üzrə,
*"Tökülüb zülfü siyəh, arizi-alin üzrə,*
*Kə’bəyə  çöl ərəbi mane’ olur hüccaci."*

- IV -

Rəbi’i-bağü çəmən nur alır cəmalindən,
Düşər dilə rədifü qafiyə xəyalindən,
Qəzayi-ruzəni mən dutmuşam hilalindən,
*"Zairi-kuyinəm, ey məh, qoy öpüm  xalindən,*
*Həcəri öpməyənə xəlq deməzlər haci."*

- V -

Surəti-cazibəsi sənsən iki dünyanin,
İstərəm olmağa müştaqi, güli-xəndanin,
Bəs haçan sadir olur, qəlbimizə ehsanin,
*“Kəc nigah ilə dələr bağrımızi müjganin,*
*Bu ox atmağı kim ögrətdi sənə qiyğaci?”*

- VI -

**Nafiz**a, sən kimidür, gündə sızıldar Sabir,
Birinin şaneyi-müyində sızıldar Sabir,
Baxıb ayineyi-ruyində sızıldar Sabir,
*“Gecə-gündüz səri-kuyində sızıldar* ***Sabir****,*
*Neyləsin, qoma qapunnan kəsilib illaci.”*

**~ 52 ~**

**Rəməl-6: Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

- I -

Dilkəşi-feyzi-nəzər nərgisi-şəhladə  durar,
Küfrü iman necə kim, zülfü çəlipadə durar,
Bilməzəm rəmzini xalin neçə mə’nadə durar,
*“Yar getdikcə təhəssür dili-şeydadə durar,*
*Ömr vardıqca həvəs aşiqi-rüsvadə durar.”*

- II -

Həbbəza, ömr şirindirsə də yoxdur xəbərim,
Qaliba, möhnəti-hicranə səzadur səhərim,
Suzişi-cövr ilə dünyani dutub əşki-tərim,
*“Seyli-tə’n öylə təməvvüclə alıb dövri-bərim,*
*Bənzərəm bir qocaman dağə ki, dəryadə durar.”*

- III -

Bülbüli-xəstədilin gülşənə yoxdur həvəsi,
Çünki bir səngi-cəfa ilə kəsilmiş nəfəsi,
Bəllidür kim, o fəqirin dəxi yox dadrəsi,
*“Döysə də canimi minlərlə məlamət ləpəsi,*
*Zövrəqi-himmətim əzzəlki təmənnadə durar.”*

- IV -

Dəhrdə varmi sükun aşiqin əndişəsinə,
Dəysə əsrar ilə min səngi-cəfa şişəsinə,
Nəxli-ümmidimizin dəydi xəta rişəsinə,
*“Bisütun sinəsinə dəysə də min tişə genə,*
*Cövrə təmkin edərək durduği mə’vadə durar.”*

- V -

Səhneyi-xatirəmiz mövsimi-əsrar iştə,
Buldi ehkami-qəza bunca tələbkar iştə,
Bilmədi qiymətimi çünki o qəddar iştə,
*“Nəqdi-can isə bəhayi-tələbi-yar iştə,*
*Can bəkəf, aşiqi-sadiq belə sevdadə durar.”*

- VI -

Saldi bu qəlbimi aşubi-təmənnəyə zəman,
Bir nəzər qılsa idi sineyi-sinayə zəman,
O nəvalər ki, veribdür ney ilən nayə zəman,
*“Nə qəm uğratsa da bir gün məni ifnayə zəman,*
*Mən gedərsəmsə məramim genə dünyadə durar.”*

- VII -

Sanmışam qəlbim üçün bir fərəhəfzayi-həkim,
Də’f edər dərdi-dilim dəhridə rəhmanu rəhim,
Çareyi-**Nafiz**i asan edə mövlayi-əzim,
*“Durmuşam pişü pəsi tə’ndə, **Sabir**, necə kim,*
*O əliflər ki, pəsü pişi ətə’nadə durar.”*

## ~ 53 ~

## Mövlana Məhəmməd Hadi qəzəlinə təxmis

**Müzare-1: Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün**

- I -

Ey xəlqi-bihünər, nə uzun çəkdi xabınız,
Səbr eylədikcə dəm-bə-dəm artır əzabınız,
Bənzər mənim bu halimə, hali-xərabınız,
*“Bəxti-siyahi-millətə bənzər niqabınız,*
*Şərqin mühitimi, o qaranlıq siyabınız”.*

- II -

Yetmək muradə müşkül olur gərçi bisəbat,
Fəhm eyləmə kim, Nuh gəlib verdi bir nicat,
Bu fikrə qail olsan əgər gözləyir məmat,
*“Zalimlərin əlində birər canlı, bihəyat,*
*Divani-ədl yox ki, sorulsun hesabınız”.*

- III -

Xabi-ədəmdə mürgüləyirsən bu gün neçün,
Dur, qeyrət eylə gör dağılıbdır necə öyün,
Düşmüş kələfi-ömri-həyatun dügün-dügün,
*“Bəxşayişi-təbiət ilə həqqiniz bu gun,*
*Zülmətnümundir, buna şahid hicabınız”.*

- IV -

Qəflət bəs oldi, dur ayağa, doğdi afitab,
Dur, hiyləgər ədudən özün sorgilən hesab,
Açsan ömür səhifələrin imdi bab-bab,
*“Əlbət, gələr bahar, yağar abi-inqilab,*
*Parlar sizin cəmali-lətafətməabınız”.*

- V -

Ol gün gələr, ədunin öyi tarümar olur,
Dutduğlari əməl açılıb aşikar olur,
**Nafiz**, şükufələr açılanda bahar olur,
*“Bir gün gələr çiçəkləriniz feyzbar olur,*
***Hadi**, dəruni-şişədə qalmış gülabınız”.*

# TƏRCÜMƏLƏR

## ~ 1 ~

### Xaqanidən tərcümə

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

1 Dil ki, düşdi daminə dərd içrə bulmazsan qərar,
Zülfünə bənd olsa can, iymanə qalmaz ixtiyar.

2 Əql kim, öz çiyninə almışdır eşqin barini,
Eyləməz təxti-Süleymanə əsər, bir ruzigar.

3 Xaki-payindən gər öpsə, ey pəri, badi-fələk,
Əl götürməz ta ki, tacin qılmasa başdan kənar.

4 Gərçi çoxdur cənnət içrə hurilər, ey məhliqa,
Görsə Rizvan surətin, etməz təmənnayi-nigar.

5 Dil ilə din içrə üşşaqin nədir cövründə sud,
Kim, sənin hökmun çıxanda süst olur səbrü qərar.

6 Qəmzənin ahusu susmuş, hiylədir başdan-başa,
Vəhm edir kim, şirlər səbrini eylər bir şikar.

7 Əşki-çeşmi özgə tufan oldusa qeyrilərin,
Eşqi-Nuh ilə coşanlar olmadi aləmdə xar.

8 Div əgər öz ismini Xızra bərabər tutsa gər,
Kim, ani abi-həyat üzrə buraxmaz Kirdigar.

9 Yoxdu bir bakim rəqibdən, sayeyi-zülfündəyəm,
Bir sözə verməz qulaq ol kəs ki, sənsən hökmdar.

10 Var səninlə şükr kim pak əhdimiz, peymanımız,
Sındıra bilməz ani aləm yığılsa, ey nigar.

11 Çoxlar istər kim, qəzadən hicrə dönsün vəslimiz,
Agah ol hökmi-qəzadən olmayaq dünyadə zar.

12 Vəsldən **Xaqani**nin könlündə hakimdi nəşat,
Pak olan bir məmləkət seylabdan olmaz tarü mar.

## ~ 2 ~

## Xacə Hafizdən tərcümə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Şami-vəslidə qəmi-qüssə nicatım kimidür,
Tariki-zülməti-şəb abi-həyatım kimidür.

2 Ruyi-pürtabi-cəmalinlə necə bixudəm,
Badeyi-cami-təcəllayi-sifatım kimidür.

3 Bu mübarək səhər əslində nə fərxəndə imiş,
O gecə qədrdə bir tazə bəratım kimidür.

4 Hatif ol dəm ki, mənə müjdeyi-halət verdi,
Bulunan cövrü cəfa səbrü səbatım kimidür.

5 Könlümün ayinəsi bulmadalur vəsfi-cəmal,
Bu xəbər mülhəmeyi-cilveyi-zatım kimidür.

6 Kamran olsam əgər qüsseyi-qəmdən nə əcəb,
Müstəhəqq olsa mənim xümsü zəkatım kimidür.

7 Dutub cahani sözüm şəhdü şəkər mislində,
Aləmə feyz verən həbbü nəbatım kimidür.

8 Himməti Hafuzü ənfasi-səhərxizlərin,
Bəllidür kim, qəmi-əyyami, nicatım kimidür.

## ~ 3 ~

## Nəvaidən tərcümələr

### Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün

1 Mehri çox görkəzdim, əmma mehribani tapmadım,
Can bəsi qıldım fəda, arami-cani tapmadım.

2 Qəm bilə canimğə yetdim, qəmküsari görmədim,
Hicr ilə dilxəstə buldum, dilsitani tapmadım.

3 Eşq ara yüz min məlamət oxinə oldum nişan,
Bir kəmanəbrudə düzlükdə nişani tapmadım.

4 Könlüm içrə sərv oxdur, qönçə peykan, gül dikan,
Dəhr baği içrə bundan gülistani tapmadım.

5 Hüsn baği içrə səntək şahi-zalim görmədim,
Eşq kuyində özimtək natəvani tapmadım.

6 Çox oxurdum Vamiqü Fərhadü Məcnun qissəsin,
Öz işimdən büləcəbraq dasitani tapmadım.

7 Təb’i-gəncidən mə’ani xürdəsin yüz qatla heyf,
Kim, nisar etməkdə şahi-xürdədani tapmadım.

8 Ol aman içində bulsun, ey **Nəvai**, gərçi mən,
Bir zaman eşqində möhnətdən amani tapmadım.

## ~ 4 ~

**Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**

1 Yar ilə əğyar azarindən olurkən zar mən,
Kim təni-zarim kimi başdan ayaq azar mən.

2 Yari-zülmü tiğidən könlüm kimi məcruh mən,
El cəfasin çəkməyə bağrım kimi əfkar mən.

3 Yar halin anlamaq ümmididən navmid mən,
Xəlqinin yüz möhnətü peykardən nakar mən.

4 Qəm yemək bulmuş işim, yoxdur vəli qəmxarlər,
Türfə iş kim, gərçi biqəmxar, mən qəmxar mən.

5 Can təlaşindən nə dərdim bəllidür, nə sihhətim,
Nə ölüy mən, nə diri, nə sağ, nə bimar mən.

6 Gər başum alub cahandan çıxsam, irməzdür əcəb,
Kim məlul əhli-cahandan anca dersən var mən.

7 Ey **Navai**, ömr əgər budur, əcəl rəhm eyləsə,
Gəlsə canim almağa, can birlə minnətdar mən.

## ~ 5 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Yaridən ayru könül mülküdürür sultani yox,
Mülk kim sultani yox, cismidürür kim, cani yox.

2 Cismidən cansız nə hasil, ey müsəlmanlar kim,
Bir qəra torpağdəkdür kim, güli-reyhani yox.

3 Bir qəra toprağ kim, yoxdur güli-reyhan ana,
Ol qaranğu gecədəkdür kim, məhi-tabani yox.

4 Ol qaranqğu gecə kim, yoxdur məhi-taban ana,
Zülmətidür kim, anun sərçeşmeyi-heyvani yox.

5 Zülməti kim, çeşmeyi-heyvani anun bulmağa,
Duzəxidür kim, yanında rövzeyi-rizvani yox.

6 Duzəxidür rövzeyi-rizvandan olmaq naümid,
Bir xumaridür kim, anda məstlik imkani yox.

7 Ey **Nəvai**, var ana, bundan üqubətlər ki, var,
Həşridən dərdi və lakin vəsldən dərmani yox.

## ~ 6 ~

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Badə dut saqi ki, əyyami-vusal oldi genə,
Dust verdi şadlığ, qəm paymal oldi genə.

2 Mey müdam iç ol ləbi-meygun sənəm dövrində kim,
Zöhd ilə təqva həramü mey həlal oldi genə.

3 Qəmzə birlə gözləri eyni bəla bulmaqdadur,
İşbu mə'nadə pərişan zülfü dal oldi genə.

4 Xublər kuyinə seyr iylə varıb irdi könül,
Gec gəlirkən ana bilməm, kim zəval oldi genə.

5 Ta ləbi-canbəxşidən tapdi **Nəvai** kami-dil,
Ey əcəl, ölmək ana əsrü məhal oldi genə.

## ~ 7 ~

**Həzəc-4: MəfA'İlün / fə'Ulün / məfA'İlün / fə'Ulün**

1 Bizə dövran bağidən bir sərvi-gülrüxsar bəs,
Gahi andan cilvə, gahi dövləti-didar bəs.

2 Xəl'ətin zəxmimə bağlarsa, nə həd kim istəsəm,
Qılsa lütf andan muni tikmək üçün bir tar bəs.

3 Mən kimi zülfün təmənnasi, əgər küfr istəsəm,
İtlərin boyni tənabindən mənə zünnar bəs.

4 Gözdə bir uyğuni görsəm, uyquda görsəm səni,
Ta əcəl uyğusi işbü dövləti-bidar bəs.

5 Vaiza, mən asi olman huri cənnət layiqi,
Muğbeçə, saqi, məqamim külbeyi-xəmmar bəs.

6 Özlüyündən özni səlb etsən əvəz bir kamdır,
Ey **Nəvai**, qılmagil, bu şivəni-zinhar bəs.

## ~ 8 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Nə əcəb hər yan məni-Məcnun başında yarələr,
Bəs ki, yağdi üstümə ətfal əlindən xarələr.

2 Arizin ətrafinə güldür görüngən, ey pəri,
Ya qəmər dövrində səf tərtib dutar səyyarələr.

3 Hər kuyin guya bir sərgəştə aşiq gərdidür,
Bəs ki, təfriq oldi eşqin dəştinə avarələr.

4 Öylə kim, əhbabini könlümdə mehmən etmişəm,
İtlərin ağzında gər görsən bağırdən parələr.

5 Anda Məcnun-mən, bu yan Leyli-sən, et kəc ictima,
Bir tərəf divanələr, bir yan pərirüxsarələr.

6 Xanəgah vəqfi suyun içməzlər, ey şeyx, anlagil,
Gər xumar olsa fəna deyrindəki meyxarələr.

7 Ey **Nəvai**, eşq ara ölməkdən özgə çar, yox,
Bəs qələt bulmaq demək üşşaqini biçarələr.

**~ 9 ~**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Sünbülün Leyli açıbdur yel əbirasa degil,
Dağini Məcnun qanatmış laleyi-həmra degil.

2 Nəstərən güzgusinə bir sari mən, bir sari yar,
Çöhrə əksin görkəzibdür bir güli-rə'na degil.

3 Gülni oxşatmaq üçün yarimğə guya bağ ara,
Müztərib könlüm quşudur, bülbüli-şeyda degil.

4 Sünbül üstündən nəsim əscək, nigarim türrəsin,
Yad qıldım kim, dimağ aşüftədür, sevda degil.

5 Nərgis altun caminin əgnində kafuri-hərir,
Pərdeyi-canimdürür, mərhun qədəhpula degil.

6 Demə əfğanimdə bülbül naləsidək yox nişat,
Bu həm ənduhza degil, gər gül nişatəfza degil.

7 Gülni sərv üzrə xəyal etdim könül bustaninə,
Doğrudur ki, sərvi-gülruyim kibi ziba degil.

8 Bilməriz məğruri-hüsn, ey şuxlər kim, bağ ara,
Siz kibi novrəstə güllərdən biri peyda degil.

9 Manğa gülrux saqiyu, bülbülğə gül tutdi qədəh,
Məst olur ol həm, **Nəvayi**tək vəli rüsva degil.

## ~ 10 ~

**Kamil-2A: MütəfAilün / fə’Ulün / mütəfAilün / fə’Ulün**

1 Arizin güldür, gül üzrə səbzeyi-tər kakülün,
Allah-Allah, gül yüzün qılmış müənbər kakülün.

2 Qamətindür şəm’i, rüxsarındur anun şö’ləsi,
Şö’lənin dudidur, ey şuxi-sitəmgər, kakülün.

3 Açcağında necə hər tari aranur yüz gireh,
Gər könüllər bənd qılmaqdur sərasər kakülün?

4 Nə əcəb hüsn əhlinin sultani bulsan xassəkim,
Mişkdən qoydi günəş başinğə əfsər kakülün.

5 Sünbülədür kim sərasər sarmaşıbdur sərv ilə,
Nəxli-qəddin birlə kim, bulmuş bərabər kakülün.

6 İstəsən kim, bulmayaq aşüftəvü dərhəm, degil,
Qılmasun bizni pərişanhalü əbtər kakülün.

7 Gər **Nəva**iyə dimağ aşüftə bulsa təng iməs,
Çün səpər hər dəm yüzün gözinə ənbər kakülün.

## ~ 11 ~

**Rəməl-2: FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**

1 Necə gəldim həm debən ol sərvi-gülru gəlmədi,
Gözlərimə gecə təng olduqca uyğu gəlmədi.

2 Ləhzə-ləhzə çıxdımi, çəkdim yolunda intizar,
Çıxdı can ağzımdan oy, ol şuxi-bədxu gəlmədi.

3 Arizidək aydın ərkanda gər etdi ehtiyat,
Ruzigarimdək həm oldisə qaranğu gəlmədi.

4 Ol pərivəş qüssəsindən ağladım divanəvar,
Kimsə vardurmi oni gördükdə gülğu gəlmədi.

5 Gözlərindən necə su gəldi deb öldürmə məni,
Kim bari qan oldi gəldi, bu gecə su gəlmədi.

6 Talibi-sadiq tapılmaz yoxsa kim qoydi qədəm,
Yola kim əvvəl qədəm mə’şuqi ötru gəlmədi.

5 Ey **Nəvai**, badə birlə xürrəm et konlün öyin,
Nə üçün kim, badə gələn öyə qayğu gəlmədi.

## ~ 12 ~

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

1 Zülfün açılıb arizi-dilcu bilə oynar,
Hindubeçeyi-şuxdurur su bilə oynar.

2 Ol şux könül lüvhin edib tirə nəfəsdən,
Bir tifldir əlqissə ki, güzgu bilə oynar.

3 Oynamağilə bağladı uyğumi füsundan,
Ta qəmzəsi ol nargisi-cadu bilə oynar.

4 Tən yox ki, könül bulsa gözün birlə mülaib,
Məcnunə əcəb yox əgər ahu bilə oynar.

5 Bir luliyi-bazigər irür çənbər içində,
Xalin kim, əsil həlqeyi-gisu bilə oynar.

6 Zahid bilə nəfs etsə təməsxür nə əcəb kim,
İt seyd qılan vəqtidə tülku bilə oynar.

7 Müğ deyrdə məst olsa **Nəvai**ni görün kim,
Bir alma kibi günbədi-minu bilə oynar.

## ~ 13 ~

## Baqi əfəndidən tərcümə

### Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün

1 Mişki-xütəni bənzədibən xaki-kuyinə,
Atəş salanda xirməni-gül abi-ruyinə.

2 Sən canim almaq istərikən şövq içindəyəm,
Bir gün yetərsən aqibət ol arizuyinə.

3 Kuyin tozun nəsimi-səba tərpədəndə bil,
Hər sübh olanda məst oluram zülfi-buyinə.

4 Çeşmim yaşiylə dolduraram rahi-kuyini,
Ta hiç kəs dolanmasun əsla bəsuyinə.

5 Baqi olubdu zülfi-siyahinə mübtəla,
Ey mən əsiri-silsileyi-tari-muyinə.

## ~ 14 ~

### Fərruxi Yəzdidən tərcümə

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

1 Ol güli dün gecə məsti-meyi-nab eyləmişəm,
Xütən ahusini səhradə sirab eyləmişəm.

2 "Gördüm ol türki-xəta düşmən imiş canım üçün,
Səhv edib düşmənə mən dust xitab eyləmişəm.

3 Mənzil oldi gözümün didəsi biganələrə,
Ol qədər giryə qılıb xanəxərab eyləmişəm.

4 Şəm'ə şərh eylər ikən mən qəmi-pərvanəni dün,
Cismini dərdə yaxıb, didəsin ab eyləmişəm.

5 Qanə qərq olsa da Fərhad, fəqət ölməz idi,
Nəqli-Şirinlə ani cazibi-xab eyləmişəm.

6 Mənə tədrici ölümmüş demə bu dürlü həyat,
Mən də can çəkməyimi ömrə hesab eyləmişəm."

7 Çəkdi **Fərruxi** necə dəhrdə min dərdü ələm,
Mən də **Nafiz**, bu həqarətlərə tab eyləmişəm.

Mətlə' və məqtə'-dən başqa beş beyt
Fərruxi Yəzdidən tərcümədir.

# ƏLAVƏLƏR

## AĞAKƏRİM NAFİZƏ HƏSR EDİLMİŞ MƏQALƏLƏR

### İstəsən könlüm kimi gülzarə dönsün kainat[1]

Şərq ölkələrinin hər birində doğulub, boya-başa çatmış insanların cibillətində sözə, səsə, avaza dərin bir maraq hakim olur. Bu səbəbdəndir ki, sözün, səsin, avazın vəhdətindan yaranmış muğam kiçikdən-böyüyə hamını öz sehrinə cəlb edir, insanda müdriklik, kamillik, humanizm kimi fəlsəfi duyğular oyadır. Muğam elə bir çeşmədir ki, ondan yalnız ləzzət aparmaq azdır, muğamın sədaları altında düşünmək, xəyala dalmaq, Allahın bəşər övladına bəxş etdiyi əsrarəngiz avazlar səltənətinə daxil olmağı bacarmaq lazımdır... Hər bır şərqli kimi, mən də uşaqlıq illərindən ta bu günəcən Şərq musiqisinin pərəstişkarlarından olmuşam. Lakin məni avazla yanaşı, muğam üstündə oxunan və hər beytində bitkin obrazlar silsiləsi olan sözlər daha çox cəlb edib. Elə buna görə də hər muğam oxuyanı bəyənməmişəm. Yaxşı yadımdadır, 1989-cu ildə Qarabağda “Xarı bülbül" muğam müsabiqəsi keçirilirdi. Azərbaycanın adlı-sanlı xanəndələrinin iştirak etdiyi bu müsabiqəni hamı televiziya vasitəsi ilə diqqətlə izləyirdi. Birdən ekranlarda qədim Şamaxı torpağını təmsil edən gənc bir xanəndə göründü. Onun Seyid Əbülqasim Nəbatinin sözləri üstündə oxuduğu “Sarəng” təsnifi həm tamaşaçıların, həm də münsiflər heyətinin sürəkli alqışları ilə müşayət olundu. İfa o qədər cazibəli oldu ki, çoxlarının yaddaşında xanəndənin adı deyil, oxuduğu təsnifin təsiri altinda “Sarəng"i oxuyan oğlan" ifadəsi qaldı. Uzun müddət mən də onu görə bilmədim. Lakin xoş bir təsadüf nəticəsində 2002-ci ilin qışında Fransada yazılmış bir disk (CD) əlimə keçdi. Üstündə fransız dilində "Ağakərim Nafiz" sözləri yazılmışdı. Səsləndirəndə eşitdiyim avaz məni düz 12 il əvvələ qaytardı. Onun ifasında dinlədiyim muğamlar illərlə həsrətində olduğum, amma çoxlarından eşidə bilmədiyim qəzəl-

1 “Körpü” jurnalı, Sentyabr, 2005, №49, s. 37-38.

lərlə bəzənmişdi. Həm də bu səsdə qəribə cazibə vardı. Oxuduğu qəzəllərin sözlərini o qədər düzgün ifadə edirdi ki, onun bu mətləbləri dərindən duyduğuna şübhə yeri qalmırdı. Ürəyimdə onunla yaxından tanış olmaq həvəsi yarandı. Bir neçə gün tanışlardan Ağakərimin yaşadığı ünvanı soruşdum. Nəhayət, telefon nömrəsini öyrənə bildim. O, Fransaya növbəti səfərə hazırlaşırdı. Görüşümüz ustadın səfərindən sonra baş tutdu. Görüşənə qədər mən onu Ağakərim Nafiz kimi tanıyırdım. Söhbət əsnasında bəllı oldu ki, o, sinəsi sözlə dolu, klassik ədəbiyyatımızı, dinimizi, tariximizi dərindən bilən, özü də hərdənbir gözəl qəzəllər yazan ustad bir sənətkardır, söz sərrafıdır.

Onun dinləyicisi olmaq üçün hər kəsdən səviyyə tələb olunur. Yüngül musiqidən zövq almağa üstünlük verənlər Ağanı başa düşə bilməz. Ağa dərin bilikli və ağır adamların xanəndəsidir. Xoşuna gəlməyən sözü, qəzəli oxumaz. Nəsimi, Hafiz, Füzuli, Seyid Əzim, Nəbati, Raci, Sərraf, Ağa Məsih Şirvanı, Mirzə Əli Möcüz, Molla Ağa Bixud, Şəhriyar kimi şairlər ustadın həmişə məmnuniyyətlə müraciət etdiyi şairlərdəndir.

Ağakərim Nafiz kimi nadir istedadlı sənətkarlarla görüşəndə təbii olaraq ondan soruşulmalı bəzi suallar çıxır. Odur ki, suallara keçməyi lazım bildik.

**– Ustad, hər bir sənət növünün inkişafı üçün, şübhəsiz, bir örnək olur. Əgər sirr deyilsə, muğam oxumağı kimdən öyrənmisiniz və ya kimləri özünüzə ustad sayırsınız?**

– Məlumdur ki, Şirvan torpağı ta qədimdən Azərbaycanın şeir-sənət mərkəzlərindən olmuşdur. Burada şöhrəti bütün Şərq ölkələrinə yayılmış Xaqani, Nəsimı, Seyid Əzim, Sabir kimi dahilərlə yanaşı, Mirzə Məmmədhəsən, Sarəng Zeynal, Mirzə Güllər kimi xanəndələr, Mirzə Bilal, Şakir, Məmmədağa kimi aşıqlar yaşamışdır. Onların sırasında səsi hələ də qulaqlarımda qalan Ağalar adlı gənc bir xanəndə də vardı. Mən onu ilk dəfə eşidəndə 13 yaşmdaydım. Ara-sıra mahnılar oxuyardım. Muğamdan anlayışım belə yox idi. Mənə məsləhət gördülər ki, Şamaxı mədəniyyət evinə gəlib Ağalara qulaq asım. Ora gəlib içəri girəndə Ağalar səhnədə səhv etmirəmsə, “Şur" dəstgahı oxuyurdu. İlk baxışdan məni o qədər də cəlb etmədi. Axı mən o vaxta qədər muğam oxumamışdım. İllər ötdükcə bu xanəndənin avazı məni öz cazibəsinə saldı və beləliklə də muğam oxumağa başladım. Nə qədər ki,

Ağalar sağ idi, ondan öyrənir və muğam sahəsindəki biliklərimi təkmilləşdirirdim. 29 yaşında ikən Ağalar avtomobil qəzasında həlak oldu. Mənim üçünsə artıq geriyə yol qalmamışdı. Odur ki, vaxtaşırı Azərbaycanın və İranın böyük xanəndələrinin lent yazılarını dinləyir və hərədən bir şey öyrənirdim. Ərəb xanəndələrindən Əsməhan, Ummi Gülsum, İran xanəndələrindən Əbülhəsən xan İqbal Azər, Səlim Müəzzinzadə Ərdəbili, Məhəmmədrza Şəcəriyan, Azərbaycan xanəndəsi Hacıbaba Hüseynov ən çox sevdiyim ustadlardandır.

**– Sizin fikrinizcə, hər bir qəzəli muğam üstündə oxumaq olarmı?**

– Bu suala birmənalı şəkildə "yox" cavabı vermək olar. Çünki hüzn, kədər, müdriklik, qəhrəmanlıq, məhəbbət və hikmətlər söyləyən muğamlarımızın hər bir guşəsi müvafiq olaraq eyni məzmunlu qəzəllərlə bəzədilməlidir. Mən çox zaman bir muğamı dəstgah şəklində hazırlayarkən günlərlə qəzəllər seçir və onların məzmununa xüsusi diqqət yetirirəm. Xoşuma gəlməyən qəzəli oxumaq təbiətimə yaddır. Bəzən elə olur ki, bir qəzəlin içindən də seçim eləməli oluram. Elə xanəndələrimiz var ki, 40 il bundan əvvəl məsələn, "Rast" muğamında hansı qəzəli oxuyubsa, indi də həmin qəzəli oxuyur və tələbələrinə də elə o qəzəli öyrədir. Nəticədə muğam ifaçılığında cığırdaşlar meydana gəlir ki, bu da yeknəsəklik, təkrarçılıq yaradır. Məncə, gərək xanəndə heç özü-özünü də təkrar etməsin.

**– Muğamatla təsniflərə münasibətiniz necədir?**

– Mənim fikrimcə, təsniflər 19-cu əsrdən başlayaraq muğamlara daxil olub. Ondan əvvəl pişrovlar, dəramədlər, nəğmələr şəklində havacatlar mövcud idi. İstər nəğmələr, istərsə də təsniflər muğamı daha da zinətləndirməyə xidmət etdiyindən bu zərurət yaranmışdır. Bu ən çox muğamın yaratdığı mürəkkəb əhvali-ruhiyyədən bir anlıq ayrılaraq dinləyicini yeni guşəni eşitməyə hazırlayır. Muğamlarımızda çoxlu təsniflər var. Yeri gəlmişkən qeyd edək ki, təsniflər üçün seçilmiş sözlər də həmin muğamın ruhuna uyğun olmalıdır. Əgər söz musiqi libasından kənara çıxarsa, arif dinləyici bu eybəcərliyi o saat hiss edir və tez də unudulub gedir. Yuxarıda adını çəkdiyimiz Mirzə Məmmədhəsən təsnif yaratmaqda da ustad olub. Ondan lent yazısı qalmasa da, onunla birgə çalışmış sənətkarların zümzüməsindən, xüsusilə məşhur balabançı mərhum Əli kişinin (Əli Kərimovun) ifalarından istifadə

edərək, bəzi təsniflərini bərpa eləməyə çalışmışam. “Mahur" üstündə oxuduğum:

**Ruzi-əzəl mərəzim varikən.**
**Arif olan qəmə qəmxar ikən,**
**Odlara yaxdı ərəzim var ikən,**
**Xanəxərab, belə bala nazənin,**
**Etmə kəbab, belə bala nazənin** –

misraları ilə başlayan təsnif onlardan biridir.

– Ustad, bir vaxtlar muğamı üçlük ifa edirdi. Elə indi də bu ənənə yaşayır. Bəzən də muğam ifaçıları böyük bir ansamblın müşaiyəti ilə oxuyurlar. Buna sizin münasibətinizi bilmək istərdik.

– Əgər xanəndə cazibəli səsə, təkrarsız boğaza, incə keçidlərə malik olsa, çalğıçılar da onu ehtiyatla müşaiyət etmək məcburiyyətində qalır. Bu zaman dinləyicinin diqqəti yalnız xanəndədə olur və yaxud əksinə, çalğıçılar mahir, xanəndə isə zəifdirsə, heç zaman diqqəti cəlb etmək mümkün deyil. Yaxşı olar ki, həm çalğı, həm də xanəndə bir-birini tamamlasın. Qaldı ki, müşaiyətçilərin sayı məsələsinə bu, məncə, fərdi bir şeydir. Deyilənə görə, Mirzə Məmmədhəsən 4 nəfərin müşaiyəti ilə oxuyarmış: tar, balaban, dəmkeş, qoşa nağara. Cabbar Qaryağdıoğlundan sonra beşlik üçlüklə əvəz olunub.

**– Ustad, muğamat Yaxın Şərq xalqlarının hamısına eyni zamanda məxsusdur. Hər bir xalqın muğam sahəsində öz imzası var. İran və Azərbaycan muğamlarının oxşar və fərqli cəhətləri haqqında fikrinizi öyrənmək istərdik.**

– Bu suala bir musiqişünas alim cavab versə, daha düzgün olar. Lakin bəzi mülahizələrimi sizinlə bölüşmək istərdim. Əslində İran muğamı ilə Azərbaycan muğamı arasında elə ciddi fərq yoxdur. Məsələn, “Hümayun" və “Çahargah” muğamları xırda fərqlər nəzərə alınmazsa, demək olar ki, eynidir. Əsas fərq məşhur ifaçıların muğama gətirdiyi və sonradan örnəyə çevrilən xırdalıqlardan ibarətdir. Məsələ burasındadır ki, lent yazıları indiyə qədər qalmış qədim Azərbaycan xanəndələrini də dinlədikdə onların da bol-bol zəngulələr vurduğunun şahidi oluruq. Azərbaycanda sovet hakimiyyəti qurulandan sonra bu hökumətin adamları mümkün qədər öz tarixi keçmişindən ayırmağa

çalışması sirr deyil. Bu, xalq musiqisindən də yan ötüşmədi. Əvvəlcə tar kimi gözəl, milli alətimizə qarşı müharibə elan olundu. Sonralar tarın çərək pərdələri kəsilərək guya müasirləşdırıldi və pianinoya uyğunlaşdırıldı. Nəticədə ənənəvi oxu tərzinə böyük zərbə vuruldu. İndi kim Cabbar, Əbülhəsən xan, Şəkili Ələsgər, Segah İslam kimi oxuya bilmirsə, bu cür oxu tərzini bəyənmir, dodaq büzür və oxuya bilənlərdə isə İran nəfəsləri axtarır. Mən bu cür bölgünün tam əleyhinəyəm. Əvvəla muğam standart qəliblərdən ibarət deyil. Hamı bir cür oxusa, muğamatın mənası olmaz. Kimsə öz nəfəsində həm İran, həm də Azərbaycan boğazlarını ehtiva edib harmoniya yarada bilirsə, elə əsil sənətkarlıq da budur.

**– Ustad, müasir Azərbaycanda neçə dəstgah var?**

– Muğamatımızda 7 əsas dəstgah var: “Şur", “Rast", “Çahargah”, “Mahur”, “Zabul-Segah", “Bayatı Şiraz", “Humayun". Bunlann bəziləri, məsələn, “Şur’’ və “Rast” həcmcə böyükdür. Xanəndənin bacarıq, istedad və səs imkanından asılı olaraq, bir saat, saat yarım müddətində oxuna bilir. Elə xanəndə var ki, dəstgahların hər bir şöbəsində bir qəzəl oxuyur. Bəzən bir qəzəli iki şöbədə oxuyanlar da var. Dinləyicini yormamaq üçün dəstgahı qısaltmaq da olar. Ancaq qısaltma dəstgahın ümumi strukturuna ziyan gətirməməlidir.

– **Bəzən dəstgahlarla yanaşı, müxtəlif adlarla tanınmış muğamlar da var. Məsələn, "Mirzə Hüseyn segahı”, “Həşim segahı”, ‘‘Yetim segah". Bunların əsil "Segah"dan fərqi nədədir?**

– Doğrusu, mən bu cür bölgünün əleyhinəyəm. Çünki muğamı hərə öz zövq və səliqəsinə uyğun oxuyur. Bir xanəndənin, deyək ki, “Mahur"u o biri xanəndənin “Mahur”una bənzəmirsə, onda onların oxuduqları “Mahur"ları xanəndələrin adları ilə adlandırsaq, görün nə qədər böyük bir siyahı alınar.

“Segah"lara gəldikdə isə onu demək olar ki, hər hansı xanəndənin bir cüzi əlavəsinə görə muğamın adında dəyişiklik etmək olmaz. Qoy şəxsin adı muğamı deyil, muğamın adı şəxsi nişan versin. “Segah İslam", “Sarəng Zeynal” və başqaları kimi.

**– Bizə məlumdur ki, siz təsnif yaratmaqla da məşğul olursunuz...**

– Bəli, mən indiyə kimi 200-ə qədər təsnif yaratmışam. Bəzi təsniflərim müxtəlif xanəndələr tərəfindən də oxunur. Mən onların mətn-

ləri üzərində xüsusi olaraq çalışıram. Elə olur ki, müvafiq sözlər tapmayanda özüm quraşdırıram...

**– Ustad, yeri gəlmişkən, siz eyni zamanda klassik üslubda qəzəllər də yazırsınız. Onlardan birini oxucularımız üçün ərməğan edərsizmi?**

– Böyük məmnuniyyətlə:

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

İstəsən könlüm kimi gülzarə dönsün kainat,
Öylə bir gülzar kim, ondan səfa tapsın həyat.

Məhv olub viranə qalsın qəsrlər, kaşanələr,
Eşqə sərhədd olmasın, vicdanə yar olsun nicat.

Görməsin qəm al yanaqlar, gül dodaqlar solmasın,
Oynasın şən çöhrələrdə min təbəssüm, min nişat.

Rəqsə gəlsin ədl camın nuş edən məstanələr,
Yaysın öz ətrin cahanə bu cəmiyyət, bu büsat.

Rahi-eşqində əgər min dəfə can versəm, xoşam,
Eşq qanunində yoxdu əhli-eşq üçün məmat.

Lalələr rəngində qan qorxutmasın, **Nafiz**, səni,
Dildə eşq amalı, amalında var əzmi-səbat.

* * *

Böyük xanəndə Ağakərim Nafizin avazından doymaq olmadığı kimi, söhbətindən də ayrılmaq mümkün deyil. O, gözəl sənətkar, incə ruhlu şair, kövrək qəlbli bir insan olmaqla bərabər, imanlı bir müsəlmandır. Adətən bütün bu müsbət keyfiyyətlər çox az adamda olur.

***Hafiz Abıyev***
***Azərbaycan Milli Elmlər Akademiyasının əməkdaşı***

## "Mən muğami 150 il əvvəlki tək oxuyuram"[1]

Xanəndə Ağakərim Nafiz Şirvan muğam məktəbinin yetişdirdiyi, öz dəst-xətti ilə seçilən sənətkarlardandır. Amma 50 ilə yaxındır ki, muğamın təbliği ilə məşğul olan bu sənətkar diqqətdən kənarda qalıb.

Ağakərim Nafiz xaricdə daha çox məşhurdur. Bir neçə dəfə Fransada, İtaliyada, o cümlədən Avropanın bir çox ölkəsində qastrol səfərlərində olan xanəndə böyük salonlarda geniş konsert proqramları ilə auditoriya qarşısına çıxıb. Bu 40 ildə Azərbaycanda adi bir audiokaseti buraxılmasa da, Fransada diski çıxıb. Artıq bir neçə ildir ki, xarici ölkələrdə ustad dərsləri keçir. Buna baxmayaraq, öz vətənində xanəndə yetişdirməyə həvəs göstərmir. Ustad sənətkar bütün bunlara qəzetimizə verdiyi müsahibədə aydınlıq gətirir.

**– Ağakərim müəllim, 50 ilə yaxındır xanəndəlik edirsiniz. Bəs nə üçün indiyədək nə bir kaset buraxdırmısınız, nə də konsert vermisiniz? Deyəsən, bir az passiv işləyirsiniz...**

– Mən təbliğ olunmağa heç vaxt ehtiyac duymamışam. Mənim mahnılarımı, təsniflərimi xalq artistlərindən tutmuş, lap cavan xanəndələrə qədər, çoxları oxuyublar. Onlar buraxdırdıqları kasetlərdə mənim təsniflərimdən istifadə ediblər. Ancaq mən öz təsniflərimi belə təbliğ etməyə ehtiyac duymamışam. Nə də gedib heç kimə deməmişəm ki, niyə məndən icazəsiz mahnılarımdan, təsniflərimdən istifadə edirlər? Ona görə ki, biz oxuduğumuz muğamları, mahnıları da elə bizim kimi insanlar bəstələyiblər, düzüb qoşublar.

Təbliğ olunmaq məsələsinə gələndə isə, keçmişdə nə kaset vardı, nə klip çəkdirirdilər, nə də konsert verirdilər. Amma o dövrlərin sənətkarları yüzillərdir məşhur xanəndə kimi yad olunurlar. Məgər Cabbar Qaryağdıoğlunun vaxtında belə şeylər vardı? Amma Cabbarın adı bu gün də dillər əzbəridi. Yəni sənətkar sənəti ilə tanınırdı. Ancaq indikilər sənəti, istedadı oldu-olmadı, cumurlar kaset buraxdırmağa. Bir də görürsən ki, oxumağa başladığı heç 2-3 ay deyil, 5 kaset buraxdırıb... Daha doğrusu "albom". Ancaq bayaq da dedim, mənim təsniflərimi lentə aldırıb, sonra da öz adlarına çıxırdılar. Məsəlçün, Elşad Qaraye-

1 Ekspress.- 2011.- 10-12 dekabr.- S. 19.

vin oxuduğu "Zəngi, zəngi" mahnısı mənim bəstələdiyim mahnının bir hissəsidir. Adı da "Xahiş mikonəm"dir. Bu mahnını mən Tacikistanda olanda bəstələmişəm. Bir dəfə Düşənbədə olanda, skamyada oturmuşdum, gördüm, bir tacik qızı telefonda danışır, amma tez-tez "alo, xahiş mikonəm" deyir. Mən durub gedəndə artıq özümçün zümzümə edirdim: "xahiş mikonəm, alo, xahiş mikonəm". Həmin mahnı o zaman yaranıb. Elşad Qarayev də mahnını "Zəngi, zəngi" kimi oxuyur, hələ klip də çəkdirib. Ancaq titrdə yazdırıb ki, guya mahnının sözləri və musiqisi Elşada məxsusdur. Qəti şəkildə bildirirəm: Elşadın oxuduğu "Zəngi, zəngi" mənim "Xahiş mikonəm" mahnımdır. Mən kaset buraxdıracaqdım. Mahnılarımı lentə də aldırmışdım. Ancaq elə oldu ki, bir dəfə kənd soveti sədrini vurdum. Məni həbs edib, 2 il iş kəsdilər. Bilmirəm nədənsə həmin kaseti də satışa buraxmadılar. Sonradan mənə bir dostum dedi ki, həmin lentin yoxa çıxması hansısa müğənninin sifarişi ilə olub. Ancaq müğənninin adını demədi. Xülasə, həmin kasetdə mənim "Xahiş mikonəm" mahnım da vardı.

Mənim mahnılarımı nəinki müğənnilər, hətta adlı-sanlı bəstəkarlar da öz adlarına çıxıblar...

**– Kimlərdən dərs almısınız?**

– Mən çox xanəndədən təlim götürmüşəm. Ancaq əsl ustadım, ötən əsrin ortalarında Şamaxıda Ağalar adında xanəndə vardı, o olub. Allah ona rəhmət eləsin, çox cavan yaşlarında həyatdan köçdü. 1969-cu ildə Ceyrankeçməzdə onu maşın vuranda, heç 30 yaşı yox idi. Rəhmətlik Ağalar başqa aləm idi. Onda olan zil səsə, zənguləyə indiyədək mən rast gəlmədim. Mən onun sənətini tam qavraya bilsəydim, indi başqa cür xanəndə olardım. Onun zəngulələri, boğazları, nə bilim, göydəngəlmə bir şey idi. Ağalar rəhmətlik muğamatı çox gözəl bilirdi, Asəf Zeynallı adına Musiqi Texnikumunda Seyid Şuşinskinin sinfində oxumuşdu. Ağalardan sonra müəllimim rəhmətlik Aşıq Məmmədağa olub. Düzdür, onun şəyirdi olmamışam, ancaq bir yerdə çoxlu konsertlərdə oxumuşuq. Aşıq Məmmədağa çox sərrast muğam ifaçısı idi. Yəqin bilərsiniz, Şirvanda belə bir qayda var ki, aşıq mütləq muğamatı gözəl bilməlidir. Digər tərəfdən, aşıqlıq o qədər böyük sənət sayılırdı ki, aşıq olmaq istəyənlər gərək bir neçə il ustad aşıqların yanında xanəndəlik edəydilər. Şirvanın bütün aşıqları bu sənətə xanəndəlikdən gəliblər, ona görə də onlar muğamı gözəl bilirlər.

**– Ağakərim müəllim, deyək ki, indi televiziyaya, radioya çıxmaq üçün pul istəyirlər. Bəs nə əcəb, əvvəllər ekrana çıxmamısınız?**

– O dövrdə televiziyaya çıxmaq üçün xanəndə mütləq ya gərək filarmoniyanın, ya da telestudiyanın solisti olaydı. Yəni hələm-hələm rayon xanəndəsini efirə buraxmırdılar. Yaşlı nəsil gözəl xatırlayar, ustad xanəndə vardı, Əliyusif Qəniyev – əslən Şamaxıdan idi, Kürdəmirdə yaşayırdı, 1971-ci ildə vəfat elədi. O boyda sənətkarı nə radioya, nə də televiziyaya buraxmadılar. Çoxu da paxıllıqdan. Bizim millətin ən böyük bəlası elə paxıllıqdır.

**– Sizin ifanız klassik formadan fərqlənir. Bu da çox vaxt birmənalı qarşılanmır...**

– Kimsə mənim ifamı qəbul etmirsə, gedib dalaşmayacağam ki... Götürək, Alim Qasımovu... Alim muğamata yeni ifa tərzi, yeni nəfəs gətirib. Onun oxumağını da burda bəyənmirlər. Çox da bəyənməsinlər, Alimin üzüyünün qaşı düşəcək?.. Alimi bütün dünya bəyənir, qəbul edir.

Mənim ifama gəldikdə isə, onu deyə bilərəm ki, mən muğamı 100-150 il bundan əvvəl necə oxuyurdularsa, elə oxuyuram. Bir dəfə bir çayxanada oturmuşdum. Alim o vaxtlar təzə-təzə məşhurlaşırdı, özü də Möhlət Müslümov və Fəxrəddin Dadaşovun müşayiəti ilə çıxış edirdi. Onlar da həmin çayxanada idilər. Gördüm, tanınmış xanəndələrdən biri Möhlətə deyir ki, "Alim "Bayatı-Şiraz"ı düzgün oxumadı. Onda mən onların söhbətinə müdaxilə etdim, soruşdum ki, "niyə belə deyirsən"? Dedi ki, "Alim orda "Segah" oxudu". Onda mən dedim ki, "Alim düz oxuyur, sən bilmirsən ki, "Bayatı-Şiraz"da "Segah" da var". Bu gün çoxları bilmir ki, keçmişdə muğamlarımız necə olub. Ona görə də bizim ifalarımız onlara qəribə görünür.

**– Son zamanlar sorağınız mütəmadi olaraq xaricdən gəlir. Hansı ölkələrdə olmusunuz?**

– Fransada, İtaliyada, İspaniyada, İsveçrədə və s. olmuşam.

**– Xarici səfərlərinizi kimlər təşkil edir?**

– Fransalı Mark Lüpiti yəqin tanıyırsınız. Məşhur udçalandır. Bütün səfərlərimizi o təşkil edib. Bundan başqa, Mark Fransada mənim ustad dərslərimi təşkil edir.

**– Bəzi xanəndələr Şirvan muğam məktəbinin olmadığını, Şirvana muğamın Qarabağdan keçdiyini deyirlər. Siz bu barədə nə deyərdiniz?**

– Bunu deyən böyük səhv edir. Qarabağ muğam məktəbinin sorağı 19-cu əsrdən gəlir. Ondan əvvəl bu məktəbin olması barədə heç bir mənbədə rast gəlinmir. Ancaq Şirvanda xanəndəlik məktəbinin kökü gedib Şirvanşahlar dövrünə çıxır. Şirvanşahlar həmişə dövrün məşhur şairlərini, xanəndələrini öz saraylarında saxlayıblar. Ancaq Qarabağ xanəndəliyi Cabbar Qaryağdıoğludan o tərəfə gedib çıxmır.

**– Tələbələriniz varmı?**

– Bilirsinizmi, indi gənc xanəndələrə keçilən muğam dərsinin proqramı məni qane etmir. Muğam elə bir sənətdir ki, onu hər hansı dar çərçivədə keçmək olmaz. Muğamın imkanları böyükdür və hər bir xanəndə bu imkanlardan öz qabiliyyəti hesabına istifadə etməlidir. Mənim dostlarım bir-iki dəfə mənə bu barədə təklif etdilər, razı olmadım.

**İltifat HACIXANOĞLU**

## Ustadımıza bərəkallah![1]

Ecazları təb'ində, səsində və xarakterində yaşadan Ağakərim Nafizi təbrik edirik

Ağakərim Nafizi o adamlar tanıyırlar ki, onlar muğamat sərrafıdırlar və muğamı artist işi deyil, kişi sənəti kimi bilirlər. Azərbaycanın muğam məktəbində və muğam sənətində belə bir adamın, belə bir ifaçılığın və belə bir təvazönün mövcudluğu hələ neçə illər sonra dillərdə dastan olacaq, Allah bilir. Sözsüz ki, bir ustaddır. Şəyirdlərinin, şəksiz, heç birindən xeyir güdməyən və gözləməyən bir ustad. Ölkənin muğam sənətində qürrələnən çoxları onun dərgahına payipiyadə gediblər ki, bir boğaz, bir zəngulə tərzi, bir təsnif, bir keçid öyrənsinlər. Nafiz bildiyini əsirgəməyib, dizini qatlayıb, dəfi əlinə götürüb, şəyird adı ilə gələn kəsləri də qənşərinə qoyaraq gözlərini yumub… Götürə bildikləri qədər götürüblər.

Ağakərim Nafizin bütün məziyyətlərini götürmək mümkün deyil. Bir-iki təsnif çırpışdırarsan, vəssəlam. Amma onun sinəsindən axıb gələn o böyük sənəti daşımaq üçün gərək onun xarakterindən bircə parça götürməyə cəsarət edəsən. Bəli, cəsarət edəsən, çünki Nafiz sadəcə bir muğam ustadı deyil, həm də bir şəxsiyyətdir ki, o şəxsiyyətin ağırlığı və səbatı Azərbaycanın muğam və musiqi aləmində tayına tamarzıdır. Qorxu… çox pis şeydir. Hər kəs o xarakteri daşıya bilməz. Hər kəs Ağakərim Nafiz olamaz.

Şöhrəti ala buluda dirənən nə qədər ustad oxuyanlar var… Mütəvazi davranışları da dillərdə dolaşar. Amma bircə qırıq Nafiz xarakterinə möhtac olduqlarındandır ki, günün birində param-parça olub dağılıb tökülərlər.

Görəsən, Ağakərimin əlindən su içib muğam dünyasında mandatlı adamlar kimi tanınanların neçəsi bu günlərdə onu arayıb "Ustad, ad günün mübarək olsun" dedilər ? Axı, Azərbaycanın bu möhtəşəm, təkrarsız təb sahibi olan ustadının 65 yaşı tamam oldu. Təbrik edənlər olmadısa, bir az qorxub hürkənləri xəbər yolladılarmı, görəsən? Onun

1 Azadliq, 10 Dekabr 2013, http://www.azadliq.info/38881.html

qapısını ərklə açıb, təmənnasız olaraq bilmək həvəsi ilə onun hücrəsinə daxil olanların neçəsi oraya bir təbrik yolladı? O, xalq artisti-filan deyil. Muğam ustadıdır və muğamla artistlik etməyənlərdəndir. O, muğamın talan edilməmiş şəhərinin sultanıdır və heç bir hökmdar onun muğam şəhrinin astanasından bəd niyyətlə baxa bilməz. Öz aləminin sultanı odur və heç kim o aləmdə ona buyruq verə bilməz. 65 ili belə yaşayıb, indən belə 65 il də ömür yaşasa, belə olacaq.

Biz onu özünün təbi və nəfəsi ilə təbrik edirik ! Bu parçanı oxuyun və o səsin ecazını da dinləyin. Dinləyə-dinləyə, oxuya-oxuya siz də bizimlə bir yerdə "Ustad, doğum günün mübarək olsun!" deyin. Hər kəs desin. Lap pıçıltı ilə deyin. Ağakərim Nafiz eşidəcək!

Öylə bir aləmdəyəm dinarə dəyməz mə'rifət,
Elmi ürfan əhlinə zindan kəsilmiş məmləkət.

Bir zamandır kim qovulmuş səhnədən ərbabi-hal,
Feyz alan yox şeirimizdən hər tərəf bir qeylu qal.

Möhtərəmlər düşdü qiymətdən, dənilər möhtərəm,
Ehtirasındanmı yazsın, qanlı xaqanın qələm?!

Gül deyil yerlərdə qandır, bir biyabandır çəmən,
Oğlu ölmüş bir qadın, zülfündən oxşar yasəmən.

Bülbülün fəryadi eşqindən deyildir, nalədir ,
Qanə dönmüş sinələrdir çöldə, sanma lalədir.

Min fəlakət var önündə hər müqəddəs niyyətin,
Gülməmiş rüxsari bir an madəri-hürriyyətin.

## AĞAKƏRİM NAFİZƏ HƏSR EDİLMİŞ ŞEİRLƏR

### Nafizi Şirvani qəzəlinə Məhəmməd Biriyanın cavabı

**Müctəs-2: MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**

Amandı yazma könül, yari-bivəfayə qəzəl,
Salar qəzəl yazani dibdə bir bəlayə qəzəl.

Qəzəldə var elə bir mö'cüzə, nəzər qılasan,
Çəkər səni aparar aləmi-fənayə qəzəl.

Rəqib əldə qılınci olub nigarə qulam,
Edərmi çarə belə möhnəti-cəfayə qəzəl.

Vəfadə fitnə, məhəbbətdə hiylə, eşqdə məkr,
Necə düşüncəli aşiq yazar həvayə qəzəl.

Rəzil olub neçə aşiq belə ədavət ilə,
Yerində mədrək olur əhli-iddiayə qəzəl.

Qəzəl yazan mən idim bir zaman, bu gün mənə bax,
Qoyub tamarzi məni, zövqilən səfayə qəzəl.

Xülasə Nafizi-Şirvanidən budur diləyim,
Nahaq yerə götürüb yazma Biriyayə qəzəl.

**Nuhi Bağırzadə Məhəmməd Biriya vələdi Qulam**.
4 aprel 1974, Şəhri-Şamaxı

## Ustad Ağakərim Nafizə

**MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**

Sus, ey bülbül, sükut eylə, bir an dur, gəlmə fəryadə,
Səni-tari, mürüvvət qıl, qulaq ver ləhni-ustadə.

Təfaxur etmə nəğmənlə, eşit avazi-cansuzi,
Ol agah, qalma qəflətdə, nələr var gör bu dünyadə.

Gəlibdür tazədən sanki cahanə həzrəti-Davud
Ki, sövti xilqətin səbr ilə aramın verir badə.

Xudavənda, nə hikmətdür, nə ahəngü nəvadır bu?
Ölü cismə Məsiha tək verir ruh, can salır yadə.

**Ağa Nafiz**di çün, avazi hər qəlbə nüfuz eylər,
Əsiri-damı etmiş xəlqi, əhsənlər bu səyyadə.

Xoşa əhvalinə **Kamil** ki, vardur böylə bəy dostun,
Bəy ilə ülfət etdikcə olarsan sən də bəyzadə.

**Kamil Sərbəndi**

## Ustad xanəndə dostum Ağakərim Nafiz üçün

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

Şad ol ki, könül, məclisə gəlmiş yenə ustad,
Yəqin ki, edər bəzmimizi "Şur" ilə abad.

"Mahur" ilə söylər bizə min dürlü hekayət,
"Sarəng"inə yetməz ucalan naləvü fəryad.

Ləhnindən axar qəlbimizə nəğmeyi-Şirin,
Zənguləsi aşiqlər üçün tişeyi-Fərhad.

Dəstgahə seçər sözləri, hər şe'ri bəyənməz,
Xoş gəlməz ona kim eləsə kəlməni bərbad.

Qəlbində yaşar Mirzə Məhəmmədhəsən eşqi,
Təsnif qoşaraq ruhini rəhmətlə qılar şad.

Nazik təbi var, hərdən edər şe'rlər inşa,
Müşkül görünən mətləb üçün istəməz imdad.

Söz gülşəninə seyrə çıxar min həvəs içrə,
Yüz təşbih içindən eləyər bir yeni icad.

Xanəndəliyi bənzəməz heç kimsəyə şəksiz,
Hər nəğmədə bir guşə edər şövq ilə bünyad.

**Nafiz**dir adı, yoxdur onun misli mənimçün,
Hər ləhcəsi, **Hafiz**, ürəyim eylədi dilşad.

***Hafiz Qaralar***

## Hafiz Qaraların qəzəlinə təxmis

**Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

Xoş müjdə gəlib, ruhu rəvan eylədi bir ad,
Bülbüldür o səs sanki qəfəsdən olub azad,
Feyzi-süxən, ahəngi-nəvası verəcək dad,
"Şad ol ki, könül, məclisə gəlmiş yenə ustad,
Yəqin ki, edər bəzmimizi "Şur" ilə abad."

Tutmuş necə gör daməni-Həqdən belə qayət,
Çün verməda dir can səsinə hikməti-ayət,
İndi olarıq feyzə yetən biz də nəhayət,
""Mahur" ilə söylər bizə min dürlü hekayət,
"Sarəng"inə yetməz ucalan naləvü fəryad."

Bir ləhzə yetə guşuna avazı bu pirin,
Əhya olacaqdır, zəbərə nisbəti zirin,
Hürr eyləyər öldürməz o səs hər bir əsirin,
"Ləhnindən axar qəlbimizə nəğmeyi-Şirin,
Zəngulәsi aşiqlər üçün tişeyi-Fərhad."

Cəhd eyləməsin kimsə bu bəyzadəni, yenməz,
Bu odlu səsin atəşi ta həşricə sönməz,
Davud ilə bir kökdə olan həngidən enməz,
"Dəstgahə seçər sözləri, hər şe'ri bəyənməz,
Xoş gəlməz ona kim eləsə kəlməni bərbad."

Şayəd eləyir göydə Nəkisa ilə məşqi,
Olmazdı bu qüdrət ona çün olmasa eşqi,
Düşdükcə yada etdi rəvan arizə əşki,
"Qəlbində yaşar Mirzə Məhəmmədhəsən eşqi,
Təsnif qoşaraq ruhini rəhmətlə qılar şad."

Qüdrətli sənətkar eləyər şeirlər inşa,
Əlbəttə ki ariflər edib bəhrlər inşa,
Üşşaq ara çoxları edib mehrlər inşa,
“Nazik təbi var, hərdən edər şe’rlər inşa,
Müşkül görünən mətləb üçün istəməz imdad.”

Gahdan görüsən qopdu qiyamət o səs içrə,
Bülbül necə kim nalə çəkər dar qəfəs içrə,
Birdən təbi cövlan eləyər, bir nəfəs içrə,
“Söz gülşəninə seyrə çıxar min həvəs içrə,
Yüz təşbih içindən eləyər bir yeni içad.”

Vurğundu Nizami qədəri “Xəmsə”yə şəksiz,
Yetməz bu yəqindir bu nəva kəmsəyə şəksiz,
Danəndəliyi bənzəməz heç kimsəyə şəksiz,
“Xanəndəliyi bənzəməz heç kimsəyə şəksiz,
Hər nəğmədə bir guşə edər şövq ilə bünyad.”

Bu səsdə zühur eylədi Yar vəsli mənimçün,
**Nasir**, budu ruh aləminin əsli mənimçün,
Davud kimi heyran eləyən səsli mənimçün,
**“Nafiz**dir adı, yoxdur onun misli mənimçün,
Hər ləhcəsi, **Hafiz**, ürəyim eylədi dilşad.”

**Əli Nasir**

### Nafiz Şirvaniyə nameyi-əş’ar

**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**

Yetir, ey namə, özün Zabit ilən Şirvanə,
Körpü tək sal iki sahil işini səhmanə.

Aşikar eylə sözüm **Nafiz**i-şirinsüxənə,
Gətiribdür qəzəli təb’imi çün cövlanə.

Şəhri-Şirvandə bu gün məncə yox öylə şair,
Lazım olsa bu həqə əl basaram Qur’anə.

Bir kitab verdi mənə Bakidə bir hal əhli,
Kitabın adı budur: “Düşsə yolun Şirvanə”.

Düzü heç açmamış idim hələ bir müshəfini,
Nə bileydim salacaqmış məni bu tufanə.

Günlərin bir günü açdım kitabın ortasını,
Çeşmimi kur elədi səhfədə bir dürdanə.

Məntiqi şe’rinə gəldikdə tutub barmağımı
Dişlədim saldım o biçarəni də al qanə.

Maşaallah, bunun qiymıəti-əş’arinə çün,
Sığmaz heç kəlməsi qoyasan çəkə hər mizanə.

Deyirəm min kərə rəhmət yenə Seyyid Əzimə,
O çıxardıb belə övladləri meydanə.

Kişi bir mö’cüzeyi-əsr idi billah odur,
Eyləyən vadiyi-əş’ari gülüstanyanə.

Ol sipahi-şü’ərayə elə sərkərdə idi,
Şəmşirin vurmayıb ömründə kiçik qalxanə.

Qərəz, ey namə, mənim **Nafiz** idi məqsudim,
Nə ki, şagird ilə ustadi tutum yan-yanə.

Düzü, **Nafiz**, bu cahanda mənə yox munisi-can,
Axı hər vəqtdə möhtacdı can canana.

Deyilibdürsə çü "palazə bürün, ellə sürün",
E'tibar eyləmirəm mən palaza, dövranə.

Oxuyantək sənin əhvaluvi müshəflərdən,
Tə'siri-halun ilə könlüm olub viranə.

Eyb qılmaz eləmə ah cahan cövründən,
Bü cürə xalq  olub çün bizə bu qəmxanə.

Şəhri-Şirvandə tanır cümləsi xanəndə səni,
Fərqi yoxdur ki, səsin çatsun  Azərbaycanə.

Fikr qılma dəxi, ey şairi-ecazdəhən,
Süfreyi-şe'rüvi aç, tut qədəhi-rindanə.

Sən ki, Şirvanə enən lütfi-Xudasən, ey məh,
Qalx, şair kimi, gir bizlərilən meydanə.

Yə'ni fikrim budu qəm eyləmə bədbin olma,
Meyi-irfani qılıb nuş dolan məstanə.

Nardaranda mənə, bil, həmdəm olanlar çoxdur,
Mən təki leyk bələd yoxdu rəhi-irfanə.

Çəkmə zəhmət hələ ki, bizlərə mehman olasan,
Bizdə yoxdur elə imkan yaradaq mehmanə.

Bir kiçik xanəmizə cəm olub on baş külfət,
Üç nəfərlə giririk hər gecə bir yorğanə.

Süstrə'y olmagilən, naməmə göndər namə,
Qoyma qəlbim yana, hicranun ilə odlanə.

**Asim**in yarəsinə şe'rüvi göndər məlhəm,
Hacəti qalmaya tainki onun Loğmanə.

**Asim Nardarani**

## Ustad Ağakərim Nafizə

**Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün**

Dəm verən İsiyi-Məryəm kimi var handa bu gün?
O nəfəs qalmadadır Azəribaycanda bu gün.

Dəmi-İsa ölüyə can verər idi o zaman,
Qalmadi leyk bu İsa ilə dəm canda bu gün.

Bu nəfəs cismi dəlib ruhə nüfuz etmədədir,
Belə hal yox nə İraqda, nə Xorasanda bu gün.

Bir nəva istər idim ki, dil açıb söhbət edə,
Tapmışam istəyimi **Nafiz**i-nalanda bu gün.

Bu nə hikmət, nə kəramət, nə məlahət kani?
Korların halına vay oldi bu dövran bu gün.

Qeybə getsəydi əgər həzrəti-Davud o zaman,
Deyər idim ki, zühur eylədi Şirvanda bu gün.

**Rüstəm**a, fürsəti fövt eyləmə, avazi eşit,
Ney düşüb dəstinə xar içrə biyabanda bu gün.

**Rüstəm Tofiq**

## Ustad Ağakərim Nafizə

**Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

Sübh açılıb, könül  yenə seyran içindədir,
Hər seyrdə bir ayrı cür imkan içindədir.

İmkan ikən dolan bu səhər hüsn bağını,
Axşamədək qəza seli cövlan içindədir.

Cövlanə gəldi mürği-səhər, getdi taqətim,
Əl qatı qönçə sinəyə al qan içindədir.

Qan arxa düşdü vardi ağaclar əyağinə,
Axdi damar-damar, neçə dövran içindədir.

Dövri-tərəb yetişdivü topraq da oynadı,
Seyr eylədi qiyaməti bir  an içindədir.

Andan səfa çəkənlərə yox ta əbəd zəval,
Sirri-əbəd ki, onlar üçün can içindədir.

Canım çıxır eşitcəyin avazi-**Nafiz**i,
**Rüstəm**, səfayi-sübh bu əlhan içindədir.

**Rüstəm Tofiq**

# ƏHMƏD CƏFƏRZADƏNİN MƏKTUBLARINDAN

## I Məktub

Hörmətli Ağakərim qardaş! Salam!

Məktubunuzu aldım və çox mütəəsir oldum... Deməli Şirvanın ürəyi şeir dolu vətəndaşları uzaq Yaqutstanda da yaşayırmış. Adətən vətəndən uzaqlaşan adamlar tezliklə nəinki şeiri, hətta doğma ana dilini belə unudurlar... Təəssüf ki, məktubunuz şəxsiyyətiniz haqqında heç bir məlumat vermədi. Mən Sizin kimliyinizi, nəçiliyinizi, hansı küləyin təsirilə oralara gedib çıxdığınızı, habelə məni haradan tanıdığınızı bilmək istərdim. Güman edirəm ki, Siz növbəti məktubunuzda bu sualların hansını məsləhət bilsəniz ona cavab verəcəksiniz. Mən bu şair ürəkli, Seyyid sənətli vətəndaşımı yaxından tanımaq istəyirəm.

**Şeirləriniz xoşuma gəldi – desəm, azdır. Mənə elə gəldi ki, Seyyid rəhmətulluh ölməyib, elə özü özünü təxmis edib... Təxmisə söz yoxdur.** Mən bu günlərdə "Şirvan şairləri" adlı kitabımın ikinci hissəsini (1-cisi artıq çapdadır) yekunlaşdırırdım. Onun nəticə fəslində hal-hazırda Şirvan torpağında yaşayan və ya 20-30 il əqdəm vəfat etmiş şəxsiyyətlər haqqında məlumat verirəm. Çox yaxşı oldu, indi mən Sizin haqqınızda da orada məlumat verərəm. Əlbəttə, icazənizlə.

Yazın, mən Sizin məktubunuzu intizarla gözləyəcəyəm. **Təəssüf ki, yazdıqlarınız mətbuat üçün deyil, sevən ürəklər üçündür, yoxsa Sizdən yeni bir Seyyid olardı.** İnanın ki, xalq üçün yazan sənətkarlar nəşr olunmaya da bilərlər, təki əsərləri yaşasın. Amma mən Sizin əsərlərinizin, az da olsa, yayılmasına çalışacağam.

Sağ olun.

**Hörmətlə Əhməd Cəfərzadə.**
1/VI-73

## II Məktub

Əzizim Ağakərim, salam!

Məktubunuzu aldım. Mütəşəkkirəm. Qəzəl üçün sağ olun. Söz yox, öz buyurdüğunuz kimi, irəlidəkilər səviyyəsində deyil və sifarişlə yazılıb, amma məni qane etdi. Mən Sizin qəlbinizə bir daha inandım. Məətəəssüf ki, yazdıqlarınız cəm deyil. Çalışın cəmləyin, mən onları

tam halında görmək istəyirəm ki, yaradıcılıq üslubunuz, xüsusiyyətləriniz barədə müəyyən bir fikir söyləyə bilim.

Ağakərim bəy! İş, şe'rin çap olunmağında deyil, xalqa anlaşıqlı olmasında, sevilməyində, yayılmağındadır.

Mən 1943-44-cü illərdə mərhum Əliağa Vahid, Əhməd Anatollu, Şirvanski və b. bərəbər Quba-Dərbənd ətrafında bir çox qastrollarda olmuşam. Camaat sual elərdi ki, ay Vahid, sən niyə xalq şairi, incəsənət xadimi adı almamısan?

Cavab verərdi ki, xalq şairi o şəxslərə deyirlər ki, onu xalq tanıya. Xalqım məni tanıyır, mən xalqımın şairiyəm. Quru ad verməkdən nə çıxar?

Həqiqətən də Vahidin öz sağlığında cəmi 2 dəfə qəzəlləri çap edilib.

Demək istəyirəm ki, heç olmazsa yazdıqlarınızı cəmləşdirin, xalq içərisində yayaq, dövrə müvafiq gələnini çap etdirək.

Ağakərim bəy! Şikayətlənirsiniz ki, "xalqımız sönükdür, odlu-alovlu nəğmələri duymur, yüngül, dayaz nəğmələrə aludə olur".

"Xalq" indi Şamaxıda yaşayan Padar, Sündü, Təklə, Şıxlar camaatı deyil. Bizim xalq məhz odlu-alovlu nəğmələr aşiqidir. Xalq nə bilsin ki, Sizin nəğmələriniz necədir? Heç mənim o nəğmələrdən xəbərim yoxdur, o ki, qaldı başqalarına.

Şikayətlənmək azdır, o nəğmələri aralığa çıxardın, hamı eşitsin, mən də o cümlədən.

Sizin xanəndə olmağınızı mənə bizim kiçik uşaq – Elçin demişdi, inanmamışdım. Çox pakizə, deməli Siz qəzəli ürəkdən sevməlisiniz, bu sizin borcunuzdur.

Əsrimizdə qəzələ qiymət verilmir, bəşərta ki, sadə dildə, müasir səslənən yüksək bədiyyatlı qəzəl olsun. Çap edilməzsə, oxunar. Məsələ burasındadır ki, mərhum Mirmehdi Seyidzadədən tutmuş bəzi Maştağa bədiyəxanlarına qədər cəmi müasir qəzəlxanlar bədiilikdən uzaqdırlar. Onların qəzəllərinin ən yaxşıları Vahidin təsirilə yazılmış nəzmdir.

Mən (ümumiyyətlə götürsək, qəzəl başa düşənlər) heç Vahidi qəzəlxan hesab etmirəm. Bir xalqın ki, Həsimi, Həbibi, Füzuli, Nişat, Ağa Məsih, Vidadi, Zakir, Asi, Natəvan, Bahar, Seyyid, Didə, Raci, Bixud, Zərgəri və b. kimi qəzəl şairləri ola, bunlardan qeyrəz yüzlərlə qəzəl yazan şairi ola, onların nisbətində Vahid dura bilməz. Vahid ona görə sevilir ki, müasir gənclik XVI-XIX əsr şairlərinin dilini başa düşmür.

Ağakərim bəy! Mən Sizin qəzəllərə məhz XIX əsrin fikrincə qiymət verirəm. Bu gün isə diliniz sadələşməlidir. Bunsuz mümkün deyil.

Bilirəm, deyəcəksiniz ki, bu lap C. Cabbarlının "Dönüş" əsərindəki şair Qüdrət Aslanın vəziyyəti oldu. Qüdrət Aslan kolxozçu qıza həsr etdiyi şeirdə qızın gözlərinə "şahanə baxışlı" deyir. Ona deyirlər ki, indi şah demək olmaz, bu təşbehi dəyiş. Deyir:

– Ay zalım balası, bəs nə cür deyim? Yazım ki, əkinçiyanə baxışlı, biçinçiyanə baxışlı, kolxozçuyanə baxışlı?

Söz yox, bu yerdə Siz haqlı olacaqsınız. Amma yenə də, az da olsa, dili sadələşdirin. Yazdıqlarınızı cəmləşdirin, sonra görüşək. Özü də qaça-qaçla yox. Azı bir gün burada (və ya qeyri şəhərdə) qalmaq şərtilə.

Sağ olun. Məktubunuzu gözləyəsəyəm.

**Sizin: Əhməd Cəfərzadə**.
4/ XII/1977

## III Məktub

Əzizim Ağakərim bəy, salam!

Mənim üçün ziqiymət olan naməniz yetişdi; bir an Sizi görmüş, səsinizi eşitmiş kimi oldum.

Məatəəssüf ki, Sizi görmək bəndeyi-həqirə nəsib olmur, vücudi-şərifiniz dönüb kimiyayə. Səd şükür xudavəndi-aləmə ki, bahardır və güman var ikimizdən birimiz qədəm əzizi eləyək.

Özüm yaxşı olsam da, əhvalım münasib deyil: namünasib üzlər görüb, yaltaqlıqla deyilmiş sözlər eşidib riyakar, satqın adamlar içərisində yaşamaq müşgül işdir. Məhz bu səbəbə görə iyul ayının 1-dən etibarən məktəbdən üzülüşür, yalnız elmi işlə məşğul olmağa başlayıram (Əlbəttə, əcəl aman versə).

Siz necəsiniz, nə işlə məşğulsunuz, ailə həyatına uyuşa bilirsinizmi? (bu, çox mürəkkəb məsələdir və bəzən müxtəlif xasiyyətli adamların bir-birinə isnişməsi çox çətin olur).

Əş'arınızı (imkan daxilində) cəmləyin.

Bu yaz-yay dövründə ya mən Şamaxıya gəlib araşdıraram, ya Siz Uduluya gətirərsiniz. Mən Sizinlə şəxsən görüşmək, müsahibə etmək, söhbətləşmək arzulayıram.

Yazın, mən Sizin məktubları həmişə xoşhallıqla oxuyur və Sizi unutmuram.

Sağ olun.

**Hörmətlə: Əhməd Cəfərzadə**
26/IV-1979.

P.S. May bayramınız mübarək, keyfiniz kök, işiniz avand olsun!

## IV Məktub

Əzizim Ağakarim, salam!

Çoxdan gözlədiyim məktubun yetişdi, oxuyub çox məmnun oldum: həm ailənlə birlikdə yaşamağına, həm də sənin üçün yeni olan bir tərzdə – türk şairlərinin tərzində şeir yazmağına. Bu şeirin bəzi qüsurları olsa da, dili sadə olduğu üçün qüsuru nəzəri cəlb etmir.

Üç səhifə şeir, bir səhifədən də az məktub yazan oğlan! Hövbəti məktubunda ailə-məişət məsələlərinə bir az geniş yer ver; görək, Allah qoysa, nə vaxt tamam gəlirsən? Dolanacağın necədir? İşin ağır deyil ki?

Avqustda Şamaxıya gəlməyini, hətta toya da getməyini mənə Tofiq dedi. Təəssüf ki, görüşə bilmədik.

Bizlərdə, hələlik, salamətlikdir. İşlər öz qaydası ilə gedir. Qocalıram, sən deyən yazıya-pozuya həvəsim olmur.

Ailəmiz hamılıqla sənə can sağlığı və tezliklə Şirvana qayıtmaq arzulayır.

O dediyiniz nəzirə mənə gəlib çatmayıb. Hərçənd mən o qəzəli 30-35 il əqdəm yazmışdım və bir elə də əhəmiyyət verməmişdim. Amma sənin nəzirəni oxumaq maraqlı olardı. Sonra mən öz yazdığımı tapıb tam halda sənə göndərərəm.

Məsləhətim: ruhdan düşmə, özünə fikir ver və qələmi yerə qoyma!

Göstərişim: heç kimlə işin olmasın, sözə qulaq as, ailəni narahat etmə!

Xahişim: müntəzəm məktub yaz və şeirlərini göndər, oxuyum.

Ailənə salam yetir. Cavab yaz.

**Sizin Kərbəlayi Əhməd əmi.**
**Öpürəm səni.**
16.1.1986

## V Məktub

Əzizim Ağakərim bəy, salam!

Məktubunuz yetişdi. Oxuyub çox sevindim. Nəzirələri oxudum. Mənim gənclik dövr cızmaqaram (nə vaxt həvəsim olsa, gənclik həvəsi gəlir; elə indinin özündə də) o qədər tərifə layiq deyilsə də, Sizin nəzirə çox gözəldir. Yazın, şair yazanda, insan sevəndə dərd-qəm, çətinlik uzaqlaşır. Deyirsiniz ki**, "elə bil təb'im Yusifi qul bazarında satılıb"**. Yusif harada satılsa da, zindanda qalsa da, yenə də Yusifdir – gözəl, şah və peyğəmbər! Bunlar isə heç yerdə itə bilməz!

Bahadur bəy Xalinin nəzirəsi də xoşa gələndir. Sağlıq olsun, sizinlə bərabər onu görərəm, şübhəsiz ki, sizin xoşladığınız şəxs, diqqətəşayan olar.

Əziz kişi komissiyadan çoxdan keçib, məhkəmə olub. Lakin Azərbaycanda yer olmadığı üçün hələ də Xalacdadır. Həticəsini biləndə, sizə yazaram.

Bizdə yanvara qədər quraqlıq idi. İndi gündə yağış yağır, yaraşıqlı palçıqdır.

Əzizi-mən, məktubunun ümumi tonu məni mükəddər etdi: Sən, deyəsən ruhdan düşmüsən? Ay çanım, dünya əvvəldən belə olub! **Kim ki, öz fikrilə, iradəsilə, sözüylə yaşamaq istəyibsə, yeri zindan olub.** "Zəmanə sənə saz olmasa, sən zəmanəyə saz ol!" deyən ulular bunu biliblər. Nə olsun ki! Sən Xalacda olanda yaxşı-pisi daha yaxından gördün, tanıdın. Zənnimcə, bu Frolovo da sənə ziyan verməyəcək. **Bax, gör və duy, qavra və həzm et – həyat budur.**

Bizim arzuladığımız – məçlisi-musiqi, məçlisi-şeir, məclisi-ürfan; dost, rəfiq, mühasib; sevgili, məhbub, aşiq və s. kimi məfhumlar real həyatda yoxdur, olub, amma indi texnika, atom, kosmik raketlər əsrində yoxdur. Biz bunu qəbul etməsək də, bu belədir.

Odur ki, özünü oda atmağın mənası yoxdur. Allah qoysa, iyunda gələrsən, üz-üzə, göz-gözə birçə gün (azı) söhbətləşərik, onda ətraflı deyərəm.

Əzizi-mən! Sənin ən böyük qüsurun budur ki, real həyatı nəzərə almırsan! İnçimə, bir zaman elə mən özüm də belə idim və indi səni görəndə, özümün gəncliyimi görürəm. Lakin mən haradasa, hansı nöqtədəsə dayandım – sən dayanmalısan.

İndi isə arzu edirəm ki, bu bir-iki beytə nəzirə yazasan. İnanıram ki, bunlardan daha qiymətli olaçaqlar:

1. **(Münsərih-1: Müftəilün / fA'ilün / müftəilün / fA'ilün)**
**"Mən sənə canımı qurban dedim, sən demədin,**
**Olmuşam hüsnünə heyran dedim, sən demədin.**

**Gecələr sübhə kimi hicr oduna odlandım,**
**Vəslini dərdimə dərman dedim, sən demədin."**

2. **(Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün)**
**"Neyçin, ey həqq, olmadı bir kami-dil qismət bizə,**
**Olmaz heç Məcnunsifət qəm çəkmədə nisbət bizə."**

3. **(Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün)**
**"Növbəhar əyyamıdır, qəlbim dolubdur qan ilə,**
**Sübhü şam qan ağlayıb qəsd eylərəm bir can ilə".**

4. **(Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün )**
**"Yanıram atəşinə şə'midə pərvanə kimi,**
**Düşmüşəm çöllərə mən sərsəri divanə kimi."**

5. **(Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün)**
**"Çıxmağa hazırdı çan, çananı gözlər gözlərim,**
**İntizardır, sən kimi Loğmanı gözlər gözlərim."**

6. **(Rəməl-6: Fə'ilAtün / fA'ilAtün / fə'ilAtün / fA'ilAtün)**
**"Naşı bazarında mən dürdanəlikdən düşmüşəm,**
**Səhv edib zahir olub əfsanəlikdən düşmüşəm."**

**Əlbəttə ki, qəsdim sənin ilham pərini cuşa gətirməkdir. Mən inanıram ki, cənabınızın qələmindən hələ çox zərif qəzəllər çıxacaq və ömür olsa, mən də onları oxuyub feyziyab olacağam.**

Məktubunda yazırsan ki, **"Şəhərə çıxmağa hicab elədim".** Çox nahaq yerə! Hamı bilir ki, səndə günah yoxdur. Sən əyər başqaları

kimi hərəkətlər etsəydin, onda hicab lazım olardı. Halbuki, indi heç hicab edən yoxdur. Xahiş edirəm, milçəyi fil eləmə!

Mənə tez-tez və ətraflı məktub yaz. Hamımızın sənə salamımız var. Darıxma!

**İmza: Kərbəlayi Əhməd.**
17/II-1986.

P.S. Sən ərəb əlifbasını bilirsənmi?

## VI Məktub

Əzizim Ağakərim bəy!

Məktubunuz yetişib bəndeyi-həqiri xoşnud etdi. Mütəşəkkirəm. Fəqət hiss etdim ki, ruhdan düşmüsünüz, bədbinliyə qapılmısınız. Rəhmətlik A. Səhhət demişkən:

“Ürəyimdə daha yox qonça dodaqlar dərdi,
Vardır ev dərdi, qadın dərdi, uşaqlar dərdi”.

Əzizi-mən! Həyat ehtiraslıları, şənləri, çılğınları, cəbrliləri sevir. Nə olub? Dünya uçulub – dağılmayıb ki?! Elə bilin ki, 2 il Volqaboyuna “səyahətə” getmisiniz. Siz narahat olmayın; siz musiqini, muğamatı, qəzəli unuda bilməzsiniz. Bu, mümkün olan şey deyil. Sonra da ki, Allah qoysa, iyun ayında Şirvana qayıdarsınız. Daha bu nə ahü zardır?

Gəncəli şairə yazdığınız nəzirə Sizə xas olan əsər deyil. Bu, M.Hadi ilə S.Zərgər (XX əsrin əvvəllərində məşhur Bakı şairidir, görüşəndə deyərəm) xəyalının birləşmiş formasıdır.

Mən heç vaxt Sizi tənqid etməmişəm və buna əsas da yox idi. Amma bu nəzirəniz məni əsəbiləşdirdi. Az qaldım ki, təcili yola düşüm Frolovaya – sizinlə savaşmağa.

Ay gözümün işığı! Elə məzmunlu əsər yazmaq, dünyadan küsmək, “nə zamanım, nə məkanım, nə şöhrətim, nə adım var” demək və s. Sizə yaraşmaz!

Mənə tez-tez, ətraflı, qəzəl dolu, qəzəl qoxulu məktublar yazın.

Hamımızın Sizə və ailənizə salamı var.

**Sizin Kərbəlayi Əhməd əminiz.**
3.IV.1986

# AĞAKƏRİM NAFİZ ŞEİRLƏRİ ƏSASINDA ƏRUZ VƏZNİNİN İZAHI

Məlumdur ki, əruz vəzni, hecaların uzun (=qapalı) və ya qısa (=açıq) olmasına əsaslanan, hecaların müəyyən bir quruluşuna görə sıralanaraq ahəngi qanunauyğunluğu saxlanan seir ölçüsü; daha doğrusu bir ahəng sistemidir. Əruz divan şeirində istifadə olunur. Bu şeirin, səs və ahəngini yəni müsiqi baxımından güçlü olmasını saxlamağa kömək edir.

## Əruzla əlaqəli əsas anlayışlar və qaydalar

### Əruza görə heca növləri

Əruz vəznini tapmaq üçün əvvəlçə, hecaların səs dəyərlərini; yəni, hansı hecanın uzun, hansı hecanin qısa heca olduğunu təyin etmək lazımdır. Bu anlayışlar Azərbaycan dilində qəbul edilmişlərdən fərqlidir. Buna görə bu anlayışları bir daha yada salmaq faydalı olardı.

Əruza görə üç növ heca vardır: 1. **Qısa heca**, 2. **Uzun heca**, 3. **Bir yarım heca.**

1. **Qısa heca** : Sonu incə saitlə **(ə,e,i,ö,ü )** bitən və ya tək incə saitlə **(ə,e,i,ö,ü )** meydana gələn hecalar əruza görə qısa heca sayılır: "gə-li-rəm" sözündə birinci və ikinci hecaları və "ə-mək" sözünün ilk hecası olan "ə" kimi. **Qısa** hecalar, əruz əməliyyatlarında nöqtə (•) ilə göstərilir.

2. **Uzun heca**: Sonu samit ya da qalın saitlə (**a,ı,o,u**) ilə bitən və ya tək qalın saitlə (**a,ı,o,u**) əmələ gələn hecalar əruzda **uzun heca** olaraq qəbul edilir: "dün-ya" sözünün hecaları və "a-təş" sözünün ilk hecası kimi. Uzun hecalar, əruz əməliyyatlarında defislə (—) göstərilir.

3. **Bir yarım heca** (mədd heca): Əruzda bəzi hecalar birincisi uzun, ikincisi qısa olmaq üzrə iki heca dəyərində qəbul edilmişdir. Bu cür hecaya **bir yarım heca** deyilir. Bu hecaları dörd qrupa ayırmaq olar:

a. Bir qalın saitlə (**a,ı,o,u**) və bir samitlə düzələnlər: "ab", "al" kimi.

b. Bir samit, bir qalın saitlə (**a,ı,o,u**) və bir samitlə düzələnlər: "yar", "naz", "sur", "qız" kimi,

c. Bir incə saitlə **(ə,e,i,ö,ü )** və iki samitlə düzələnlər: “eşq”, “əmr”, “ömr” kimi,

d. Bir samit, bir incə saitlə **(ə,e,i,ö,ü )** və iki samitlə düzələnlər: “dərd”, “zəhr” kimi.

Bu hecalar, normal bir heçadan daha çox uzadılaraq oxunur. Əruz əməliyyatlarında **bir yarım heca**lar bir defis və bir nöqtə (—•) Ilə göstərilir. Defis uzun, nöqtə də qısa hecanı göstərir.

## Əruz əməliyyatları

Əruzun, şeirdə qısa və uzun olaraq xarakterizə edilən hecaların əvvəlcədən müəyyən edilmiş bir qayda çərçivəsində təkrarlanmasına əsaslanan bir şeir ölçüsü olduğunu yuxarıda qeyd etmişdik. Şairlər misralarını ahəng sisteminə uyğun hala gətirə bilmək üçün şeirdəki səslər üzərində bəzi dəyişikliklər etmişlər. Bəzilərinin şeirin ahənginə uyğunlaşma bəziləri ahəng səhvi olaraq qəbul edilən bu dəyişikliklər əsasən **vəsl, imalə, mədd, zihaf, tahfif, təşdid** və sairədir (Saraç, 2007).

**1. Ulama (= vəsl, bağlama-birləşmə):** Sonu samitlə bitən bir sözü, qısa heca əldə etmək ya bir yarım heca dəyərindən tək uzun heca dəyərinə salmaq üçün saitlə başlayan bir sonrakı sözə bağlamaqdır; yəni, "lazım oldu"nu "lazımoldu"; "məst oldu"nu, "məs toldu" kimi oxumaqdır. Ulama aparılan (bağlamağa çalışılan) sözlərin aralarına bir ( _ ) qoyularaq işarə edilir.

**Nümunə:**

Eyləmə**m_e**y məh cüda bir məclisi-şəndən səni,
Etməsi**n_a**xır xuda gülzari-gülşəndən səni.

**2. İmalə (uzanma):** Əruz qəlibi ölçüsünə uyğun olmaq üçün, uzun heca lazım olan yerlərdə qısa hecanı uzadaraq oxumaqdır. Hecadakı imalə aparılan saitin altına ( _ ) işarəsi qoyularaq göstərilir.

**Nümunə:**

Nobahar əyyami gülz**a**rın gül**i**-xəndani yox,
Bu tər**a**vət mənzilind**ə** bir gül**i**-reyhani yox.

Yuxarıdakı beytin qəlibi **“Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilün”**dür. Bu ölçüyə uyğun olmaq üçün beytdəki “gülz**a**rın” və “tər**a**-vət” sözlərində “**a**” səsi, “gül**i**” sözündə “**i**” səsi üzadılaraq oxunmalıdır.

**3. Zihaf (gödəlmə) :** Əruzda qəlibin ölçüsünə uyğun olmaq üçün uzun bir hecanı qısa oxumaqdır.

**Nümunə:**

La**çın** könlüm cəfalərnən qəm **üs**tən qəm binaləndi,
Vəli r**u**yin gö**rüb** bir dəm dili-mürğim səfaləndi.

Yuxarıdakı beytin ölçüsü **"Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün"** dür. ''Laçın'', ''**üs**tən'' ''gö**rüb**'' sözləri ölçüyə uyğun olması üçün bu sözlərdə qeyd olunan "**çın**", "**üs**", "**rüb**" uzun hecalarını qısaldaraq oxumaq lazımdır.

İkinci misrada "r**u**yin" sözündə imalə də vardı.

Ümumiyyətlə, Ağakərim Nafizin şeirlərinin təhlili göstərir ki, divanda imalə sayı çox olmasına baxmayaraq zihaf az saydadır.

**4. Mədd (uzatma-çəkmə):** Əruzda bir yarım hecaların əsl dəyərlərindən bir az daha uzun oxunmasına deyilir. Əsl mənası "uzatma" ya da "çəkmə" dir. Hecanın üstündə xətt ( ¯ ) çəkilməklə göstərilir.

**Nümunə:**

Çeşmi-məsti necə gör halimi bihal elədi,
Görmədim **ömr¯tükəndi** genə dildarlığın.

**"Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün"** qəlibində yazılmış beytin birinci misrasında hecanın biri çatışmır "ömr¯tükəndi" sözləri uzadılaraq "ömr(**i**) tükəndi" şəklində oxunur. Son misrada **ömr** sözünün **r** hərfindən sonra bir kiçik **i** qoymasaydıq, misraların hecaları bərabər olmazdı, vəznə xələl gələrdi. Əslində **i**-nin buraya əlavə edilməsi tələffüzün tələbinə uymaqdır, çünki "**ömr"**in **"r"**-sı ilə "**tükəndi"**nin **"t"**-si arasında biz istər-istəməz bir yarımsait tələffüz edirik. Ancaq bu səs fonem olmadığı üçün yazıda öz ifadəsini tapmır (Əkrəm Cəfər).

**Nümunə:**

Hər eşqə düşən **dəhr¯də** divanə yazıldi,
Meyxanəyə kim girdisə məstanə yazıldi.

**"Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün"** qəlibində yazılmış beytin birinci misrasında hecanın biri çatışmır "**dəhr¯də**" sözü uzadılaraq "**dəhridə**" şəklində oxunur.

**Nümunə:**

Bəhri-qəmdə bir təlatüm buldi mən qəvvas olub,
**Dürr¯lər** dəf etmişəm, dürdanəliydən düşmüşəm.

**“FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün”** qəlibində yazılmış beytdə də “**dürr¯lər**” üç samit ardıcıl gəldiyi sözdə iki “rr”dan sonra yazıda “i” olmadığına baxmayaraq üzaldılaraq “**dürrilər**” şəklində oxunur.

Onu qeyd edək ki, Ağakərim Nafizin şeirlərində məddə az rast gəlinir.

**5. Tahfif (tahfifat, qısa):** Vəznə lazım olduqda cüt samitli mənası "yüngülləşdirmə, yükünü azaltma, asanlaşdırmadır". Əsl mənası isə qısa olmaq, qısa kəsməkdir. Bu yoldan daha çox "hədd", "xətt", "həqq", "haqq", "dürr" kimi sonu cüt samitlə bitən tək hecalı sözlər vəznə lazım olduqda istifadə edirlər.

**Nümunə:**

**Həzəc-1: MəfA’İlün / məfA’İlün / məfA’İlün / məfA’İlün**

Bu **Nafiz** bir dua qılsın təmənna eyləsin **həqdən**,
Uzun ömr ilə, yarəbbim, Baba qoy bəxtiyar olsun.

Beytdə əsli "**həqq**" cüt samitli olan söz vəznə lazım olduğu üçün “**həq**” kimi bir samitlə oxunaraq tahfif edilmişdir.

Məsələn, "**İstanbul**"un "**Sitanbul**"a çevrilməsidə, yəni saitlə samitin yerinin dəyişdirilməsi, sözləri vəznlə uyğun hala gətirmək üçün klassik şairlərin müraciət etdikləri yollardandır.

Ağakərim Nafizin bir qəzəlində "İstanbul"un "Sitanbul"a çevrilməsinə rast gəlirik:

**Nümunə:**

**Həzəc-8: Məf’Ulü / məfA’İlü / məfA’İlü / fə’Ulün**

Yüz məmləkəti Reydə, **Sitanbul**da zəbunəm,
Yüz Məkkəvü Mina ola, göylüm səni istər.

**6. Təşdid:** tək samitli heçanın cüt samitli olaraq istifadə edilməsi: “**kərə**”ni “**kərrə**”, "**ümid**"in "**ümmid**", "**zər**"in "**zərr**" edilməsi kimi.

Ağakərim Nafizdə "**ümid**" in "**ümmid**" kimi istifadəsinə 16 və “**kərə**”nin “**kərrə**” kimi istifadəsinə 2 dəfə rast gəlinir.

**Nümunələr:**

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

Görsə idim yüzüni bircə **kərrə** ölməzdim,
Biləsən onda olur dərdimə dərman Yusif.

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

Gülzari-hüsnünə vurulub bülbüli-irəm,
Coşdi fərəhlə söylədi yüz **kərrə** dastan.

**Rəməl-2: FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün**

**Zərri**-xalis olsa da, kamilə yari görmədim,
Bəli dünya fırlanır, mən xoş mədari görmədim,
Eşq mülkündə özüm tək şərmsari görmədim,
"Qəm bilə canimcə yetdim, qəmküsari görmədim,
Hicr ilə dilxəstə buldum, dilsitani tapmadım".

**Rəcəz-1: Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün**

Bağlandi ümidim ləbi-lə'lində zülalə,
**Ümmid** elə bir nəsnədi kim bağlamaq olmaz.

Axırıncı beytdə göründüyü kimi "ümid" sözü ilk misrada "**ümid**" və ikincı misrada "**ümmid**" kimi işlədilib.

**Sözdə saitin düşməsi**

Bəzi birləşmiş sözlərdə ya birinci sözün son ya da ikincinin ilk saitinin düşdüyü görülür: "**nola**" ("**nə ola**") kimi. Bəzən də birləşmiş olmayan iki söz arasındakı sait düşər: "**neyləsin**" ("**nə eyləsin**"), "**səninçün" ("sənin üçün")** kimi.

**Nümunələr:**

**Müzare-1: Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**

Ey yari-süxənvər **nola** bu nəzmi-**Nafiz**i,
Assan qulağinə necə dürri-gühər kimi.

**Rəməl-6: Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**

Mənəvi məsuliyət ziynətdir insan ömrünə,
**Neyləsin** biçarə ol kəs kim onun vicdani yox.

**Həzəc-8: Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**

Bax gör ki, **səninçün** demişəm canımi qurban,
Qurban kəsilə gündə, bu qurban ələ düşməz.

Ağakərim Nafiz şeirlırində 2 dəfə "**nola**" , 4 dəfə "**neyləsin**", "**sənincün**" 3 dəfə istifadə edilib.

**Təfilələr (əruz vəzninin parçası, cüzlər)**

Əruzun əsasını təşkil edən vahid təfilələrdir. Təfilə hecanın uzunluq və qısalığına görə ‘‘ فعل ‘‘ kökündən törədilmiş qəlib sözlərdir.

Təməl 8 təfilə bunlardır:

**1. Fa'Ulün (fə'Ulün) ( • — — )**
**2. FA'ilün, fA'ilAt (— •— )**
**3. FA'ilAtün (— •— — )**
**4. MəfA'ilün (• — • — )**
**5. Məf'UlAtü (— — — •)**
**6. Müstəf'ilün (— — • — )**
**7. MüfA'alətün (• — • •— )**
**8. MütəfA'ilün (•• — • — )**

Bu təməl səkkiz təfilə heca qaydalarından bir sıra başqa növlər də yaranmışdır. Bunlar da aşağıdakılardır:

**1. Fa', fA' (— )**
**2. Fa'Ul (fə'Ul) (• — )**
**3. Fa'lün, fA'il (— — )**
**4. Fa'Ulün (fə'Ulün), məfA'il (• — — )**
**5. Fə'ilün, fə'lAt (••— )**
**6. FA'ilün, fA'ilAt (— •— )**
**7. Məf'Ulü (— — •)**
**8. Məf'Ulün, məf'ulAt (— — — )**

**9. Fə'ilAtün** (•• — — )
**10. MəfA'ilün** (• — • — )
**11. Müstəf'ilAtün** (— — • — — )
**12. MəfAİlün** (• — — — )
**13. MəfA'ilü** (• — — •)
**14. Fə'ilAtü** (•• — • )
**15. FA'ilAtün** (— •— — )
**16. Müstəf'ilün** ( — — • — )
**17. Müftə'ilün** (— ••— )
**18. FA'ilAtü** (— • — • )
**19. Məf'UlAtü** ( — — — •)
**20. MütəfA'ilün** (•• — • — )
**21. MüfA'alətün** (• — • •— )

Bütün yuxarıda sadalanan təfilələrdən istifadə edilərək əruz qəlibləri meydana gəlmişdir.

**Vəzni təyin etmək üsulu**

Bir şeirin vəznini tapmaq üçün:

1. Əvvəlcə şeirin misralarındakı hecaların əruza görə səs dəyərləri müəyyən; yəni, hansı hecanin uzun, qısa heca olduğu təyin edilməlidir. Bu əməliyyat edilərkən uzun hecaların yerində defis (— ), qısa hecaların yerində nöqtə (•) qoyulur. Vəsl edilən hecaları altdan düz bir xətt ilə (_) göstərilir.

**2.** Vəzn ən az iki misrada, yəni beytdə axtarılmalıdır, sonra beytin alt və üst misralarındakı qısa və uzun hecaların eyni qaydada alt-alta sıralanır ki, hecaların sayının və tipinin eyni olub olmadığını təyin etmək olsun.

Əgər beytin misralarındakı heca sayı bir-birinə bərabərdirsə bu misralarda məddli heca yoxdur. Misralarındakı heca sayı bir-birinə bərabər olmayan beytlərin isə məddli heca olması ehtimalı yüksəkdir.

**3.** Əgər beytin misralarındakı hecalar bir-birinə bərabər saydasa və hər iki misradakı qısa və uzun hecalar eyni qayda içində alt-alta sıralanmışsa, onda əldə edilən bu hecalar aşağıda əlifba sırası ilə veril-

miş olan vəzn siyahısıyla qarşılaşdırılmalı və siyahıdan bu heca sistemınə uyğun vəzn tapılaraq beytin qəlibi-ölçüsü təyin olunmalıdır.

**4.** Əgər beytin iki mısrasındaki qısa və uzun hecaların sıralanması və heca sayında uyğunsuzluq tapılarsa,

a) Əvvəlcə bu uyğunsuzluğun misranın hansı heca və ya hecalarında olduğu təyin olunmalı, bunu etmək üçün də birinci və ikinci misradakı hecalar tək-tək müqayisə edilməlidir:

b) Misralar arasındakı hecalarda uyğunsuzluq təyin olunduqdan sonra birinci misranın ikinci ya da ikinci misranın birinci misra ilə uyğun hala gətirilməsinin yolları axtarılmalıdır. Burada köməkçi vasitələr kimi açarlar "imalə", "zihaf", "vəsl" və "mədd" istifadə edilməlidir.

c) Beytin misralarındakı heca sayı və xüsusiyyətləri bir-birinə bərabər hala gətirildikdən sonra daha əvvəl istifadə etdiyimiz vəzn siyahısıyla qarşılaşdırılmalı və beytin vəzni ilə qəlibləri təyin olunmalıdır.

**Bəzi əlavə qeydlər**

1. misra başındakı **fə'ilAtün** (•• — — ), **FA'ilAtün** ( — • — — ); misra sonundakı **fə'ilün** (•• — ) də **fa'lün** ( — — ) -ə çevrilə bilər.

2. misranın son hecasıı həmişə üzun heca qəbul edilir.
Vəzni təyinini aşağıdakı nümunə ilə detallı şəkildə həyata keçirək:

**Ehkami-qəza buldi genə canə təqarüb,**
**Can riştəsi xub etmədi cananə təqarüb.**

1. Misra Cədvəl 2-də 3 və 12 -ci sətirlərdə göstərildiyi kimi hecalara ayrılır və 4 və 13-cü sətirlərdəki kimi qısa (•) və uzun (—) hecaların tipi müəyyənləşdirilir.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Eh | ka | mi | qə | za | bul | di | ge | nə | ca | nə | tə | qa | rüb |
| — | • | • | • | • | — | • | • | • | • | • | • | • | — |
| Can | riş | tə | si | xub | et | mə | di | ca | na | nə | tə | qa | rüb |
| — | — | • | • | — | — | • | • | • | • | • | • | • | — |

**2.** Göründüyü kimi beytin misralarındakı heca sayı bir-birinə bərabərdir. Lakin iki misranın heca tipləri arasında bir uyğunsuzluq var. Bu uyğunsuzluq birinci misradakı hecaların ikinci və beşinci hecalarındadır. Bu hecalar birinci misrada qısa, ancaq ikinci misrada uzundurlar.

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| Eh | k**A** | mi | qe | z**A** | bul | di | ge | n**Ə** | c**A** | nə | tə | q**A** | rüb |
| — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| | İ | | | İ | | | | İ | İ | | | İ | |
| Can | riş | tə | si | xub | et | mə | di | c**A** | n**A** | nə | tə | q**A** | rüb |
| — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| | | | | | | | | İ | İ | | | İ | |

Yuxarıdakı beytin misraları arasındakı uyğunsuzluğu aradan qaldırmaq üçün birinci misranın ikinci və beşincı hecasinda imalə edərək qısa hecanı uzatmaq lazımdır. Misraların qalan hissələrində uyğunsuzluq yoxdur. Lakin 7-13-cü hecalar ardıcıl olaraq qısa hecalardır. Bu ahəng qanununa uyğun gəlmir və ardıcıl 4 qısa hecalı təməl yoxdur. Buna görə burada da hər iki misrada 9, 10 və 13-cü hecalar da imalə edilərək uzadılaraq oxunmalıdır. İmalələrin yeri misralara uyğun olaraq 7 və 16-cı sətirlərdə "I" simvolu ilə verilmişdir.

**3.** Beləliklə, bu imalələr daxil edildikdən sonra beytin misralarındakı hecalar bir-birinə bərabər sayda və hər iki misradakı qısa və uzun hecalar eyni qayda içində alt-alta sıralanmışdır. Bu heca düzümü vəzn siyahısıyla qarşılaşdırıldıqda beytin vəzninin **"Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün"** olduğu təyin edilir. Bu qəlib **Həzəc** bəhrinin 8-ci növündəndir.

**Qeydlər:** Dilçilikdə hecanın quruluşun təsvir etmək üçün cədvəldə "**v**" və "**c**" işarələrindən istifadə olunur. "**v**" işarəsi latınca sait (Vocal) sözünün, "**c**" isə samit (Consonant) sözünün ilk hərfləridir. "**V**" yazıldıqda sait səsin uzadılması lazım olduğu bildirilir.

Əruz əməliyyatları cədvəllərdə hər bir heca üçün 7 və 16-cı sətirlərdə aşağıdakı simvollarla verilmişdir: **U**:Ulama, **Z**:Zihaf, **İ**:İmalə, **M**:Mədd. Cədvəl 3 və 4-də bunlara uyğun nümunələr gətirilmişdir.

**Cədvəl 2**

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | **Şeir** | **Ehkami-qəza buldi genə canə təqarüb,<br>Can riştəsi xub etmədi cananə təqarüb.** | | | | | | | | | | | | | |
| **2** | **misra-1** | **Ehkami-qəza buldi genə canə təqarüb,** | | | | | | | | | | | | | |
| **3** | **hecalar** | Eh | ka | mi | qə | za | bul | di | ge | nə | ca | nə | tə | qa | rüb |
| | **heca tipi** | — | • | • | • | • | — | • | • | • | • | • | • | • | — |
| **4** | **uyğunlaş-dırma** | Eh | kA | mi | qə | zA | bul | di | ge | nƏ | cA | nə | tə | qA | rüb |
| **5** | **heca tipi** | — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| **6** | **heca forması** | vc | cV | cv | cv | cV | cvc | cv | cv | cV | cV | cv | cv | cV | cvc |
| **7** | **Sənət və Qüsur** | | İ | | | İ | | | | İ | İ | | | İ | |
| **8** | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **9** | **Vəzn** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün** | | | | | | | | | | | | | |
| **10** | **misra-2** | **Can riştəsi xub etmədi cananə təqarüb.** | | | | | | | | | | | | | |
| **11** | **hecalar** | Can | riş | tə | si | xub | et | mə | di | ca | na | nə | tə | qa | rüb |
| **12** | **heca tipi** | — | — | • | • | — | — | • | • | • | • | • | • | • | — |
| **13** | **uyğunlaş-dırma** | Can | riş | tə | si | xub | et | mə | di | cA | nA | nə | tə | qA | rüb |
| **14** | **heca tipi** | — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| **15** | **heca forması** | cvc | cvc | cv | cv | cvc | vc | cv | cv | cV | cV | cv | cv | cV | cvc |
| **16** | **Sənət və Qüsur** | | | | | | | | | İ | İ | | | İ | |
| **17** | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **18** | **Vəzn** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün** | | | | | | | | | | | | | |
| **19** | **Şeirin vəzni** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün** | | | | | | | | | | | | | |

**Cədvəl 3**

| | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1** | **Şeir** | **Hər eşqə düşən dəhrdə divanə yazıldi,** | | | | | | | | | | | | | |
| | | **Meyxanəyə kim girdisə məstanə yazıldi.** | | | | | | | | | | | | | |
| **2** | **misra-1** | **Hər eşqə düşən dəhrdə divanə yazıldi,** | | | | | | | | | | | | | |
| **3** | **hecalar** | Hər | eş | qə | dü | şən | dəhr | də | di | va | nə | ya | zıl | di | |
| | **heca tipi** | — | — | • | • | — | — | • | • | • | • | • | — | • | |
| **4** | **uyğunlaş-dırma** | Hər | eş | qə | dü | şən | dəhr | (i) | də | dİ | vA | nə | ya | zıl | dİ |
| **5** | **heca tipi** | — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| **6** | **heca forması** | cvc | vc | cv | cv | cvc | cvcc | v | cv | cV | cV | cv | cv | cvc | cV |
| **7** | **Sənət və Qüsur** | | | | | | M | | | I | I | | | | |
| **8** | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **9** | **Vəzn** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ülün** | | | | | | | | | | | | | |
| **10** | **misra-2** | **Meyxanəyə kim girdisə məstanə yazıldi.** | | | | | | | | | | | | | |
| **11** | **hecalar** | Mey | xa | nə | yə | kim | gir | di | sə | məs | ta | nə | ya | zıl | di |
| **12** | **heca tipi** | — | • | • | • | — | — | • | • | — | • | • | • | — | • |
| **13** | **uyğunlaş-dırma** | Mey | xA | nə | yə | kim | gir | di | sə | məs | tA | nə | ya | zıl | dİ |
| **14** | **heca tipi** | — | — | • | • | — | — | • | • | — | — | • | • | — | — |
| **15** | **heca forması** | cvc | cV | cv | cv | cvc | cvc | cv | cv | cvc | cV | cv | cv | cvc | cV |
| **16** | **Sənət və Qüsur** | | I | | | | | | | | I | | | | |
| **17** | | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| **18** | **Vəzn** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ülün** | | | | | | | | | | | | | |
| **19** | **Şeirin Vəzni** | **Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ülün** | | | | | | | | | | | | | |

**Cədvəl 4**

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Şeir** | **Düşündi Nafiz əl çəkdi sənin tək bivəfalərdən,** | | | | | | | | | | | | | | | |
| | **Fəqət ol aşiqi-sadiq vəfayə aşinaləndi.** | | | | | | | | | | | | | | | |
| **misra-1** | **Düşündi Nafiz əl çəkdi sənin tək bivəfalərdən,** | | | | | | | | | | | | | | | |
| **hecalar** | Dü | şün | di | Na | fiz | əl | çək | di | sə | nin | tək | bi | və | fa | lər | dən |
| **heca tipi** | • | — | • | • | — | — | — | • | • | — | — | • | • | • | — | — |
| **uyğunlaş-dırma** | Dü | şün | dİ | Na | fiz | əl | çək | dİ | sə | nin | tək | bi | vƏ | fa | lər | dən |
| **heca tipi** | • | • | — | • | — | • | — | — | • | • | — | • | — | • | — | — |
| **heca forması** | cv | cvc | cV | cv | cvc | vc | cvc | cV | cv | cvc | cvc | cv | cV | cv | cvc | cvc |
| **Sənət və Qüsur** | | Z | I | | | Z | | I | | Z | | | I | | | |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| **Vəzn** | **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün** | | | | | | | | | | | | | | | |
| **misra-2** | **Fəqət ol aşiqi-sadiq vəfayə aşinaləndi.** | | | | | | | | | | | | | | | |
| **hecalar** | Fə | qət | ol | a | şi | qi | sa | diq | və | fa | yə | a | şi | na | lən | di |
| **heca tipi** | • | — | — | • | • | • | • | — | • | • | • | • | • | • | — | • |
| **uyğunlaş-dırma** | Fə | qə | tol | a | şİ | qi | sA | diq | və | fa | yƏ | a | şİ | na | lən | dİ |
| **heca tipi** | • | • | — | • | — | • | — | — | • | • | — | • | — | • | — | — |
| **heca forması** | cv | cv | cvc | v | cV | cv | cV | cvc | cv | cv | cV | v | cV | cv | cvc | cV |
| **Sənət və Qüsur** | | U | | | I | | I | | | | I | | I | | | |
| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| **Vəzn** | **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün** | | | | | | | | | | | | | | | |
| **Şeirin Vəzni** | **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün** | | | | | | | | | | | | | | | |

## Əruz vəzninin Azərbaycan şeirində işlənən bəhrlərinin qəliblərinin siyahısı[1]

**Cədvəl 5**

| N | Bəhrin adı | Q-N | Qəlib |
|---|---|---|---|
| 1 | 1. Həzəc | 1 | MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün * |
| 2 | | 2 | MəfA'İlün / məfA'İlün / fə'Ulün * |
| 3 | | 3 | MəfA'İlün / məfA'İlün |
| 4 | | 4 | MəfA'İlün / fə'Ulün / məfA'İlün / fə'Ulün * |
| 5 | | 5 | MəfA'İlün / fə'Ulün |
| 6 | | 5A | MəfA'ilün / fə'Ulün / məfA'ilün / fə'Ulün * |
| 7 | | 6 | MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün * |
| 8 | | 7 | MəfA'ilün / məfA'ilün |
| 9 | | 8 | Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün * |
| 10 | | 9 | Məf'Ulü / məfA'İlün / məf'Ulü / məfA'İlün * |
| 11 | | 10 | Məf'Ulü / məfA'İlün |
| 12 | | 11 | Məf'Ulü / məfA'ilün / fə'Ulün * |
| 13 | | 12 | Məf'Ulün / fA'ilün / fə'Ulün |
| 14 | | 13 | Məf'Ulü / məfA'İlü / fə'Ulün |
| 15 | | 14 | Məf'Ulü / məfA'İlün / məf'Ulü / fə'əl |
| 16 | | 15 | Məf'Ulü / fə'Ulün |
| 17 | | 16 | FA'ilün / məfA'İlün / fA'ilün / məfA'İlün |
| 18 | | 17 | Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'əl |
| 19 | | 18 | Məf'Ulü / məfA'ilün / məfA'İlü / fə'əl |
| 20 | 2. Rəməl | 1 | FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilAtün * |
| 21 | | 2 | FA'ilAtün / fA'ilAtün / fA'ilAtün / fA'ilün * |
| 22 | | 3 | FA'ilAtün / fA'ilAtün / fA'ilün * |
| 23 | | 4 | FA'ilAtün / fA'ilAtün |
| 24 | | 5 | Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilAtün * |
| 25 | | 6 | Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün * |
| 26 | | 7 | Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün |
| 27 | | 8 | Fə'ilAtün / fə'ilAtün / fə'ilün * |
| 28 | | 9 | Fə'ilAtün / fə'ilAtün |

1 (Şirvani, Ədilli, 2011) kitabı əsasında

| | | | |
|---|---|---|---|
| 29 | | 10 | Fə’ilAtün / fə’ilün |
| 30 | | 11 | Fə’ilAtü / fA’ilAtün / fə’ilAtü / fA’ilAtün |
| 31 | | 12 | Fə’ilAtü / fA’ilAtün |
| 32 | | 13 | Fə’ilAtü / fA’ilün |
| 33 | 3. Mütədarik | 1 | FA’ilün / fə’il / fA’ilün / fə’il |
| 34 | | 2 | FA’ilün / fA’ilün / fA’ilün / fə’ |
| 35 | | 3 | FA’ilün / fA’ilün / fA’ilün / fə’il |
| 36 | | 4 | FA’ilün / fə’il |
| 37 | | 5 | FA’ilün / fA’ilün / fə’Ul / fə’Ul |
| 38 | | 6 | FA’ilün / fə’il / fA’ilün / fə’il / fA’ilün / fə’il |
| 39 | | 7 | FA’ilün / fə’il / fA’ilün / fə’il / fA’ilün / fə’il / fA’ilün / fə’il |
| 40 | | 8 | Fə’ilün / fə’ilün / fə’ilün / fə’ |
| 41 | | 9 | Fə’lün / fə’lün / fə’lün / fə’lün |
| 42 | 4. Rəcəz | 1 | Müstəf’ilün / müstəf’ilün / müstəf’ilün / müstəf’ilün * |
| 43 | | 1A | Müstəf’ilAtün / müstəf’ilAtün / müstəf’ilAtün / müstəf’ilAtün * |
| 44 | | 2 | Müstəf’ilün / müstəf’ilün |
| 45 | | 3 | Müftəilün / məfA’ilün / müftəilün / məfA’ilün * |
| 46 | | 4 | Müftə’ilün / məfA’ilün |
| 47 | | 5 | MəfA’ilün / müftə’ilün |
| 48 | | 6 | Müftə’ilün / müftə’ilün / müftə’ilAtün * |
| 49 | | 7 | MüfA’ilAtün / müfA’ilAtün |
| 50 | | 8 | Müftəilün / müftəilün / müftəilün / müftəilün * |
| 51 | 5. Müzare | 1 | Məf’Ulü / fA’ilAtü / məfA’İlü / fA’ilün * |
| 52 | | 2 | Məf’Ulü / fA’ilAtün / məf’Ulü / fA’ilAtün * |
| 53 | | 3 | Məf’Ulü / fA’ilAtün |
| 54 | | 4 | Məf’Ulü / fA’ilün / məf’Ulü / fA’ilün |
| 55 | | 5 | Məf’Ulü / fA’ilün |
| 56 | 6. Münsərih | 1 | Müftəilün / fA’ilün / müftəilün / fA’ilün * |
| 57 | | 2 | MəfA’ilün / fA’ilün / məfA’ilün / fA’ilün * |
| 58 | | 3 | Müftə’ilün / fA’ilün / məfA’ilün / fA’ilün |
| 59 | | 4 | MəfA’ilün / fA’ilün / müftə’ilün / fA’ilün |
| 60 | | 5 | Müftə’ilün / fA’ilün |
| 61 | | 6 | MəfA’ilün / fA’ilün |

| | | | |
|---|---|---|---|
| **62** | | **7** | **Müftə'ilün / fA'ilAtü / müftə'ilün / fə'** |
| **63** | | **8** | **Müstəf'ilün / fə'Ulün** |
| **64** | **7. Müctəs** | **1** | **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilAtün *** |
| **65** | | **2** | **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün *** |
| **66** | | **3** | **MəfA'ilün / fə'ilAtün** |
| **67** | | **4** | **MəfA'ilün / fə'ilün** |
| **68** | **8. Mütəqarib** | **1** | **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün *** |
| **69** | | **1A** | **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ul *** |
| **70** | | **2** | **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ul** |
| **71** | | **3** | **Fə'lün / fə'Ulün / fə'lün / fə'Ulün** |
| **72** | | **4** | **Fə'lün / fə'Ulün** |
| **73** | **9. Xəfif** | **1** | **Fə'ilAtün / məfA'ilün / fə'ilün *** |
| **74** | | **2** | **FA'ilAtün / məfA'ilün / fə'ilAtün** |
| **75** | **10. Səri** | **1** | **Müftəilün / müftəilün / fA'ilün *** |
| **76** | | **2** | **Müftə'ilün / müftə'ilün** |
| **77** | **11. Kamil** | **1** | **MütəfA'ilün / mütəfA'ilün / mütəfA'ilün / mütəfA'ilün** |
| **78** | | **2** | **MütəfA'ilün / mütəfA'ilün** |
| **79** | | **2A** | **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün *** |
| **80** | **12. Müqtəzəb** | **1** | **FA'ilAtü / məf'Ulün / fA'ilAtü** |

**Qeyd:** Ağakərim Nafiz Şirvaninin divanında istifadə edilmiş qəliblər yuxarıdakı cədvəldə "*"-la işarə edilmişdir.

## Divanda istifadə olunmuş əruz qəlibləri nümunələri

### 1. Bəhri-Həzəc

**1 MəfA'İlün / məfA'İlün / məfA'İlün / məfA'İlün**
• — — — / • — — — / • — — — / • — — —
Açılmaz qəlbimin eyni, fəqət yüz nobahar ilə,
Qəzali çeşminə həsrətdi könlüm intizar ilə.

**2 MəfA'İlün / məfA'İlün / fə'Ulün**
• — — — / • — — — / • — —
Xudaya, dürli surətlər əyan et,
Hidayətdən biraz məna bəyan et.

**4 MəfA'İlün / fə'Ulün / məfA'İlün / fə'Ulün**
• — — — / • — — / • — — — / • — —
Bizə dövran bağidən sərvi-gülrüxsar bəs,
Gahi oqdan cilvə, gahi dövləti-didar bəs.

**5A MəfA'ilün / fə'Ulün / məfA'ilün / fə'Ulün**
• — • — / • — — / • — • — / • — —
Bu dəhrdə məni də bir əzabə yaz getsin,
Bu abü atəşü badü türabə yaz getsin.

**6 MəfA'ilün / məfA'ilün / məfA'ilün / məfA'ilün**
• — • — / • — • — / • — • — / • — • — /
Bahar oldivü açıldi çəməndə pürsəfa lalə,
Səfa həngaməsində xülqü amali vəfa lalə.

**8 Məf'Ulü / məfA'İlü / məfA'İlü / fə'Ulün**
— — • / • — — • /• — — • / • — —
Xanəndə gərək sən'ətinə baxəbər olsun,
İnsanlara ruh verməyə onda hünər olsun.

9 **Məf’Ulü / məfA’İlün / məf’Ulü / məfA’İlün**
— — • / • — • — / — — • / • — • —
Naleyi-ahü fəğanim çıxmadi xərgahdən,
Qəlbimin amali yandi naleyi-segahdən.

11 **Məf’Ulü / məfA’ilün / fə’Ulün**
— — • / • — • — / • — —
Uğradım zalim olan səyyadə,
Cövrlər etmə dili-bərbadə,
Bisütun dağına vardım bir gün,
Özümi oxşadıban Fərhadə.

## 2. Bəhri-Rəməl

1 **FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilAtün**
— • — — / — • — — / — • — — / — • — —
Handasan bir dəm nəfəs ver cana-canan tənbəki,
Gəlgilən bir dəm gətir dudi-şəkərxan tənbəki.

2 **FA’ilAtün / fA’ilAtün / fA’ilAtün / fA’ilün**
— • — — / — • — — / — • — — / — • —
Can təlaşilə pəsənd etdim o çeşmi-nərgisi,
Paymal oldi cahan icrə bu eşqin müflisi.

3 **FA’ilAtün / fA’ilAtün / fA’ilün**
— • — — / — • — — / — • —
Zikri-Bismillahirrəhmanirrəhim,
Ruzigarin elminə sənsən əlim.

5 **Fə’ilAtün / fə’ilAtün / fə’ilAtün / fə’ilAtün**
• • — — / • • — — / • • — — / • • — — / • • — —
Genə dillərdə gəzir söhbəti Şirvanımızın,
Min ömür qiymətidür qiyməti Şirvanımızın.

6 **Fə'ilAtün / fə'ilAtün / fə'ilAtün / fə'ilün**
• • — — / • • — — / • • — — / • • —
Yaridən ayru könül mülküdürür sultani yox,
Mülk kim sultani yox, cismidürür kim, cani yox.

8 **Fə'ilAtün / fə'ilAtün / fə'ilün**
• • — — / • • — — / • • —
Genə zülfün dolaşır şanələrə,
Rəhm qılmaz dili divanələrə,
Ləblərün zövqü şövqüm artırdi,
Məni çəkdi genə meyxanələrə.

## 3. Bəhri-Rəcəz

1 **Müstəf'ilün / müstəf'ilün / müstəf'ilün / müstəf'ilün**
— — • — / — — • — / — — • — / — — • —
Şövqi-rüxüni almazsa, canımda təpər olmaz,
Başda xəyalın olmasa, bir dərdi-sər olmaz.

1A **Müstəf'ilAtün/müstəf'ilAtün/müstəf'ilAtün / müstəf'ilAtün**
— — • — — / — — • — — / — — • — — / — — • — —
Mərhəba, çeşmi siyahim, mərhəba, ey cani-canan
mərhəba,
Mərhəba, gülşən bağında gəz-dolan şadi-firavan
mərhəba.

3 **Müftəilün / məfA'ilün / müftəilün / məfA'ilün**
— • • — / • — • — / — • • — / • — • —
Dağılıb piri-muğanın dəxi meyxanəsi yox,
Tutmağa məclis ara əldə nə peymanəsi yox.

8 **Müftəilün / müftəilün / müftəilün / müftəilün**
— • • — / — • • — / — • • — / — • • —
Aşiqi biganə qıldın naz ilə ey dilrüba,
Bu zərafət məzhərində nazına min mərhəba.

## 4. Bəhri-Müzare

1 **Məf'Ulü / fA'ilAtü / məfA'İlü / fA'ilün**
— — • / — • — • / • — — • / — • —
Bilməm bu qəmli yarini yar istər, istəməz,
Bu nüktədani nazlı nigar istər, istəməz.

2 **Məf'Ulü / fA'ilAtün / məf'Ulü / fA'ilAtün**
— — • / — • — — / — — • / — • — —
Zövqü səfada meylim rüxsari-yarə düşmüş,
Şəbnəm misali əşkim bir laləzarə düşmüş.

3 **Məf'Ulü / fə'ilAtün / məf'Ulü / fə'ilAtün**
— — • / • • — — / — — • / • • — —
Ey sərvərim, pənahim, ey şahi-tacidarım,
Yoxdur sənə ümidim, nə dəhrə etibarım.

## 5. Bəhri-Münsərih

1 **Müftəilün / fA'ilün / müftəilün / fA'ilün**
— • • — / — • — / — • • — / — • —
Abi-heyvani-ləbin, lə'li- gövhərpaş nədür,
Zindəgani-rəhi-eşqindəki daş-qaş nədür.

## 6. Bəhri-Müctəs

1 **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilAtün**
• — • — / • • — — / • — • — / • • — —
Gəlir tabü təravət rəmzi təbi-nazpərvərdən,
Gühər ənbarini aç tök çəhanə ləli-gövhərdən.

2 **MəfA'ilün / fə'ilAtün / məfA'ilün / fə'ilün**
• — • — / • • — — / • — • — / • • —
Səbəb nədür genə məndən nigar incimisən,
Ələmlə dolmuş o çeşmi- xumar incimisən.

## 7. Bəhri-Mütəqarib

1 **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün**

• — — / • — — / • — — / • — — / • — —

Saqi, xiyali-badeyi-gülrəng-rəngdür,
Mütrib nəvası aləm ara həng-həngdür.

1A **Fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ulün / fə'Ul**

• — — / • — — / • — — / • — — / • —

Ləl'ün şirindi, görmədim axır şəkərlərin,
İçdim fərağı-bəzmdə hər dəm zəhərlərin.

## 8. Bəhri-Xəfif

1 **Fə'ilAtün / məfA'ilün / fə'ilün**

• • — — / • — • — / • • —

Xal üzündə necə də xalə yaxın,
Yavağun bənzərinə lalə yaxın,
Səri-kuyində qocaldım getdim,
Mehribanlıqdı mənə Zalə yaxın.

## 9. Bəhri-Səri

1 **Müftəilün / müftəilün / fA'ilün**

— • • — / — • • — / — • —

Dilimin əzbəridür bismillah,
Əşhədü la iləhə illəllah.

## 10. Bərhi-Kamil

2A **MütəfAilün / fə'Ulün / mütəfAilün / fə'Ulün**

• • — • — / • — — / • • — • — / • — — / • — —

Ləbi-lə'bün, ey pərivəş, şüəra betər yazıblar
Ki, nəbati şəkkər içrə onu gül şəkər yazıblar.

**Divanda qəzəllərinə təxmis və nəzirələr yazılmış şairlərin tam adı və doğum tarixləri:**

**Xaqani** Şirvani (Əfzələddin İbrahim Əli oğlu Xaqani Şirvani) (1126 - 1199)

Şeyx **Səfi** (Sultan Şeyx Səfiəddin Ərdəbili – I Səfəvi hakimi) (1252-1334)

Xacə Şəmsəddin Məhəmməd **Hafiz** Şirazi (1325-1390)

Mövlana **Lütfi** (türk. Mevlânâ Lutfî) (1366/67, 1465/66)

İmadəddin **Nəsimi** – Seyid Əli Seyid Məhəmməd oğlu İmadəddin Nəsimi (1369-1417)

Müzəffərəddin Cahanşah **Həqiqi** (1397-1467)

Əlişir **Nəvai** (Əmir Nizaməddin Mir Əlişir Nəvai) (1441-1506)

Ne'mətullah **Kişvəri** (XV əsr)

**Nicati**, (türk. Necâtî) Nicati Bey Isa ibn Abdullah (1455-1509)

Qaramanlı **Nizami** Rumi (türk. Karamanlı Nizâmî) (1469-1473)

Məhəmməd **Füzuli** (1483-1556)

Abdullah **Üsuli** (türk. *Usûlî* ) (?-1538-39)

Sultan Süleyman Qanuni – **Mühibbi** (türk. Kanunî Sultan Süleyman - Muhibbî ) (1494-1566)

**Bəsiri** (XV-XVI əsr)

**Baqi**, (türk. Bâkî) (1526-1600) Mahmud Abdülbâkî -Sultanüş'şuâra (Şairlər sultanı)

**Nabi** , (türk. Nâbî) Yusif ibn Seyyid Mustafa (1642-1712)

**Nişat** Şirvani (1673-1759) ,

**İzzət** Rumi (1692-1734) İzzət Əli Paşa (türk. İzzet Ali Paşa)

Mir **Naşid** Rumi (türk. Mîr Nâşid Rûmî), Naşid İbrahim bəy (1749-1791)

**Ünsi**, Əbdürrəhman əfəndi Ünsi (Ünsizadə) (XIX əsr)

Molla **Əli** Məlikli Şirvani (XIX əsr)

**Vəsli** Rumi (türk. Vaslî Rûmî) (XIX əsr)

Molla Qədir **Naci** Şirvani (XİX əsr)

Seyid Əbülqasim **Nəbati** (1812-1873),

Seyid Əzim Şirvani - **Seyyid**, ( 1835-1888)

**Mirzə** Məhəmməd Həsən (Mirzə Məhəmmədhəsən İsmayıl oğlu Fələkzadə Şirvani), (1850-1917)

Sultan **Həmid** (Sultan II Abdulhəmid türk. İkinci Abdülhamit) (1842 -1918)

Molla Ağa **Bixud** (Molla Ağa Hacı Molla Tağızadə) (1830-1892)

**Fəqir** Ordubadi (Hacı ağa Fəqir Ordubadi) (1836-1886)

**Namiq** Kəmal (türk. Namık Kemal) (1840-1888)

Mirzə Ələkbər **Sabir** (Ələkbər Zeynalabdin oğlu Tahirzadə) (1862-1911)

Məhəmməd **Hadi** (Məhəmməd Hacı Əbdülsəlimzadə Hadi Şirvani) (1879-1920)

Mirzə Məhəmməd **Fərruxi** Yəzdi (1889 - 1939) - İran şairi.

**Yəhyəvi** Ərbədili (Abbasqulu Ərdəbili **Əhqər** - tacürsüara - şairlərin tacı) (1901-1979)

Məhəmməd **Biriya** (Məhəmməd Hacı Qulam oğlu Biriya) (1914-1985)

**Əhməd** Cəfərzadə - **Əfqan**, **Əfqani** (1929-2000)

**Kamil** Sərbəndi (Kamil Muxtar oğlu Bağırov) (1947)

Mirzə **Qulamhüseyn** Yurdçulu (XX əsr)

**Qeyd**: Yuxarıda adları gətirilmiş şairləri təxəllüsləri **qara** hərflərlə işarə edilmişdir.

## TƏRTİBATÇIDAN SON SÖZ: Ağakərim Nafiz kimdir?

Ağakərim Nafiz kimdir – şair, ustad xanəndə və bəstəkar, sadə, təvazükar, utancaq, səmimi insan!

Ağakərim Şamaxının səfalı guşələrindən biri Qaladərəsində anadan olub, böyüyüb başa çatsada, daha sonralar əsasən Şamaxıda yaşamışdır. Qaladərəsi-Qəleybuğurdu gəzdikdə başa düşürsən ki, burda doğulub böyüyüb başa çatan adam şair də olmalıdır, muğam da oxumalıdır, şeir də yazmalıdır! Meşənin, çay və bulaqların, şəlalələrin, quşların səsini dinləyib – onları birləşdirib mahnı da yazmalıdır!

Mənim Ağəkərim Nafizlə **ilk tanışlığım** Azərbaycan Dövlət Dram teatrında 1989-cu ildə Mahmud ağaya həsr edilmiş tədbirdə olub. Tədbirin konsert hissəsi öz normal axarı ilə gedirdi. Səhnəyə hələ o vaxta kimi tanımadığım Ağakərim Nafiz çıxdı və oxu tərzi, oxuduğu muğam və təsniflər məclisin əhvalını dəyişdirdi və hamını XIX əsr Mahmud ağa məclisinin abi-havasına apardı. Aparıcı aktyor Əli Nur (Nurzadə) həyəcanlanıb ssenaridən kənar **"Gecəmiz indi Mahmudağa gecəsinə oxşayır"** dedi. Bu konsertdə o hər kəsi Seyyidin qəzəlinə qoşulmuş təsnif ilə özünə valeh etdi. Səsi hələ də qulağımdadır:

Yarı görmək də bəla,
Görməmək ondanda bəla,
Seyyida düş yıxıl öl,
O da bəla, bu da bəla.

Sonralar onun haqqında çəkilmiş "Naməlum səs" filminə dəfələrlə baxıb və internetdə paylaşmışdım.

Onunla **ikinci təsadüfi görüşüm** Elmlər Akademiyasının həyətində 2006-cı ildə olub. Anam Əzizə Cəfərzadənin bizə miras qoyub getdiyi Məhəmməd Füzuli və Sultan Süleyman Qanuni Mühibbi haqqında yazdığı "Eşq sultanı" romanını ərsəyə çatdırıb, nəşriyyatdan ilk nüsxələrini əlimə alanda Elmlər Akademiyasının həyətində Ağakərim Nafizə rast gəldim və maşını saxlayıb özümü təqdim edib, bu mənim üçün çox dəyərli kitabın ilk nüsxəsini ona verib yoluma davam etdim.

Rəhmətlik dayım Əhməd Cəfərzadənin arxivi mənə təqdim edildikdən sonra Ağakərim Nafizə aid bir qovluğa rast gəldim. Burada

onun gənclik illərində mahnı festivallarında aldığı müxtəlif fəxri fərmanlar var idi. **Üçüncü təsadüf** bizi küçədə görüşdürdü və sənədləri ona qaytarmaq və Əzizə ananın arxivi – ev muzeyinə baxmağa dəvət etdim. Bizə gələndə Ağakərim əliboş gəlməmişdi: Mənim üçün çox dəyərli üç şey – Əhməd dayımın ona 1973-cü ildə yazdığı ilk cavab məktubunu (Əlavələrə daxil edilib) və özünün Mirzə Ələkbər Sabirə yazdığı iki təxmisini gətirmişdi. Mən Əhməd dayımın onu belə yaxından tanıdığını, dost olduğunu bu vaxta qədər bilmirdim.

Söhbət zamanı çap edilməmiş qocaman divanının olduğunu eşitdim və Ağakərimi bu divanı sandıq ədəbiyyatından çıxardıb çap etdirməyə təşviq elədim. Əhməd dayımın məktublarından göründüyü kimi hələ 1977-ci ildən başlayaraq o, bir neçə dəfə şeirlərini toplamağı və çap etdirməyi məsləhət görmüşdür. Mən çox şanslıyam ki, bu kitabın sizə çatdırılmasinda iştirak edirəm. Dayım Əhmədin ruhunu şad edib onun bacarmadığını bacarmış oluram.

Ağakərimin Füzuliyə, Mühibbiyə, Nişat Şirvaniyə, Seyyidə, Sabirə yazdığı təxmisləri oxuyanda heç cür inana bilmirsən ki, bunları orta əsr məhşur qəzəl şairlərindən biri yazmayıb. Bizim müasirimizin yazdığına inana bilmirsən.

Ağakərim Nafizin divanı haqqında mən nə deyə bilərəm? Mən ədəbiyyata nə qədər də yaxın olsam da ixtisasca riyaziyyatçı-neftçiyəm. Əlbəttə ki, əsl sözü ədəbiyyatçılar, tənqidçilər deyəcəklər. Amma mən hesab edirəm ki, Ağakərim Nafiz haqqında ən böyük sözü dayım Əhməd hələ Ağakərimin 24 yaşı olduqda ona göndərdiyi məktubda deyib: **“Elə bil Seyyid Rəhmətullah ölməyib!”**

**Turan İBRAHİMOV**

# ƏDƏBİYYAT

**Akkaya, Mehmet. 1996.** *Divan şairlerinin gazellerinde harf tercihleri ve redif hususu. İlmi Araştırmalar 3, s.19-24.* İstanbul : s.n., 1996.

**Bayram, Ömer. 2009.** *Tezkiretü'ş-Şuara, Seyyid Azim Şirvanî. Seyyid Azim Şirvanî'nin Tezkiretü'ş-Şuarası.* Ankara : Kültür ve Turizm Bakanlığı., 2009.

**Bilkan, A. Fuat. 1997.** *Nâbî Dîvânı.* İstanbul : Millî Eğitim Bakanlığı Yayınları, 1997.

**Cəfər, Əkrəm. 2010.** *Yandım avazeyi eşqinlə sənin... / tərt. ed.: G. Əliyeva-Kəngərli.* Bakı : Çaşıoğlu, s. 352, 2010.

**Cəfər, Əkrəm. 1977.** *Əruzun nəzəri əsasları və Azərbaycan əruzu.* Bakı : Elm, 1977.

**Edirneli, Nazmî. 2012.** *Mecma'U'n-Nezâ'ir (İnceleme - Tenkitli Metin)/Hazırlayan Prof. Dr. M. Fatih Köksal. s. 2960.* Ankara : T. C. Kültür Ve Turizm Bakanliği, Kütüphaneler Ve Yayimlar Genel Müdürlüğü, 2012.

**Əmirov, Əli. 2012.** Azərbaycan əruzunda rəqəmsal modelləşdirmə. [Online] 2012. www.infotouch.az/eruz_digitalmodel.pdf.

**Füzuli, Məhəmməd Süleyman oğlu. 2005.** *Əsərləri: [6 cilddə]. I cild /tərtib edəni: H. Araslı.* Bakı : Şərq-Qərb, s.400, 2005.

**Güfta, Hüseyin. 2013.** *Füzuli divaninda gül, Uluslararası Sosyal Araştırmalar Dergisi, Cilt: 6 Sayı: 26, Bahar , s. 217-239.* 2013.

**Hadi, Məhəmməd. 2005.** *Seçilmiş əsərləri. /tərt. ed. Ə.Hüseynov, Ə.Mirəhmədov, Ə.Hüseyni.* Bakı : Şərq-Qərb, s.464, 2005.

**Həqiqi, Cahanşah. 2006.** *Şeirlər / tərtib ed.: Ə.Rəhimov, L.Hüseynzadə, H.Mail.* Bakı : Şərq-Qərb, s.152, 2006.

**Kişvəri, Nemətullah . 2004.** *Əsərləri / tərtib edən C. Qəhrəmanov.* Bakı : Şərq-Qərb, s.176, 2004.

**Küçük, Sabahattin. 1994.** *Bâkî Dîvânı.* Ankara : TDK, 1994.

**Muhibbî. 2006.** *Dîvân /hzl.:Coşkun AK.* Trabzon : Trabzon Valiliği Yayınları, 2006.

**Nafiz, Ağakərim. 2010.** *Ustadi-ə'zəm Mirzə Məhəmməd Həsən Fələkzadə Şirvani, "Nafta-Press" nəşriyyatı. s.148.* Bakı : s.n., 2010.

**Nəbati, Seyid Əbülqasim. 2004.** *Seçilmiş əsərləri / tərtib edən Ə. Hüseyni.* Bakı : Şərq-Qərb, s.216, 2004.

**Nəvai, Əlişir. 2004.** *Seçilmiş əsərləri / tərc. ed. Ə. Vahid və b.* Bakı : Öndər, s.424, 2004.

**Qəniyev, Seyfəddin; Qəni, Tariyel. 2016.** *Cəfərzadələr Ocağı - Əhməd Cəfərzadə.* Bakı : Nurlan, 238 s., 2016.

**Sabir, Mirzə Ələkbər. 2004.** *Hophopnamə. İki clddə. I cild.* Bakı : Şərq-Qərb, s.480, 2004.

**Saraç, M.A. Yekta. 2007.** *Türk Şiirinde Aruz Ölçüsü: Aruzla İlgili Temel Kurallar, Terimler ve Vezin Bulma Usulü.* [Online] 2007. http://www.turkedebiyati.org/turk-siirinde-aruz.html.

**Seyidov, F. 2012.** *Fuzuli Gazellerine Yazılan Tahmis ve Nazireler. Divan Edebiyatı Araştırmaları Dergisi 8.* İstanbul : s.n., 2012. s. 147-155 (Məhəmməd Füzuli, Elmi-Tədqiqi Məqalələr, Vəfatının 400 illiyi münasibətiylə, Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1958.).

**Şirazi, Hafiz. 2004.** *Seçilmiş şeirlər / Tərc. ed. Əbülfəzi Hüseyni.* Bakı : Öndər, s.208, 2004.

**Şirvani, Ədilli. 2011.** *Əruz vəzninin sadələşdirilmiş qəlibləri.* Bakı : Adiloğlu, s. 50, 2011.

**Şirvani, Seyid Əzim. 1974.** *Əsərləri (3 cilddə. Clid 3, Təzkirə)/ tərtib edəni: S. Rüstəmov.* Bakı : "Elm" nəşriyyatı, s. 500, 1974.

**Şirvani, Seyid Əzim. 2005.** *Seçilmiş əsərləri: 3 cilddə. I cild / tərtib edəni: S. Rüstəmov.* Bakı : Avrasiya Press, s. 288, 2005.

**Üzgör, Tahir. 1995.** *Edebıyatımızda Gül Rediflı Şiirler, Bir Dergisi, S. 3, s. 285.* İst. : s.n., 1995.

**—. 2000.** *Su Redifleri Şiirler ve Fuzûlî'nin Su Kasidesi'nin Kompozisyonuna Dâir, İlmî Araştırmalar : Dil, Edebiyat, Tarih İncelemeleri, 9, s. 239-248.* 2000.

**Verçin, İsmet. 2006.** *Hafiz divani'nda yer alan ilk gazel üzerinde bir açimlama hermeneutiği uygulaması.* Sosyal Bilimler Enstitüsü Doğu Dilleri ve Edebiyatlari (Fars Dili Ve Edebiyati), Ankara Üniversitesi. Ankara : s.n., 2006. p. 132, Yüksek lisans tezi.

**Xəlilova, Firəngiz. 2011.** *Hafiz və Müsahibin ilk qəzəlinin müqayisəli təhlili, Hikmət N 17, s. 65-74.* Bakı : s.n., 2011.

**XIII-XVI əsrlər Azərbaycan şeri, II cild. 2005.** *Azərbaycan klassik ədəbiyyatından seçmələr: 3 cilddə /tərt. ed. C.Qəhrəmanov.* Bakı : Şərq-Qərb, s. 408, 2005.

**XIX əsr Azərbaycan şeri antologiyası. 2005.** */tərtib ed. Z. Əsgərli.* Bakı : Şərq-Qərb, s. 424, 2005.

**XVII əsr Azərbaycan lirikası (Antologiya). 2008.** */ tərt. ed.: P. Kərimov, M. Hüseyni.* Bakı : Nurlan, s. 340, 2008.

**XVII-XVIII əsrlər Azərbaycan şeri. III cild. 2005.** *Azərbaycan klassik ədəbiyyatından seçmələr: Üç cilddə. /tərt. ed. C. Qəhrəmanov.* Bakı : Şərq-Qərb, s. 456 , 2005.

**Ağakərim Nafiz Şirvani.**
**Divan.**
Bakı, “Elm və təhsil”, 2017.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 630 səh.
Tirajı: 500

Kitab “Elm və təhsil” NPM-in
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
ofset üsulu ilə hazır diapozitivlərdən çap olunmuşdur.